Azərbaycan Memarlıq və İnşaat Universitetinin

İnstitusional akkreditasiya qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının

# YEKUN HESABATI

2023-cü il

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. Yusubov Nizami Dəmir oğlu - Azərbaycan Texniki Universiteti, Maşınqayırma texnologiyası kafedrasının müdiri, texnika elmləri doktoru, professor.

**Üzvlər:**

1. Qasımov Vaqif Əlicavad oğlu - Azərbaycan Texniki Universiteti, Kompüter texnologiyaları kafedrasının müdiri, texnika elmləri doktoru, professor;
2. Əlifov Afər Sabir oğlu – Bakı Mühəndislik Universiteti, Memarlıq və inşaat fakültəsinin dekanı, texnika elmləri namizədi, dosent;
3. Hümbətov Fuad Dursun oğlu – Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidro-meteoro logiya Xidmətinin Beynəlxalq əməkdaşlıq və iqlim dəyişmələri şöbəsinin müdiri, riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent (işəgötürən);
4. Mirjana Uzelac Filipendin – "North West Construction" LLC, böyük memar və menecer (beynəlxalq ekspert);
5. Muradxanlı Leyla Qəzənfər qızı – Bakı Ali Neft Məktəbi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi kafedrasının dosenti, texnika elmləri üzrə fəlsəfə doktoru;
6. Abbasov Namiq Nazim oğlu – Bakı Mühəndislik Universiteti, Memarlıq və şəhərsalma kafedrasının müəlimi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent;
7. Əzizov Bilal Səbuhi oğlu – ABŞ-ın Corc Vaşinqton Universiteti ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Təhsil və İnsan kapitalının inkişafı" ixtisası üzrə magistratura beynəlxalq ikili diplom proqramında magistrant tələbə;
8. Haciyev Nicat Azər oğlu – Xəzər Universitetinin "Elektron cihazlar və qurğular" ixtisası üzrə magistrant tələbə.

## Mündəricat

Giriş....4
Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar....4
Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri....5
Qiymətləndirmənin icmalı....5
1. STRATEJİ İNKİŞAF....5
2. KEYFİYYƏT TƏMİNATI....10
3. TƏLİM VƏ TƏDRİS....17
4. ELMİ TƏDQİQAT....75
5. İDARƏETMƏ SİSTEMİ....93
6. İNFRASTRUKTUR....111
7. BEYNƏLMİLƏLLƏŞMƏ....118
Komissiyanın istiqamətlər üzrə təhlili....130
Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi....146
Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri....147
Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi....147

## Giriş
## Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Memarlıq və İnşaat Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 20.05.2016, 323 saylı qərar, 5 il müddətinə |
| Təhsil müəssisəsinin rəhbəri | Məmmədova Gülçöhrə Hüseyn qızı |
| Fakültələrin sayı | 8 |
| Kafedraların sayı | 30 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 26 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 55 |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 23 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Təhsilalan sayı:<br>Bakalavriat: 7658<br>Magistratura: 1039<br>Doktorantura: 44<br>Elmlər doktorluğu proqramı üzrə: 15 |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 540 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 116 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | İnfo@azmiu.edu.az ,<br>012 539 10 45 |
| Müəssisənin hüquqi ünvanı | Bakı ş., A.Sultanova küçəsi 11 |
| Müəssisənin faktiki ünvanı | Bakı ş., A.Sultanova küçəsi 11 |

**Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri**
**Qiymətləndirmənin icmalı**

## 1. STRATEJİ İNKİŞAF

### *1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

#### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" əsasında 2015-2020-ci illər üzrə Strateji İnkişaf Planı (SİP) 03.06.2015-ci ildə universitetin Elmi Şurasının qərarına (protokol No. 8) müvafiq olaraq AzMİU-nun rektoru prof. G.H.Məmmədova tərəfindən təsdiq edilmişdir. 2021-2025-ci illər üçün isə SİP "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasına", Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"na, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Təhsil Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik aktlarına uyğun olaraq işlənərək AzMİU-nun Elmi Şurasının 28.04.2021-ci il tarixli iclasının qərarı (protokol No. 7) ilə təsdiq edilmişdir. AzİMU-da SİP-in həyata keçirilməsi ilə bağlı 2015-2020-ci və 2021-2023-cü illər üzrə fəaliyyət planı hazırlanmışdır.

#### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

SİP-də müəyyən edilən missiyanın universitetin fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu dəqiq müəyyən edilməmişdir. AzMİU-nun 2015-2020-ci illər üzrə SİP-ində missiya və vizyon tam aydın göstərilməmişdir. SİP-də yalnız strateji hədəflər, tədbirlər, tədbirlərin həyata keçirilməsi üçün zəruri əsaslar, icra müddəti və icraçılar göstərilmişdir. Eləcə də, 2021-2025-ci illər üzrə SİP-də universitetin missiyası və vizyonu aydın şəkildə verilməmiş, strateji məqsəd isə müəyyən edilmişdir. Buna görə də AzMİU-nun missiyasının onun fəaliyyətinin əsas məqsəd və hədəfləri ilə uyğunluğunu müəyyən etmək mümkün olmamışdır.

#### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğunun müəyyyən edilməsi üçün müvafiq normativ-hüquqi sənədlər öyrənilmiş, AzMİU-nun 2015-2020-ci illər üzrə strateji inkişaf planının reallaşdırılmasının dəyərləndirilməsi həyata keçirilmiş, SWOT təhlili aparılmışdır.

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”da göstərilən istiqamətlərdən SİP-də yalnız 5-ci (təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizminin yaradılması) istiqamət üzrə məlumata nisbətən az yer verilmişdir.

**1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu**

2021-2025-ci illər üzrə SİP-də AZMİU-nun inkişafı aşağıda şərti olaraq göstərilən bir neçə strateji istiqamətlərə bölünmüşdür:

- təhsil (Özünutəhlil Hesabatında (ÖTH) tədris kimi verilmişdir, SİP-də isə Təhsil kimi yazılmışdır);
- elmi-tədqiqat;
- beynəlxalq əlaqələr;
- kadr potensialının inkişaf strategiyası (ÖTH-də isə strateji inkişaf kimi göstərilmişdir);
- maddi-texniki bazanın inkişafı (ÖTH-də isə inzibati-təsəssrüfat kimi göstərilmişdir).

SİP-də müəyyən edilən prioritet istiqamətlər AzMİU qarşısında qoyulan məqsəd və hədəflərə uyğundur.

**1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi**

AzMİU-nun 2015-2020-ci illər üzrə SİP-ində əsas məqsəd müəyyən edilməmişdir, 2015 -2020-ci illər üzrə SİP strateji hədəflərdən başlayır. Eləcə də 2021-2025 Strateji inkişaf planında universitetin strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas hədəflər müəyyən olunsa da, əsas məqsədlər aydın şəkildə ayrı-ayrılıqda ifadə edilməmişdir.

**1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması**

2021-2025-ci illər üzrə SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlər əks olunmuşdur. Cari SİP-də həm AzMİU, həm də ayrı-ayırlıqda bütün fakültələrin və strukturların ümümi strateji inkişafa xidmət edən qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirləri öz əksini tapmışdır.

**1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi**

SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi qismən uyğundur. Belə ki, AzMİU-nun strateji istiqamətlərinin və bundan irəli gələn strateji hədəflərin konkret, ölçülə bilən, real və dövrün tələblərinə uyğun olmasını müəyyən etmək üçün SİP-də bütün meyarlar üzrə nəticə (məqsəd) indikatorları müəyyən edilməmişdir. Akkreditasiya komissiyasına təqdim edilmiş SİP-in hazırlanması və icrası cədvəlində də Nəticə (məqsəd) indikatorları müəyyən edilməmişdir. Yalnız AzMİU-nun 2023-cu ilin prioritet istiqamətləri üzrə fəaliyyət

planında nəticə indikatorlarına rast gəlinmişdir. Amma burada da bəzi nəticə indikatorları konkret göstərilməmişdir. Aşağıda göstərilən cədvəl 1-də bununla bağlı nümunə verilmişdir. Belə ki, 2. Elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi. 2.1. Doktoranturaya (fəlsəfə doktoru və elmlər doktoru) qəbulun təşviqi və stimullaşdırılması. Doktoranturaya qəbul planının yüksək faizlə icra olunması kimi göstərilməsi SİP üzrə fəaliyyət nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və keyfiyyət göstəricilərinin qismən müəyyən edilməsini əks etdirir.

**Cədvəl 1.1**

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin 2023-cü il üçün prioritet istiqamətlər üzrə fəaliyyət planından nümunə**

| Məqsəd | Fəaliyyət planı | Nəticə indikatoru | Zəruri ehtiyaclar |
|---|---|---|---|
| 2. Elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi | 2.1.Doktoranturaya (fəlsəfə doktoru və elmlər doktoru) qəbulun təşviqi və stimul-laşdırılması | Doktoranturaya qəbul planının yüksək faizlə icra olunması | Qəbul planı üzrə yerlərin ayrılması |

Cədvəl 1.1-dən göründüyü kimi, nəticə indikatoru % -lə verilmişdir. Amma konkret olaraq neçə faizlə icra olunması təyin edilməmişdir. Bu isə son nəticədə görülən işin hansı səviyyədə real şəraitə və resurslara uyğunluğunu müəyyən etməyə imkan vermir.

### 1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyətini araşdırarkən, görüləcək tədbirlər, icra müddəti (illər üzrə), icraçılar və yardımçı şöbələr məsələlərinə ciddi diqqət yetirilmişdir. Lakin SİP-də nəzərdə tutulmuş fəaliyyətləri yerinə yetirmək üçün maliyyə planlaşdırılması nəzərdə tutulmamışdır. SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti əsasən uyğundur.

### 1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

SİP-in reallaşdırılmasının maliyyə təminatı haqqında məlumata proqramda rast gəlinməmişdir. Eləcə də, proqramın sosial-iqtisadi səmərəliliyinin ilkin qiymətləndirilməsi də göstərilməmişdir. SİP-də AzMİU-nun elm, təhsil və innovativ sahələrdə cari fəaliyyəti və strateji inkişafı üçün davamlı maliyyə və maddi dəstək məqsədinə cavab verən maliyyə-iqtisadi strategiyasına da yer verilməsi məqsədəuyğun olardı. SİP-in hazırlanması zamanı maliyyə planlaşdırılmasının aparılması və SİP-də göstərilməsi tövsiyə olunur.

### 1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

SİP-də AzMİU-nun təhsil, elm, sosial-iqtisadi həyatının daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı təhsil, elmin inkişafının təmin edilməsi əks olunmuşdur. SİP-də qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlı hədəflər müəyyənləşdirilmişdir. İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir. SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məsələlər əhatə olunmuşdur.

#### 1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması əsasən uyğundur. Belə ki, AzMİU-nun 2015-2020-ci illər üzrə SİP-in reallaşdirilmasının SWOT təhlil nəticəsində icra vəziyyəti 2021-2025-ci illər üçün SİP-də , eləcə də 2021 və 2022-ci illər üzrə icra vəziyyəti cari il üçün SİP hazırlanan zaman nəzərə alınmışdır. Lakin AzMİU-nun 2015-2020-ci illər üzrə SİP-ində əsas fəaliyyət göstəricilərinin illər üzrə ölçü vahidləri (%, ədəd, AZM) göstərilmədiyindən, əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması ümümu təkliflər ilə şərtlənmişdir.

#### 1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

SİP-də AzMİU-nun güclü tərəfləri, zəif tərəfləri, imkanları və təhdidləri SWOT təhlili vasitəsilə nəzərə alınmış və sənəd təhlilin əsasında hazırlanmışdır.

#### 1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Sahə baxışı zamanı SİP-in hazırlanmasında maraqlı tərəflərin (işəgötürənlər, professor-müəllim heyəti, tələbələr, ictimaiyyət nümayəndələri) iştirakı vəziyyəti maraqlı tərəflərin iştirakını sübut edən iclas, görüş və tədbirləri əks etdirən sənədlər vasitəsilə təsdiqlənmişdir. AzMİU-nun strateji inkişaf planları hazırlanarkən əmək bazarının nümayəndələri ilə görüşlər keçirilmiş və eləcə də, şifahi müzakirələr aparılmışdır.

#### 1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

SİP-də SİP-in reallaşdırılması mexanizmi (missiya, vizyon, strateji əsas məqsəd, istiqamətlər üzrə strateji məqsədlər) tam şəkildə konseptual olaraq yazılmadığı üçün SİP-in icrası üzrə məsul struktur bölmələri konkret olaraq müəyyən etmək mümkün olmamışdır. SİP-in yerinə yetirilməsi üçün AzMİU-nun struktur bölmələrinin müəyyən edilməsi tövsiyə olunur.

### *1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi*

#### 1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti

2015-2020-ci illər üzrə SİP-in icra olunması üçün AzMİU-nun struktur bölmələrinin yarımillik hesabatları tərtib edilməmişdir. 2021-2025-ci illər üzrə SİP-in icra olunması üçün 2021-ci və 2022-ci illər üçün AzMİU-nun struktur bölmələrinin fəaliyyət planları hazırlanmış və icrası həyata keçirilmişdir. Fəaliyyət Planları ümumən universitetin bütün struktur

bölmələrinə aid tədbirləri əhatə etmişdir. 2020-ci ildə dünyada COVİD-19 pandemiyasının başlanması ilə əlaqədar bütün ali təhsil müəssisələri kimi AzMİU-nun da fəaliyyəti müəyyən dövrdə dayandığından, 2020-ci ildə tədbirlərin icrası tam aparılmamışdır. Ölkədə baş verən 44 günlük Vətən müharibəsinin də AzMİU-da tədbirlərin icrasına təsiri olmuşdur. 2020-ci ildə yarımillik hesabatlar tərtib edilməmiş və yalnız illik hesabatlar tərtib olunmuşdur.

Mühasibələr zamanı bildirilmişdir ki, məlumatlandırma korporativ elektron poçt vasitəsilə bütün struktur bölmələrinə təqdim olunmuşdur.

SİP-in reallaşdırılması üzrə 2021-2022-ci illər üzrə fəaliyyət planları mövcud olsa da, nəticə indikatorları konkret müəyyən edilmədiyindən hesabatlar ümumi xarakter daşımışdır. AzMİU-nun aidiyyəti struktur bölmələri tərəfindən yarımillik hesabatların təqdim olunması tövsiyə edilir.

### 1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

AzMİU-nun 2021-2025-ci illər üzrə strateji inkişaf planı əsasında hazırlanmış tədbirlər planının illik icrasının vəziyyəti fakültələrin Elmi Şuralarında müzakirə edilmişdir. Görülən işlər barədə hesabatlar 2021-ci ildə pandemiya davam etdiyi üçün bir illik, 2022-ci ildə isə yarımillik-iyun və dekabr aylarında fakültələr, kafedralar, şöbələr və mərkəzlərdən toplanmışdır. Həmin hesabatlar Strateji planlaşdırma şöbəsinə təqdim olunduqdan sonra Elmi Şuraya müzakirəyə çıxarılmış və qərarlar qəbul olunmuşdur. İşin icra olunma faizi təxmini olaraq 60-70% təşkil edir.

### 1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

Universitetdə SİP-in icra vəziyyəti ilə bağlı monitorinqlər “Keyfiyyətə nəzarət mərkəzi” və “Strateji planlaşdırma” şöbəsi tərəfindən aparılmış, strateji inkişaf planına göstərilən hədəflər və vəzifələr fakültələrə və ya aidiyyəti struktur bölmələrinə bildirilmiş və onlardan SİP-in icrası ilə bağlı hesabat struktur bölmənin rəhbəri tərəfindən imzalı şəkildə istənilmişdir.

### 1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

2015-2020-ci illər üzrə SİP-in icrası üzrə dövrü (illik) monitorinqlərinin nəticələrinin ümumiləşdirilməsi “Keyfiyyətə nəzarət mərkəzi” və “Strateji planlaşdırma” şöbəsi tərəfindən aparılmış və Elmi Şurada müzakirə olunmuşdur. Ortaya çıxan çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görülmüşdür. Monitorinqlərin bütün bölmələrdə aparılmasını təsdiqləyən sənədlər və çatışmazlıqların aradan qaldırılması üçün görülən işləri təsdiqləyən sənədlər təqdim edilmədiyindən bu işin ümumi işin neçə faizini təşkil etməsini müəyyən etmək mümkün olmamışdır. 2021-2025-ci illərdə isə pandemiya dövründən sonra SİP icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti qismən uyğundur. Monitorinqlərin AzMİU-nun bütün strukturlarında aparılması tövsiyə olunur.

### 1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

SİP-in icrasının dövrü (illik) nonitorinqlərin nəticəsi barədə məlumatlar və monitorinq nəticələrinin maraqlı tərəflərə “Keyfiyyətə nəzarət mərkəzi” və “Strateji planlaşdırma”

şöbəsinin əməkdaşları tərəfindən verilir. SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti qismən uyğundur. Monitorinqlərin bütün bölmələrdə aparılmasını təsdiqləyən sənədlər və çatışmazlıqların aradan qaldırılması üçün görülən işləri təsdiqləyən sənədlər təqdim edilmədiyindən monitorinqin nəticələrinə görə tədbirlərin görülməsini müəyyən etmək mümkün olmamışdır.

## 2. KEYFİYYƏT TƏMİNATI

### *2.1 Keyfiyyət təminatı siyasəti*

#### 2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

AzMİU-nun mövcud Keyfiyyət təminatı siyasətinin məqsədi Azərbaycan Respublikasının təhsil üzrə siyasəti və cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla, Universitetin bakalavriat və magistratura səviyyələrində tədrisin keyfiyyətinə nəzarəti, onun daha da yüksəldilməsini və bu sahədə mütərəqqi təcrübələri tətbiq etməklə, rəqabət qabiliyyətli, bacarıqlı, savadlı mütəxəssislərin hazırlığına imkan verən səmərəli tədris mühiti yaratmaqdır.

AzMİU-nun “Keyfiyyət Təminatı Siyasəti” adlı sənəd hazırlanaraq Universitetin Elmi Şurasının 15 iyul 2022-ci il tarixli iclasının qərarı ilə (protokol № 10) təsdiqlənmişdir.

Elm və Təhsil Nazirliyinin Kollegiyasının 30 sentyabr 2022-ci il tarixli KQ-05 saylı qərarı ilə “Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları” təsdiq olunduqdan sonra bu sənədə konkret tələblər müəyyənləşdirilmiş və bu səbəbdən “Keyfiyyət Təminatı Siyasəti” sənədi toplu olaraq yenidən işlənməyə başlanmışdır.

AzMİU-nun “Keyfiyyətin Təminatı Siyasəti” AzMİU-nun Elmi Şurasının 22.02.2023-ci il tarixli iclasının qərarı ilə (protokol № 4) təsdiq edilmişdir.

Universitetdə əməkdaşlar, işəgötürənlər, məzunlar və tələbələrdən ibarət olan Keyfiyyətə Nəzarət Şurası fəaliyyət göstərir. Yuxarıda qeyd olunan sənəd müzakirə və təsdiq üçün Şuranın üzvlərinə göndərilmiş, müxtəlif fikirlər əsasında təkmilləşdirilmiş və Elmi Şurada müzakirə edilərək qəbul olunmuşdur.

#### 2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

Universitetdə Keyfiyyət siyasətini əks etdirən sənəd Boloniya təhsil prosesinin müddəalarına, “Təhsil haqqında” və “Elm haqqında” Azərbaycan Respublikasının Qanunlarına, “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”-nə, “Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və qaydalar”a, dövlətin bu sahədəki müvafiq qanunvericilik sənədlərinə, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin normativ-hüquqi aktlarına əsaslanır.

Universitetin “Keyfiyyət Təminatı Siyasəti” sənədi sadə və anlaşılan formada tərtib edilmişdir.

Sənəd aşağıdakı bölmələrdən ibarətdir :

- Ümumi müddəalar və asas anlayışlar;
- Əhatə dairəsi və prinsiplər;
- Əsas keyfiyyət göstəriciləri;

- Keyfiyyətin idarə edilməsi prosesi;
- Tələbələrə yönəldilmiş təhsil, tədris və qiymətləndirmə;
- Resursların idarə edilməsi;
- Keyfiyyət mədəniyyəti və keyfiyyətin yaxşılaşdırılması;
- İctimaiyyətin məlumatlandırılması;
- Xarici keyfiyyət təminatı təşkilatına müraciət;
- Yekun.

### 2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

"Keyfiyyət Təminatı Siyasəti" sənədi universitetin Elmi Şurasında təsdiq olunduqdan sonra bütün struktur bölmələrə e-mail vasitəsilə göndərilmiş və bu sənədin kafedra, şöbə iclaslarında müzakrə olunması təmin olunmuşdur. Sənəd universitetin veb saytında aşağıdakı linkdə yerləşdirilmişdir: https://azmiu.edu.az/upload/ckeditor/420917178.pdf

"Keyfiyyət Təminatı Siyasəti" sənədi AzMİU-nun bütün struktur bölmələri və rəhbər şəxsləri üçün əsas meyar kimi istifadə olunur. Hər bir struktur bölmə qəbul olunmuş keyfiyyət təminatı siyasətinə uyğun olaraq, sənəddə göstərilən müddəaların davamlı və dayanıqlı yerinə yetirilməsi üçün görüləcək işləri müəyyənləşdirmiş və işini onun əsasında qurmuşdur.

### 2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

Azərbaycan Memarlıq və İnşaat Universitetinin keyfiyyət təminatı siyasətinin əhatə dairəsi inkişaf etmiş ölkələrin təcrübələri nəzərə alınmaqla ixtisaslar üzrə təhsil proqramlarının hazırlanmasını və bu təhsil proqramlarının optimallığının, mobilliyinin təmin olunmasını, monitorinqinin müvafiq standartlara uyğunluğunun qiymətlənidirilməsini təmin etməklə yanaşı, dünyada gedən qlobal proseslər və çağırışlara uyğun olaraq İnformasiya Texnologiyalarının inkişafı şəraitində tələbələrə bu proseslərin daha səmərəli öyrədilməsi metodologiyasını müəyyənləşdirmək üçün tələbəyönümlü tədris sisteminin formalaşdırılmasını özündə ehtiva edir. Tələbəyönümlü təhsil, tədris və qiymətləndirmə sistemi tələbələrin tədris prosesində daha fəal iştirakına şərait yaratmaqla onların motivasiyasının yüksəldilməsinə xidmət edir, onlarda özünü-təhlil, müstəqil düşüncə qabiliyyətini formalaşdırmaqla yanaşı mövcud vəziyyəti təhlil edib qiymətləndirmək qabiliyyətini aşılayır.

## *2.2 Daxili keyfiyyət təminatı mexanizmləri*

### 2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

Keyfiyyətə nəzarət qrupu AzMİU rektorunun 216/b-m saylı 10 noyabr 2017-ci il tarixli əmri ilə Strateji planlaşdırma şöbəsinin nəzdində yaradılmışdır.

Rektorun 25 yanvar 2021-ci il tarixli 7/ş-d saylı əmri ilə təhsili səmərəli və yüksək keyfiyyətdə olmasını təmin etmək üçün təhsil sahəsində monitorinq, keyfiyyət və fəaliyyət

göstəricilərinin yoxlanılması sisteminin inkişaf etdirilməsi və təkmilləşdirilməsi məqsədilə yaradılmış Keyfiyyətə nəzarət qrupunun adı dəyişdirilərək Keyfiyyətə Nəzarət Mərkəzi adlandırılmışdır.

Məzrkəzin Əsasnaməsi 21 fevral 2018-ci il tarixində Elmi Şuranın iclasında təsdiq edilmişdir (protokol №5). *Amma Əsasnamədə mərkəz yazılsa da, 2018-ci ildə mərkəz deyil, keyfiyyətə nəzarət qrupu adlanırdı. Bu da sənədlərdə uyğunsuzluq yaradır.*

Keyfiyyətə nəzarət mərkəzinə dəstək məqsədilə 07.02.2022-ci il tarixində Keyfiyyətə nəzarət şurası yaradılmışdır. Keyfiyyətə nəzarət şurası aşağıdakı işləri yerinə yetirir:

- Tədris planlarının mütəmadi təhlili, iqtisadiyyatın müasir tələblərinə uyğun təkmilləşdirilməsi məqsədilə mütəxəssis hazırlığının keyfiyyətinə dair təkliflərin verilməsi;
- Tədris-metodiki işin müasirləşməsi və təkmilləşdirilməsi sahəsində tövsiyələrin hazırlanması;
- Keyfiyyətə nəzarət mərkəzinin keçirdiyi yoxlamaların nəticələri barədə hesabatların dinlənilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi, nöqsanların aradan qaldırılması ilə bağlı təkliflərin hazırlanması və rektora təqdim edilməsi;
- Keyfiyyətin idarə edilməsi konsepsiyasının formalaşdırılması məqsədilə “Universitetin keyfiyyət standartları” yaddaş kitabçasının hazırlanması.

08.02.2023-cü il tarixli əmrə əsasən Şuranın tərkibində dəyişiklik edilmişdir. Şuraya kənar təşkilatlardan, işə götürən, məzun və tələbə nümayəndələri də daxil edilmişdir.

*Keyfiyyətə nəzarət şurasının fəaliyyəti və missiyası Keyfiyyətə nəzarət mərkəzinin əsas məqsədləri və funksiyaları ilə eynidir. Keyfiyyətə nəzarət mərkəzi ilə yanaşı Keyfiyyətə nəzarət şurasının yaradılması və funksiyalarının eyni olması universitetin keyfiyyət təminatı sistemində uyğunsuzluğu göstərir.*

Mərkəzin fəaliyyət planı hər təqvim ili üçün universitetin strateji inkişaf planındakı hədəflərə uyğun olaraq hazırlanır və rektor tərəfindən təsdiqlənir. 2023-cü təqvim ili üçün mərkəzin fəaliyyət planı 22 dekabr 2022ci ildə rektorun əmri ilə təsdiqlənmişdir və ümümu fəaliyyət, sənədlər və tədris metodların təkmilləşdirilməsi üzrə fəaliyyət, daxili audit, xarici audit, maatifləndirici fəaliyyət, konsaltinq fəaliyyəti, əməkdaşlıq fəaliyyətini əhatə edir. Mütəmadi olaraq Mərkəzin rəhbərliyi fəaliyyət planının icra vəziyyəti haqqında rektora və ya Elmi Şuraya hesabat hazırlayır. *Mərkəzin fəaliyyət planı təkcə mərkəzin işini deyil, həmçinin Keyfiyyətə nəzarət şurası, fakültə, kafedra və digər struktur bölmələrinin işini əhatə edir. Bu isə bir daha Keyfiyyətə nəzarət mərkəzi ilə yanaşı Keyfiyyətə nəzarət şurasına ehtiyacın olmadığını göstərir.*

### 2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması

07 fevral 2022-ci il tarixində rektorun 31/b-m saylı əmri ilə Tədris planlarının mütəmadi təhlili və əmək bazarının tələblərinə uyğun yeni təkliflərin verilməsi, tədris-metodiki işin məzmunu, təkmilləşdirilməsi sahəsində tövsiyələrin verilməsinin həyata keçirilməsi, ali təhsil səviyyəsi üzrə təhsilin Akkreditasiya Meyarları əsasında şöbələrin hesabatlarının formalaşmasına rəhbərlik edilməsi məqsədilə kollegial qurum olaraq

Keyfiyyətə nəzarət şurası yaradılmışdır. Rektorun 37/b-m saylı 08 fevral 2023-cü il tarxili əmri ilə Keyfiyyətə nəzarət şurasının tərkibinə dəyişikliklər olunmuş və maraqlı tərəflərin (işəgötürən, məzun və tələbə) cəlb olunması təmin olunmuşdur.

### 2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

Keyfiyyətə nəzarət mərkəzinin hər il üçün fəaliyyət planı universitetin strateji inkişaf planındakı hədəflərə uyğun olaraq hazırlanır və rektor tərəfindən təsdiqlənir.

### 2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması

Universitetin "Keyfiyyətin təminatı siyasətində" göstərilmişdir ki, *planlaşdır-tətbiq et- yoxla-tədbir gör* tsikli keyfiyyətin idarə edilməsi prosesinin əsasını təşkil edir. Bütün təkmilləşdirmə tədbirləri planlaşdırılır. Bu planlarda mövcud vəziyyət, əldə olan məlumatlar qiymətləndirilir və həyata keçiriləcək fəaliyyətlərdən sonra əldə olunacaq nəticə ilə bağlı hədəflər müəyyən edilir. Təkmilləşdirmə üçün tövsiyələr əsas problemi tapmaq üçün təhlillərin nəticələrinə əsaslanır. Planlaşdırılan təkmilləşdirmə xüsusilə yüksək riskli, yüksək həcmli proseslərə aiddirsə, onun tətbiq edilməsi seçilmiş pilot bölmələrdən başlayır və təsiri müşahidə edildikdən sonra genişləndirilir. Tətbiqin təsirləri qiymətləndirilir və ilkin məlumatlarla icradan sonrakı məlumatlar müqayisə edilərək yoxlanılır. Gözlənilən məqsədə çatma vəziyyəti qiymətləndirilir. Buna nail olunmazsa, lazımi tədbirlər görülür. Məlumatlar vaxtaşırı yenidən qiymətləndirilir və əldə edilən təkmilləşdirmənin davamlı və dayanıqlı təsirə malik olub-olmadığına nəzarət edilir.

*Universitetin* "Keyfiyyətin təminatı siyasəti" sənədində bu mexanizm göstərilsə də tsiklin son bölmələri (yoxla-tədbir gör) işlək deyildir və hesabatlarda göstərilməmişdir.

### 2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması

Universitetin daxili keyfiyyət təminatı sistemində daxili audit aşağıdakı tədbirləri əhatə edir :

- inzibati heyət arasında sorğunun keçirilməsi;
- hər semestrin sonu tələbələr tərəfindən dərslər haqqında sorğuların keçirilməsi və təhlilinin aparılması;
- tədris-metodiki işin məzmunu, təkmilləşdirilməsi sahəsində tövsiyələrin icrasına nəzarət edilməsi;
- Daxili özünütəhlil və qiymətləndirmənin təşkil edilməsi, uyğunsuzluqların təhlilinin aparılıb aradan qaldırılması ilə əlaqədar işlərin icrasına nəzarət olunması.

*Tədbirlərdə məsul şəxslərin adları göstərilməmiş və addımlar üzrə məsuliyyətlər müəyyən edilməmiş və səlahiyyət bölgüsü aparılmamışdır.*

### 2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti

Keyfiyyətə Nəzarət Mərkəzinin 2021, 2022 və 2023-cü təqvim illəri üçün təsdiq edilmiş fəaliyyət planı ümumi fəaliyyət, sənədlər və tədris metodlarının təkmilləşdirilməsi üzrə fəaliyyət, daxili və xarici audit, maarifləndirici fəaliyyət, konsaltinq fəaliyyətini və əməkdaşlıq fəaliyyətini əhatə edir.

Ümumi fəaliyyət tədris prosesində yeni qərarların qəbulu, tədris planlarının mütəmadi təhlili və yeni tələblərə uyğun təkliflərin verilməsi, tədris-metodiki işin məzmunu və təkmilləşdirilməsi sahəsində tövsiyələrin verilməsi və s. əhatə edir.

Sənədlər və tədris metodlarının təkmilləşdirilməsi üzrə fəaliyyət mühazirə, məşğələ və laboratoriya dərslərinin monitorinqi qaydalarının hazırlanması, fənn proqramları və sillabusların Elm və Təhsil Nazirliyinin standartlara uyğun hazırlanmasının yoxlanılması və s. əhatə edir.

Maarifləndirici fəaliyyət tədris prosesində qəbul olunan yeni qaydaların akademik heyət və struktur bölmələrinə çatdırılması, akademik heyət üçün yeni metodikalarla bağlı təlimlərin keçirilməsi və s. əhatə edir.

Konsaltinq fəaliyyəti universitetin struktur bölmələrinə keyfiyyət təminatı ilə əlaqədar zəruri məsləhətlərin və dəstəyin verilməsini əhatə edir.

Əməkdaşlıq fəaliyyəti yerli və xarici keyfiyyət təminatı agentlikləri ilə əməkdaşlıqların qurulması və inkişaf etdirilməsini əhatə edir.

### 2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması

Keyfiyyətə nəzarət mərkəzinin illik fəaliyyət planına görə “Keyfiyyət siyasəti” məlumat kitabçası 2022-ci ilin dekabr ayında hazırlanmış və 2023-cü ilin mart ayında bütün struktur bölmələrinə təqdim edilmişdir.

“Keyfiyyət təminatı siyasəti” sənəd şəklində universitetin veb-saytında yerləşdirilmişdir və elektron poçt vasitəsi ilə ATM əməkdaşlarına göndərilmişdir (https://azmiu.edu.az/upload/ckeditor/420917178.pdf).

“Keyfiyyət təminatı siyasəti” sənədinin veb saytda yerləşdirilməsi onu həm də tələbələr, işəgötürən nümayəndələr və digər maraqlı tərəflər üçün də əlçatan edir.

### 2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi

Daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirmə təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s. əhatə edir.

Universitetin daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməni obyektiv təşkil etmək üçün hər semestr anonim sorğular təşkil olunmuşdur. Sorğuların mövzuları fənlərin tədrisindən məmnunluq, karyera xidmətlərindən məmnunluq, təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq, qazanılmış peşə və ümumi kompetensiyaların əmək bazarının tələblərinə uyğunluğu, akademik fəaliyyətin qiymətləndirilməsi mexanizmindən məmnunluq, peşəkar inkişafın dəstəklənməsi fəaliyyətlərindən məmnunluq səviyyəsinin ölçülməsi və s. olmuşdur.

Sorğular təhsilalan, məzun, işəgötürən, akademik, inzibati, tədris-köməkçi heyət arasında keçirilmiş, nəticələr Elmi Şura iclaslarında və aidiyyəti qurumlarla müzakirə

olunmuşdur. Sorğuların nəticələri ilə bağlı tədbirlər həyata keçirilmişdir. Məsələn, fənn proqramlarının təkmilləşdirilməsi və s.

*Elmi Şuranın protokollarından çıxarışlar özünütəhlil hesabatına əlavə edilsə də, meydana çıxan çatışmamazlıqların aradan qaldırılması protokollaşdırılmamış və hesabat təqdim olunmamışdır.*

**2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti**

Keyfiyyətə nəzarət mərkəzinin illik fəaliyyət planının icrası haqqında hesabat hazırlanır və Elmi Şurada müzakirə edilir. İllik hesabatda plana uyğun icra vəziyyəti qeyd edilir.

2022-ci ildə bəzi planlaşdırılan işlərin icra olunması, o cümlədən tədris prosesində yeni qərarların qəbulu, tədris planlarının mütəmadi təhlili və müasir tələblərə uyğun yeni təkliflərin verilməsi, tədris-metodiki işin məzmunu, təkmilləşdirilməsi sahəsində tövsiyələrin verilməsi, akademik heyətə yeni metodikalarla bağlı təkliflərin verilməsi, tədris-metodiki işin məzmunu və təkmilləşdirilməsi sahəsində tövsiyələrin icrasına nəzarət olunması və s. illik hesabatda göstərilməmişdir.

Keyfiyyətə nəzarət mərkəzinin fəaliyyəti barədə hesabatlar mütəmadi Elmi Şuranın iclaslarında təqdim olunur. Elmi Şuranın 28 dekabr 2022-ci il tarixində keçirilmiş iclasında Mərkəzin müdiri İllik özünütəhlil hesabatı ilə çıxış etmiş və növbəti il üçün görüləcək işlər barədə məlumat vermişdir.

**2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti**

2014-2015-ci tədris ilində AzMİU-da keçirilmiş institusional akkreditasiya zamanı Akkreditasiya Komissiyasının arayışında qeyd olunan tövsiyə və göstərişlərin icrasına dair hesabat hazırlanmışdır.

Məsələn, Fənn proqramlarının 184-nün (743-dən) qrifi olmadan tədris prosesində istifadə olunur. Qrifi olmayan fənn proqramları üçün Elm və Təhsil Nazirliyindən müvafiq qrifin alınması tövsiyə olunur.

Tədris standartlarında göstərilən bütün fənlərin proqramları hazırlanmış, qaydalara uyğun olaraq humanitar və ixtisasın ümumi peşə hazırlığı fənlərinin proqrqmlarına Elm və Təhsil Nazirliyindən qrif alınmış, seçmə fənlər blokunda yerləşmiş fənlərin proqramları universitetin Tədris–metodiki şurasında baxılaraq təsdiq olunmuşdur.

**2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti**

Sorğular təhsilalan, məzun, işəgötürən, akademik, inzibati, tədris köməkçi heyət arasında keçilirmiş, nəticələr Elmi Şura iclaslarında və aidiyyəti qurumlarla müzakirə olunmuşdur.

Tələbələrin məmnunluğu sorğusu hər semesterdə bir dəfə keçirilir. Digər maraqlı tərəflərlə ildə bir dəfə və ya heç sorğu keçirilməmişdir.

*Özünütəhlil hesabatında keçirilən tədbirlərin linkləri əlavə edilmişdir. Amma həmin linklərdə müxtəlif vaxtlarda keçirilən tədbirlərdən yalnız şəkillər verilmişdir. Tədbirlər haqqında isə heç bir məlumat yazılmamışdır.*

### *2.3 Keyfiyyət təminatı mədəniyyəti*

**2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması**

ATM rəhbərliyi keyfiyyət təminatı ilə bağlı aşağıdakı işləri yerinə yetirir:

- Tədris proqramlarının strukturunun və məzmununun təkmilləşdirilməsi, fasiləsiz və çoxpilləli təhsil sisteminin inkişafının təmini;
- Bilik və texnologiya transferi sahəsində innovativ inkişaf və təlim üçün infrastrukturun genişləndirilməsi;
- Əsas işəgötürənlərlə qarşılıqlı əlaqənin genişləndirilməsi, onların tədris prosesinin məzmunu və formalarının müəyyənləşdirilməsinə və təhsil fəaliyyətinin maddi-texniki təminatına cəlb olunması;
- Müasir elmi və tədris avadanlığının əldə edilməsi və bununla bağlı infrastrukturun inkişaf etdirilməsi yolu ilə tədris prosesinin maddi-texniki bazasının möhkəmləndirilməsi.

Universitetin keyfiyyət təminatı mədəniyyəti aşağıdakıları nəzərdə tutur:

- əməkdaşların hər birində "təhsilin keyfiyyəti"nə vahid yanaşma və təhsilin keyfiyyəti probleminə vahid dünyagörüşünün formalaşdırılması;
- hər bir əməkdaşın onun üçün təhsilin keyfiyyətinin nə demək olduğunu və öz iş yerində yüksək keyfiyyətə necə nail olmağı başa düşməsi;
- struktur bölmələrinin yüksək keyfiyyətə doğru irəliləmə yollarını müəyyən etməsi və başa düşməsi;
- keyfiyyəti idarə etmək mümkünlüyünün və bu prosesin mexanizmini müəyyən etmək yollarının başa düşülməsi.

**2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması**

Universitet rəhbərliyi bütün maraqlı tərəflərin (universitetin akademik, inzibati heyəti, təhsilanlarlar və əmək bazarında olan müəssisələr və s.) universitetin strateji inkişaf planından, daxili keyfiyyət təminatı mexanizmindən və keyfiyyət siyasətindən xəbərdar olmağından və keyfiyyətin yaxşılaşdırılması istiqamətində öz öhdəliklərini yerinə yetirməklərində maraqlıdır. Qeyd edilmiş sənədlər Elmi Şura iclaslarında müzakirəyə çıxarılmış və təsdiq olunduqdan sonra bütün struktur bölmələri e-maili vasitəsilə məlumatlandırılmışdır. Eyni zamanda həmin sənədlərin universitetin rəsmi veb-saytında yerləşdirilməsi və maraqlı tərəflərin keyfiyyət təminatı prosesinə daha aktiv cəlb olunması məqsədilə Mərkəzin səhifəsində "Online müraciət" bölməsinin mövcudluğu təmin olunmuşdur. Təklif və iradlar quality.assurance@azmiu.edu.az e-mail ünvanına göndərilir. Emailə gələn təklif və iradlar təhlil edilir və tədbirlər hazırlanır.

*"Online müraciət" bölməsi ilə təklif və iradların göndərilməsi yalnız email vasitəsilə mümkündür. Anonimlik qorunmur və onlayn formalar yoxdur.*

*Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması zəifdir.*

### 2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

Keyfiyyətin təmin olunması və inkişaf etdirilməsində universitet rəhbərliyi bilavasitə iştirak edir. Həmçinin xarici ölkələrin ali təhsil müəssisələrinin keyfiyyət təminatında təşkil etdiyi müxtəlif mexanizmlər öyrənilir və universitetə uyğun olanların tətbiqi istiqamətində işlər görülür. Bu məqsədlə universitetin rəhbərliyi və əməkdaşları xarici universitetlərdə ezamiyyətdə olmuşdur və bunun nəticəsində bakalavr səviyyəsində inşaat mühəndisliyi və dizayn, magistratura səviyyəsində isə inşaat mühəndisliyi, ekologiya mühəndisliyi, memarlıq abidələrinin bərpası və yenidən qurulması ixtisasları üzrə xarici ali təhsil müəssisələri ilə ikili diplom müqavilələri bağlanmışdır. İkili diplom müqavilələri əsasında inkişaf etmiş ölkələrin professor-müəllim heyəti unievrsitetə cəlb olunmuşdur və inkişaf etmiş ali təhsil müəssisələrinin tədris-metodiki təcrübələri mənimsənilmişdir.

### 2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti

Struktur bölmələri arasında koordinasiya və əməkdaşlığın gücləndirilməsi üçün mütəmadi iclaslar, görüşlər və birgə fəaliyyətlərin həyata keçirildiyi göstərilsə də, hesabatlarda bunu tapmaq mümkün olmamışdır. Sahə baxışı zamanı strukturlararası fəaliyyətin koordinasiyasının zəif olması müşahidə edildi.

Keyfiyyətin təmin olunmasında universitetin fakültələri arasında fəaliyyətin koordinasiyası mövcud olsa da bəzi mərkəzlər və struktur bölmələr ilə koordinasiya möhkəmləndirilməsi tövsiyə olunur.

## 3. TƏLİM VƏ TƏDRİS

### *3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

### 3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

AzMİU-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı”na və “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı” uyğun olaraq, təhsilin bakalavr səviyyəsində 27 ixtisas üzrə, magistratura səviyyəsində isə 25 ixtisas (54 ixtisaslaşma) üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Bu ixtisaslar Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən olunmuş və elan edilmiş üç ixtisas qrupuna (I, II və V qruplar) daxil olan ixtisasları əhatə edir. Son illərdə bir neçə ixtisas (məsələn, 2020/2021-ci tədris ilindən 050619 - “Kommunikasiya sistemləri mühəndisliyi”, 2022/2023-cü tədris ilindən 050616 – “İnformasiya təhlükəsizliyi” və s.) üzrə kadr hazırlığına yeni başlanmışdır. Bakalavriat səviyyəsində təhsil Azərbaycan dili ilə yanaşı, 8 ixtisas üzrə ingilis dilində, 7 ixtisas üzrə isə rus dilində aparılır. Magistratura səviyyəsində isə 5 ixtisas üzrə ingilis dilində, 6 ixtisas üzrə rus dilində həyata keçirilir.

Əldə olunmuş məlumata əsasən, illər üzrə mütəxəssis hazırlığının və məzun buraxılışının dinamikası onu deməyə əsas verir ki, bakalavriat səviyyəsində Dövlət Sifarişi əsasları ilə təhsil alanların sayı son 7 ildə ödənişli əsaslarla təhsil alanlara nisbətən artmışdır. Qeyd edilməlidir ki, hesabat dövründə (2015-2022-ci illərdə) məzunların sayı

11009 olmuşdur ki, onların da 4817 (~44%) nəfəri Dövlət sifarişi ilə, 6192 (~56%) nəfəri isə ödənişli əsaslarla təhsil almışdır.

*Aparılan müşahidələr və müzakirələr nəticəsində müəyyən edilmişdir ki, ixtisaslar üzrə sifarişlər rəhbərliyin təkliflərinə əsasən hazırlanır,* Rektorluğun iclaslarında və universitetin Elmi şurasında təsdiq edilərək Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim edilir.

Universitetin tələbə kontingenti hər tədris ili üçün təsdiq olunmuş sifarişlərlə müəyyən edilən qəbul planları əsasında formalaşır. Tələbə qəbulu həmin qəbul planına uyğun olaraq, Dövlət İmtahan Mərkəzinin keçirdiyi qəbul imtahanlarının nəticələrinə və abituriyentlər tərəfindən ixtisas seçimninə əsasən həyata keçirilir.

Hazırda universitetdə kadr hazırlığı həyata keçirilən ixtisasların siyahısı fakültələr üzrə *Cədvəl 3.1 və Cədvəl 3.2-də* verilmişdir:

**Cədvəl.3.1.**

**Bakalavriat səvviyəsi üzrə ixtisasların siyahısı**

| Sıra №-si | İxtisasın şifri | İxtisasın adı |
|---|---|---|
| 1. | 50306 | Dizayn (interyer dizayn, qrafik dizayn) |
| 2. | 50402 | Biznesin idarə edilməsi |
| 3. | 50403 | Davamlı inkişafın idarə edilməsi |
| 4. | 50405 | İqtisadiyyat |
| 5. | 50407 | Marketinq |
| 6. | 50408 | Menecment |
| 7. | 50606 | Ekologiya mühəndisliyi |
| 8. | 50607 | Elektrik və elektronika mühəndisliyi |
| 9. | 50612 | Geomatika və geodeziya mühəndisliyi |
| 10. | 50614 | Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi |
| 11. | 50615 | İnformasiya təhlükəsizliyi |
| 12. | 50616 | İnformasiya texnologiyaları |
| 13. | 50617 | İnşaat mühəndisliyi |
| 14. | 50619 | Kommunikasiya sistemləri mühəndisliyi |
| 15. | 50621 | Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi |
| 16. | 50622 | Maşın mühəndisliyi |
| 17. | 50623 | Materiallar mühəndisliyi |
| 18. | 50625 | Meliorasiya mühəndisliyi |
| 19. | 50626 | Memarlıq |
| 20. | 50628 | Mexanika mühəndisliyi |
| 21. | 50631 | Neft-qaz mühəndisliyi |
| 22. | 50632 | Nəqliyyat mühəndisliyi |
| 23. | 50633 | Nəqliyyat tikintisi mühəndisliyi |
| 24. | 50634 | Proseslərin avtomatlaşdırılması mühəndisliyi |
| 25. | 50637 | Şəhərsalma |
| 26. | 50638 | Sənaye mühəndisliyi |
| 27. | 50710 | Yer quruluşu və daşınmaz əmlakın kadastrı |

**Cədvəl 3.2.**

**Magistratura səvviyəsi üzrə ixtisasların siyahısı**

| Sıra №-si | İxtisasın şifri | İxtisaslaşmalar |
|---|---|---|
| 1 | 60321 | **Dizayn** |

| | | |
|---|---|---|
| | | Dizayn və texniki estetika |
| | | Vizual dizayn və media |
| 2 | 60405 | **Sənayenin təşkili və idarə edilməsi** |
| | | İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi(sahələr üzrə) |
| | | Layihələrin idarə olunması |
| 3 | 060403 | **Menecment** |
| | | Menecment(sahələr üzrə) |
| 4 | 060408 | **Marketinq** |
| | | Marketinq (sahələr üzrə) |
| 5 | 060409 | **Biznesin idarə edilməsi** |
| | | Biznesin təşkili və idarə edilməsi |
| 6 | 060409 | **Binesin idarə edilməsi (MBA proqramı üzrə)** |
| | | Biznesin təşkili və idarə edilməsi (menecment üzrə) |
| | | Biznesin təşkili və idarə edilməsi (marketinq üzrə) |
| | | Biznesin təşkili və idarə edilməs (tikintinin idarə edilməsi üzrə) |
| | | Biznesin təşkili və idarə edilməs (daşınmaz əmlakın idarə edilməsi üzrə) |
| | | Biznesin təşkili və idarə edilməs (nəqliyyatın idarə olunması üzrə) |
| | | Biznesin təşkili və idarə edilməs (tikinti sahəsində investisiyaların idarə edilməsi üzrə) |
| | | Biznesin təşkili və idarə edilməs (logistika və təchizat zəncirinin idarə edilməsi) |
| | | Biznesin təşkili və idarə edilməs (ətraf mühitin idarə edilməsi üzrə) |
| | | Biznesin təşkili və idarə edilməs (layihələrin idarə ediməsi üzrə) |
| | | Biznesin təşkili və idarə edilməs (maliyyə üzrə) |
| | | Biznesin təşkili və idarə edilməs (əqli mülkiyyətin idarə edilməsi üzrə) |
| 7 | 060601 | **Materialşünaslıq mühəndisliyi** |
| | | Materialşünaslıq və materiallar texnologiyası |
| 8 | 060607 | **Neft-qaz qurğuları mühəndisliyi** |
| | | Dəniz hidrotexniki qurğuları tikintisi |
| 9 | 060622 | **Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi** |
| | | Yol hərəkətinin təşkili və təhlükəsizliyi |
| 10 | 060625 | **Texnoloji maşın və avadanlıqlar mühəndisliyi** |
| | | İnşaat yol maşınları və avadanlıqları |
| 11 | 060626 | **Elektrik mühəndisliyi** |
| | | Elektrik təchizatının optimallaşdırılması və modelləşdirilməsi |
| 12 | 060628 | **Proseslərin avtomatlaşdırılması mühəndisliyi** |
| | | Enerji menecmenti (TEMPUS layihəsi) |
| | | Texnoloji proseslərin avtomatlaşdırılması və idarə edilməsi |
| 13 | 060630 | **Mexanika mühəndisliyi** |
| | | Maşınların möhkəmliyi və dinamikası |
| 14 | 060632 | **İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi** |
| | | İdarəetmədə informasiya sistemləri |
| 15 | 060633 | **Memarlıq** |
| | | Bina və qurğuların memarlığı |
| | | Şəhərsalma |
| | | Memarlıq abidələrinin bərpası və yenidən qurulması |

| | | |
|---|---|---|
| | | Memarlıq mühitinin dizaynı |
| | | Landşaft memarlığı |
| 16 | 060634 | **İnşaat mühəndisliyi** |
| | | Sənaye və mülki tikinti |
| | | Bina və qurğuların tikintisinin təşkili və texnologiyası |
| | | Bina və qurğuların dinamikası və zəlzələyə davamlığı |
| | | Əsaslar və özüllərin tikintisi |
| 17 | 060634 | **İnşaat mühəndisliyi*** |
| 18 | 060635 | **Mühəndis sistemlərinin və qurğularının tikintisi mühəndisliyi** |
| | | Bina və qurğuların mikroiqlimini təmin edən sistemlər |
| | | Su təchizatı |
| | | Şəhər infrastrukturunda smart texnologiyalar |
| 19 | 060636 | **Nəqliyyat tikintisi mühəndisliyi** |
| | | Avtomobil yolları və aerodromların tikintisi |
| | | Körpülər və nəqliyyat qurğularının tikintisi |
| 20 | 060637 | **Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi** |
| | | Hidrotexniki tikinti |
| | | Meliorasiya mühəndis sistemləri tikintisi mühəndisliyi |
| 21 | 060638 | **Tikinti materialları və məmulatlarının texnologiyası mühəndisliyi** |
| | | Tikinti materialları və konstruksiyalarının texnologiyası |
| 22 | 060640 | **Geodeziya və xəritəçilik mühəndisliyi** |
| | | Tətbiqi geodeziya |
| 23 | 060647 | **Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi** |
| | | Standartlaşdırma və sertifikatlaşdırma (sahələr üzrə) |
| 24 | 060649 | **Ekologiya mühəndisliyi** |
| | | Su ehtiyatlarının mühafizəsi və kompleks istifadəsi |
| | | Bərk tullantıların emalı texnologiyası |
| | | Meliorasiya, rekultivasiya və torpaq mühafizəsi |
| 25 | | **Ekologiya mühəndisliyi**** |
| 23 | 060651 | **Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi** |
| | | Həyat fəaliyyətinin təhlükəsizliyi |
| 26 | 060659 | **Şəhərsalma** |
| | | Dayanıqlı şəhərsalma və regionların planlaşdırılması (SABAH magistraturası) |
| 27 | 060705 | **Yer quruluşu, torpaq və şəhər kadastrı** |
| | | Şəhər kadastrı |

Universitetdə tələbə qəbulunun sifarişi ixtisaslar üzrə təhsil proqramlarında qeyd olunan tələblər nəzərə alınmaqla hazırlanır.

### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

Qeyd olunduğu kimi, universitetdə tələbə qəbulu sifarişinin hazırlanması əsasən ənənəvi yanaşma əsasında həyata keçirilir. *Belə ki, əvvəlcə hər bir ixtisas üzrə universitetin kadr potensialı və maddi-texniki bazasının imkanları nəzərə alınır, əvvəlki illərdə həmin ixtisaslar üzrə tələbə qəbulu zamanı sifariş olunan yerlərin dolub-dolmaması amili əsas götürülür.* Daha sonra, qəbul sifarişinin formaşamasında əmək bazarının

tələbləri, yəni kadr hazırlığı həyata keçirilən ixtisaslar üzrə kadrlara əmək bazarında olan ehtiyac, rəqabətədavamlılığın və keyfiyyətli mütəxəssis hazırlığının təmin edilməsi əsas amillərdən biri kimi götürülür.

Müasir dövrdə respublikamızda, xüsusən də işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma və bərpa işlərinin yerinə yetirilməsində universitetdə hazırlanan mütəxəssislərin oynaya biləcəyi rol, onların əhəmiyyəti, belə kadrlara olan tələbat, qarşılarında qoyulan vəzifələr nəzərə alınmaqla tələbə qəbulu sifarişi formalaşdırılır.

2015-2023-cü illərdə tədris illəri üzrə AzMİU-ya bakalavriat səviyyəsinə qəbulun nəticələri *Cədvəl 3.3-də* verilmişdir:

**Cədvəl 3.3.**

**2015-2023-cü illərdə AzMİU-ya bakalavriat səviyyəsi qəbulun dinamikası**

| S/s | İxtisaslar | Qəbul planı | Faktiki qəbul | Qəbul planının dolma faizi | Əyani | Qiyabi | Dövlət sifarişli qəbul olan təhsilalan sayı | Qəbul olunmuş əcnəbi təhsil-alanların sayı | Əlavə təhsilə cəlb olunan təhsilalan sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2015/2016-cı tədris ili | 1400 | 1282 | 91,60% | 1251 | 31 | 526 | 105 (14 qiyabi) | 61 |
| 2 | 2016/2017-cı tədris ili | 1720 | 1445 | 84% | 1432 | 13 | 488 | 53 (7 qiyabi) | 42 |
| 3 | 2017/2018-ci tədris ili | 1715 | 1605 | 93,60% | 1591 | 14 | 553 | 54 (3 qiyabi) | 31 |
| 4 | 2018/2019-cu tədris ili | 1890 | 1758 | 93,10% | 1693 | 15 | 467 | 106 (2 qiyabi) | 35 |
| 5 | 2019/2020-ci tədris ili | 1975 | 1537 | 78% | 1523 | 14 | 836 | 89 (1 qiyabi) | 56 |
| 6 | 2020/2021-ci tədris ili | 1950 | 1755 | 90% | 1653 | 54 | 959 | 70 (3 qiyabi) | 43 |
| 7 | 2021/2022-ci tədris ili | 1970 | 1627 | 82,60% | 1508 | 58 | 988 | 61 (4 qiyabi) | 56 |
| 8 | 2022/2023-cü tədris ili | 2275 | 2170 | 95,34% | 2045 | 125 | 1115 | 54 | - |

### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

İşəgötürənlərin fikirləri, təklifləri istehsalat sahələrində müəssisə rəhbərləri ilə keçirilən görüşlərdə, müqavilələrin bağlanması və memoarandumların imzalanması prosesində müzakirə olunur və bunlar tələbə qəbulu sifarişi üçün ixtisasların və planın müəyyənləşdirilməsi zamanı nəzərə alınır. İşəgötürənlərin əsas fikirləri və təklifləri əsasən ondan ibarət olur ki, istehsalatın tələblərinə uyğun olaraq, tədrisin praktik komponentləri gücləndirilsin, ixtisaslara uyğun xüsusi praktik təlimlər təşkil olunsun, tədris prosesində texniki vəsaitlərdən, o cümlədən kompüter texnikasından və fənlərə aid komputer proqramlarından və s. istifadə olunsun.

İşəgötürənlərin fikir və tövsiyələrinin nəzərə alınması məqsədilə onların nümayəndələri ilə görüşlər keçirilsə də, *qeyd olunmalıdır ki, belə görüşlər müvafiq qaydada protokollaşdırılmır.*

### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti:

Qəbul olunmuş, köçürülmüş, bərpa olunmuş, əlavə təhsilə cəlb edilmiş tələbələrin və subbakalavrların əvvəlki təhsil aldıqları tədris müəssisələrindəki kreditlərin tanınması mövcud qanunvericiliyə uyğun aparılır. Belə ki, əgər tələbə subbakalavr təhsilindən sonra universitetə qəbul olunubsa, əvvəl keçdiyi fənnin adı, məzmunu və krediti universitetdə keçilən fənnin adı, məzmunu və krediti ilə eynilik təşkil edirsə, onda həmin tələbə belə fəndən və imtahandan azad edilir. Əgər tələbə başqa ixtisasdan və universitetdən köçürülmüşdürsə, onun əvvəlki təhsili müddədtində keçdiyi fənlər və qazandığı kreditlər cari ixtisas üzrə keçilən fənlərə və kreditlərə uyğundursa, onda belə tələbələr müvafiq imtahanlardan azad edilir. Əgər tələbə universitetə bərpa olunubsa, onun əvvəllər (əvvəlki tədris planına uyğun) keçdiyi fənlər və qazandığı kreditlər yeni tədris planına uyğunluq təşkil edirsə, onda tələbənin əvvəllər qazandığı kreditlər nəzərə alınır. Əlavə təhsilə qəbul olunmuş tələbələrin əvvəlki ixtisas üzrə təhsili zamanı keçdiyi fənlər hazırki ixtisasda keçilən fənlərlə eynilik təşkil edərsə, onda tələbə həmin fəndən və imtahandan azad edilir. Bununla yanaşı, bərpa olunmuş tələbələrin ixtisas üzrə əvvəlki təhsil proqramında və tədris planında nəzərdə tutulmuş və keçilmiş fənlər hazırkı təhsil proqramında və tədris planında yoxdursa, fənn çıxarılıbsa və ya artıq belə fənn tədris olunmursa, onda həmin tələbələr üçün şərti (fərdi qaydada) qruplar yaradılır. Həmin qruplarda dərslər fənnin əvvəllər mövcud olmuş proqram və sillabusuna əsasən həyata keçirilir, fənnin krediti əvvəlki tədris planına görə müəyyən edilir.

## *3.2 Təhsil proqramları*

### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

Universitetdə akkreditasiya dövründə Azərbaycan Respublikasının “Təhsil haqqında Qanunu“na uyğun olaraq, ali təhsil pilləsinin hər üç səviyyəsi (bakalavriat, magistratura və doktorantura) üzrə təhsil həyata keçirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı”na uyğun olaraq, bakalavriat səviyyəsində 27 ixtisas üzrə mütəxəssis hazırlığı həyata keçirilmişdir. “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”na uyğun olaraq, magistratura səviyyəsində 25 ixtisas çərçivəsində 54 ixtisaslaşma üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Bütün ixtisas tədris planları mövcuddur. Universitetdə hər il tədris planlarında fənlərin tədris illəri və semestrlər üzrə bölgüsünü müəyyən edən illik işçi tədris planları hazırlanır, tədris işləri üzrə prorektor tərəfindən təsdiq edilir və istifadə olunur. Universitetdə bütün fənlər üzrə sillabuslar mövcuddur.

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

Həm bakalavr, həm də magistratura səviyyəsinə tələbə qəbulu əmək bazarının tələbləri və mütəxəssislərə olan ehtiyac nəzərə alınmaqla aparılmışdır. Kadr hazırlığı həyata keçirilən təhsil proqramları seçilməsi zamanı, həmçinin, cəmiyyətin tələbləri nəzərə alınır. Belə ki, hansı ixtisaslara qəbul üçün çox müraciət olunursa, konkurs böyük və qəbul balı yüksək olursa, həmin ixtisaslara yeni tədris ilində qəbul planlaşdırılır, hətta qəbul planı artırılır. Əgər qəbul planı dolmursa, onda növbəti illərdə plan azaldılır.

Eyni zamanda universitetdə təhsil proqramlarının məzmunu əmək bazarının, işəgötürənlərin nümayəndələrinin təklifləri, onlarla aparılan müzakirələrin nəticələri nəzərə alınmaqla təkmilləşdirilir. Belə ki, əmək bazarından daxil olan təkliflərə əsasən, bir tərəfdən təhsil proqramında nəzərdə tutulmuş məcburi fənlərin məzmunu yenilənir, digər tərəfdən seçmə fənlər bölümünə daha müasir, praktiki fəaliyyət və istehsalatla bilavasitə bağlı olan fənlər daxil edilir.

Nümunə kimi qeyd etmək olar ki, texniki və texnoloji ixtisaslar qrupu (050617-İnşaat mühəndisliyi, 050619-Kommunikasiya sistemləri mühəndisliyi, 050633-Nəqliyyat tikintisi mühəndisliyi və s. ixtisaslar) üzrə tədris planlarının təkmilləşdirilməsi məqsədilə işçi komissiya yaradılmış, komissiyanın işində işəgötürən təşkilatlar qismində "Azəristiliktəchizat" ASC, "Gidrotransproekt" ETM, FHN Tikintidə Təhlükəsizliyi Nəzarət Dövlət Agentliyi, Bakı Dövlət layihə İnstitutu, Bakı Mühəndislik Universitetinin nümayəndələri iştirak etmişlər.

Universitetdə sahə baxışı zamanı işəgötürənlərin nümayəndələri ilə görüşlər zamanı da müzakirə olundu. Onların bir çoxu belə qarşılıqlı əlaqələrin olduğunu qeyd etdilər.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

Universitetdə kadr hazırlığı həyata keçirilən ixtisaslar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 dekabr tarixli 474 nömrəli Qərarı ilə təsdiq edilmiş peşə və kvalifikasiya standartlarına qoyulan tələblərə uyğun olaraq, iqtisadiyyatın aşağıdakı fəaliyyət (peşə) sahələrini əhatə edir: Mədənçıxarma sənayesi; Emal sənayesi; Elektrik enerjisi, qaz, hava və buxar təchizatı; Su təchizatı və tullantıların təmizlənməsi; Tikinti; Ticarət və avtonəqliyyat vasitələrinin təmiri; Nəqliyyat və anbar təsərrüfatı; İnformasiya və rabitə. *Lakin universitetdə peşə və kvalifikasiya standartlarına xüsusi diqqət verilmir, kadr hazırlığı zamanı bu standartların tələbləri önə çəkilmir.*

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

Universitetdə kadr hazırlığı həyata keçirilən ixtisaslar üzrə təhsil Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 iyul tarixli 311 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respulikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə uyğun olaraq, kvalifikasiyaların 6-cı (bakalavr səviyyəsi), 7-ci (magistratura səviyyəsi) və 8-ci (fəlsəfə və elmlər doktoru proqramları üzrə doktorantura) səviyyələri həyata keçirilir. Hər bir təhsil səviyyəsi üzrə məzunlar tərəfindən müvafiq bacarıqların əldə olunması təmin edilir və yekunda təhsilalanlara müvafiq dövlət sənədləri – diplomlar verilir.

Təhsil proqramları Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluq təşkil etsə də, bu, illərlə formalaşmış ənənəvi təcrübəyə əsasən təmin olunur. *Lakin sahə baxışı zamanı universitetdə Milli Kvalifikasiyalar Çərçivəsi haqqında məlumatlılıq və onun tələblərinin kifayət qədər nəzərə alınmadığı aşkar edilmişdir. Belə ki, bu barədə Özünütəhlil Hesabatında müvafiq meyar (Təhsil proqramları) bölməsində heç bir məlumat verilməmişdir.*

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

Universitetdə həyata keçirilən təhsil proqramları, bir qayda olaraq, ayrı-ayrı ixisaslar üzrə təsdiq olunmuş təlim nəticələrinə və məzmun standartlarına uyğunluq təşkil edir. Belə ki, müvafiq ixtisaslar üzrə təhsilini başa vuran məzunların bilik və bacarıqlarına qoyulan tələblər, tədrisin məzmunu, kompetensiyalar, təhsilin sonunda əldə olunması nəzərdə tutulan nəticələrin təmin edilməsi qarşıya qoyulur və əldə olunur. Bu baxımdan Memarlıq, İnşaat, Su təsərrüfatı və Mühəndis kommunikasiya sistemləri ixtisasları xüsusilə qeyd olunmalıdır.

Hər bir ixtisas üzrə təhsil proqramlarının tələbləri nəzərə alınmaqla, təlim nəticələrinə və məzmun standartlarına uyğun olan tədris planları hazırlanır. Tədris planları Universitetin Elmi Şurasında müzakirə olunaraq təsdiq edilir.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

Təhsil proqramları üztə tədris planları hazırlanarkan Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə, əsasən, riayət olunur. Belə ki, universitetdə təhsilin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı" və "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na uyğun olaraq, müvafiq ixtisaslar üzrə tədris planları hazırlanmış və təsdiq edilmişdir. Bakalavriat səviyyəsində bütün ixtisasları üzrə tərtib edilmiş tədris planlarında 4 il üçün tədrisin ümumi  həcmi 240 kredit təşkil edir. Müəyyən edilmiş tələblərə uyğun olaraq, onlardan 210 kredit nəzəri təlim üçün, 21 kredit istehsalat təcrübəsi üçün və 9 kredit Yekun Dövlət Attestasiyası üçün ayrılır.

Bütün ixtisaslar üzrə tədris prosesi həmin ixtisasların təhsil proqramları əsasında hazırlanmış və universitetin Elmi Şurasında müzakirə olunaraq təsdiq edilmiş tədris planları əsasında həyata keçirilir. Universitetdə verilən məlumata görə ixtisasların təhsil proqramları yenilənərkən hər bir ixtisas üzrə istehsalat nümayəndələrinin iştirakı ilə müxtəlif işçi qrupları yaradılmış, onlar tərəfindən monitorinq aparılmış, rəy və təklifləri nəzərə alınmışdır. *Lakin bu bu işçi qrupların yaradılması, onlarla görüşlərin keçirilməsi, təhsil proqramlarının və tədris planlarının müzakirəsi barədə rəsmiləşdirilmiş sənədlər aşkar edilməmişdir.*

*Bəzi tədris planlarında (məsələn, "Neft-qaz qurğuları mühəndisliyi") kreditlərə görə ümumi dərs yükünün hesablanması, onların auditoriya və auditoriyadankənar dərs saatlarına bölgüsü fərqli yanaşmalarla aparılır. Belə ki, 5 kreditlik fənnin 150 saatlıq ümumi dərs yükünün 60 saatı auditoriya saatlarına ayrıldığı halda, digər 8 kreditlik fənnin də 240 saatlıq ümumi dərs yükünün 60 saatı auditoriya saatlarına verilmişdir.*

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

Universitetdə kadr hazırlığı həyata keçirilən bütün ixtisaslar üzrə istifadə olunan fənn proqramları dövlət təhsil standartlarının və tədris planlarının tələblərinə uyğun hazırlanmışdır. Fənlərin tədris proqramları kafedralarda aidiyyəti müəllimlər tərəfindən hazırlanır, kafedranın iclasında müzakirə olunduqdan sonra fakültə Elmi şurasına təqdim olunur. Fakültə Elmi şurasında müzakirədə müsbət qiymətləndirilən tədris proqramları baxılmaq üçün universitetin Elmi-metodiki şurasına tövsiyə olunur. Elmi-metodiki şurada seçmə fənlərin tədris proqramı universitetdaxili istifadə üçün təsdiq olunur, məcburi fənlər üzrə tədris proqramları isə təsdiq üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə

göndərilir. *Lakin kafedralarda mövcud olan və istifadə edilən bütün fənn proqramları müvafiq qaydada (nə Elmi-metodiki şura tərəfindən, nə də Elm və Təhsil Nazirliyi tərəfindən) təsdiq edilməmişdir. Bəzi fənn proqramları kafedralarda hazırlanmış, təsdiq edilərək istifadə olunur. Bildirildi ki, bir çox fənn proqramları təsdiq üçün təqdim olunmuşdur və təsdiq olunma mərhələsindədir.*

Bütün fakültələrdə fənlər üzrə mövcud tədris proqramalrına uğyun hazırlanmış sillabuslardan istifadə olunur. Sillabuslar kafedra iclaslarında müzakirə olunaraq və təsdiq üçün tövsiyə olunur. Bundan sonra sillabuslar təsdiq edilərək tədrisdə istifadə olunur. Sillabusların məzmunu fənn proqramlarına uyğunluq təşkil edir. Sillabusların universitet üzrə vahid formada tərtib edilməsi üçün təsdiq olunmuş ümumi sillabus forması istifadə olunur. *Lakin sillabusların tərtibatında kiçik qüsurlara rast gəlinir. Belə ki, universitet üzrə bakalavr səviyyəsində sillabusların standart forma kimi qəbul olunmuş titul səhifəsində "İşçi tədris proqramı (sillabus)" əvəzinə „İşçi tədris planı", magistratura səviyyəsində isə sillabusların üzərində "Tədris proqramı" yazılır. Sillabuslarda ümumi ədəbiyyat siyahısı olsa da, ayrı-ayrı mövzular üzrə ədəbiyyatlar tövsiyə olunmur.*

*Eyni zamanda qeyd edilməlidir ki, bəzi proqram və sillabuslarda istifadəsi tövsiyə edilən ədəbiyyatların bir çoxu nisbətən köhnədir. Belə ki, proqram və sillabuslarda ötən əsrin 80-90-cı illərin ədəbiyyatına rast gəlinir. Ədəbiyyat siyahısının yenilənməsinə və daha müasir ədəbiyyatın daxil edilməsinə, eləcə də ayrı-ayrı mövzular üzrə zəruri ədəbiyyatın göstərilməsinə ehtiyac vardır.*

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

Tədris planlarında fənlərin semestrlər üzrə bölgüsü hər bir ixtisasın xüsusiyyətindən irəli gələrək aparılmışdır. Tədris saatlarının semestrlər üzrə bölgüsü, əsasən, 330 saat müəyyən edilmişdir. Həftəlik dərs yükü, demək olar ki, əksər hallarda 22 saat olsa da, bəzi tədris planlarında 24 saat təşkil edir.

*Bəzi tədris planlarında (məsələn, "Neft-qaz qurğuları mühəndisliyi") kreditlərə görə ümumi dərs yükünün hesablanmasında qeyri-dəqiqliklərə yol verilmişdir. Məsələn, tədris planında 7 kredit üçün ümumi dərs saatları bəzən 150, bəzən 180, bəzən isə 210 saat göstərilmişdir. Ayrı-ayrı fənlər üzrə dərs saatlarının auditoriya dərs saatlarına və auditoriyadankənar saatlara bölgüsündə fərqli yanaşmalara rast gəlinir. Belə ki, tədris planında 5 kreditlik fənn üçün müəyyən edilmiş 150 saat ümumi dərs yükündən 60 saatı auditoriya saatları üçün ayrılmışdır. Başqa halda 7 və ya 8 kreditlik fənlər üçün müəyyən edilmiş 210 və 240 saat ümumi dərs yükündən də 60 saatı auditoriya saatlarına verilmişdir, bəzən belə fənlər üçün 75 və ya 90 saat auditoriya saatları ayrılmışdır.*

### 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

Universitetdə kadr hazırlığı həyata keçirilən ixtisaslar üzrə təhsil proqramlarının icrası nəticəsində əldə olunan təlim nəticələri barədə məlumatlar ictimaiyyətə açıqdır, başqa sözlə, ictimaiyyət həmin məlumatlarla tanış olmaq imkanına malikdir. Bəzi məlumatları - təhsil proqramlarının tələblərini, fənn proqramları, sillabusları universitetin saytı və ya elektron təhsil sistemi vasitəsilə əldə etmək mümkündür. Semestr boyu tədris prosesində, eləcə də imtahan sessiyaları zamanı mütəmadi olaraq valideynlərin, millət vəkillərinin, təhsil ekspertlərinin və mediya qurumlarının iştirakı ilə "Açıq qapı", "Media

Tur”lar və s. təşkil olunur, tədris prosesi ilə bağlı vaxtaşırı mətbuatda, televiziya kanallarında, sosial şəbəkələrdə ictimaiyyətə məlumat verilir.

### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

Universitetdə verilən məlumata görə ixtisasların təhsil proqramlarının hazırlanması və qiymətləndirilməsi məqsədilə ixtisaslar üzrə işəgötürənlərin (istehsalat təşkilatlarının) nümayəndələri və digər ali təhsil müəssisələrindən cəlb olunmuş müstəqil ekspert – mütəxəssislər cəlb olunur, işçi qrupları yaradılır. Onların iştirakı ilə tədris prosesinin monitorinqi, tədris sənədlərinin və materiallarının ekspertiziyası aparılır, irad, rəy və təkliflər, tövsiyələr hazırlanır. Bununla yanaşı, sonuncu dəfə - 2020-ci ildə yeni təhsil proqramları hazırlanarkən ixtisaslar üzrə işçi qruplara aparıçı istehsalat şirkət və müəssisələrin nümayəndələri (işəgötürənlər) dəvət olunmuş, təhsil proqramlarının müzakirələrində, təkmilləşdirilməsində onların təklif və tövsiyyələri də nəzərə alınmışdır.

Məsələn, texniki və texnoloji ixtisaslar qrupu üzrə yaradılmış işçi komissiyanın tərkibinə işəgötürənlər qismində “Azəristiliktəchizat” ASC, “Gidrotransproekt” ETM, FHN Tikintidə Təhlükəsizliyi Nəzarət Dövlət Agentliyi, Bakı Dövlət layihə İnstitutu, Bakı Mühəndislik Universitetinin nümayəndələri daxil edilmişdir. Onlar 050617-İnşaat mühəndisliyi, 050619-Kommunikasiya sistemləri mühəndisliyi, 050633-Nəqliyyat tikintisi mühəndisliyi və s. ixtisaslar üzrə tədris planlarının təkmilləşdirilməsi işində iştirak etmiş və öz töhfələrini vermişlər.

Bəzi hallarda işəgötürənlərin (istehsalat təşkilatlarının) nümayəndələrinin cəlb olunmasına, belə işçi qrupların yaradılmasına, görüşlərin keçirilməsinə və digər fəaliyyətlərə baxmayaraq bu iş sənədlərlə rəsmiləşdirilməmişdir.

## *3.3 Tədrisin təşkili*

### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

Universitetdə ixtisaslar üzrə tədris planları Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) tələbləri çərçivəsində hazırlanmışdır. Belə ki, universitetdə kadr hazırlığı həyata keçirilən ixtisaslar üzrə tədris planları müvafiq qaydalara uyğun tərtib edilmiş və kredit sisteminin tələbləri nəzərə alınmışdır. Bakalavriat səviyyəsində tədris planları 4 tədris ili üçün tərtib edilmişdir. Tədris planlarında bütün təhsil müddəti üçün tədrisin ümumi həcmi 240 kredit olması nəzərə alınmışdır. Onlardan 210 kredit nəzəri təlim üçün, 21 kredit istehsalat təcrübəsi üçün və 9 kredit Yekun Dövlət Attestasiyası üçün ayrılmışdır. *Bəzi hallarda fənlər üzrə ayrılmış kreditlərə görə dərs saatlarının hesablanması, ümumi dərs saatlarının auditoriya və auditoriyadankənar saatlara bölgüsü zamanı müəyyən qeyri-dəqiqliyə yol verilmişdir. Bəzən auditoriya saatlarına çox az yer verilmişdir. Belə ki, bəzən eyni krediti olan fənlər üçün müxtəlif auditoriya saatları ayrılmış, bəzən müxtəlif kreditləri olan fənlər üçün eyni auditoriya dərs saatları nəzərdə tutulmuşdur. Məsələn, “Bina və qurğuların elektrik təchizatı“ fənninin proqramında - 8 kredit, 240 saat ümumi dərs yükü, “Neft və qazın quyu ilə çıxarılma texnologiyası” fənninin proqramında - 6 kredit, 180 saat ümumi dərs yükü, hər iki fənn üzrə auditoriya saatlarına 60 saat verilmşdir. “Alternativ və bərpa olunan enerji mənbələri“və “Neft-qaz qurğularının korroziyadan mühafizəsi” fənninin proqramında - 6 kredit, 180 saat ümumi dərs yükü olsa da, auditoriya saatlarına birinci fənn üzrə 75, ikinci fənn üzrə isə 105 saatı ayrılmışdır.*

Tədris planlarında mühazirə, seminar və laboratoriya işlərinin yerinə yetirilməsinə ayrılmış saatlar, reallaşdırılan təhsil proqramlarının tələblərinə, mövcud normativlərə uyğunluq təşkil edir.

### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

Universitetdə tədris planları təhsil proqramlarının tələblərinə və mövcud normativlərə uyğun hazırlanmışdır. Bakalavriat və magistratura səviyyələrində bütün ixtisaslar üzrə təhsil proqramlarının nəzərdə tutulmuş fənlər müvafiq tədris planlarında əksini tapmışdır. Tədris planına daxil edilmiş fənlərin (həm məcburi – normativ fənləri, həm də seçmə fənlərin) tədris illəri və semestrlər üzrə bölgüsü cədvəllər şəklində verilmişdir. Semestrlər üzrə dərs saatları 15 həftəlik tədris nəzərə alınmaqla, əsasən, 330 saat müəyyən edilmişdir. Tələbələrin auditoriyada maksimal tədris yükü həftəlik ortalama 22 saat təşkil edir. Bakalavr təhsil səviyyəsində nəzəri tədris müddəti I-VII semestrlərində 15 həftədir. Səkkizinci semestrdə tələbələr istehsalat təcrübəsinə gedirlər. Semestrlərdə, bir qayda olaraq, 5-6 fənn üzrə imtahan planlaşdırılır. 4 illik tədris müddətində cəmi tətil müddəti 38 həftədir.

### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

Tədris planlarında məcburi fənlər təhsil standartlarına uyğun nəzərdə tutulmuşdur. Verilmiş kreditlərə uyğun ümumi dərs saatları hesablanmış, bu saatların auditoriya və auditoriyadankənar saatlara bölgüsü aparılmışdır. Seçmə fənlər həm humanitar fənlər bölümündə, həm də ixtisas fənləri bölümündə müvafiq qaydada verilmişdir. Humanitar fənlər bölümündə seçmə fənlər üçün ayrılmış 6 kredit Elm və Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq, hər biri 3 kredit olmaqla 2 fənn arasında bölünmüşdür. İxtisas fənləri bölümündə seçmə fənlər üçün ayrılmış 60 kredit çərçivəsində tədris planına, bir qayda olaraq, 10 fənn daxil edilir. Onların da əksəriyyəti ixtisas fənləri olduğu üçün yuxarı kurslarda tədris olunur.

### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

Tədris planlarında ümumi və ixtisas fənləri müvafiq ixtisasların təhsil proqramlarının tələblərinə uyğun planlaşdırılır. Müəyyən edilmiş kreditlərə uyğun olaraq, ümumi və ixtisas fənləri üçün ayrılmış saatlar ümumi prinsiplərə əsasən aparılmış, onlar arasında saat bölgüsündə balans gözlənilmişdir. Başqa sözlə, ixtisasın(ixtisaslaşmanın) tədris planlarının tərtibində fənn bölmələri üzrə saatların optimal nisbəti nəzərə alınmışdır.

### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Mütəxəssis hazırlığı üçün tədris olunan fənlərin təlim nəticələrinin ixtisasın təhsil proqramında nəzərdə tutulmuş nəticələrlə əlaqələndirilməsi məqsədilə fənlərin tədris proqramlarında təlim nəticələri ilə bağlı bölmələr (“bilməlidir“, “bacarmalıdır“ və s.) daxil edilir. Bu, bir qayda olaraq, təhsil proqramında nəzərdə tutulmuş təlim nəticələrinə uyğunluq təşkil edir. *Lakin bəzi fənlərin proqramlarında təlim nəticələri formal xarakter*

*daşıyır və ixtisasın təhsil proqramında olan nəticələrini tam əhatə etmir. Uyğun olmayan təlim nəticələri, demək olar ki, diqqət mərkəzində saxlanılmır. Onların müəyyən olunması, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmləri mövcud deyildir.*

**3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti**

Tədris olunan fənlərin təlim nəticələri həmin fənlərin sillabuslarında qismən əksini tapır. Sillabuslar standart formalarda hazırlanır. Həmin fənlərə təhsil proqramlarında qoyulan tələblər, əsasən, nəzərə alınır, *lakin bəzi fənlərin sillabuslarında tədrisin sonunda əldə olunacaq təlim nəticələrinə diqqət verilmir və bunlara nəzarət mexanizmlərinə rast gəlinmədi.*

**3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti**

Tədris planlarında semestrlər (1-7-ci semestrlər) üzrə fənlərin bölgüsü zamanı hər semestr 5-6 fənn planlaşdırılmışdır. Nəticədə hər semestrin sonunda tələbələr 5-6 fəndən imtahan verirlər. Qeyd olunduğu kimi, həftəlik dərs yükü, əsasən, 22 saat təşkil edir ki, bunun sayəsində tələbələr dərsdənkənar məşğələlər üçün kifayət qədər vaxt əldə etmiş olurlar. Tədris planlarında bəzi hallar istisna olmaqla, bir qayda olaraq, fənnin kreditinə görə müəyyən edilmiş ümumi dərs saatı təxminən 40% auditoriya, 60% dərsdənkənar hazırlıq üçün planlaşdırılır.

**3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti**

Bəzi fakültələrdə tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planı tərtib edillir. Birinci kursa daxil olan tələbələrə onların ixtisaslarına uyğun tərtib edilmiş fərdi tədris planları təqdim olunur. Tələbələrin fərdi tədris planlarında təhsil müddətində keçiləcək fənlərin semestrlər üzrə siyahısı (seçmə fənlər də daxil olmaqla), fənlərin kreditləri, auditoriya, auditoriyadankənar saatları, dərs növləri üzrə bölgüsü, həftəlik dərs saatları əksini tapır. Tələbələrlə dekan və tyutorlar tərəfindən qruplar və ya fərdi şəkildə təlimlər, görüşlər keçirilir və onlara Bolonya sisteminin prinsipləri aşılanır. Tələbələrin arzu və istəklərinə uyğun olaraq tyutorlar tərəfindən fərdi tədris planlarına düzəlişlər edilir.

**Diaqram 3.1.**
**Tələbələrlə keçirilmiş sorğu nəticələri**




Seçmə fənn blokunda olan fənlərin seçimini aparmaq məqsədilə tələbələr arasında şifahi sorğular keçirilir, nəticə tədris yüklərinin tərtibi zamanı nəzərə alınır və əmrləşdirilir. Tələbələr tədris ili başlamazdan qabaq tyutorlarla birgə fərdi tədris planlarına müvafiq düzəlişlər etmək imkanına malikdirlər. *Sonrakı illərdə fərdi tədris planlarının tərtib edilməsi fakültə və kafedraların tövsiyələri əsasında aparılır, tələbələrin müstəqil hazırladıqları planı olmur. Bəzi fakültələrdə isə tələbələr üçün fərdi tədris planları tərtib edilmir.*

*Tələbələrlə keçirilmiş sorğu zamanı fərdi tədris planları ilə bağlı suala verdikləri cavab vəziyyəti tam əks etdirir.*

### 3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti

Universitetdə, ümumiyyətlə, ixtisasların (ixtisaslaşmalarının) tədris planlarına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində və semestrlərdə tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən illik işçi tədris planları hazırlanır və tədris işləri üzrə prorektor tərəfindən təsdiq edilərək tədris prosesində istifadə olunur.

### 3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti

Universitetdə, kafedralarda, eləcə də tədris hissəsində müəllimlərin illik işçi planı mövcuddur. Bu planlar müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənnin tədris edildiyi fakültəni, qrupun nömrəsini, tələbələrin sayını özündə əks etdirir.

### 3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)

Tədris planlarına uyğun olaraq, auditoriya dərsləri mühazirələr, seminarlar, praktik məşğələlər, laboratoriya dərsləri kimi tədris olunur. Bununla yanaşı, tələbələr auditoriyadan kənar saatlarda müstəqil hazırlıq saatlarında tədris materiallarının mənimsənilməsi, dərslərə hazırlıq, tapşırıqların, o cümlədən sərbəst işlərin yerinə yetirilməsi ilə sərbəst şəkildə məşğul olurlar.

Mühazirələr mühazirə otaqlarında keçirilir. Universitetdə cəmi 46 mühazirə otağı mövcuddur. Yalnız bəzi otaqlarda texniki təchizat tələb olunan səviyyədədir. *Bir çox mühazirə otaqları müvafiq texniki vasitələri (proyektor, kompüter, Web-kamera və s.) ilə təchiz edilməmişdir. Bu baxımdan mühazirələrin müasir tələblər səviyyəsində aparılmasında, təqdimatların, video dərslərin və təlimlərin, tədris filmlərinin və digər elektron vəsaitlərin nümayiş etdirilməsində çətinliklər yaranır. Tələbələrə yalnız mühazirə materialları verilir.* Mühazirə materialları tələbələrin elektron kabinetlərində yerləşdirilməklə onlara çatdırılır.

Laboratoriya dərsləri bəzi fənlər üzrə planlaşdırılır, əsasən, laboratoriya otaqlarında və xüsusi kabinetlərdə keçirilir. Universitetdə hər bir fakültədə müvafiq tədris laboratoriyaları mövcuddur. Ümumiyyətlə, cəmi 44 - laboratoriya otağı, 64 - məşğələ dərslərinin keçilməsi üçün otaqlar, 9 - yaradıcılıq kabinetləri fəaliyyət göstərir.

### 3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti

Məsləhət xidməti bir neçə istiqamətdə təşkil olunur. Əvvəla, kredit borcları qalan, mənimsənilməsində çətinlik yaranan fənləri tələbələr tərəfindən daha yaxşı mənimsənilməsi üçün aidiyyəti müəllimlərin iştirakı ilə dərsdənkənar vaxtlarda əlavə məsləhət saatları müəyyənləşdirilir və keçirilir. Eyni zamanda, kurs işlərinin, buraxılış işlərinin, referatların və magistr dissertasiyalarının hazırlanması istiqamətində tələbələrə köməklik göstərilməsi üçün qrup şəklində və fərdi qaydada məsləhət saatları təşkil olunur.

Bundan əlavə, universitetin bütün fakültələrində tələbələrin sayına uyğun, tələbələrin inkişafına nəzarət edən və akademik problemlərinin həllinə dəstək göstərən, hazırlanan ixtisaslara uyğun kvalifikasiyalara malik tyutorlar tərəfindən məsləhət xidməti həyata keçirilir.

Bütün istiqamətlərdə məsləhət xidmətləri il boyu mütəmadi olaraq təşkil olunur və həyata keçirilir.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

Universitetdə bütün fənlər üzrə sərbəst tapşırıqlar verilir. *Lakin sərbəst işlərin tələbələ-rə verilməsində müxtəlif yanaşmalar mövcuddur. Belə ki, bəzi fənlər üzrə 10, bəzi fənlər üzrə 5, bəzi fənlər üzrə 2,bəzi fənlər üzrə isə 1 sərbəst iş verilir.* Qiymətləndirmə də sərbəst işlərin sayından asılı olaraq aparılır.

Universitetdə rektor və tədris işləri üzrə prorektorla görüş zamanı bildirildi ki, fakültə və kafedralara hər bir fənn üzrə 1 sərbəst işin verilməsi və sərbəst işlərin təqdimat şəklində təhvil alınması barədə tapşırıq verilmişdir. *Görünür ki, hələ bütün fakültə və kafedralarda sərbəst işlərin verilməsi ilə bağlı vahid yanaşmaya keçilməsi təmin edilməmişdir.*

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

Universitetdə bakalavriat və magistratura səviyyəsində tələbələrin təcrübə keçməsi üçün müvafiq şərait yaradılmışdır. Bakalavriat səviyyəsində tədris və istehsalat təcrübələri, magistratura səviyyəsində isə elmi-pedaqoji və elmi-tədqiqat təcrübələri həyata keçirilir.

Tədris və istehsalat təcrübələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 sentyabr 2008-ci il tarixli 221 № li qərarı ilə təsdiq edilmiş "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında" əsasnamənin tələblərinə müvafiq olaraq, universitetin Elmi-Metodiki Şurasının 16 noyabr 2017-ci il tarixli qərarı (protokol № 1) ilə təsdiq edilmiş "İstehsalat təcrübəsinin proqramı"na əsasən həyata keçirilir. Respublikada müxtəlif istehsalat sahələri üçün ixtisaslı mühəndis kadrların yetişdirilməsi və bu sahədə hazırlığın keyfiyyətinin yüksəldilməsi məqsədilə təcrübələr ölkənin müxtəlif istehsal və xidmət müəssisələrində, şirkətlərdə, elmi-tədqiqat institutlarında keçirilir. Bu məqsədlə həmin təşkilatlarla universitet arasında müqavilələr imzalanır. Hazırda universitet 150-dən artıq belə təşkilatla müqavilə bağlamışdır.

Müasir tələblərə uyğun olaraq, tədris və istehsalat təcrübələrinin keçirilməsi tədris planında 4-cü kursun yaz semestrində nəzərdə tutulur. Təcrübələrin keçirilməsi universitetin Elmi -metodiki şurası tərəfindən təsdiq olunmuş Təcrübə proqramı əsasında aparılır. Bu proqramda tələbələrin əldə etdiyi nəzəri biliklərlə təcrübi hazırlığın vəhdətini yaratmaq üçün kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Belə ki, istehsalatla əlaqələr möhkəmləndirilir, təcrübələrin metodoloji cəhətdən düzgün aparılması və təcrübə prossesini daim nəzarətdə saxlanılması təmin edilir. İstehsalat təcrübəsi keçilən bəzi müəssisələrdə tələbələr yataqxana və yeməklə təmin olunur, bəzi hallarda onlara az da olsa əmək haqqı verilir. Tələbələrin tədris və istehsalat təcrübələrinin müddəti, təcrübə rəhbərləri və obyektləri (yəni təcrübənin keçiriləcəyi yer) rektorluğun müvafiq əmrləri ilə rəsmiləşdirilir. İstehsalat təcrübələrinin təşkili, yerinə yetirilməsi kafedralar tərəfindən təşkil olunur və həyata keçirilir. Təcrübə keçilən müəssisələrdə tələbələrə müvafiq struktur bölmələrinin əməkdaşları sırasından rəhbərlər təyin olunur. Təcrübə zamanı istehsalat müəssisələrində yaradılan şəraitə universitet rəhbərliyi və Təcrübə və karyera mərkəzi tərəfindən mütəmadi olaraq nəzarət olunur. Təcrübənin sonunda aparılmış araşdırmalar və praktiki işlər üzrə əldə olunmuş nəticələr barədə hesabatlar hazırlanır. Təcrübələr hesabatların tələbələr tərəfindən müvafiq komissiya qarşısında müdafiəsi ilə başa çatır və müvafiq qaydada rəsmiləşdirilir.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

Universitetin professor-müəllim heyətinin ixtisaslarının artırılması və təkmilləşdirilməsi rəhbərlik tərəfindən daim diqqət mərkəzində saxlanılır. İxtisasartırma və təkmilləşdirmə məsələləri universitetdə fəaliyyət göstərən İxtisasartırma fakültəsi tərəfindən həyata keçirilir. İxtisasartırma fakültəsində müəllimlərin 5 ildən bir stajkeçmə kurslarında iştirakı təmin olunur. Universitetin professor-müəllim heyətinin ixtisasartırmaya göndərilməsi nəzərdə tutulan nümayəndələri əvvəlcədən İxtisasartırma fakültəsi tərəfindən müəyyən olunmuş digər universitetə, idarə və təşkilatlara ixtisasartırma kurslarına göndərilirlər.

Universitetin professor-müəllim heyətinin ixtisasartırma kurslarında iştirakı barədə məlumat *Cədvəl 3.4-də* verilmişdir:

**Cədvəl 3.4.**

**AzMİU professor-müəllim heyətinin ixtisasartırma kurslarında iştirakı dinamikası**

| № | Tədris ili | İxtisasartırmaya göndərilən müəllimlərin sayı |
|---|---|---|
| 1. | 2015/2016-cı tədris ili | 66 |
| 2. | 2016/2017-cı tədris ili | 40 |
| 3. | 2017/2018-ci tədris ili | 25 |
| 4. | 2018/2019-cu tədris ili | 39 |
| 5. | 2019/2020-ci tədris ili | 39 |
| 6. | 2020/2021-ci tədris ili | 21 |
| 7. | 2021/2022-ci tədris ili | 47 |
| Hesabat dövründə cəmi: | | 243 |

Cədvəldən göründüyü kimi, ixtisasartırmaya göndərilən müəllimlərin sayı hesabat dövründə əvvəlcə azalmış, son ildə isə yenidən artmışdır.

Bundan əlavə İxtisasartırma fakültəsində müxtəlif ixtisaslar üzrə 3 aylıq ixtisasartırma kursları da təşkil olunmuşdur. *Cədvəl 3.5-də* bu kurslar barəsində məlumat verilmişdir:

Cədvəl 3.5.

**İllər üzrə 3 aylıq ixtisasrtırma kusrlarında iştikaın dinamikası**

| № | Kursların keçirildiyi il | Kurslarda iştirak edənlərin sayı |
|---|---|---|
| **İnşaat mühəndisliyi kursu** | | |
| 1. | 2014-cü il | 13 |
| 2. | 2015-ci il | 10 |
| 3. | 2017-ci il | 13 |
| 4. | 2018-ci il | 10 |
| 5. | 2019-cu il | 18 |
| **Geodeziya kursu** | | |
| 1. | 2014-cü il | 31 |
| 2. | 2015-ci il | 10 |
| 3. | 2016-cı il | 13 |
| 4. | 2017-ci il | 28 |
| 5. | 2018-ci il | 27 |
| 6. | 2019-cu il | 12 |
| 7. | 2020-ci il | 25 |
| 8. | 2021/2022-ci illər | 79 |

Bununla yanaşı, İxtisasartırma fakültəsinin nəzdində tələbələr üçün Komputer kurslarıda təşkil olunmuş və həmin kurslarda iştirak edən tələbələrin dinamikası Cədvəl 3.6-da göstərilmişdir:

**Cədvəl 3.6.**

**AzMİU-da tələbələr üçün təşkil edilmiş kompüter kurslarında iştirak edənlərin dinamikası**

| № | Kursların keçirildiyi il | Kurslarda iştirak edənlərin sayı |
|---|---|---|
| **Kompüter kursu** | | |
| 1. | 2016-cı il | 5 |
| 2. | 2017-ci il | 18 |
| 3. | 2018-ci il | 67 |
| 4. | 2019-ci il | 26 |

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

Universitetdə kadr hazırlığı həyata keçirilən ixtisasların əksəriyyəti (Memarlıq, İnşaat, Su təsərrüfatı, Mühəndis kommunikasiya sistemləri, Nəqliyyat mühəndisliyi, Nəqliyyat tikintisi, Yerquruluşu və daşınmaz əmlakın kadastrı, Maşın mühəndisliyi, Mexanika mühəndisliyi və s.) layihələrin işlənməsi təcrübəsinin olmasını tələb etməsi baxımından bu ixtisaslarda kurs işləri və kurs layihələri önəmli yer tutur. Magistratura səviyyəsində referatların hazırlanması nəzərdə tutulur. Tədris planlarına uyğun olaraq, nəzərdə tutulmuş kurs işləri, kurs layihələri, habelə referatların hazırlanması üçün kafedrada əvvəlcədən mövzular və tapşırıqlar hazırlanır, semestrin əvvəlində tələbələrə təqdim olunur. Kurs layihələri, kurs işləri və referatların yerinə yetirilməsi üçün zəruri materiallar, ədəbiyyatlar tələbələrə tövsiyə olunur. Tələbələrə istiqamət verilməsi və görülmüş işlərin müzakirəsi üçün kafedralarda müəllimlər tərəfindən məsləhət saatları müəyyənləşdirilir. Yekunda işlənib hazırlanmış kurs işlərinə və kurs layihələrinə kafedralarda fəaliyyət göstərən müvafiq komissiyalar tərəfindən baxış keçirilir və müdafiəsi təşkil olunur.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

Universitetdə bakalavriat səviyyəsində bütün ixtisaslar üzrə 4-cü kursun ikinci semestrində buraxılış işlərinin yerinə yetirilməsi nəzərdə tutulur. Buraxılış işlərinin mövzuları tələbələrin iştirakı ilə müəyyən edilir. Belə ki, kafedralarda tələbələrin iştirakı ilə qabaqcadan müzakirələr aparılır, aktual mövzular və rəhbərlər seçilir. Mövzular, bir qayda olaraq, təcrübə ilə bağlı olur, istehsalat sahələrinə aid məsələlərə həsr olunur. Buraxılış işlərinin mövzuları və rəhbərlər əmrlə rəsmiləşdirilir. Buraxılış işlərinin tapşırıqları, lazım olan ədəbiyyatlar yaz semestrinin başlanğıcında tələbələrə təqdim olunur və onlar üçün məsləhət saatları müəyyən edilir. Buraxılış işlərinin müdafiəsi Dövlət Attestasiya Komissiyası (DAK) tərəfindən həyata keçirilir. Komissiyanın sədri ixtisas sahəsinə uyğun sahələrdə elmi dərəcəsi olan tanınmış mütəxəssislər sırasından Elm və Təhsil Nazirliyinin əmri ilə təyin edilir. DAK-ın tərkibi isə rektorun əmri ilə təsdiq olunur. Belə komissiya bir təqvim ili ərzində fəaliyyət göstərir. Komissiya sədrləri maksimum 3 il ardıcıl olaraq təyin oluna bilərlər. Buraxılış işlərinin müdafiələri iki mərhələdə - ilkin müdafiə və yekun müdafiə ilə aparılır. İlkin müdafiə kafedra daxilində yaradılmış komissiya tərəfindən, yekun müdafiə isə DAK tərəfindən keçirilir.

Magistr dissertasiyalarının mövzuları və rəhbərləri də magistrlərlə aparılan müzakirələr nəticəsində müəyyən edilir. Magistr dissertasiyalarının mövzuları və rəhbərlər I kursun birinci semestrinin sonunda rektorun əmri ilə rəsmiləşdirilir və

tələbələrə təqdim olunur. Magistr dissertasiyalarının yerinə yetirilməsi üçün iş planları tərtib olunur və hər semestrin sonunda attestasiya keçirilir. Magistr dissertasiyalarının müdafiəsinin təşkili məqsədilə İxtisaslaşdırılmış Şuralar (İŞ) yaradılır. İŞ-in sədri müvafiq ixtisas sahəsində tanınan, elmi dərəcəsi olan mütəxəssislər sırasından Elm və Təhsil Nazirliyinin əmri ilə təyin edilir. İŞ-in üzvləri rektorun əmri ilə təyin olunur. Bu şura tədris ili ərzində fəaliyyət göstərir. Müdafiələr iki mərhələdə aparılır: ilkin müdafiə və yekun müdafiə. İlkin müdafiə kafedrada yaradılmış daxili komissiya tərəfindən, yekun müdafiə isə İŞ tərəfindən keçirilir.

Magistr dissertasiyalarının və bakalavr buraxılış işlərinin mövzuları, bir qayda olaraq, təcrübə ilə bağlı olur, istehsalat sahələrinə aid məsələlərə hərs olunur. Təcrübəyə, istehsalata bağlılığı təmin etmək, tətbiqi əhəmiyyətini önə çəkmək məqsədilə bir çox hallarda rəhbərlər istehsalat müəssisələrindən cəlb olunur.

Kafedralarda həm bakalavriat, həm də magistratura səviyyələrində yekun dövlət attestasiyalarının keçirilməsi ilə əlaqədar İŞ və DAK üzrə zəruri sənədlər mövcuddur. Burada İŞ və DAK-ın hesabatları, onların yaradılması əmrləri, tərkibi, keçirilən iclasların sayı, protokolları, müdafiəyə təqdim olunan bakalavr buraxılış işləri və magistr dissertasiyaları barədə bütün zəruri məlumatlar mövcud tələblərə uyğun şəkildə öz əksini tapmışdır.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

İmtahan sessiyalarından öncə rektorun əmri ilə sessiyanın keçirilməsinə dair əmr imzalanır. Sessiyanın keçirilməsi üçün imtahan qərargahı, münaqişə (apellyasiya) komissiyası, imtahan komissiyası, test komissiyası, nəzarət qrupları, şifrələmə qrupu və s. bölmələr yaradılır və onların fəaliyyəti təşkil olunur. Universitetdə imtahanlar üç formada keçirilir:

- mərkəzləşdirilmiş formada test şəklində;
- yazılı formada;
- xüsusui qabiliyyət tələb edən fənlər üzrə yaradıcılıq yoxlaması formasında.

Test üsulu ilə keçirilən imtahanlar elektron sistem üzərindən aparılır və imtahanın nəticəsi imtahan yekunlaşan kimi tələbəyə məlum olur. Bu məqsədlə universitetdə bir neçə kompüterləşdirilmiş imtahan zalları fəaliyyət göstərir. Sahə baxışı zamanı universitetdə cari qiymətləndirmə (kollokviumlar) keçirilirdi. Komissiya üzvləri cari qiymətləndirmənin təşkilini və gedişini izləmişdir. Cari qiymətləndirmənin *test üsulu ilə keçirilərkən tələbələrin eyni gündə bir-birinin ardınca bir neçə fənn üzrə imtahan (kollokvium) verməsi, yəni ayrı-ayrı fənlər üzrə testləri cavablandırması tələb olunur ki, bu da tələbələr üçün çətinlik yaradır.*

Yazılı keçirilən imtahanlar bitdikdən sonra cavablar xüsusi qrup tərəfindən kodlaşdırılır. Yazı işləri (cavablar) kodlaşdırıldıqdan sonra xüsusi ayrılmış otaqlarda onların yoxlanılması həyata keçirilir. Yoxlama prosesinə fənn üzrə ayrı-ayrı müəllimlər cəlb olunur. Qiymətləndirmə yekunlaşdıqdan sonra kodlar açılır, tələbələrin qiymətləri müəyyən edilir. Bundan sonra qiymətlər dərhal tələbələrin kabinetlərinə və universitetin elektron sisteminə yerləşdirilir. İmtahan sessiyasından sonra təkrar imtahanların keçirilməsi üçün ərizələr qəbul olunur və əmrləşdirilir. İmtahan nəticələrindən narazı qalan tələbələr elektron kabinet vasitəsi ilə münaqişə komissiyasına müraciət edir və işlərə komissiyada baxılaraq müvafiq rəylər verilir.

İmtahan sessiyası başa çatdıqda imtahanların nəticələrinə dair yekun hesabatlar fakültə Elmi Şurasında və universitet Elmi Şurasında müzakirə olunur. Sonra bu hesabatlar Elm və Təhsil Nazirliyinə təqdim olunur. İmtahan sessiyası zamanı tələbələrin qazandıqları müvəffəqiyyətlər və yaranan kredit borcları fakültə Elmi şuralarında müzakirə olunur. Daha çox kredit borcu olan fənlər, bu fənlər üzrə tədrisin təşkili, onların məzmunu, tədris-metodiki təminatın vəziyyəti, tərtib olunan imtahan suallarının fənn proqramlarına və sillabuslara uyğunluğu, çətinlik dərəcələri analiz olunur.

Təhlillər göstərmişdir ki, tələbələrin kredit borcları, əsasən, mühəndis yönümlü fənlərdən (Nəzəri mexanika, Materiallar müqaviməti, İnşaat mexanikası, Qurğuların dinamikası və s.) yaranır. Tələbələrin bu fənləri daha yaxşı mənimsəmələri üçün əlavə məsləhət saatları müəyyənləşdirilir və mövcud nöqsanların aradan qaldırılması istiqamətində universitetin rəhbərliyi, fakültə dekanları və kafedra müdirləri tərəfindən müəllimlərə konkret tapşırıqlar verilir və onlar qarşısında müvafiq vəzifələr qoyulur.

Ümumiyyətlə, kredit borclarının yaranma dinamikasında azalma müşahidə olunmuşdur.

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

İmtahan sessiyası dövründə akademik borcu qalan, eləcə də semestr ərzində aldıqları müsbət qiymətləri yüksəltmək istəyən tələbələr üçün iyul-avqust aylarında 6 həftəlik (5 həftə tədris və 1 həftə imtahan) yay semestri təşkil olunur. Yay semestrində iştirak etmək istəyən tələbələr əvvəlcədən ərizə ilə müraciət edirlər. Bu müraciətlər və müvafiq dekanlığın rəyi əsasında yay semestrinin təşkili əmrləşdirilir. Yay semestri, əsasən universitetin bir çox fakültələrində tədris olunan və kreditləri uyğun gələn ümumi fənlər üçün, eləcə də hər hansı fəndən müraciətlərin sayı çox olduqda təşkil olunur. Fənləri tədris edəcək kafedra və fakültələr tərəfindən müəyyənlədirilir və müvafiq qaydada əmrləşdirilir. Yay semestri təsdiq olunmuş ayrıca 5 həftəlik dərs cədvəli əsasında aparılır. Dərslər başa çatdıqdan sonra 6-cı həftədə imtahanlar keçirilir.

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

**Cədvəl 3.7.**

**Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası**

| Tədris ili | Cəmi tələbələrin sayı Payız/Yaz | Kredit borçu olan tələbələrin sayı |
|---|---|---|
| **Memarlıq fakültəsi üzrə** | | |
| 2015/2016 | 663 / 664 | 17 / 121 |
| 2016/2017 | 713 / 708 | 85 / 119 |
| 2017/2018 | 742 / 581 | 90 / 71 |
| 2018/2019 | 871 / 728 | 157 / 133 |
| 2019/2020 | 1006 / 808 | 198 / 23 |
| 2020/2021 | 1106 / 890 | 81 / 152 |
| 2021/2022 | 1159 / 848 | 186 / 142 |
| **İnşaat fakültəsi üzrə** | | |
| 2015/2016 | 821 / 819 | 103 / 405 |
| 2016/2017 | 813 / 813 | 239 / 390 |
| 2017/2018 | 842 / 613 | 271 / 208 |

| | | |
|---|---|---|
| 2018/2019 | 830 / 610 | 210 / 170 |
| 2019/2020 | 779 / 607 | 159 / 32 |
| 2020/2021 | 810 / 619 | 52 / 65 |
| 2021/2022 | 776 / 781 | 151 / 164 |
| **Su Təsərrüfatı və Mühəndis Kommunikasiya Sistemləri fakültəsi üzrə** | | |
| 2015/2016 | 1063 / 1063 | 251 / 251 |
| 2016/2017 | 1200 / 1203 | 375 / 657 |
| 2017/2018 | 1345 / 1043 | 364 / 323 |
| 2018/2019 | 1416 / 1130 | 395 / 421 |
| 2019/2020 | 1409 / 1040 | 369 / 52 |
| 2020/2021 | 1418 /1029 | 155 / 158 |
| 2021/2022 | 1384 / 993 | 337 / 305 |
| **Nəqliyyat fakültəsi üzrə** | | |
| 2015/2016 | 654 / 723 | 104 /214 |
| 2016/2017 | 681 / 681 | 219 / 250 |
| 2017/2018 | 734 / 565 | 133 / 114 |
| 2018/2019 | 758 / 567 | 146 / 133 |
| 2019/2020 | 768 / 569 | 157 / 33 |
| 2020/2021 | 817 / 576 | 102 / 119 |
| 2021/2022 | 778 / 577 | 186 / 150 |
| **İnşaat Texnologiyası fakültəsi üzrə** | | |
| 2015/2016 | 437 / 437 | 38 / 162 |
| 2016/2017 | 428 / 427 | 87 / 207 |
| 2017/2018 | 462 / 363 | 95 / 123 |
| 2018/2019 | 501 / 405 | 124 / 114 |
| 2019/2020 | 497 / 367 | 130 / 33 |
| 2020/2021 | 466 / 335 | 36 / 41 |
| 2021/2022 | 398 / - | 114 / - |
| **Tikinti və İqtisad fakültəsi üzrə** | | |
| 2015/2016 | 531 / 530 | 66 /242 |
| 2016/2017 | 622 / 612 | 184 / 160 |
| 2017/2018 | 757 / 626 | 214 / 112 |
| 2018/2019 | 956 / 829 | 250 / 235 |
| 2019/2020 | 1220 /1030 | 337 / 115 |
| 2020/2021 | 1332 / 1036 | 112 / 69 |
| 2021/2022 | 1313 / 935 | 369 / 258 |
| **Mexanika və İnformasiya Texnologiyaları fakültəsi üzrə** | | |
| 2015/2016 | 560 / 554 | 105 / 195 |
| 2016/2017 | 575 / 580 | 154 / 222 |
| 2017/2018 | 631 / 499 | 180 / 161 |
| 2018/2019 | 709 / 592 | 212 / 209 |
| 2019/2020 | 752 / 575 | 186 / 89 |
| 2020/2021 | 785 / 595 | 56 / 130 |
| 2021/2022 | 788 / 566 | 169 / 132 |
| **Universitet üzrə** | | |
| 2015/2016 | 5203 / 5257 | 821 / 1801 |
| 2016/2017 | 5367 / 5357 | 1448 / 2158 |
| 2017/2018 | 5718 / 4369 | 1387 / 1130 |

| | | |
|---|---|---|
| 2018/2019 | 6109 / 4861 | 1501 / 1415 |
| 2019/2020 | 6431 / 4996 | 1536 / 424 |
| 2020/2021 | 6734 / 5080 | 620 / 734 |
| 2021/2022 | 6596 / 4743 | 1512 / 1159 |

### 3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

2015-2022-ci illər ərzində tədris illəri üzrə kredit borcu yaranmış fənlərin ümumi sayı *Cədvəl 3.8-də* göstərilmişdir:

**Cədvəl 3.8.**

**2015-2022-ci illər ərzində tədris illəri üzrə kredit borcu yaranmış fənlərin ümumi sayı**

| Tədris ili | Kredit borcu yaranmış fənlərin toplam sayı |
|---|---|
| **Memarlıq fakültəsi üzrə** | |
| 2015/2016 | 50 |
| 2016/2017 | 66 |
| 2017/2018 | 45 |
| 2018/2019 | 67 |
| 2019/2020 | 54 |
| 2020/2021 | 82 |
| 2021/2022 | 102 |
| **İnşaat fakültəsi üzrə** | |
| 2015/2016 | 10 |
| 2016/2017 | 12 |
| 2017/2018 | 9 |
| 2018/2019 | 7 |
| 2019/2020 | 13 |
| 2020/2021 | 11 |
| 2021/2022 | 16 |
| **Su Təsərrüfatı və Mühəndis Kommunikasiya Sistemləri fakültəsi üzrə** | |
| 2015/2016 | 168 |
| 2016/2017 | 201 |
| 2017/2018 | 160 |
| 2018/2019 | 148 |
| 2019/2020 | 152 |
| 2020/2021 | 184 |
| 2021/2022 | 202 |
| **Nəqliyyat fakültəsi üzrə** | |
| 2015/2016 | 107 |
| 2016/2017 | 116 |
| 2017/2018 | 113 |
| 2018/2019 | 116 |
| 2019/2020 | 113 |
| 2020/2021 | 78 |
| 2021/2022 | 143 |
| **Tikinti və İqtisad fakültəsi üzrə** | |

| | |
|---|---|
| 2015/2016 | 50 |
| 2016/2017 | 47 |
| 2017/2018 | 50 |
| 2018/2019 | 56 |
| 2019/2020 | 63 |
| 2020/2021 | 52 |
| 2021/2022 | 61 |
| **Mexanika və İnformasiya Texnologiyaları fakültəsi üzrə** | |
| 2015/2016 | 136 |
| 2016/2017 | 153 |
| 2017/2018 | 145 |
| 2018/2019 | 154 |
| 2019/2020 | 143 |
| 2020/2021 | 154 |
| 2021/2022 | 152 |
| **Magistratura səviyyəsi üzrə** | |
| 2015/2016 | 18 |
| 2016/2017 | 18 |
| 2017/2018 | 9 |
| 2018/2019 | 40 |
| 2019/2020 | 31 |
| 2020/2021 | 23 |
| 2021/2022 | 70 |

**3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Universitetdə tədris prosesi ilə bağlı tətbiq edilən normalara riayət edilməsi məsələləri Tədris şöbəsi, Keyfiyyətə nəzarət şöbəsi, İnsan resursları şöbəsi və rəhbərlik tərəfindən nəzarətdə saxlanılır. Lakin universitetdə tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi ilə bağlı hər hansı fəaliyyətə rast gəlinməmişdir.

### *3.4 Tədris metodları və üsulları*

**3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti**

AzMİU-da tədris prosesində dərslər interaktiv formada keçirilir. Burada mühazirə mətnlərinin elektron variantlarının və sillabusların tələbələrə vaxtında verilməsi və tədris prosesində tələbələrin fəallığını artıran təlim metodlarından istifadə olunur. Universitetin auditoriyalarında elektron lövhələrin və proyektorların olması, həmçinin laboratoriya imkanları (kompüter, mexanika, kimya, biologiya, fizika və s.) bu metodların tətbiqini asanlaşdırır. *Qeyd olunmalıdır ki,bəzi auditoriyalarda nə proyektor və nə elektron lövhələr mövcud deyildir.*

**3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti**

AzMİU-da tədris prosesi zamanı tələbələrə elmi biliklərin müstəqil surətdə əldə edilməsi, problem qoyub onun həlli yollarının tapılması, biliklərin yaradıcı tətbiq edilməsi diqqətə alınır, nəzəri biliklər parktik işlər ilə möhkəmləndirilir. AzMİU-da tədrisin sadəcə elmi-nəzəri biliklər ilə deyil, onların əməli fəaliyyətdə tətbiqi də həyata keçirilir. Bu nöqtəyi nəzərdən AzMİU-da tədris prosesində layihələndirmə metodlardan geniş istifadə edilir.

**3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti**

AzMİU-da tədrisin əyani və qiyabi təhsilalma forması mövcuddur. Laboratoriya imkanları, auditoriyaların maddi-texniki vəziyyəti və professor-müəllim heyətinin peşəkarlıq səviyyəsi tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyünə imkan verir.

**3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti**

AzMİU-da hər bir fənnin və professor-müəllim heyətinin tədris metodu açıq dərslərin qiymətləndirilməsi zamanı kafedra iclaslarında müzakirə olunur, tövsiyələr verilir. Tələbələrin uyğun müəssisələrə sahə baxışı təşkil olunur.

Universitetdə və uyğun müəssisələrdə tələbələr üçün seminar və təlimlər təşkil olunur. Məzunların və ixtisas üzrə mütəxəssislərin tələbələrlə görüşləri təşkil edilir. Tələbələr təhsil nəticələrinə görə müxtəlif üsullarla (təşəkkür, sertifikat, mükafat və s.) həvəsləndirilir və motivasiya olunur.

Tədris prosesində hər bir mövzunun təqdimatında təkcə əsas aspektlər deyil, tələbələrdə maraq oyatmaq məqsədilə hər hansı bir yanaşma nümunə kimi verilir, həll edilən məsələnin əhəmiyyətini açıqlamaqla onlarda müstəqil işləmək yolu ilə məsələləri həll etmə bacarığı formalaşdırılır.

**3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti**

AzMİU-da bakalavriat səviyyəsində tələbələrin fundamental nəzəri bilikləri mənimsəməsi ilə yanaşı onların praktiki imkanlarını da gerçəkləşdirməsinə xüsusi diqqət yetirilir. Universitetin laboratoriya bazasından, tədris prosesinə cəlb olunan mütəxəssislərin potensialından rasional formada istifadə edilir.

Magistratura tələbələrinin əksəriyyəti işlədiyi üçün tədris prosesi üçüncü növbədə təşkil olunur. Bu, ixtisas üzrə işləyən tələbələrin fərdi xüsusiyyətlərindən asılı olaraq nəzəri və praktiki biliklərin uyğunlaşdırılmasına kömək edir.

Təhsilalanların ilkin fərdi potensialları, tədrisə və yeniliklərə meylləri nəzərə alınır və onlara verilən fərdi tapşırıqlar formalaşdırılır. Onların arasında informasiya mübadiləsi, təcrübə bölüşdürülməsi təşkil edilir ki, bu da hər bir tələbənin uğur qazanmasına imkan yaradır.

**3.4.6 Tədrs prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti**

Universitetin tədris prosesində istifadə olunan texnoloji vasitələr və proqram təminatı müasir tələblərə uyğun olsa da, sahə baxışı zamanı bəzi kompüter laboratoriyalarında proqramların yenilənməsinə ehtiyac olduğu müşahidə edilmişdir. Tədris olunan fənlərlə bağlı materiallar və ədəbiyyatlar elektron sistemi vasitəsi ilə

tələbələrə çatdırılır və eyni zamanda tələbələr də hazırladıqları tapşırıqları bu platforma vasitəsilə fənn müəllimləri ilə bölüşür. Universitetdə mövcud olan laboratoriyalar yeni avadanlıqla təmin edilmişdir. Universitetdə tədris prosesində müasir tətbiqi proqramlardan istifadə olunur.

### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

AzMİU-da yeni təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan (layihə əsaslı təlim, problem əsaslı təlim, oyun əsaslı təlim, kooperativ təlim, müstəqil öyrənmə və s. metodlar) istifadə edilir. AzMİU-da tədris prosesində ixtisas fənlərinin bəzi mövzuları xüsusi proqram təminatının əsasında nəzəri biliklərə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə etməklə tədris olunur.

Mühazirələr Microsoft PowerPoint proqram təminatında elektron təqdimat formasında tədris olunur. Elektron təqdimatlar formasında hazırlanmış mühazirə dərsləri, müasir avtomatlaşdırılmış layihələndirmə üsulları, proqramlaşdırma və avtomatlaşdırmaya dair məşğələ dərsləri interaktiv lövhələrlə təmin olunmuş, müvafiq proqram paketləri yüklənilmiş kompüter siniflərində, tətbiqi məşğələ dərsləri isə xüsusi avadanlıqlarla təchiz olunmuş laboratoriya otaqlarında tədris olunur.

Bundan başqa AzMİU-da bütün fənlərin mühazirə dərsləri elektron təqdimat formasında tədris olunur, bir sıra fənlərin tədrisində isə Matlab proqram komplekslərinin bazasında virtual laboratoiyalardan istifadə olunur. Yeni təlim və tədris metodlarının və interaktiv öyrənmənin tətbiq olunması təşviq edilir.

### 3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

AzMİU-da tədris metod və üsullarının dövrü monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi işləri görülür. Bunun üçün Keyfiyyətə Nəzarət Mərkəzi tərəfindən hər semestr sorğular keçirilir və sorğuların nəticələri təhlil olunur. Sorğuların nəticələri AzMİU-nun Elmi Şurasında müzakirə edilib nəticələri müvafiq strukturlara göndərilir.

## *3.5 Təlim və tədris resursları*

### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

AzMİU-da elektron rejimdə işləyən, internet, intranet (lokal şəbəkə) və veb texnologiyaları infrastrukturuna əsaslanan, müxtəlif struktur bölmələr tərəfindən daxil edilən məlumatları əhatə edən Elektron Məlumat Sistemi (EMS) mövcuddur. Tədris prosesi bütövlükdə mövcud sistem tərəfindən idarə edilir. EMS-də dərs yüklərinin müəyyənləşdirilməsi, tələbələrin dərs qeydiyyatı, elektron jurnalın doldurulması, qiymətlərin daxil edilməsi və s. prosesi həyata keçirilir. Eyni zamanda professor-müəllim heyətinin, əməkdaşların və tələbələrin şəxsi kabinetləri mövcuddur. Tələbələr dərsə davamiyyət, qiymətləndirmələrin nəticələri, təhsil sahəsində qanunvericiliklər, universitetə daxil olma barədə turniket qeydləri, elanlar, dərs cədvəli, təhsil haqqı borcu

və ödənişləri barədə məlumatları şəxsi kabinetlərindən əldə edirlər. Eyni zamanda, onlayn dərslərin keçirilməsində MS TEAMS,GOOGLE MEET,ZOOM proqramları istifadə edilir.

### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

Tədrisin müasir üsullarla təşkili üçün auditoiyaların əksəriyyəti proyektorlarla, nout-booklarla, az sayda ağıllı lövhələrlə və digər lazımi avadanlıqlarla təchiz olunub. Müəllimlər tərəfindən mühazirələr yüksək keyfiyyətdə hazırlanmış təqdimatlar formasında tələbələrə təqdim olunur. AzMIU-nun balansında 1120 (905 ədəd kompüter + 215 notbook) kompüter vardır. Kompüterlərin 875 ədədi tələbə kontingentinin payına düşür. Belə olduğu halda tələbələrin hər 100 nəfərinə 10.91 (875 : (8018 : 100)) kompüter düşür.

Auditoriyaların bir hissəsi proyektorlarla təmin edilməmişdir.

Kompüter laboratoriyalarında kompüterlrin sayı azlıq təşkil edir və bəzi tələbələrə isə kompüter çatmır. Laboratoriyalardakı kompüterlərin hamısı İnternetə qoşulmamışdır. Kompüter laboratoriyalarında kompüterlərin yenilənməsinə, daha yüksək xarakteristikalı kompüterlərə ehtiyac vardır. Kompüterlərin proqram təminatı müasir tələblərə uyğun yenilənməlidir.

### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti.

AzİMU-nun EMS-nin tərkibində elektron jurnal bölməsi fəaliyyət göstərir. Tələbələrin dərslərdə iştirakı müəllim tərəfindən Elektron jurnala daxil edilir. Daxil edilən məlumat həm müəllimin, həm də tələbənin şəxsi kabinetində görünür. 25 faizdən çox dərsdə iştirak etməyən tələbələrin imtahana buraxılmaması prosesi də elektron jurnal vasitəsi ilə həyata keçirilir.

### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

AzMİU-da ayrı-ayrı fənlər üzrə öyrədici kompüter proqramları (AutoCad, Lira, 3D MAX, Web Dizayn və s.) tədris olunur, ixtisaslar üzrə proqram paketləri mövcuddur; kompüter test proqramlarından istifadə edilir; ayrı-ayrı fənnlər üzrə dərs vəsaitlərinin elektron versiyaları və tədris olunan bütün fənlərin mühazirə dərslərinin materialları elektron variantları işlənilmiş və elektron kitabxana bazasına və tələbələrin şəxsi kabinetinə (semestrdə tədris olunan fənlər dərslər başladıqdan sonra ilk günlərdə) daxil edilmişdir. Tədris prosesində elektron kitabxana bazasının yaradılması, bu bazadan tələbələrin rahat istifadə edə bilmələri, təcrübi və mühazirə dərslərində kompüter-ekran sistemlərindən istifadənin genişləndirilməsi məqsədi ilə mühəndislər üçün vacib kompüter proqramlarının tədrisi təşkil edilir. Universitetdə texnologiyaların istehlakçısı və aidiyyəti texniki təminatın istifadəçisi olan təhsilalanların və təhsilverənlərin yeni informasiya texnologiyalarının mənimsənilməsi və onların tədris prosesində istifadəsi ilə əlaqədar xüsusi ixtisasartırma kursları mütəmadi olaraq təşkil olunur. Bütün kafedraların nəzdində müvafiq təminatı olan auditoriyalar, kompüter laboratoriyaları yaradılmışdır. Tələbələr üçün korporativ elektron ünvanlar açılmış və onların qlobal internet şəbəkəsinə çıxışları

təmin olunmuşdur. Bu imkanlar həm təhsilalanlara, həm də təhsilverənlərə qlobal intenet şəbəkəsi vasitəsi ilə elektron resurslardan bəhrələnmək imkanı yaratmışdır.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

AzİMU-nin bütün tədris binalarında yüksək sürətli (550 Mbit) internet şəbəkəsi mövcuddur və istər professor-müəllim heyəti, istərsə də tələbələr bu imkanlardan yararlanırlar. Universitetdə “free wifi” zonaları yaradılsa da, tədris korpuslarının bir çoxunda şəbəkəyə qoşulmaq imkanlarının olmaması müşahidə olunmuşdur. Universitetin kitabxanasında internet və elektron informasiya daşıyıcılarından istifadə edilir. Universitetdə mövcud fərdi kompüterlərin sayı 1120-dir, onlardan təhsil almaq məqsədi ilə 875 ədədi istifadə edilir, 245 ədəd kompüter isə dekanlıq, kafedra və digər struktur bölmələrdə istifadə edilir. Dekanlıq, kafedra və struktur bölmələrdə olan kompüterlərin hamısı internet şəbəkəsinə qoşulmuşdur.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

AzMİU-da tədris prosesinin təşkili üçün ümumi sahəsi 55231.25 $m^2$ olan 5 tədris korpusu fəaliyyət göstərir. Auditoriya fondunun ümumi sahəsi 41435.14 $m^2$ təşkil edir. Həmçinin akt zalları, idman zalı, yeməkxanalar, yataqxana, tədris kabinetləri və emalatxanalar, tibbi xidmət fəaliyyət göstərir. Hər təhsilalana düşən faktiki sahə 6.89 $m^2$-dir. Akademik heyətin fəaliyyətini təmin edən 85 otaq (ümumi sahəsi 1696 $m^{2)}$, inzibati heyətin fəaliyyətini təmin edən 23 otaq (ümumi sahəsi 498.9 $m^2$) mövcuddur. Ümumi təhsil alanlara düşən faydalı sahə (Ümumi sahənin 75%-i) 41435.14 $m^2$, nəzəri məşğələ auditoriyalarında təhsil alanlara düşən faydalı sahə isə (sahənin 25%-i) 13811.71 $m^2$-dir. Universitetdə əyani təhsil alan tələbə və magistrantların sayı 8018 nəfərdir. Bu səbəbdən də hər tələbəyə 6.89 $m^2$ faydalı sahə düşür.

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

AzMİU-da akademik heyətin fəaliyyətini təmin edən, ümumi sahəsi 1696 $m^2$ olan 85 otaq mövcuddur. Memarlıq fakültəsi üçün yeni tədris korpusunun tikilib istifadəyə verilməsi universitetin akademik heyətinin fəaliyyətini təmin edən otaq fonduna müsbət təsir göstərmişdir. Əsas iş yeri AzMİU olan akademik heyətin sayı – 422 nəfərdir, bu da otaq fondunun ümumi sahəsinin akademik heyətin sayına nisbətinin uyğun olduğunu göstərir. Bununla yanaşı universitetdə inzibati heyətin fəaliyyətini təmin edən, ümumi sahəsi 498.9 $m^2$ olan 23 otaq mövcuddur. Universitetin inzibati heyətinin sayı 167 nəfərdir. Belə ki, otaq fondunun ümumi sahəsinin inzibati heyətin sayına uyğun olmadığı üçün bu sahədə otaq fondunun inkişaf dinamikası qənaətbəxş hesab edilmir.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

AzMİU-nun tədris və tədris–metodiki informasiyanın əsas mənbəyi olan kitabxana 1 yanvar 1977-ci il tarixində yaranmışdır. Kitabxananın fondu ümumilikdə 517574 nüsxə, oxucusu 11844 nəfər, sahəsi 1260 $m^2$-dır. Kitabxananın 7 şöbəsi, 11 bölməsi, 3 filialı və bir neçə kafedrada kabinet kitabxanası var. Universitetdə elektron kitabxana yaradılmışdır. Tələbələr və professor-müəllim heyəti kitabları onlayn sifariş verməklə əldə

etmək imkanına malikdir. Sifarişlər maksimum 20 dəqiqə ərzində hazır olur. Sifarişin qüvvədə olma müddəti 24 saatdır. Kitabxana ölkədə fəaliyyət göstərən bir sıra kitabxanalarla kitab mübadiləsini həyata keçirir. AzMİU-nun tədris və tədris–metodiki informasiyasının əsas mənbəyi olan kitabxananın fondu ümumilikdə 517574 nüsxə, oxucusu 11844 nəfər, sahəsi 1260 m2-dir. Kitabxananın 7 şöbəsi, 11 bölməsi, 3 filialı və bir neçə kafedrada kabinet kitabxanası mövcuddur.

Kitabxana bir sıra kitabxanalarla kitab mübadiləsini həyata keçirir. Bunlara misal olaraq Bakı Dövlət Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, Azərbaycan Texniki Universitetinin, Milli Elmlər Akademiyasının Kitabxanaları və M.F. Axundov adına Milli kitabxananı göstərmək olar. Eyni zamanda kitabxanalararası abonoment (KAA) yolu ilə az tapılan kitabları əldə edərək oxucuların tələbatını təmin edir. Oxucuların tələbatını tam ödəmək üçün kitabxana yeni tədris olunan ixtisaslara aid xarici və MDB dövlətlərində nəşr olunmuş ədəbiyyatları alaraq fondunu zənginləşdirir.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

Oxucuların tələbatını tam ödəmək üçün kitabxana yeni tədris olunan ixtisaslara aid xarici və MDB dövlətlərində nəşr olunmuş ədəbiyyatları alaraq fondunu zənginləşdirir. Eyni zamanda kitabxanaya hər il hədiyyə yolu ilə kitablar və abunə yolu ilə müxtəlif adda qəzet və jurnallar daxil olur. Alimlik, magistr dissertasiyaları və universitetdə mövcud olan ixtisaslara uyğun bütün müəlliflərin avtoreferatları kitabxana fonduna daxil edilmişdir.

Son beş ildə nəşr olunmuş 19272 dərslik va dərs vəsaiti (elektron va çap səklində) kitabxana fonduna daxil olmuşdur.

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Universitetin kitabxanası Azərbaycan, ingilis, rus və türk dillərində nəşr olunmuş dərsliklərdən, dərs və metodiki vəsaitlərdən və s. ilə təmin olunmuşdur. Kitabxana tələbələri ödənişsiz dərslik və dərs vəsaitləri ilə təmin edir. Universitet əməkdaşları ilə yanaşı, digər müəlliflər tərəfindən nəşr olunan tədris-metodiki vəsaitlər də tədris olunan fənlərə dair informasiya mənbələrinin kifayət qədər olmasına və müasirləşməsinə səbəb olur. Universitetdə mövcud olan ixtisaslara aid kitablar öz aktuallığı ilə seçilir və tələbə-müəllim kontingenti tərəfindən istifadə olunur. AzMİU-nun kitabxanası digər yerli universitetlərin kitabxanaları ilə də əməkdaşlıq edir.

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

Universitetdə tələbə, müəllim və bütün oxucular üçün nəzərdə tutulmuş elektron kitabxana fəaliyyət göstərir. AzMİU-nun elektron kitabxanası tədris prosesində və elmi fəaliyyətdə istifadəçilərin informasiya ehtiyaclarını təmin etməyə yönəldilmişdir. Burada elm və texnologiyanın müxtəlif sahələri, normativ-texniki və dövri nəşrlər, dissertasiyaların avtoreferatları, universitet tarixinə dair sənədlər və digər materiallar üzrə dərs vəsaitləri və elmi ədəbiyyatlar mövcuddur.

Elektron kitabxanadakı materiallardan əlavə universitetin üzv olduğu elmi-tədqiqat resurs bazalarından da Web of Science (http://apps.webofknowledge.com ), Polpred Onlayn Xəbərlər Bazası (https://polpred.com/ ) və s.) istifadə olunur.

Kitabxananın elektron kataloqu tam hazırlanmış, müəllimlərin tədris edtikləri fənlərin mühazirələri kömputerlərə yerləşdirilərək oxucuların istifadəsinə verilmişdir.

AzMİU-da açıq kitabxana şəbəkəsi Web of Science ,Thomson, Springer, Copernicus, Google Academy fəaliyyət göstərir.

AzMİU-nun kitabxana fondunda 310659 nüsxə dərslik və dərs vəsaiti mövcuddur. Bunlardan 19272 nüsxəsi son beş ildə daxil olmuşdur. Eyni zamanda kitabxana fondunda 165890 nüsxə elmi ədəbiyyat mövcuddur.

**Cədvəl 3.9.**

**AzMİU-da dərsliklər, elmi ədəbiyyatlar və elmi bazalardan istifadə üçün ayrılan maliyyə**

| AzMİU-nun maliyyə təminatı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayrılan vəsait | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
| | 126327,35 | 50000,00 | 179091,11 | 144681,00 | 45000,00 | 140548,54 | 57600,00 |

*Cədvəl 3.9-dan* göründüyü kimi ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayrılan vəsaitin həcmində azalma dinamikası müşahidə edilir.

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

AzMİU-də tədrisin müasir üsullarla təşkili üçün auditoriyaların əksəriyyəti proyektorlarla, noutbooklarla, ağıllı lövhələrlə və digər lazımi avadanlıqlarla təchiz edilmişdir.

AzMİU-də tədris 3 dildə (azərbaycan, ingilis və rus) aparıldığından tədris olunan fənlərə dair metodiki tədris vəsaitlərinin kifayət qədər olub-olmaması və onların müasirliyini araşdırmaq məqsədi ilə kafedralarda professor-müəllim heyəti tərəfindən dərc olunmuş dərsliklər, dərs vəsaitləri, onların kitabxana fondunda olması, bu dərslik və dərs vəsaitlərinin elektron versiyalarının olub-olmamasına dair materiallar toplanılaraq Keyfiyyətə nəzarət mərkəzində, Fakültə və Universitet Elmi Şuralarında təhlil edilmişdir.

Universitetin profilinə uyğun ən yeni dərslikləri və dərs vəsaitləri alınmışdır. Tədris laboratoriyaları müasir avadanlıqlarla təchiz olunmuşdur. Laboratoriya bazalarının yenilənməsində və ya zənginləşdirilməsində universitet vəsaiti və tərəfdaş şirkət və müəssisələrin (BP, Knauf, Paşa inşaat, Almaniyanın “Wilo SE”, Avstriyanın “Herz armaturen”, Almaniyanın “GeoClimaDesing AG”, Fövqaladə Hallar Nazirliyi, Holcim Azərbaycan, Meliorasiya və Sutəsərrüfatı ASC, Akkord İstehsalat Birliyi, Azərsu ASC, Təmiz Şəhər ASC və s.) maliyyə dəstəyindən istifadə edilmişdir. BP şirkətinin maliyyə dəstəyi ilə Mühəndis sistemləri və qurğuları tikintisi kafedrasında ən müasir avadanlıqlarla təchiz olunmuş 3 yeni laboratoriya (Ağıllı ev, Elektrik və elektronika, Enerji effektivliyi və alternativ bərpa olunan enerji mənbələri) qurularaq tələbələrin ixtiyarına verilmişdir.

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

Təhsil sistemində, o cümlədən ali məktəblərdə geniş dünyagörüşə malik, təşəbbüsləri, yenilikləri qiymətləndirməyi bacaran, nəzəri, praktik biliklərə yiyələnən, müasir təfəkkürlü, rəqabətqabiliyyətli kadrların hazırlanması təhsilin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd olunan məsələlər nəzərə alınaraq AzMİU-da təhsilin məzmununun, təlim prosesinin keyfiyyət və kəmiyyət baxımından yüksəldilməsi üçün elm və texnologiyadakı yeniliklərə uyğunlaşdırılması və bunun təhsilalanlar üçün əlçatanlığı əsas götürülməkdədir.

**3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti**

Sağlamlıq imkanları məhdud olan təhsilalanlar üçün xüsusi tədris resursları və infrastruktur nəzərdə tutulmamışdır. Amma sağlamlıq imkanları məhdud olan, misal olaraq, görmə qabiliyyəti olmayan və ya çox zəif olan tələbələr üçün fərdi qaydada imtahanlar təşkil edilir və o tələbələr ayrıca qiymətləndirilir.

**3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti**

Universitetdə fənn proqramları, dərs vəsaitləri və dərsliklər müasir dövrin tələblərinə uyğunlaşdırılaraq təkmilləşdirilir. Həmçinin tədris prosesində istifadə edilən texniki avadanlıqlar yenilənir və proqram təminatları təkmilləşdirilir.

**3.5.16 Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu**

AzMİU-nun Tələbə Həmkarlar və Gənclər Təşkilatı tələbələrlə müxtəlif tədbirlər həyata keçirir və o cümlədən:

- Sosial problemlərin həlli istiqamətində işin həyata keçirilməsi;
- Tələbələr arasında maarifləndirmə işinin aparılması;
- Tələbələrin asudə vaxtının səmərəli təşkil edilməsi;
- Tələbələrin hüquqlarının təmin edilməsi;
- Respublika daxilində və xaricində keçirilən müsabiqələrdə, olimpiadalarda, sərgilərdə, festivallarda istedadlı və yaradıcı tələbələrin iştirakının təmin edilməsi;
- Tələbələr arasında narkomaniya, alkoqolizm, cinayətkarlıq, əxlaqsızlıq və digər neqativ meyllərə qarşı profilaktik tədbirlərin həyata keçirilməsi;
- Tələbələrin iştirakı ilə müsabiqələrin, seminarların, festivalların, forumların, toplantıların, sərgilərin, dəyirmi masaların, elmi konfransların, təlim kurslarının, kütləvi təbliğat kampaniyalarının, diskussiya klublarının, müzakirələrin, simpoziumların, görkəmli şəxslərlə görüşlərin təşkil edilməsi;
- Tələbələrin maraq və meyllərini, intelektual inkişafını təmin etmək üçün dərnəklərin, studiyaların, klubların, kursların, xidmətlərin təşkil edilməsi.

**3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti**

AzMİU-da psixoloji məsləhət xidmətlərinin göstərilməsi nəzərdə tutulmamışdır.

***3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi***

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

AzMİU-da biliyin qiymətləndirilməsi üç mərhələdə aparılır: cari, aralıq və yekun. Cari qiymətləndirmə tələbələrin dərsə davamiyyəti və semestr ərzində tədris fəaliyyətinə görə həyata keçirilir. Cari qiymətləndirmə sərbəst işlər, laboratoriya işləri, kurs işi və kurs layihələrinin təhvil verilməsi ilə bərabər semestr ərzində ən azı üç dəfə kollokviumların test üsulu ilə kompyuter vasitəsilə keçirilməsi ilə aparılır. Yekun qiymətləndirmə bakalavr səviyyəsində dövlət imtahanı və ya buraxılış işi müdafiəsi, magistratura səviyyəsində isə magistrlik dissertasiyası müdafiəsi formatında keçirilir.

Təhsilalanların biliyk və bacarıqlarının qiymətləndirilməsi Təhsil nazirliyinin 11.09.2008-ci il tarixli 1060a nömrəli əmri ilə təsdiq olunmuş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında” Əsasnaməyə əsasən yerinə yetirilir. 100 ballıq system ilə toplanmış balların müvafiq normalar üzə bölgüsündən tələbənin biliyi hərflərlə (A (əla), B (çox yaxşı), C (yaxşı), D (kafi), E (qənaətbəxş), F (qeyri-kafi)) qiymətləndirilir. Qiymətləndirmə birbaşa elektron sistemə daxil edilir. Hər bir tələbənin hər bir fənn üzrə müvəffəqiyyətinin nəticəsi elektron bazada saxlanılır və asanlıqla əldə edilə bilər.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

Ümumi qiymətləndirmə mərhələli şəkildə formalaşır, hər bir mərhələ 100 ballıq şkala üzrə qiymətləndirilir və ölçülə bilən çəki əmsalına malikdir: a) davamiyyət – 0,1; b) semestr daxili fəaliyyət – 0,3; c) tələbənin sərbəst işi – 0,1; d) imtahan – 0,5.

İmtahanlar mərkəzləşdirilmiş formada test, yazılı və xüsusi qabiliyyət tələb edən fənlər üçün yaradıcılıq formasında aparılır. Magistratura səviyyəsində isə test, yazılı və şifahi formada. Test üsulu ilə keçirilən imtahanlar elektron sistem üzərindən aparılır, test imtahanlarında qiymətləndirmədə obyektivliyi təmin etmək üçün baza, analoq və açıq test suallarından kompüter vasitəsilə hər tələbəyə müxtəlif, təkrarlanmayan suallardan formalaşdırılaraq verilir və tələbənin biliyi dərhal qiymətləndirilir. Yazılı keçirilən imtahanlar bitdikdən dərhal sonra yazı işləri şifrələnməyə göndərilir. Yazı işləri şifrələndikdən sonra xüsusi ayrılmış otaqlarda yoxlanma prosesi həyata keçirilir. Yazı işlərinin yoxlanılmasında ədalətin və obyektivliyin təmin olunması təmin olunur. Yoxlama prosesinə fənni tədris edən müəllimlə yanaşı fənn tədris olunan kafedranın müdiri və digər müəllimlər də cəlb olunur. Yoxlama zalında qiymətləndirmə meyarları da yerləşdirilir.Tələbələrin kurs işi, layihəsi, referat, seminar və digər sərbəst işlər üzrə biliyinin qiymətləndirilməsi üçün dəqiq meyarlar vardır.

### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

AzMİU-da imtahanlar mərkəzləşdirilmiş formada test, yazılı və xüsusui qabiliyyət tələb edən fənlər üçün yaradıcılıq formasında aparılır. Magistratura səviyyəsində test, yazılı və şifahi formada keçirilir. Test üsulu ilə keçirilən imtahanlar elektron sistem üzərindən aparılır. Məşğələ və seminarlarda qiymətləndirmə üz-üzə qaydada həyata keçirilir.

Covid-19 pandemiyası dövründə, tədrisin onlayn təşkili zamanı qiymətləndirmə prosesi məsafədən aparılmışdır.

Kurs işlərinin, buraxılış işlərinin müdafiəsi tələbənin komissiya qarşısında açıq müdafiəsi formasında həyata keçirilir.

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

Azərbaycan Respublikası Təhsil Nazirinin 1060 saylı 11.09.2008-ci il tarixli əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə"dəki meyarlar diqqətə alınaraq hər bir təhsilalanın biliyi obyektiv qaydada qiymətləndirilir. İmtahan nəticələri ilə razılaşmayan hər bir tələbənin apellyasiya komissiyasına müraciət etmə hüququ vardır. Apellyasiya komissiyasında təhsilalanların iddiaları fənni tədris edən müəlimin və tələbənin iştirakı ilə yenidən baxılıb qiymətləndirilir.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Təhsilalanların biliyi qiymətləndirilməsində təhsilalanların sərbəst işlərinin və müəyyən fənlər üzrə bəzi mövzuları qrup və ya fərdi qaydada hazırlayıb təqdimat şəklində dərsdə təqdim etmələrinin xüsusi əhəmiyyəti vardır. Belə ki, tələbə fənni tədris edən müəllimlə sərbəst iş mövzusu seçir və semestrin sonuna qədər sərbəst işini hazırlayıb müəllimə təqdim edir.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

AzMİU-da təhsil alan hər bir tələbəyə google domainli korporativ elektron poçt ünvanı ilə təmin edilir. Tədrisin və qiymətləndirmənin effektivliyinin artırılması üçün informasiya kommunikasiya texnologiyalarından istifadə edilir. Tələbələr sərbəst işlərini və semestrdaxili fəaliyyət çərçivəsində hazırladıqları tapşırıqlarını "EMS" vasitəsilə fənni tədris edən müəllimlərə təqdim edirlər.

Tələbənin biliyinin qiymətləndirilməsindən sonra tələbə imatahan nəticələri ilə bağlı bütün məlumatları universitetin elektron məlumat sistemindəki şəxsi kabineti vasitəsi ilə əldə edir.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

Sağlamlıq imkanları məhdud olan təhsilalanlar üçün xüsusi qiymətləndirmə üsulları nəzərdə tutulmamışdır. Amma sağlamlıq imkanları məhdud olan təhsilalanlar fərdi qaydada qiymətləndirilir. Buna misal olaraq görmə qabiliyyəti olmayan və ya çox zəif olan tələbələr üçün yazılı olan imtahanlar şifahi qaydada təşkil edilir və qiymətləndirilir.

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

AzMİU-da cari qiymətləndirmə üç mərhələdə aparılır: cari, aralıq və yekun. Cari qiymətləndirmə tələbələrin dərsə davamiyyəti və semestr ərzində tədris fəaliyyətinə görə həyata keçirilir. Cari qiymətləndirmə sərbəst işlər, laboratoriya işləri, kurs işi və kurs layihələrinin təhvil verilməsi ilə bərabər semestr ərzində test üsulu ilə kompyuter vasitəsi

ən azı üç dəfə kollokviumların keçirilməsi ilə aparılır. Kollokviumların qiymətləndirməsi imtahan sessiyalarında keçirilən imtahanlar vasitəsi ilə aparılır. Yekun qiymətləndirmə bakalavr səviyyəsində dövlət imtahanı və ya buraxılış işi müdafiəsi, magistratura səviyyəsində isə magistrlik dissertasiyası müdafiəsi formatında keçirilir.

Hər imtahan sessiyasından öncə rektorun sessiyanın keçirilməsinə dair əmri imzalanır. Sessiyanın keçirilməsi üçün imtahan komisiiyası, test komissiyası, imtahan qərargahı, münaqişə komissiyası, nəzarət və şifrələmə qrupları və s. bölmələr fəaliyyət göstərir. İmtahanlar mərkəzləşdirilmiş formada test, yazılı və xüsusui qabiliyyət tələb edən fənlər üçün yaradıcılıq formasında aparılır.

Magistratura səviyyəsində test, yazılı və şifahi formatda keçirilir. Test üsulu ilə keçirilənimtahanlar elektron sistem üzərindən aparılır, test imtahanlarında qiymətləndirmədə obyektivliyi təmin etmək üçün isə baza, analoq və açıq test suallarından kompyuter vasitəsilə hər tələbəyə müxtəlif, təkrarlanmayan suallar formalaşdırılaraq verilir və tələbənin biliyi dərhal qiymətləndirilir. Yazılı keçirilən imtahanlar bitdikdən dərhal sonra yazı işləri şifrələnməyə göndərilir. Yazı işləri şifrələndikdən sonra xüsusi ayrılmış otaqlarda yoxlanma prosesi həyata keçirilir.

Yazı işlərini yoxlanılmasında ədalətin və obyektivliyin təmin olunması təmin olunur. Şifrələr açıldıqdan sonra qiymətlər dərhal tələbələrin kabinetlərinə və universitetin elektron sisteminə yerləşdirilir.

İmtahan nəticələrindən narazı qalan tələbələr elektron kabinet vasitəsi ilə münaqişə komissiyasına müraciət edir və işlərə komissiyada baxılaraq müvafiq rəylər verilir.

AzMİU-nun buraxılış qruplarının tələbələrinin həm bakalavr, həm də magistratura səviyyələrində yekun dövlət attestasiyası tədris proqramlarına uyğun yaradılmış müvafiq Dövlət Attestasiya Komissiyalarında (DAK) və İxtisaslaşdırılmış Şuralarında buraxılış işlərinin və dissertasiyaların müdafiəsi ilə başa çatdırılır. Buraxılış işlərinin müdafiəsi üçün DAK-ın tərkibi müvafiq əmr ilə yaradılır və təqvim ili boyu fəaliyyət göstərir. DAK Sədrləri rotasiya qaydasında 3 ildən bir istehsalat nümayəndələrindən seçilir. Buraxılış işlərinin müdafiələri iki mərhələdə aparılır (ilkin müzakirə və yekun müdafiə). Magistr dissertasiyalarının mövzuları və rəhbərləri magistrantların razılığı və istəyi əsasında aparılır və əmrləşdirilir. İxtisaslaşdırılmış Şuralar nazirliyin müvafiq əmrləri ilə təşkil olunur və il boyu fəaliyyət göstərir. Müdafiələr iki mərhələdə (ilkin müzakirə və yekun müdafiə) aparılır. Dövlət İmtahanları Komissiyaların iştirakı ilə test üsulu vasitəsilə kompüterdə aparılır və dərhal qiymətləndirilir.

### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

AzMİU-da Yekun Dövlət Qiymətləndirilməsi (yekun dövlət imtahanı və / və ya buraxılış işi, magistrlik dissertasiyasının müdafiəsi) sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğun təşkil edilir və nəticələri məsul şəxslər tərəfindən EMS-yə daxil edilir. Universitet və fakültə Elmi şuralarında və Keyfiyyətin Təminatı Mərkəzində bilik və bacarıqların qiymətləndirilməsi sistemi təhlil olunur, proseslərin izlənilməsi və təkmilləşdirilməsi üzrə qərarlar qəbul olunur. AzMİU-da bakalavriat və magistratura səviyyələri üzrə yekun attestasiyanın təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil

pilləsinin dövlət standartı və proqramı”nın, Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə”nin, magistratura səviyyəsi üzrə isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”nın və Azərbaycan Respublikası Təhsil Nazirinin 20.04.1998-ci il tarixli 202 saylı əmri ilə təsdiq olunmuş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə”nin tələbləri çərçivəsində həyata keçirilir. Buraxılış işlərinin və magistrlik dissertasiyalarının hazırlanması və müdafiəsinin təşkili müvafiq təlimatlara uyğun normativ tələbləri gözləməklə aparılır. Belə ki, bakalavriat və magistratura səviyyələrində tədris planının bütün şərtlərini yerinə yetirmiş tələbələr yekun attestasiyaya buraxılırlar. Yekun attestasiya bakalavriat səviyyəsi üzrə buraxılış işi müdafiəsindən və ya ixtisas fənləri üzrə imtahanlardan, magistratura səviyyəsi üzrə isə magistrlik dissertasiyası müdafiəsindən ibarətdir. AzMİU-da magistrlik dissertasiyasının müdafiəsi ixtisaslaşdırılmış şuraların iclaslarında aparılır. İxtisaslaşdırılmış şuraların işinin təşkili Təhsil Nazirliyinin 10.11.98-ci il tarixli 742 saylı əmri ilə təsdiq olunmuş “Magistrlik dissertasiyasının müdafiəsi üçün ixtisaslaşdırılmış elmi şuralar haqqında” əsasnamənin tələblərinə uyğun həyata keçirilir.

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

AzMİU-da təhsialanların biliyinin qiymətləndirilməsi üç mərhələdə aparılır: cari, aralıq və yekun.

Hər imtahan sessiyasından öncə rektorun əmri ilə sessiyanın keçirilməsinə dair əmr imzalanır. Sessiyanın keçirilməsi üçün imtahan komissiyası, imtahan qərargahı, münaqişə komissiyası, nəzarət bölmələri fəaliyyət göstərir. İmtahanlar test, yazılı və xüsusui qabiliyyət tələb edən fənnlər üçün yaradıcılıq formasında aparılır. Yoxlama prosesinə fənni tədris edən müəllimlə yanaşı fənn tədris olunan kafedranın müdiri və digər müəllimlər də cəlb olunur. Yoxlama zalında qiymətləndirmə meyarları da yerləşdirilir. Sessiyanın yekunlarına dair hesabatlar fakültələrdə və Universitet Elmi Şurasında müzakirə olunur.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

Təhsil səviyyəsinin bitirilməsi qaydaları Təhsil Nazirliyinin müvafiq sərəncam və əmrlərinrə uyğun olaraq sadə, aydın və başa düşülən şəkildə tələbələrə əlçatan formada AzMİU-nun ETS-də yerləşdirilir.

AzMİU-da ali təhsilin bakalavriat, magistratura, doktorantura səviyyələri üzrə tədrisin təşkili ali təhsil pilləsinin dövlət standartının tələblərinə uyğun Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar əsasında kredit sistemi (Avropa ölkələrində tətbiq olunan Avropa Kredit Transfer Sistemi — AKTS) ilə həyata keçirilir. Tələbələrin fənlər üzrə attestasiyası (biliyinin qiymətləndirilməsi) Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilmiş qaydada çoxballı (100 ballı) sistemlə həyata keçirilir. Bu balların yarısı semestr ərzindəki fəaliyyətə, digər yarısı isə imtahanın nəticələrinə gorə toplanır. Tələbə semestr sonu imtahanda

minimum 34 bal toplamalıdır. Müvəffəqiyyət qiymətinin hesablanması aşağıdakı cədvəldə verilən nisbətlərdə və düstur əsasında aparılır:

Tədris ili, bir qayda olaraq, iki semestrdən (payız və yaz) ibarətdir. Bundan əlavə, yay tətili müddətində 6 (altı) həftədən çox olmayaraq, yay semestri də təşkil olunur. Hər semestr 20 həftədən (o cümlədən 5 həftə imtahan sessiyası) ibarətdir. Ali təhsilin bakalavriat və magistratura səviyyələrində ixtisaslar üzrə təhsil proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır. Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş tələbələr yekun dövlət attestasiyasına buraxılırlar. Yekun attestasiya bütün təhsilalanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 6 həftədir. Yekun attestasiya ixtisas üzrə buraxılış yekun dövlət imtahanı (fənlərarası) və ya buraxılış işinin müdafiəsindən ibarətdir. İxtisasın (ixtisaslaşmanın) təhsil müddətindən asılı olaraq, tələbələrə bakalavriatda 240 kredit (əsas baza ali), magistraturada təhsilin normativ müddəti 1,5 il olduğu halda 90, 2 (iki) il olduğu halda isə 120 kredit müəyyənləşdirilir. Müəyyən olunmuş kreditin tələbə tərəfindən yığılması məcburidir. İxtisaslar üzrə təhsil proqramlarında nəzərdə tutulmuş kreditləri toplayan tələbə həmin proqramı mənimsəmiş hesab edilir. Ali təhsil müəssisələrində bakalavriat səviyyəsinin tədris proqramı üzrə tədris planını tam yerinə yetirmiş şəxslərə yekun Dövlət Attestasiya Komissiyasının qərarı əsasında "bakalavr" ali peşə-ixtisas dərəcəsi verilir.

#### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

AzMİU-nu bitirən məzunlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin bakalavriat və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"na əsasən diplom və diploma əlavə verilir. Təhsilə fasilə vermiş tələbələrə Nazirlər Kabinetinin 21.01.2010-cu il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"na əsasən müvafiq arayış verilir. Verilən sənədlərin qeydiyyatı aparılır və bu məlumatlar müvafiq elektron bazalara daxil edilir.

### *3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

#### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

AzMİU-da professor-müəllim heyətinin sayı 540 nəfərdir. Bunlardan: 65 nəfəri elmlər doktoru, 53 nəfəri professor, 4 nəfəri məsləhətçi professor, 251 nəfəri fəlsəfə doktoru (onlardan 215 nəfəri dosentdir) və 236 nəfəri baş müəllim və assistent-müəllimlərdir. Universitetə professor-müəllim heyəti müsabiqə yolu ilə 5 il müddətinə işə qəbul edilir. Universitet tədris ilinin əvvəlində müddəti bitmiş müəllimlərin seçkidən keçməsi üçün qrafik hazırlayır, rektora və elmi katibə təqdim edir, ezamiyyətdə olan və xəstəliyi olan akademik heyətin isə seçki müddəti uzadılır. Universitet, işə qəbul edilən əməkdaşların peşə-ixtisas hazırlığının yüksək olmasına, elmi adı və dərəcəsi olmasına, lazımi pedaqoji və ya istehsalat təcrübəsinə malik, yüksək mənəvi keyfiyyətlərə, innovativ və müasir tədris metodlarından istifadə etmək bacarığına sahib olmasına diqqət

edir, *lakin sahəyə baxış zamanı İnşaat fakültəsində əməkdaşların yüksək istehsalat təcrübəsinə malik olmasının yetərli olmadığı müəyyən edildi. Yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyətini sübut edən sənədlərə rast gəlinmədi. AzMİU-da professor-müəllim heyətinin fəaliyyətini səmərələşdirən tədbirlərin təşkili, məsləhətçi professorların illik hesabatı sənədləri müəyyən edilmədi.*

### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

Universitet 2015/2022-ci illər ərzində professor-müəllim heyətinin interaktiv və aktiv tədris metodları, eləcədə distant tədris proseslərindən istifadə etməsi sahəsində bilik və bacarıqlarını inkişaf etdirməyə yönəlmiş sistemli təlimlər həyata keçirmişdir *(Cədvəl 3.10).*

ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən Fulbrayt Elmi-Tədqiqat Səfər Proqramı çərçivəsində Memarlıq fakültəsinin və Ekologiya mühəndisliyi kafedrasının 49 nəfər müəllim heyəti üçün ayrı-ayrılıqda seminarlar, ustad dərsləri keçirilmişdir.

Tekla Trimble şirkətinin nümayəndəsi AzMİU-da vörkşop keçirib. Tekla Trimble şirkətinin Moskva ofisindən texniki konsultant Andrey Didux Universitetin Memarlıq və İnşaat fakültəsinin müəllim və tələbələri üçün Tekla Structuresdan istifadə üzrə praktiki master-klass keçib. Müəllim və tələbələrin böyük marağına səbəb olan ustad dərsində Andrey Didux onları BIM texnologiyalarının trendləri və Trimble istehsalı olan digər proqram təminatları ilə tanış edib.

AzMİU-da Fransanın Sorbonna Universitetinin təşkilatçılığı ilə “Universitet sistemində interaktiv təhsil” adlı treninqlər keçirilmişdir. Treninqdə AzMİU-nun 80 müəllimi iştirak etmişdir.

**Cədvəl 3.10.**

**Pedaqoji səriştələrin artırılması üçün tədbirlərə cəlb olunmuş akademik heyətin sayı (%-lə)**

| Pedaqoji səriştələrin artırılması üçün tədbirlərə cəlb olunmuş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) | | |
|---|---|---|
| 2015/2016 | Memarlıq | 56% |
| | İnşaat | 85% |
| | ST və MKS | 59% |
| | Nəqliyyat | 59% |
| | İnşaat texnologiya | 69% |
| | Tikinti-iqtisad | 59% |
| | MİT | 56% |
| | Əcnəbi vətəndasların hazırlığı | 47% |
| 2016/2017 | Memarlıq | 55% |

| | | |
|---|---|---|
| | İnşaat | 65% |
| | ST və MKS | 68% |
| | Nəqliyyat | 70% |
| | İnşaat texnologiya | 76% |
| | Tikinti-iqtisad | 57% |
| | MİT | 74% |
| | Əcnəbi vətəndasların hazırlığı | 53% |
| 2017/2018 | Memarlıq | 71% |
| | İnşaat | 71% |
| | ST və MKS | 68% |
| | Nəqliyyat | 73% |
| | İnşaat texnologiya | 60% |
| | Tikinti-iqtisad | 71% |
| | MİT | 64% |
| | Əcnəbi vətəndasların hazırlığı | 53% |
| 2018/2019 | Memarlıq | 74% |
| | İnşaat | 81% |
| | ST və MKS | 81% |
| | Nəqliyyat | 71% |
| | İnşaat texnologiya | 78% |
| | Tikinti-iqtisad | 71% |
| | MİT | 57% |
| | Əcnəbi vətəndasların hazırlığı | 71% |
| 2019/2020 | Memarlıq | 60% |
| | İnşaat | 74% |
| | ST və MKS | 58% |
| | Nəqliyyat | 69% |
| | İnşaat texnologiya | 73% |
| | Tikinti-iqtisad | 67% |
| | MİT | 72% |
| | Əcnəbi vətəndasların hazırlığı | 53% |

| | | |
|---|---|---|
| 2020/2021 | Memarlıq | 64% |
| | İnşaat | 75% |
| | ST və MKS | 65% |
| | Nəqliyyat | 75% |
| | İnşaat texnologiya | 72% |
| | Tikinti-iqtisad | 88% |
| | MİT | 81% |
| | Əcnəbi vətəndasların hazırlığı | 53% |
| 2021/2022 | Memarlıq | 81% |
| | İnşaat | 81% |
| | ST və MKS | 94% |
| | Nəqliyyat | 87% |
| | Tikinti-iqtisad | 90% |
| | MİT | 79% |
| | Əcnəbi vətəndaşların hazırlığı | 56% |

Universitet akademik heyətin texnoloji səriştələrinin yüksəldilməsi üçün müxtəlif təlimlər keçirir və sonda mənimsəməni yoxlamaq məqsədi ilə imtahan təşkil edir, imtahandan keçən müəllmlərə sertifikat verilir, sertifikat almayan müəllimlər təkrar təlimlərə cəlb olunur və akademik heyətin seçki müsabiqələrində iştirakı zamanı sertifikatın olmasına diqqət yetirilir. İndiyə qədər sertifikasiyadan keçən müəllimlərin statistikası aşkar edilmədi.

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

AzMİU-nun İKT mərkəzi tərəfindən tədris prosesinin interaktiv metodlarla aparılması sahəsində Akademik heyətin öz bilik və bacarıqlarını artırmaları üçün təlimlər həyata keçirilmişdir, təlimlərdən əldə edilən nəticə sayəsində distant təhsil universitetin qiyabi qruplarında tətbiq olunur, *lakin universitet tədris prosesini müasir metodlarla həyata keçirməsi üçün auditoriyalar lazımi texnoloji avadanlıqlarla təchiz edilməmişdir. Bundan başqa kafedralarda çalışan professor-müəllim heyətinin tərkibində olan yaşlı əməkdaşlar müasir texnoloji metodlardan lazımi səviyyədə istifadə etməkdə çətinlik çəkirlər.*

### 3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

AzMİU-nun professor-müəllim heyəti 5 ildən bir stajkeçmə kurslarına cəlb olunur. Akademik heyətin ixtisasartırma prosesi aparıcı universitet, idarə və təşkilatlarda həyata keçirilmişvə bunu əks etdirən məlumatlar Cədvəl 3.11-də verilmişdir.

**Cədvəl 3.11.**

**2015-2022-ci illər ərzində ixtisasartırma kurslarında pedaqoji heyətin iştirakı vəziyyəti**

| AzMİU-nun professor-müəllim heyətinin 2015-2022-ci illər ərzində ixtisasartırma kurslarında iştirakı vəziyyətini göstərən məlumat | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| № | **Fakültə** | **2015/2016** | **2016/2017** | **2017/2018** | **2018/2019** | **2019/2020** | **2020/2021** | **2021/2022** | **Cəmi** (nəfər) |
| 1 | Memarlıq | 11 | 6 | 5 | 8 | 7 | 6 | 8 | 51 |
| 2 | İnşaat | 5 | 8 | 4 | 7 | 8 | 2 | 8 | 42 |
| 3 | STvə MKS | 13 | 3 | 2 | 5 | 2 | 2 | 4 | 31 |
| 4 | Nəqliyyat | 13 | 5 | 1 | 5 | 2 | 2 | 7 | 35 |
| 5 | Tikinti-İqtisad | 8 | 2 | 7 | 3 | 10 | 4 | 7 | 41 |
| 6 | Mexanika və informasiya texnologiyaları | 11 | 8 | 2 | 4 | 2 | 3 | 5 | 35 |
| 7 | İnşaat texnologiyası | 5 | 8 | 4 | 7 | 8 | 2 | 8 | 42 |

| İxtisasartırma kurslarına, təlimlərə və ya digər kurslara cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) | | |
|---|---|---|
| 2015/2016 | Memarlıq | 12% |
| | İnşaat | 13,40% |
| | ST və MKS | 20,96% |
| | Nəqliyyat | 25% |
| | İnşaat texnologiya | 11,60% |
| | Tikinti-iqtisad | 13,50% |
| | MİT | 32,60% |
| | Əcnəbi vətəndasların hazırlığı | - |
| 2016/2017 | Memarlıq | 5,80% |
| | İnşaat | 6,80% |
| | ST və MKS | 3,00% |
| | Nəqliyyat | 1,50% |
| | İnşaat texnologiya | 10,80% |
| | Tikinti-iqtisad | 9,70% |
| | MİT | 4,00% |
| | Əcnəbi vətəndasların hazırlığı | - |
| 2017/2018 | Memarlıq | 12,80% |

| | | |
|---|---|---|
| | İnşaat | 6,70% |
| | ST və MKS | 7,60% |
| | Nəqliyyat | 8,90% |
| | İnşaat texnologiya | 10,80% |
| | Tikinti-iqtisad | 12,50% |
| | MİT | 10,20% |
| | Əcnəbi vətəndasların hazırlığı | - |
| 2018/2019 | Memarlıq | 11,60% |
| | İnşaat | 13,20% |
| | ST və MKS | 7,20% |
| | Nəqliyyat | 7,80% |
| | İnşaat texnologiya | 17,90% |
| | Tikinti-iqtisad | 4,10% |
| | MİT | 7,30% |
| | Əcnəbi vətəndasların hazırlığı | - |
| 2019/2020 | Memarlıq | 18,07% |
| | İnşaat | 30% |
| | ST və MKS | 10,10% |
| | Nəqliyyat | 12,07% |
| | İnşaat texnologiya | 11% |
| | Tikinti-iqtisad | 18% |
| | MİT | 10,90% |
| | Əcnəbi vətəndasların hazırlığı | - |
| 2020/2021 | Memarlıq | 7,40% |
| | İnşaat | 2,70% |
| | ST və MKS | 3% |
| | Nəqliyyat | 3,60% |
| | İnşaat texnologiya | 5,70% |
| | Tikinti-iqtisad | 5,30% |
| | MİT | 5,30% |
| | Əcnəbi vətəndasların hazırlığı | - |
| 2021/2022 | Memarlıq | 17,50% |

| | | |
|---|---|---|
| | İnşaat | 12,30% |
| | ST və MKS | 48,40% |
| | Nəqliyyat | 63,60% |
| | Tikinti-iqtisad | 51,25% |
| | MİT | 57,14% |
| | Əcnəbi vətəndasların hazırlığı | - |

Bundan əlavə universitetdə 2015/2019-cu tədris illərində İnşaat mühəndisliyi və Geodeziya üzrə 3 aylıq ixtisasartırma kursları təşkil olunmuşdur.

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı əsasən AB-nin Erasmus+ proqramı, Mövlanə mübadilə proqramı, Orhun mübadilə proqramı, universitetlərarası əməkdaşlıq müqavilələri çərçivəsində həyata keçirilir. Peşəkar inkişaf proqramlarını həyata keçirmək üçün tərəflər arasında təhsilin səviyyəsi, təhsil dili, təhsilin müasir problemləri və s. bu kimi məsələləri özündə əks etdirən müvafiq protokollar imzalanır.

AzMİU-da Fulbrayt Elmi-Tədqiqat Səfər Proqramı çərçivəsində Memarlıq fakültəsinin və Ekologiya mühəndisliyi kafedrasının müəllimləri üçün ayrı-ayrılıqda seminarlar, ustad dərsləri, workshoplar, “Davamlı şəhərsalma inkişafında müasir təhsil istiqamətləri” mövzusunda dərslər təşkil edilmişdir.

2017-2018-ci və 2018-2019 tədris illərində Almaniyanın DAAD proqramının “Qısa müddətli dosentlik” layihəsi çərçivəsində Köln Universitetinin professoru, 2019-2020- ci tədris ilində İtaliya Xarici İşlər Nazirliyi və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin “Laureati per l’italiano” layihəsi çərçivəsində 2 italyan müəllim, ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi “English Language Fellow” təqaüd proqramı çərçivəsində 1 amerikalı mütəxəssis 2022-2023 tədris ilində AzMİU-da akademik heyətə təlimlər keçmişdir.

**Cədvəl 3.12.**

**Beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak etmiş akademik heyətin sayı (%-lə)**

| Beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak etmiş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) | | |
|---|---|---|
| 2015/2016 | Memarlıq | 16,98% |
| | İnşaat | 3,53% |
| | ST və MKS | 12,68% |
| | Nəqliyyat | 2,63% |
| | İnşaat texnologiya | 2,08% |

| | | |
|---|---|---|
| | Tikinti-iqtisad | 4,29% |
| | MİT | 6,35% |
| | Əcnəbi vətəndasların hazırlığı | 0,0% |
| 2016/2017 | Memarlıq | 12,87% |
| | İnşaat | 6,06% |
| | ST və MKS | 21,92% |
| | Nəqliyyat | 4,94% |
| | İnşaat texnologiya | 2,63% |
| | Tikinti-iqtisad | 2,60% |
| | MİT | 3,51% |
| | Əcnəbi vətəndasların hazırlığı | 0,0% |
| 2017/2018 | Memarlıq | 9,80% |
| | İnşaat | 7,94% |
| | ST və MKS | 10,0% |
| | Nəqliyyat | 0,0% |
| | İnşaat texnologiya | 5,71% |
| | Tikinti-iqtisad | 2,6% |
| | MİT | 9,09% |
| | Əcnəbi vətəndasların hazırlığı | 0,0% |
| 2018/2019 | Memarlıq | 6,54% |
| | İnşaat | 9,68% |
| | ST və MKS | 18,52% |
| | Nəqliyyat | 0,0% |
| | İnşaat texnologiya | 4,88% |
| | Tikinti-iqtisad | 9,21% |
| | MİT | 12,70% |
| | Əcnəbi vətəndasların hazırlığı | 11,76% |
| 2019/2020 | Memarlıq | 3,85% |
| | İnşaat | 3,28% |
| | ST və MKS | 8,43% |
| | Nəqliyyat | 8,11% |

| | | |
|---|---|---|
| | İnşaat texnologiya | 7,32% |
| | Tikinti-iqtisad | 5,13% |
| | MİT | 11,67% |
| | Əcnəbi vətəndasların hazırlığı | 5,26% |
| 2020/2021 | Memarlıq | 0,0% |
| | İnşaat | 0,0% |
| | ST və MKS | 1,22% |
| | Nəqliyyat | 0,0% |
| | İnşaat texnologiya | 0,0% |
| | Tikinti-iqtisad | 2,41% |
| | MİT | 3,17% |
| | Əcnəbi vətəndasların hazırlığı | 0,0% |
| 2021/2022 | Memarlıq | 10,31% |
| | İnşaat | 0,0% |
| | ST və MKS | 19,51% |
| | Nəqliyyat | 2,67% |
| | Tikinti-iqtisad | 9,30% |
| | MİT | 7,46% |
| | Əcnəbi vətəndasların hazırlığı | 6,25% |

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

*Tədris prosesində professor-müəllim heyətinin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsini təsdiq edən sübutlar aşkar edilmədi.*

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

AzMİU-da hər tədris ilinin sonunda növbəti il üçün dərs yüklərinin bölgüsünü əks etdirən rektorluğun hazırlıq əmri hazırlanır. Dərs yükünün professor-müəllim heyəti arasında bölündükdən sonra hər bir müəllim üçün illik işçi tədris planı tərtib edilir, işçi tədris planı kafedra müdirləri tərəfindən təsdiq edilir. Bundan sonra illik işçi tədris planı müvafiq komissiya tərəfindən yoxlanılır və rəy verildikdən sonra universitet rektorunun təsdiqinə təqdim edilir. Komissiya rəy verən zaman müəllimin əsasən ştatda olmasına, İKT sahəsində bilik və bacarığına və dərs prosesinə innovativ yanaşma metodlarından nə dərəcədə istifadə etməsinə diqqət edir.

**Cədvəl 3.13.**

## AzMİU-da ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükü bölgüsü

| Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü | | | | | |
|---|---|---|---|---|---|
| Fakültə(lər) | Kafedralar | Kafedrada fəaliyyət göstərən akademik heyətin sayı | Kafedraya əvəzçilik qaydada cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) | Kafedrada fəaliyyət göstərən saathesabı qaydada cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) | Kafedralar üzrə dərs saatlarının miqdarı |
| Memarlıq | Memarlıq layihələndirilməsi və şəhərsalma | 17 | 58.8% (10) | 5.8% (1) | 17951 |
| | Memarlıq konstruksiyaları və abidələrin bərpası | 17 | 5.8% (1) | 11.7% (2) | 8217 |
| | Memarlığın əsasları | 11 | 18.1% (2) | 0 | 5042 |
| | Landşaft memarlığı | 7 | 28.5% (2) | 0 | 4267 |
| | Dizayn | 20 | 8.6% (2) | 0 | 14834 |
| | Təsviri incəsənət | 9 | 0 | 0 | 3960 |
| İnşaat | Bünövrələr, özüllər və yeraltı qurğular | 4 | 43 | 0 | 2572 |
| | İnşaat konstruksiyaları | 10 | 29 | 0 | 8677 |
| | Materialşünaslıq | 16 | 6 | 0 | 7442 |
| | Bina və qurğuların istismarı və rekonstruksiyası | 11 | 8 | 0 | 5437 |
| | Mexanika | 16 | 16 | 0 | 8738 |
| | Tikinti istehsalatının texnologiyası, təşkili və idarə olunması | 11 | 8 | 7 | 6906 |
| | İctimai fənlər | 9 | 21 | 14 | 5276 |
| ST və MKS | Ekologiya | 6 | 15% | 0 | 6018 |
| | MS və QT | 16 | 0 | 0 | 10106 |
| | Melio-a və ST tik-si | 17 | 0 | 9% | 15925 |
| | Ali riyaziyyat | 21 | 29% | 0 | 10150 |
| Nəqliyyat | Nəqliyyat və Logistika | 14 | 30% | 0 | 10222 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Geomatika | 14 | 36% | 0 | 13443 |
| | HFT və FH | 8 | 27% | 0 | 6766 |
| | Fizika | 18 | 0.05% | 0.10% | 7312 |
| Tikinti-İqtisad | Sənayenin təşkili və idarə edilməsi | 16 | 18% | 0 | 8229 |
| | Biznesin iqtisadiyyatı və menecment | 20 | 15% | 0 | 12619 |
| | İqtisadi nəzəriyyə və marketinq | 12 | 8% | 0 | 7199 |
| | Əcnəbi dillər | 32 | 9% | 0 | 19102 |
| MİT | Texnoloji maşın və avadanlıqlar | 16 | 12% | 0 | 7168 |
| | İnformasiya texnologiyalar və sistemləri | 32 (11 əvəzçi) | 5% | 1% | 20164 |
| | Tərsimi həndəsə və mühəndis qrafikası | 9 | | 0 | 4323 |
| Əcnəbi tələbələrlə iş üzrə dekanlıq | Azərbaycan dili və pedaqogikası | 13 | 18% | 12% | 6189 |

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

*AzMİU-da professor-müəllim heyətinin tələbə sayına nisbəti 2019-2022 tarixləri arasında 1/15 prinsipinə uyğun gəlmir. Cədvəl 3.14-də* ATM-də professor-müəllim heyətinin tələbə sayına nisbəti dinamikası verilmişdir:

**Cədvəl 3.14.**

**AzMİU-da professor-müəllim heyətinin tələbə sayına nisbəti**

| Tədris ili | Tələbə sayı | Ştatda olan müəllim sayı (nəfər) | Tələbə müəllim nisbəti |
|---|---|---|---|
| 2019-2020 | 6796 | 426,5 | 15,9 |
| 2020-2021 | 7237 | 433,25 | 16,7 |
| 2021-2022 | 7237 | 431,5 | 16,8 |

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

ATM-də fəaliyyət göstərən 540 nəfər akademik heyətin 70%-dən çoxunun əsas iş yeri AzMİU-dur. Belə ki, 2015-2022 tarixləri arasında professor-müəllim heyətinin əsas iş yerinin AzMİU olmasında azalma müşahidə olunur. *Cədvəl 3.15-də* akademik heyətin əsas iş yerinin ATM olmasının vəziyyəti əks etdirilmişdir:

**Cədvəl 3.15.**

**Əsas iş yeri AZMİU olan akademik heyətin illər üzrə dinamikası (%-lə)**

| Tədris prosesində iştirak edən və əsas iş yeri müəssisə olan akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) | | |
|---|---|---|
| 2015/2016 | Memarlıq | 85% |
| | İnşaat | 79% |
| | ST və MKS | 87% |
| | Nəqliyyat | 68% |
| | İnşaat texnologiya | 90% |
| | Tikinti-iqtisad | 84% |
| | MİT | 78% |
| | Əcnəbi vətəndasların hazırlığı | 100% |
| 2016/2017 | Memarlıq | 85% |
| | İnşaat | 86% |
| | ST və MKS | 89% |
| | Nəqliyyat | 83% |
| | İnşaat texnologiya | 97% |
| | Tikinti-iqtisad | 94% |
| | MİT | 86% |
| | Əcnəbi vətəndasların hazırlığı | 94% |
| 2017/2018 | Memarlıq | 83% |
| | İnşaat | 90% |
| | ST və MKS | 87% |
| | Nəqliyyat | 81% |
| | İnşaat texnologiya | 97% |
| | Tikinti-iqtisad | 92% |
| | MİT | 91% |
| | Əcnəbi vətəndasların hazırlığı | 88% |
| 2018/2019 | Memarlıq | 82% |
| | İnşaat | 85% |
| | ST və MKS | 85% |
| | Nəqliyyat | 84% |
| | İnşaat texnologiya | 95% |

| | | |
|---|---|---|
| | Tikinti-iqtisad | 96% |
| | MİT | 87% |
| | Əcnəbi vətəndasların hazırlığı | 88% |
| 2019/2020 | Memarlıq | 80% |
| | İnşaat | 82% |
| | ST və MKS | 83% |
| | Nəqliyyat | 78% |
| | İnşaat texnologiya | 90% |
| | Tikinti-iqtisad | 92% |
| | MİT | 92% |
| | Əcnəbi vətəndasların hazırlığı | 84% |
| 2020/2021 | Memarlıq | 79% |
| | İnşaat | 83% |
| | ST və MKS | 80% |
| | Nəqliyyat | 81% |
| | İnşaat texnologiya | 90% |
| | Tikinti-iqtisad | 90% |
| | MİT | 90% |
| | Əcnəbi vətəndasların hazırlığı | 82% |
| 2021/2022 | Memarlıq | 82% |
| | İnşaat | 87% |
| | ST və MKS | 78% |
| | Nəqliyyat | 73% |
| | Tikinti-iqtisad | 93% |
| | MİT | 84% |
| | Əcnəbi vətəndasların hazırlığı | 81% |

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

AzMİU-da 2015-2022-ci illər ərzində ştatda olan professor-müəllim heyəti xaricində kənardan aparıcı istehsalat müəssisələrində çalışan, kifayət qədər nəzəri və praktik biliklərə malik təcrübəli yerli mütəxəssislər və əcnəbi akademik heyət universitetlərarası əməkdaşlıq çərçivəsində universitetdə tədris prosesinə cəlb olunmuşdur. *Cədvəl 3.16-da* ATM-ə cəlb edilmiş əcnəbi akademik heyətin dinamikasını görmək mümkündür:

**Cədvəl 3.16.**

**AzMİU-da tədris prosesinə cəlb edilmiş əcnəbi akademik heyətin illər üzrə sayı (%-lə)**

| Tədris prosesinə cəlb edilmiş əcnəbi akademik heyətin ümumi akademik heyətdə payı | | | | |
|---|---|---|---|---|
| | Fakültə | ümumi akademik heyətin sayı | əcnəbi akademik heyətin sayı | nisbət (faizlə) |
| 2015/2016 | Memarlıq | 106 | 1 | 0,94% |
| | İnşaat | 85 | 1 | 1,18% |
| | ST və MKS | | | - |
| | Nəqliyyat | | | - |
| | İnşaat texnologiya | | | - |
| | Tikinti-iqtisad | | | - |
| | MİT | | | - |
| | Əcnəbi vətəndasların hazırlığı | | | - |
| 2016/2017 | Memarlıq | 101 | 7 | 6.93% |
| | İnşaat | 66 | 2 | 3.03% |
| | ST və MKS | 73 | 1 | 1.37% |
| | Nəqliyyat | | | - |
| | İnşaat texnologiya | | | - |
| | Tikinti-iqtisad | | | - |
| | MİT | | | - |
| | Əcnəbi vətəndasların hazırlığı | 17 | 3 | 17.65% |
| 2017/2018 | Memarlıq | 102 | 3 | 2.94% |
| | İnşaat | | | - |
| | ST və MKS | 80 | 1 | 1.25% |
| | Nəqliyyat | | | - |
| | İnşaat texnologiya | | | - |
| | Tikinti-iqtisad | | | - |
| | MİT | | | - |
| | Əcnəbi vətəndasların hazırlığı | 17 | 3 | 17,65% |
| | Memarlıq | 104 | 9 | 8,65% |

| | | | | |
|---|---|---|---|---|
| 2018/2019 | İnşaat | | | - |
| | ST və MKS | 81 | 1 | 1,23% |
| | Nəqliyyat | 77 | 3 | 3,90% |
| | İnşaat texnologiya | | | - |
| | Tikinti-iqtisad | | | - |
| | MİT | | | - |
| | Əcnəbi vətəndasların hazırlığı | | | - |
| 2019/2020 | Memarlıq | 104 | 10 | 9,62% |
| | İnşaat | 61 | 1 | 1,64% |
| | ST və MKS | 83 | 1 | 1,20% |
| | Nəqliyyat | 74 | 2 | 2,70% |
| | İnşaat texnologiya | | | - |
| | Tikinti-iqtisad | 78 | 1 | 1,28% |
| | MİT | | | - |
| | Əcnəbi vətəndasların hazırlığı | 19 | 1 | 5,26% |
| 2020/2021 | Memarlıq | | | - |
| | İnşaat | | | - |
| | ST və MKS | | | - |
| | Nəqliyyat | | | - |
| | İnşaat texnologiya | | | - |
| | Tikinti-iqtisad | | | - |
| | MİT | | | - |
| | Əcnəbi vətəndasların hazırlığı | | | - |
| 2021/2022 | Memarlıq | | | - |
| | İnşaat | | | - |
| | ST və MKS | 82 | 2 | 2,44% |
| | Nəqliyyat | | | - |
| | Tikinti-iqtisad | 86 | 2 | 2,33% |
| | MİT | 67 | 1 | 1,49% |
| | Əcnəbi vətəndasların hazırlığı | | | - |

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

Universitet tədris prosesində aktiv fəaliyyət göstərən, tələbələrin rəğbətini qazanan, yüksək reytinqli beynəlxalq nəşrlərdə məqalələr çap etdirən professor-müəllim heyətinin 1 illik əmək haqqına differensial əmək haqqı sistemi ilə kateqoriyalara uyğun (A-200 AZN, B-150 AZN və C-100 AZN) olaraq əlavə ödəniş edir. Tətbiq edilən qiymətləndirmə mexanizmində professor-müəllim heyətinin elmi-fəaliyyəti nəticələrinə xüsusi diqqət edilir. *Cədvəl 3.17-də* differensial əmək haqqı sisteminin əhatə etdiyi akademik heyətin ümumi akademik heyətdə payı göstərilmişdir:

**Cədvəl 3.17.**

**Differensial əmək haqqı sisteminin əhatə etdiyi akademik heyətin illər üzrə sayı (%-lə)**

| Differensial əmək haqqı sisteminin əhatə etdiyi akademik (daimi əsaslarla çalışan) heyətin ümumi akademik heyətdə payı (faizlə) | | |
|---|---|---|
| 2015/2016 | Memarlıq | 70% |
| | İnşaat | 70% |
| | ST və MKS | 60% |
| | Nəqliyyat | 40% |
| | İnşaat texnologiya | 50% |
| | Tikinti-iqtisad | 50% |
| | MİT | 30% |
| | Əcnəbi vətəndasların hazırlığı | 0,0% |
| 2016/2017 | Memarlıq | 65% |
| | İnşaat | 70% |
| | ST və MKS | 70% |
| | Nəqliyyat | 50% |
| | İnşaat texnologiya | 60% |
| | Tikinti-iqtisad | 60% |
| | MİT | 30% |
| | Əcnəbi vətəndasların hazırlığı | 0,0% |
| 2017/2018 | Memarlıq | 50% |
| | İnşaat | 60% |
| | ST və MKS | 70% |
| | Nəqliyyat | 40% |

| | | |
|---|---|---|
| | İnşaat texnologiya | 65% |
| | Tikinti-iqtisad | 70% |
| | MİT | 20% |
| | Əcnəbi vətəndasların hazırlığı | 0,0% |
| 2018/2019 | Memarlıq | 40% |
| | İnşaat | 50% |
| | ST və MKS | 70% |
| | Nəqliyyat | 40% |
| | İnşaat texnologiya | 60% |
| | Tikinti-iqtisad | 70% |
| | MİT | 20% |
| | Əcnəbi vətəndasların hazırlığı | 0,0% |
| 2019/2020 | Memarlıq | 30% |
| | İnşaat | 40% |
| | ST və MKS | 45% |
| | Nəqliyyat | 30% |
| | İnşaat texnologiya | 40% |
| | Tikinti-iqtisad | 50% |
| | MİT | 10% |
| | Əcnəbi vətəndasların hazırlığı | 0,0% |
| 2020/2021 | Memarlıq | 30% |
| | İnşaat | 45% |
| | ST və MKS | 40% |
| | Nəqliyyat | 30% |
| | İnşaat texnologiya | 30% |
| | Tikinti-iqtisad | 40% |
| | MİT | 10% |
| | Əcnəbi vətəndasların hazırlığı | 0,0% |
| 2021/2022 | Memarlıq | 20% |
| | İnşaat | 50% |
| | ST və MKS | 55% |

| | | |
|---|---|---|
| | Nəqliyyat | 20% |
| | Tikinti-iqtisad | 40% |
| | MİT | 10% |
| | Əcnəbi vətəndasların hazırlığı | 0,0% |

**3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti**

AzMİU-ya nüfuzlu xarici universitetlərdən məzun olan professor-müəllim heyətinin cəlb edilməsi minimum səviyyədədir. *Cədvəl 3.18-də* 2016-2022-ci illər ərzində ATM-də çalışan xarici ölkələrin nüfuzlu universitetlərindən məzun olmuş professor-müəllim heyətinin vəziyyəti əks etdirilmişdir:

**Cədvəl 3.18.**

**Xarici ölkələrdə və Dövlət Proqramı ilə təhsil almış professor-müəllim heyətinin illər üzrə sayı (%-lə)**

| Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən, eləcə də Dövlət Proqramından məzun olmuş professor-müəllim heyətinin (əldə etdikləri sənədləri nostrifikasiya etmiş) ümumi akademik heyətdə payı (faizlə) | | |
|---|---|---|
| 2016/2017 | ST və MKS | 0,7% |
| 2017/2018 | Tikinti-iqtisad | 0,7% |
| 2021/2022 | İnşaat | 0,9% |
| | Nəqliyyat | 0,7% |

### *3.8 Tələbəyönümlü tədris*

**3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi**

AzMİU-nun birinci kursuna daxil olarkən ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki əsasında tələbənin fərdi tədris planı hazırlanır. Tələbənin fərdi tədris planı fənlərin ilkin şərtləri nəzərə alınmaqla müəyyən edilmiş formada akademik məsləhətçinin (tyutorun) köməyindən istifadə edilməklə tələbə tərəfindən tərtib edilir. Dekanlıq tələbələrlə görüş zamanı Bolonya sistemini, fərdi tədris planında, standart təhsil müddətində semestrlər üzrə tədris ediləçək fənlər, o cümlədən seçmə fənlər daxil olmaqla kreditlər, fənlərə ayrılan saatlar barədə məlumat verir, eyni zamanda fərdi tədris planının hazırlanmasında tələbənin iştirakını təmin edir.

**3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi**

AzMİU-da təhsil müddətində keçiləcək seçmə fənlərin təyin edilməsində tələbələrə sərbəstlik verilir, ehtiyac olduğu halda tyutorlar tələbələrə fənlərin seçimində müəyyən məsləhətlər verirlər və seçilən fənlər tədris yüklərində öz əksini tapır. Tədris ili başlamamışdan öncə hər bir tələbəyə istəklərinə uyğun, tyutorlarla birgə fərdi tədris planlarına müvafiq düzəlişlər etmək imkanı yaradılır.

### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

*Sahəyə baxış zamanı tələbələrlə keçirilən görüşlərdə Bolonya prosesinin prinsipləri, hər bir fənnin neçə kredit təşkil etməsinin tələbələrə yetərincə aşılanması, akademik heyətin və tyutorların seçimində tələbələrin fikrinin nəzərə alınması müəyyən edilməmişdir.*

### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

AzMİU-da son 7 il ərzində tədrisin keyfiyyətinin təhlil edilməsi və qiymətləndirilməsinin obyektiv təşkil edilməsi məqsədi ilə təhsilalanlar arasında 3 dəfə və məzunlar arasında isə 4 dəfə anonim rəy sorğusu keçirilmişdir. Sorğuların mövzuları əsasən universitetin ümumi fəaliyyətinin qiymətləndirilməsi, tədris edilən fənlərin aktual olmasından məmnunluq, karyera xidmətlərindən məmnunluq, təhsil müddəti ərzində əldə edilən bilik və bacarıqlardan məmnunluq, qazanılmış peşə və səriştələrin ümumi kompetensiyaların əmək bazarının tələblərinə cavab verməsi, akademik heyətin pedoqoji səviyyəsindən məmnunluq, rəhbərliyin peşəkar inkişafa verdiyi dəstəkdən məmnunluq kimi məsələlərə həsr olunmuşdur. Sorğuların nəticələri Elmi Şura iclaslarında və aidiyyatı struktur bölmələrlə müzakirə edilmişdir. Bundan başqa universitetdə 2022-23-cü tədris ilində tədris olunan dərslərin keyfiyyətinin ölçülməsi məqsədilə universitetin bütün fakültələrində tələbələr arasında sorğular keçirilmişdir. Sorğular əsasən fənnin tələbələrin peşə bacarıqlarının formalaşdırılması üçün əhəmiyyəti, tədris metodlarının qiymətləndirilməsi, dərs vəsaitlərinin aktual və asan mənimsənilməsi məsələlərinə həsr olunmuşdur. Sorğunun nəticələri dekan və kafedra müdirlərinin diqqətinə çatdırılmışdır, *lakin akkreditasiya komissiyasının məzunlarla görüşü zamanı sorğunun nəticələrindən irəli gələn çatışmamazlıqların aradan qaldırılması istiqamətində görülən işlərin qənaətbəxş olmadığı müəyyən edilmişdir.*

### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

ATM-yə səfər zamanı Tələbə Həmkarlar İttifaqı Komitəsi sədri ilə görüşdə tələbələrin rəy və təkliflərinin nəzərə alınması və müvafiq tədbirlərin həyata keçirilməsi qeyd edildi. *Lakin, AzMİU-da tələbə və məzunların təklifləri əsasında həyata keçirilmiş yeniliklərin inkişaf dinamikasını əks etdirən sənədlərə rast gəlinməmişdir.*

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

Semestr ərzində universitet rəhbərliyi tələbə ictimai təşkilatları ilə birgə tələbələrlə vaxtaşırı görüşlər, rəy sorğuları keçirir və onların rəylərini müzakirə edir. Lakin ATM-də sahə baxışı keçirilən bu tədbirlər istiqamətində konkret addımların atılmasını təsdiqləyən sübutlara rast gəlinməmişdir.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

Tələbələrin təhsil aldığı müddətdə, eləcədə imtahan sessiyası zamanı hər hansı şikayət və ya təklifi olduqda onlar öz şəxsi kabinetləri, email vasitəsi ilə, yazılı yaxud şifahi və s. vasitələrdən istifadə edərək istər dekanlığa, istərsə də digər struktur bölmələrə müraciətlər etmək imkanına malikdirlər. İmtahan sessiyası müddətində universitetin foyesində və digər uyğun yerlərdə şikayət qutuları yerləşdirilir. Universitet rəhbərliyi tələbələrin şikayət və təkliflərinə hörmətlə yanaşır və operativ şəkildə həll etməyə çalışır. *Buna baxmayaraq tələbələrlə keçirilən görüşlərdə, universitet tələbələri internetin sürətinin artırılmasını, liftin yenilənməsini, yeməkxanada qiymətlərin aşağı salınmasını, sanitar qovşaqlarında təmizliyə diqqətin artırılmasını, tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsinə diqqətin artırılmasını dekanlığa təklif etsələr də komissiyanın tələbələrlə keçirdiyi anonim sorğularda bu problemlərin aradan qaldırılması istiqamətində konkret işlərin görülmədiyi müəyyən edilmişdir.*

### 3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

AzMİU-nun bütün fakültələrində AKTS sisteminin tətbiq edilməsi, tələbələrə kömək göstərilməsi, onların akademik maraqlarının qorunması, tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumatları və sənədləri tələbələrə təqdim etmək məqsədi ilə tələbələrin sayına və ixtisaslara uyğun kvalifikasiyalara malik məsləhətçilər (tyutor) təyin olunmuşdur. Tələbələrə daha keyfiyyətli və təhsil standartlarına uyğun xidmət göstərilməsi üçün universitetdə Tyutor Məktəbi yaradılmışdır. Burada, tyutorlara təhsil qanunvericiliyinin tələbləri, Bolonya sisteminin prinsiplərinin tədris prosesinə tətbiqi, sənədlərin standartlara uyğun tərtib edilməsi, təqaüdlərin təyin edilməsi, təcrübələrin və yekun dövlət attestasiyasının keçirilməsi istiqamətində maarifləndirici təlimlər keçirilir. *Bütün bunlara baxmayaraq komissiya tərəfindən keçirilən rəy sorğusunda bəzi tyutorların tələbələrə ciddi yanaşmaması müəyyən edilmişdir.*

### 3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

Tələbələr və təhsilverənlər arasında əlaqə əsasən üzbəüz həyata keçirilir. Tələbənin hər hansı bir şikayət və ya təklifi olduqda isə tələbə özünün elektron kabineti vasitəsilə universitetin müvafiq struktur bölməsinə müraciət edir. Tyutorlar tələbələrlə birbaşa-üzbəüz, eləcədə təxirəsalınmaz məsələlərlə məlumatlandırmaq lazım gəldikdə isə onlayn, elektron poçt və müxtəlif sosial platformalar (Zoom, WhatsApp və s.) vasitəsilə əlaqə qurur.

### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

AzMİU-da sağlamlıq imkanları məhdud olan tələbələrin yalnız məsafədən təhsil alması üçün imkanlar mövcuddur. *Onların üzbəüz təhsil ala bilməsi üçün universitetdə lazımi infrastruktur yaradılmamışdır. Memarlıq fakültəsinin yerləşdiyi tədris binasından başqa digər korpuslarda lift mövcud olsa da binaların girişi və sanitar qovşaqları hərəkəti məhdud olan tələbələr üçün uyğun deyildir.*

### 3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

AzMİU-da sosial həssas qrupa aid tələbələr və şəhid övladları da təhsil alır. Sosial həssas qrupa daxil olan tələbələrin təhsil almaları, onların təhsil haqlarının qarşılanması üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 17 iyul 2021-ci il Fərmanı imzalanmışdır. Universitetin sosial həssas qrupa daxil olan tələbələri bu fərmandan yararlanaraq təhsil haqqını fonddan əldə etdiyi vəsait hesabına ödəyirlər. Bu qrupdan olan tələbələrə universitet xüsusi diqqət ayırır, ehtiyac olarsa onları yataqxana ilə, yeməkxanalarda ödənişsiz yemək talonları ilə təmin edir.

### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

Universitetdə tələbələrə təqaüdün hesablanması hər bir imtahan sessiyasının sonunda tələbələrin akademik göstəricilərinə uyğun olaraq həyata keçirilir. Bundan əlavə müxtəlif tərəfdaş təşkilatlar tərəfindən də təqaüd proqramları üçün müsabiqələr keçirilir. Lakin sahə baxışı zamanı tərəfdaş təşkilatların keçirdiyi müsabiqələr barədə məlumatlar və təsdiqedici sənədlər aşkarlanmamışdır.

## *3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, fakültələr tərəfindən hazırlanan təhsil proqramları təlimin məzmun və nəticə standartlarını, tədris fənlərini və fənlər üzrə kreditlərin sayını, pedaqoji prosesin təşkili, tələbə və digər maraqlı tərəflərin iştirakı ilə onların ehtiyac və tələbləri nəzərə alınmaqla təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirir. Lazım gəldikdə universitet rəhbərliyi tərəfindən mövcud proqrama ciddi dəyişikliklər edilir. Sahə baxışı zamanı universitetin bu sahədə fəaliyyət planının mövcudluğunu təsdiq edən sənədlərə rast gəlinmədi.

### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

AzMİU-nun Keyfiyyətə Nəzarət Mərkəzi inkişaf etmiş ölkələrin təcrübələrini nəzərə alaraq ixtisaslar üzrə təhsil proqramlarının hazırlanmasını və bu təhsil proqramlarının optimallığının, mobilliyinin təmin olunması, monitorinqinin müvafiq standartlara uyğunluğunun qiymətləndirilməsini, dünyada gedən qlobal proseslər və çağırışlara uyğun olaraq informasiya texnologiyalarının inkişafı şəraitində tələbələrə bu proseslərin daha səmərəli öyrədilməsi metodologiyasını müəyyənləşdirmək üçün tələbə yönümlü tədris sisteminin formalaşdırılmasını təmin edir. *Lakin sahə baxışı zamanı bu proseslər üzrə keçirilən təlimlərdən əldə edilən nəticələrə nəzarət mexanizminin yetərsiz olduğu aşkar edilmişdir.*

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

AzMİU-nun Keyfiyyətə Nəzarət Mərkəzi təhsil proqramlarının universitetin məqsəd və strategiyasına uyğun olması üçün monitorinqlər və qiymətləndirmələr həyata keçirir.

Belə ki, mərkəz qiymətləndirməni mütəmadi olaraq universitet daxili və kənardan cəlb edilmiş mütəxəssislərlə birgə həyata keçirir, eyni zamanda açıq dərslər, treninqlər, seminarlar və s. təşkil edilir. Sonra mərkəz tərəfindən hazırlanmış rəylər fakültə elmi şuralarında müzakirə üçün təqdim edilir.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

AzMİU-nun Keyfiyyətə Nəzarət Mərkəzi təhsil proqramlarının özünüqiymətləndirməsini həyata keçirməklə yanaşı, mütəmadi olaraq daxildən və kənardan dəvət edilmiş mütəxəssislərin iştirakı ilə tədris prosesində monitorinqlər keçirir, akademik heyətin bilik və səriştələrinin inkişaf etdirilməsi üçün müxtəlif treninqlər və seminarlar təşkil edir. KNM bu tədbirlərin nəticələrinin müzakirə edilməsi üçün fakültə elmi şuralarına təqdim edir. Memarlıq və İnşaat fakültələrinə keçirilən baxış zamanı qeyd olunan məsələləri sübut edən sənədlər aşkar edilmişdir.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

Universitet 2014-cü ildə təsdiq edilmiş proqramların monitorinqi zamanı işəgötürənlərin, müstəqil daxili və kənar ekspertlərin iştirakı ilə aparmışdır. Mövcud nöqsanların, 2015-2022-ci illər ərzində tərtib edilən yeni təhsil proqramlarında aradan qaldırılmasına cəhd edilmişdir. *Lakin Akkreditasiya Komissiyasının tələbələr arasında keçirdiyi rəy sorğusundan da göründüyü kimi ATM-də hazırda təhsil proqramlarının tələblərinə görə dərslərdə innovativ, yaradıcı və interaktiv təlim metodlardan istifadə edilməsi səviyyəsinin qənaətbəxş olmaması Diaqram 3.2-də öz əksini tapmışdır:*

**Diaqram 3.2.**

**Tələbələrlə keçirilmiş sorğu nəticələri**




Sahə baxışı zamanı əmək bazarının nümayəndələri ilə keçirilən görüşdə, cəmiyyətin sosial-iqtisadi inkişafında əmək bazarı ilə kadr hazırlığı sistemi arasında sıx əlaqənin olmasının mühüm əhəmiyyət kəsb etməsi söylənilmişdir. Lakin AzMİU-nun tədris etdiyi təhsil proqramlarının yenilənməsində işəgötürənlərin fikirlərinin nəzərə alınmasına lazımi diqqətin ayrılmaması aşkar edilmişdir.

## *3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

ATM-in Özünütəhlil Hesabatına əsasən universitetdə Təcrübə və Karyera Mərkəzi (TKM) mövcuddur. O, 03.11.2015-ci il tarixli, 346/ş.d saylı əmrlə "Təcrübə və Karyera" şöbəsi və 09.02.2021-ci ildən "Təcrübə və Karyera" Mərkəzi adlandırılmışdır. Mərkəzin fəaliyyəti TKM-in Əsasnaməsi, qanunvericilik və universitetin Nizamnaməsi əsasında tənzimlənir. TKM-in Əsasnaməsi universitetin strateji inkişaf proqramına uyğun tərtib edilmişdir. Mərkəzdə 1 rəhbər və 3 əməkdaş fəaliyyət göstərir. Mərkəz tərəfindən illik fəaliyyət planı tərtib edilir.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

Mərkəzdə tələbə və məzunlara karyera-məsləhət xidmətlərin göstərilməsi məqsədilə təxminən 1500 nəfərlik "Məzun məlumat bazası" yaradılmışdır və burada 1 il, 5 il  və 10 il əvvəl universiteti bitirmiş məzunlar barədə məlumat mövcuddur, bir sıra hallarda müddətli həqiqi hərbi xidmətdən sonra məzunların mobil telefon nömrələrinin dəyişdirilməsi ilə əlaqədar, bəzi hallarda valideynlərin də mobil telefon nömrələri bazaya daxil edilmişdir, *bu məsələdə valideynlərin icazəsinin olub-olmaması bəlli deyildir.* Bundan əlavə,  tələbə və məzunların "CV bazası" yaradılmışdır. Mərkəz şirkətlərin və təşkilatların müraciətləri əsasında bu bazalardan zəruri ixtisas üzrə namizədlərin axtarışını və yönləndirilməsini həyata keçirir. Eyni zamanda, TKM-nin hazırda ölkənin əsas işəgötürənlər təşkilatları, məsələn Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, AR Ticarət və Sənaye Palatası, Tikinti materialları istehsalçıları Assosiasiyası, işəgötürənlərin digər sektoral assosiasiyaları, habelə aparıcı HR şirkətləri, ilə əməkdaşlıq etməməsi müəyyən edilmişdir. Beləliklə, əmək bazarında universitetinin profili üzrə mövcud vakansiyalar barədə məlumatlar işəgötürənlərin nüfuzlu birlikləri, müvafiq HR şirkətləri vasitəsilə əldə edilməsi praktikasından istifadə edilmir.

*Mərkəzin sosial şəbəkələr vasitəsilə daima yenilənən vakansiyalar haqqında tələbə və məzunları aktiv məlumatlandırılması bildirilsə də,  bütün məzunların kiçik bir hissəsi olan 1500 nəfərlik "Məzun məlumat bazası"nın belə mütəmadi yenilənməsi üçün 4 nəfər əməkdaşın yetərli olmaması TKM rəhbəri tərəfindən bildirilmişdir.* Belə bir vəziyyətdə bazanın yenilənməsi məsələsinə hazırki fəal tələbələrin və ya tələbə cəmiyyətlərinin aktiv nümayəndələrinin cəlb edilməsi tərəfimizdən tövsiyə edilir. Belə ki, TKM tərəfindən əmək bazarındakı vakansiyalar barədə məlumatların tələbə və məzunlara çatdırılması üzrə xidmətin inklüzivlik, əlçatanlıq və aktuallıq prinsipləri əsasında həyata keçirilməsi üçün mərkəzin maddi-texniki bazası və personalın bacarıqlarının səviyyəsi yetərli deyildir. *Əlavə edək ki, "Məzun məlumat bazası"nda universitetdə təhsil alan və məzun olmuş əcnəbi tələbələrin məlumatlarının qeyd edilməməsi diqqəti cəlb etmişdir, belə ki, bu kateqoriya şəxslər arasında yüksək ixtisaslı mütəxəssislərin də ölkəmizin iqtisadiyyatına töhfəsi ola bilər və eyni zamanda universitetin beynəlmiləlləşməsi, xarici vətəndaşlar üçün cəlbediciliyinin artırılmasında mühüm rol oynaya bilər.*

Bundan əlavə, ATM-in Özünütəhlil Hesabatında qeyd edilən tələbələrə CV hazırlamaq, iş müsahibəsinə hazırlaşmaq kimi məsələlərdə ixtisaslaşmış konsaltinq şirkətlərinin də xidmətlərindən mütəmadi istifadə edilməsi tövsiyə edilir. *Bundan əlavə, məsələn, TKM tərəfindən iş müsahibəsinə hazırlıq üzrə simulyasiya, test, təhlil metodlarından ümumiyyətlə keçirilmədiyi məlum olmuşdur.*

*ATM-in Özünütəhlil Hesabatında tələbə və məzunlara karyera məsləhət xidmətləri sırasında TKM-in karyera sərgilərini təşkil etməsi, illik əsasda təşkil olunan bu sərgilərdə 70-ə yaxın qurumdan, ümumilikdə 600-dən çox iş yeri təklif edildiyi barədə məlumat əks olunsa da, bu sərgilərin nəticəsində ixtisasına görə işlə təmin olunmuş tələbə və məzunların ümumi məlumat bazasında payını nümayiş etdirən statistik məlumatlar təqdim edilməmişdir. Halbuki bu TKM-in əsas KPİ göstəricilərindən biridir.*

*Bundan əlavə, ATM-in Özünütəhlil Hesabatında TKM-nin "biznes inkubasiyası mexanizmi vasitəsilə qısa müddətdə bilikli və bacarıqlı mütəxəssislərin hazırlanması" ilə məşğul olduğu qeyd edilsə də, TKM rəhbəri ilə görüş zamanı bu məsələnin ümumiyyətlə TKM-in fəaliyyət sahəsinə aid olmaması bildirilmiş, digər struktur tərəfindən həyata keçirildiyi qeyd edilmişdir.* Halbuki, bu məsələ bilavasitə TKM-in funksiyalarından biridir. *Qeyd edək ki, təhsil müəssisəsində biznes inkubasiya sisteminin yaradılması üçün ilkin olaraq tələbə və məzunlara sahibkarlıq fəaliyyəti, maliyyə savadlılığı barədə təlimlər təşkil edilməli, müvafiq infrastruktur və iş şəraiti yaradılmalı, potensial investor bazası və marketinq araşdırması aparılmalı idi, bu barədə özünütəhlil hesabatında heç bir qeydə rast gəlinməmişdir.*

Bundan əlavə, TKM-də keçirilmiş görüş zamanı universitetin məzunlarını birləşdirən heç bir qurumun (məsələn, Alumni Təşkilatı və ya Klubu) fəaliyyət göstərmədiyi qeyd edilmiş və bu istiqamətdə fəaliyyətin nəzərdə tutulmasına baxmayaraq, belə bir təşkilatın rəsmi qeydiyyat məsələsinin qəliz olması ifadə edilmişdir. Halbuki bu kimi qurumların mövcudluğu tələbə və məzunlara karyera məsləhət xidmətlərinin implementasiyası üçün dünyanın aparıcı universitetləri tərəfindən hazırda geniş istifadə olunan effektiv formatdır. Tərəfimizdən universitetin karyera, sahibkarlıq cəhətdən uğurlu məzunlarından ibarət "Alumni Klub"un yaradılması və indidən belə şəxslərin bazasının yaradılması və onların iştirakı ilə tələbələr üçün aylıq əsasda "Uğur Hekayəsi" mövzulu mühazirələrinin təşkili tövsiyə edilir.

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

*TKM-də keçirilmiş görüş zamanı və ATM-in Özünütəhlil Hesabatında həyata keçirilən istehsalat təcrübələrinin təşkili zamanı təcrübə keçən tələbələr arasında Təcrübə və Karyera Mərkəzi tərəfindən hər hansı sorğu aparılmasını təsdiq edən sənəd təqdim edilməmişdir. Eyni zamanda, tələbələrin təcrübə keçdiyi müəssisələrdə faktiki sonuncu kurs tələbələrinin ixtisasına uyğun hansı bacarıq və biliklərinin əmək bazarının tələblərinə uyğun gəlməməsi barədə işəgötürənlər arasında heç bir sorğunun keçirilmədiyi aşkar olunmuşdur.* Halbuki burada istər ayrı-ayrı təcrübəçi tələbələrin, istərsə də ümumən kontingentin əmək bazarına hazırlıq səviyyəsinin qiymətləndirilməsi və bunun əsasında təhsil proqramlarında, kreditlərin sayında, əsas və əlavə fənnlərin proqramlarında və digər müvafiq sənədlərdə müvafiq dəyişikliklərin edilməsi zəruridir.

*Bununla yanaşı, ATM-də 2014-2015-ci il tədris ilində keçirilmiş akkreditasiya qiymətləndirilməsi zamanı verilimiş 21 sayı tövsiyədə təcrübələrin təşkilində nöqsanların olması və onun coğrafiyasının kifayət qədər geniş olmaması aşkarlansa da, TKM-də bu nöqsanların aradan qaldırılması üzrə nə kimi işlərin görüldüyü barədə indikatorlar üzrə konkret məlumat təqdim edilməmişdir.* Qeyd edək ki, ATM-in tələbə və məzunları ilə keçirilmiş görüş zamanı istehsalat təcrübəsinin ilkin olaraq aşağı kurslarda təşkilinin vacibliyi ifadə edilmişdir Belə ki, onlar tələbələrin aşağı kurslarda keçdikləri təcrübə

zamanı əmək bazarında mövcud səriştə standartları, ümumən əmək bazarında öz ixtisaslarına uyğun olan vakansiyalarla bağlı tələblərlə tanışlıqdan sonra qarşıdakı təhsil illərində uyğun bacarıqlara, konkret biliklərə və vərdişlərə yiyələnmək üçün vaxt əldə etdiklərini bildirmişlər.

*Bundan əlavə, hesabatda məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmi kimi "Mərkəz tərəfindən mütəmadi məzunlarla əlaqə saxlanılaraq məşğulluq vəziyyəti araşdırılır" ifadəsi və ümumilikdə universitetin 2021-2022-ci tədris ilində məzun olan 2069 tələbəsindən (1614 bakalavr 455 magistr) 61% işlə təmin olunmuşdur" qeyd edilmişdir. Halbuki təqdim edilmiş statistik məlumatlar əsasında bu rəqəmin (61%) yalnız bakalavr səviyyəsi məzunlarına aid olması aşkar edilmişdir, magistr səviyyəsində isə bu rəqəm qat-qat aşağı olaraq 27% təşkil etmişdir.*

Ümumiyyətlə isə, təhsilin keyfiyyətinin müəyyən edilməsi üçün əsas meyarlardan biri məzunların ümumən işlə təmin edilməsi deyil, öz ixtisasına uyğun işlə təmin edilməsi faizinin müəyyən edilməsindən ibarətdir. Bu mənada TKM tərəfindən təqdim edilmiş statistik məlumatlarda bakalavriat səviyyəsində 2021-2022-ci illərdə ixtisasına uyğun əmək fəaliyyətinə başlamış məzunların toplam məzunlarda payı 50%-i keçmir, magistratura səviyyəsində isə bu rəqəm cəmi 21,2% təşkil edir. Eyni zamanda, 2015-ci ildən son 2021-ci ilədək məzun olduğu ildə əmək fəaliyyətinə başlayan məzunların müvafiq ildə ümumi məzun sayında payının ildən-ilə azalması tendensiyasına baxmayaraq, son 2021-2022-ci tədris ilində bu rəqəmin birdən birə 10% artması diqqəti cəlb etmiş və lakin sahə baxışı zamanı universitet tərəfindən bu məsələ ilə bağlı ətraflı məlumat təqdim edilməmişdir.

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

*TKM-də məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və keyfiyyət səviyyəsindən məmnunluğunun konkret ölçülməsi mexanizmləri sırasında məzunlar, işəgötürənlər arasında müvafiq sorğuların mütəmadi keçirilməsi, məzunların və işəgötürənlərin tədris proqramlarının hazırlanması və təkmilləşdirilməsi prosesinə, (ayrı-ayrı kafedralar istisna olmaqla) tədris prosesinə məhdud səviyyədə cəlb edilməsi aşkar edilmişdir. Halbuki məzunlarla ayrıca keçirilmiş görüş zamanı onlar hazırda əmək bazarında ATM məzunlarının birbaşa rastlaşdıqları səriştə, bacarıq çatışmazlıqları (məsələn, müasir İT proqramlarından AutoCad Architecture, LibreCad Archicad və s ilə işləmə sərbəst bacarığının olmaması) barədə geniş bəhs etmişlər.*

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Qeyd edildiyi kimi, məzunlarla davamlı əlaqənin təmin etmək üçün 1500 nəfərlik "Məzun məlumat bazası" yaradılmışdır, *lakin bazanın mütəmadi yenilənməsi üçün mərkəzdə kifayət qədər əməkdaş yoxdur.* Belə bir vəziyyətdə bazanın yenilənməsi məsələsinə hazırki fəal tələbələrin və ya tələbə cəmiyyətlərinin aktiv nümayəndələrinin cəlb edilməsi tərəfimizdən tövsiyə edilir. Eyni zamanda, tələbə və məzunlarla effektiv əlaqə sisteminin qurulması üçün müasir CRM (Customer Relations Management) platformlarının imkanlarından istifadə olunması tərəfimizdən tövsiyə edilir.

## 4. ELMİ TƏDQİQAT

### 4.1 Elmi-tədqiqat strategiyası

#### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

Universitetdə elmi-tədqiqat fəaliyyəti rektor tərəfindən təsdiq olunmuş elmi-tədqiqat strategiyasına uyğun olaraq həyata keçirilir. Universitetdə 2015-2020-ci illəri əhatə edən "AzMİU-nun 2015-2020-ci illər üzrə elmi-tədqiqat strategiyası" olmuşdur. Hazırda universitetin elmi-tədqiqat fəaliyyəti rektor tərəfindən təsdiq edilmiş və qüvvədə olan "AzMİU-nun 2021-2025-ci illər üzrə elmi-tədqiqat strategiyası"na əsaslanır. Hər iki strategiyanın surətləri komissiya üzvlərinə təqdim edildi. *Lakin təqdim olunmuş sənədlərdə bu strategiyaların hər ikisinin hazırlanması və təsdiq edilməsi tarixləri, universitetin Elmi Şurasında nə zaman müzakirə olunması, eləcə də qeydiyyatı alınması ilə qeydlər və məlumatlar yoxdur.*

#### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

Elmi-tədqiqat strategiyasının hədəfləri universitetin missiyasına və hədəflərinə, o cümlədən universitetin Strateji inkişaf planının hədəflərinə uyğunluq təşkil edir. Lakin Strateji inkişaf proqramında olduğu kimi, Elmi-tədqiqat strategiyasında da fəaliyyətlər ümumi xarakter daşıyır, konkretlik yoxdur, hədəflər üzrə qiymətləndirmə indikatorları müəyyən edilməmişdir.

AzMİU-nun missiyası ali təhsilin bakalavriat, magistratura və doktarantura səviyyələrində Memarlıq, inşaat, Tikinti-iqtisadiyyat, Mexanika, Informasiya texnologiyaları, Nəqliyyat, Su təsərrüfatı və Mühəndis kommunikasiya sistemləri ixtisaslarında yüksək ixtisaslı kadr hazırlığı ilə yanaşı, fundamental, tətbiqi, eksperimental elm sahələri üzrə elmi-tədqiqat fəaliyyəti və bu fəaliyyətin nəticələrinin ölkə iqtisadiyyatının inkişafı üçün tətbiqindən ibarətdir.

#### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

Universitetin Strateji inkişaf planında ümumuniversitet prioritet tədqiqat sahələri və istiqamətləri müəyyən edilməmişdir, yalnız fakültələr üzrə elmi-tədqiqat istiqamətləri əksini tapmışdır. Bu baxımdan bu məsələlər elmi-tədqiqat starategiyasında nəzərə alınmamışdır. Universitetdə elmi-tədqiqat fəaliyyətinin məqsədyönlü aparmaq məqsədilə hər təqvim ili üçün Elmi tədqiqat üzrə fəaliyyət planı hazırlanır və rektor tərəfindən təsdiq olunur. *Elmi-tədqiqat üzrə fəaliyyət planı da ümumi xarakter daşıyır və tədbirlər üzrə qiymətləndirmə meyarları yoxdur. Elmi tədqiqat strategiyasında olduğu kimi, Elmi tədqiqat üzrə fəaliyyət planlarında da təsdiq olunma tarixləri göstərilməmişdir.* Universitetin elmi-tədqiqat siyasəti və onun məqsədləri bu və ya digər dərəcədə elmi-tədqiqat strategiyasında və elmi-tədqiqat üzrə tədbirlər planlarında əksini tapmışdır.

Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi məqsədilə universitetdə Elmi tədqiqat şöbəsi, Doktorantura şöbəsi, Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir. Elmi-tədqiqat strategiyasında elmi-tədqiqat fəaliyyətinin təşviq mexanizmləri və idarə olunması məsələləri əksini tapmamışdır. Yalnız universitetdə elmi-tədqiqat işlərinin təşviqi

qismində tələbə və magistrların elmi yaradıcılığa cəlb edilməsi qeyd olunur. Bu məqsədlə Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinin canlandırılması nəzərdə tutulur.

Tələbələrlə keçirilmiş sorğuda bu məsələ Diaqram 4.1-də göstərilmişdir:

**Diaqram 4.1.**

**TEC-in fəaliyyəti haqqında tələbə sorğusunun nəticəsi**




### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

Universitetin elmi-tədqiqat məqsədləri Strateji inkişaf planının istiqamətlərinə əsasən uyğundur. SİP-də universitetin missiyasına uyğun olaraq, elmi-tədqiqat sahəsində əsas hədəfləri aşağıdakılardır: universitetin elmi potensialının, ölkənin iqtisadiyyatının müvafiq sahələrinin inkişafına istiqamətlənməsi (elmi-tədqiqat mövzularının iqtisadiyyatın prioritetləri ilə əlaqələndirilməsi, fundamental və tətbiqi elmin müxtəlif sahələrində aktual mövzuların tədqiqi, elmi-tədqiqatların nəticələrinin kommersiallaşması məqsədilə dəstək mexanizmlərinin yaradılması, patent fəaliyyətinin dəstəklənməsi və genişləndirilməsi); universitet elminin beynəlxalq elm məkanına inteqrasiyası (Web of Science bazasına daxil olan nəşrlərdə məqalələrin sayının artırılması, universitetdə dərc olunan elmi jurnalların beynəlxalq tələblərə uyğunlaşdırıl-ması və Scopus bazasına daxil edilməsi, xarici universitetlərlə və elm qurumları ilə əlaqələrin genişlənməsi və birgə tədqiqatların aparılması); elmi kadrların hazırlanması və təkmilləşməsi (akademik, elmi və yaradıcılıq potensialının inkişafına şəraitin yaxşılaşdırılması, professor-müəllim heyətinin elmi maraq dairələrini, elmi əsərlərini, h-indekslərini və başqa məlumatları özündə əks etdirən rəqəmsal elmi bazanın yaradılması, beynəlxalq elmmetrik bazalara inteqrasiya).

### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

Elmi-tədqiqat strategiyasında elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasını təmin etmək məqsədilə təcrübi tədqiqatların aparılması, alınmış nəticələrin tədris prosesində tətbiq edilməsi və bunun üçün müvafiq dair tövsiyələrin hazırlanması, eləcə də el-mi tədqiqatların nəticələrinin müxtəlif ixtisas fənlərinin tədrisində tətbiqi, fənn proqramlarına daxil edilməsi kimi fəaliyyətlər nəzərdə tutulmuşdur. Bu baxımdan universitetdə həm bakalavriat, həm də magistratura səviyyəsində

tələbələrin elmi tədqiqatlara cəlb edilməsinə xüsusi diqqət verilir. Bu məqsədlə kafedralarla yanaşı, Tələbə Elmi Cəmiyyəti özünəməxsus rol oynayır. Tələbələr elmi-tədqiqat və elmi yaradıcılıq işlərinə cəlb olunurlar. Onların apardıqları elmi tədqiqatlar və əldə olunmuş nəticələr barədə məruzələrlə elmi seminarlarda və konfranslarda çıxış edirlər. Bəzən bu tədqiqatların davamı olaraq StartUp layihələri işlənilir və müvafiq qaydada müsabiqələrdə iştirak təşkil olunur.

### 4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

Elmi-tədqiqat strategiyası universitetin professor-müəllim heyətinin elmi-tədqiqat imkanlarının nəzərə alınması baxımından zəruri fəaliyyətləri özündə saxlayır. Belə ki, strategiyada “2025-ci ilə qədər Web of Science və Scopus elmi platformalarına daxil olan yüksək kvartilli nəşrlərdə çap edilən məqalələrin sayını hər il artırması”, o cümlədən nüfuzlu nəşrlərdə professor-müəlim heyətinin əsərlərinin çap edilməsinin stimullaşdırılması mexanizminin daim təkmilləşdirilməsi, universitetin müəllim və tədqiqatçılarının beynəlxalq elmi platformalarda qeydiyyatı (ORCID, WoS, Scopus, ResearchGate, Google Scholar) və onların akademik profillərinin yaradılması, professor-müəllim heyətinin beynəlxalq elmi dairələrdə tanınması və qlobal universitet reytinqlərində yüksəldilməsi məqsədilə WoS və Scopus bazaların bəzi əlavə alətləri (Incites, SciVal ve s.) imkanlarının dərindən öyrənilməsi, universitetin akademik heyətinin elmi-tədqiqat işlərinin nəticələrinin Web of Science bazasına daxil olan beynəlxalq elmi konfranslarda təqdim olunması və s. fəaliyyətlər nəzərdə tutulmuşdur. Universitetdə dərslik, dərs vəsaiti, metodik göstəriş yazan, yerli və beynalxalq impakt fakorlu jurnallarda məqalələr çap edən müəllimlərin aktiv fəaliyyətinin stimullaşdırılması üçün mükafatlar verilir. Bu məqsədlə universitet rektorunun əmri ilə daxılı qiymətləndirmə layihəsi həyata keçirilir. Katiqoriyalara uyğun (A-200 AZN, B-150 AZN və C-100 AZN) olaraq, müəllimlərə 1 illik maaşlarına ödəniş əlavə olunur.

Eyni zamanda universitetdə fəaliyyət göstərən elmi tədqiqatçıların innovativ xarakterli elmi-tədqiqat layihələrinin dəstəklənməsi məqsədilə qrant müsabiqələrində professor-müəllim heyətinin iştirakına dəstəyin göstərilməsi, innovasiya xarakterli layihələrin qrant müsabiqələrinə yönləndirilməsi, elmi-tədqiqatların müasir tələblərə cavab verən maddi-texniki təminatla təchiz edilməsi, kafedralarda büdcə hesabına yerinə yetirilən elmi-tədqiqat işlərinin aktuallığına diqqətin artırılması, kafedralarda sifarişlər əsasında və layihələr çərçivəsində maliyyələşən elmi-tədqiqat işlərinin aparılmasına dəstək göstərilməsi kimi fəaliyyətlər də strategiyada əksini tapmışdır.

### 4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

Elmi-tədqiqat strategiyası həm universitetdə fəaliyyət göstərən akademik heyət üçün, həm də yerli və xarici əməkdaşlar üçün tam əlçatandır. Belə ki, strategiya AzMİU-nun internet saytında yerləşdirilmişdir: https://www.azmiu.edu.az/az/pages/135.

### 4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Elmi-tədqiqat strategiyası universitetin Elmi tədqiqat şöbəsi tərəfindən hazırlanaraq imzalanmış və rektor tərəfindən təsdiq edilmişdir. *Strategiyanın*

*hazırlanmasında digər struktur bölmələrin, habelə Elm və İnnovasiyalar üzrə prorektorun iştirakı görünmür, ən azı strategiya onunla razılaşdırılmamışdır. Həmçinin, Elmi tədqiqat strategiyasının hazırlanmasında universitetin əməkdaşlıq etdiyi elmi-tədqiqat müəssisələrinin, istehsalat nümayəndələrinin iştirakı da görünmür. Çünki strategiyada praktik yönümlü, əmək bazarının tələblərindən irəli gələn elmi tədqiqat fəaliyyətləri də əksini tapmamışdır.*

### *4.2 Tədqiqat resursları*

#### 4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

AzMİU-da Elm və innovasiya məsələləri üzrə prorektorluq, Elmi-tədqiqat şöbəsi, doktorantura şöbəsi, beynəlxalq elmi şəbəkəyə çıxmanı əlaqələndirən Beynəlxalq Əlaqələr Şöbəsi, kitabxana, elmi jurnalların redaksiyası, TEC fəaliyyət göstərir. Antiplagiat proqramı (Strikeplagiarizm), beynəlxalq elm mərkəzlərinə çıxışını təmin edən xarici universitetlərlə bağlanmış müqavilələr, elmi qrantlar verən fondlarla əlaqələr mövcuddur. Elmi kadrların hazırlanmasını təmin edən memarlıq, inşaat və digər ixtisaslarda 2 dissertasiya şurası fəaliyyət göstərir. İl ərzində kafedralarda görülən elmi işlər haqqında hesabatlar elmi tədqiqat şöbəsinə, prorektorluğa təqdim olunur və universitetin elmi tədqiqat strategiyasına uyğunluğu yoxlanıldıqdan sonra bütün görülmüş işlər haqqında hesabat prorektorluq tərəfindən elmi şurada müzakirəyə çıxarılır. Doktorantanlar tərəfindən yerinə yetirilmiş elmi fəaliyyət hər il prorektor və doktorantura şöbəsinin iştirakı ilə fakültələrdə, kafedralarda attestasiya olunur və görülmüş işlərin elmi tədqiqat strategiyasına uyğunluğu və aktuallığı yoxlanılır.

Hədəflərdən prioritet məsələlərlə yanaşı elmi nəticələrin nəşr olunmasına tələblər də mövcuddur. Bütün bunlar daxili qiymətləndirmə zamanı yoxlanılaraq maaşlara əlavələr olunur və uyğun kvartil kateqoriyalarına görə impakt faktorlu jurnallarda dərc olunmağa görə birdəfəlik mükafatlandırma sistemi tətbiq edilir.

#### 4.2.2 Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

Professor-müəllim heyətinin və elmi işçilərin elmi-tədqiqat işlərinin nəticələri nəşr edilmiş monoqrafiya, dərslik, dərs vəsaiti, metodik vəsait və metodik göstərişlərdə, ölkəmizdə və xaricdə dərc olunan toplu və məcmuələrdə öz təsdiqini tapır. Müxtəlif mövzularda keçirilən elmi konfranslarda professor-müəllim heyəti ilə yanaşı magistrant, doktorant və gənc tədqiqatçılar da fəal iştirak edirlər. Universitetdə elmi-tədqiqat işləri dinamik inkişaf edir, elmi potensialdan səmərəli istifadə olunur.

#### 4.2.3 Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

AzMİU-da tələbələrin elmi-tədqiqat işinin təşkilini əsasən Tələbə Elmi Cəmiyyəti həyata keçirir.

Universitetdə Tələbə Elmi Cəmiyyətinin konfransı hər il mütəmadi olaraq təşkil olunur

(Covid-19 pandemiyası dönəmində bu mümkün olmamışdır). ATM-də keçirilən konfranslarda gənc tələbə-tədqiqatçılar aktiv iştirak edir və elmi nəşrləri konfrans

materiallarında çap olunur. 2023-cü ildə elmi fəaliyyətə cəlb olunan tələbələr tərəfindən tələbə və magistrantların elmi konfransına 614 tezis təqdim edilmişdir. 4 elmi məqalə Evroaziyaya təqdim edilib.

### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

AzMİU-nun internet səhifəsində universitetdə keçirilmiş elmi konfransların nəşrləri, akademik heyət tərəfindən nəşr olunan dərsliklərin, dissertasiyaların və dərs vəsaitlərinin elektron (pdf) versiyası yerləşdirilmiş və elektron resurslara pulsuz giriş imkanı yaradılmışdır. Həm ölkə daxilində, həm də xaricində müxtəlif elmi müəssisə və təşkilatlarla AzMİU-nun elmi-tədqiqat sahəsində əməkdaşlıq əlaqələri mövcuddur. Westminster Universiteti, Varşava Texnoloqiya Universiteti, Slovakiya Texnoloqiya Universiteti, Roma Sapienza Universiteti, Szeged Universiteti, Sileziya Texnoloqiya Universiteti, Qinqdao Texnoloqiya Universiteti, Kırqız-Türk Manas Universiteti, Moskva İnşaat Mühəndisliyi Dövlət Universiteti, Satbayev Universiteti, V.İ. Surikov adına Moskva akademik rəssamliq institutu, Rusiya rəssamlıq akademiyası, Zonguldak Bulent Ecevit Universiteti, Bartın Universiteti, Granada Universiteti ilə anlaşmalar elmi-tədqiqat fəaliyyətini də əhatə edir. AzMİU-nun əməkdaşları bir neçə ildir ki, Web of Science və SCOPUS elmi bazalarının xidmərlərindən istifadə edirlər. Cari il də Azərbaycan ETN dəstəyi ilə ScienceDirect bazalarına çıxış təmin edilməsi üçün Elsevier şirkəti ilə müqavilə imzalanıb. Yaxın gələcəkdə Clarivate şirkəti ilə də müqavilə imzalanacakdır.

### 4.2.5 Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin edilməsi məqsədilə Web of Science bazasından olan Q1, Q2, Q3, Q4 kvartillərində mövcud jurnallarda nəşrlərə görə mükafatlar təsis edilmiş və differensial əməkhaqqı sistemi yaradılmışdır. Differensial əməkhaqlarının təyin olunmasında tətbiq edilən qiymətləndirmə mexanizmində elmi-fəaliyyət nəticələrinin xüsusi çəkisi əsas həcmə malikdir.

Tədqiqat büdcəsinin bölgüsü və onun illər üzrə dəyişməsi *Cədvəl 4.1-də* göstərilmişdir:

**Cədvəl 4.1.**

**AzMİU-da tədqiqat büdcəsinin bölgüsü (illər üzrə)**

| İl | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| AzN | 32000 | 35000 | 36663 | 62000 | 65000 | 96000 | 99000 | 84400 |

### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

**Cədvəl 4.2.**

**Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər (illər üzrə)**

| İllər | Maliyyə (manat) | Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası |
|---|---|---|
| 2015 | *32000* | - |

| | | |
|---|---|---|
| 2016 | *35000* | 0.58%, |
| 2017 | *36663* | 1.42%, |
| 2018 | *62000* | 4.26%. |
| 2019 | *65000* | - |
| 2020 | *96000* | - |
| 2021 | *99000* | - |
| 2022 | *84400* | - |

#### 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

AzMİU-nun həm ölkə daxilində, həm də xaricində müxtəlif elmi müəssisə və təşkilatlarla elmi-tədqiqat sahəsində əməkdaşlıq əlaqələri mövcuddur. Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Mühəndislik Universiteti arasında elm sahəsində əməkdaşlığa dair anlaşma memorandumu bağlanıb. Universitetdə periodik olaraq "Elmi əsərlər", "Ekologiya və su təsərrüfatı", "Urbanizm", "Tikintinin iqtisadiyyatı və menecment" və "Mühəndis mexanikası" elmi jurnalları nəşr olunur. AzMİU Westminster Universiteti, Varşava Texnoloqiya Universiteti, Slovakiya Texnoloqiya Universiteti, Roma Sapienza Universiteti, Szeged Universiteti, Sileziya Texnoloqiya Universiteti, Qinqdao Texnoloqiya Universiteti, Kırğız-Türk Manas Universiteti, Moskva İnşaat Mühəndisliyi Dövlət Universiteti, Satbayev Universiteti, V.İ.Surikov adına Moskva akademik rəssamliq institutu, Rusiya rəssamlıq akademiyası, Zonguldak Bulent Ecevit Universiteti, Bartın Universiteti, Granada Universiteti ilə anlaşmalar elmi-tədqiqat fəaliyyətini də əhatə edir. AzMİU-nun əməkdaşları Web of Science və SCOPUS elmi bazalarının xidmərlərindən istifadə edirlər. Cari ildə Azərbaycan ETN dəstəyi ilə ScienceDirect bazalarına çıxış təmin edilməsi üçün Elsevier şirkəti ilə müqavilə imzalanıb.

### *4.3 Elmi-tədqiqat fəaliyyəti*

#### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

AzMİU-nin elmi tədqiqat fəaliyyətinin idarə edilməsi rektorun rəhbərliyi ilə Elm və İnnovasiya məsələləri üzrə prorektorluq və müvafiq struktur bölmələri tərəfindən ölkə elm və təhsil sahəsində Azərbaycan Respublikasının qanunları, həmçinin Universitetin Elmi Şurasının qərarları əsasında həyata keçirilir. Universitetdə elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi məqsədilə Elmi tədqiqat şöbəsi, Doktorantura şöbəsi, Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir.

Universitetdə elmi-tədqiqat fəaliyyəti rektor tərəfindən təsdiq olunmuş elmi-tədqiqat stratrgiyasına uyğun olaraq həyata keçirilir. Hazırda universitetin elmi-tədqiqat fəaliyyəti rektor tərəfindən təsdiq edilmiş və qüvvədə olan "AzMİU-nun 2021-2025-ci illər üzrə elmi-tədqiqat strategiyası"na əsaslanır. Universitetdə elmi-tədqiqat fəaliyyətinin məqsədyönlü aparılması məqsədilə hər təqvim ili üçün Elmi tədqiqat üzrə fəaliyyət planı hazırlanır və rektor tərəfindən təsdiq olunur. Tədbirlər planı komissiya üzvlərinə təqdim edildi. *Lakin elmi-tədqiqat üzrə fəaliyyət planı ümumi xarakter daşıyır və tədbirlər üzrə*

*qiymətləndirmə meyarları yoxdur. Eyni zamanda, Elmi tədqiqat strategiyasında olduğu kimi, Elmi tədqiqat üzrə fəaliyyət planlarında da təsdiq olunma tarixləri göstərilməmişdir.*

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

AzMİU-da son 7 ildə 53 respublika, 26 beynəlxalq statuslu konfranslar keçirilmişdır. Konfrans, seminar və görüşlərdə digər müəssisə və ölkələrdən orta hesabla 110 tədqiqatçı iştirak etmişdir. 2015-2022-ci illər ərzində hər il tələbə və magistrantların elmi konfransı keçirilmişdir. Konfranslarda müxtəlif bölmələr üzrə hər il yüzlərlə məruzələr dinlənilir və nəşr olunur. Rektorun təşəbbüsü ilə kafedraların elmi seminarları keçirilir. Bəzi kafedralar xarici universitetlərin uyğun kafedraları ilə seminarlara qoşulur və birgə onlayn seminarların təşkil edilməsi planlaşdırılır.

İTACA-Azərbaycanda ekoloji xarakterli fövqəladə hallar üzrə 3-cü dövr yeni magistratura səviyyəsini dəstəkləyən innovativ təlim mərkəzi" (2019-2022) adlı Erasmus+KA2 layihəsi 23-24 may 2022-ci il tarixlərində Danimarkanın Aalborq Universitetində layihə iştirakçıları üçün vorkşop, 26-27 may tarixlərində İspaniyanın Qranada Universitetində "Ekoloji rekultivasiya konfransı" adlı tədbir, iyun ayında Yunanıstanın Patras Universitetində, Danimarkanın Aalborq Universitetində və İtaliyanın Sapienza Universitetində müəllimlər üçün bir ay müddətində təlimlər və mühazirələr təşkil olunmuşdur.

Avropa Birliyi(AB) ilə müvafiq tərəfdaş ölkələr arasında əməkdaşlığa töhfə vermək, yeni modullardan istifadə edərək magistratura səviyyəsində tədris proqramlarının modernləşdirməsini hədəfləyən WORK4CE- "XXI Əsrdə Sağlam və Təhlükəsiz İş Mühiti Üçün Domenlərarası Kompetensiyalar" (2020-2023) layihəsi çərçivəsində 2021-2022-ci tədris ili ərzində modulların inkişafı üzrə bir sıra onlayn görüşlər və Almaniyanın Dortmund şəhərində toplantılar keçirilmişdir.

GEOCLIC – "Sahil ekosistemlərinin iqlim dəyişikliyinə uyğunlaşmasi üçün geoməkan mühəndisliyi üzrə yeni kurslar" (2020-2023) layihəsi çərçivəsində hesabat ili ərzində bir sıra onlayn görüşlər keçirilib.

WORK4CE-"XXI Əsrdə Sağlam və Təhlükəsiz İş Mühiti üçün Domenlərarası Kompe-tensiyalar" (2020-2023) layihəsi çərçivəsində 2021-2022-ci tədris ili ərzində modulların inkişafı üzrə bir sıra onlayn görüşlər və Almaniyanın Dortmund şəhərində toplantılar keçirilmişdir.

### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

AzMİU-nun keçirilən elmi konfranslarında ölkənin digər ali təhsil müəssisələrinin tədqiqatçıları rəsmi şəkildə dəvət olunur və onların konfranslarda iştirakı üçün şərait yaradılır. Belə ki, AzMİU-da son 7 ildə keçirilmiş 53 respublika, 26 beynəlxalq statuslu konfranslarlarda, seminar və görüşlərdə digər müəssisə və ölkələrdən orta hesabla 110 tədqiqatçı iştirak etmişdir.

WORK4CE - "XXI Əsrdə Sağlam və Təhlükəsiz İş Mühiti Üçün Domenlərarası Kompetensiyalar" (2020-2023) layihəsi çərçivəsində 2021-2022-ci tədris ili ərzində modulların inkişafı üzrə bir sıra onlayn görüşlər və Almaniyanın Dortmund şəhərində toplantılar keçirilmişdir. Birgə layihələr çərçivəsində universitetin əməkdaşlıq etdiyi digər

universitet və təşkilatların əməkdaşları, elmi tədqiqatçıları AzMİU-da olmuş, müxtəlif görüşlərdə, seminar və konfranslarda iştirak etmişlər.

2017-2019-cu illər Almaniyanın DAAD proqramının "Qısa müddətli dosentlik" layihəsi çərçivəsində Köln Universitetinin 1 professoru, 2019-cu ildə ABŞ-ın Fulbrayt Elmi-Tədqiqat Səfər Proqramı çərçivəsində 1 amerikalı mütəxəssis, 2019-2020-ci tədris ilində və 2022-2026 -cı illərdə İtaliya Xarici İşlər Nazirliyi və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin "Laureati per l'italiano" layihəsi çərçivəsində 2 italyalı müəllim, ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi "English Language Fellow" təqaüd proqramı çərçivəsində 1 amerikalı mütəxəssis 2022-2023 tədris ilində xarici mütəxəssis qismində AzMİU-da tədris fəaliyyətinə cəlb olmuşdur.

### 4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

Tələbələrin (magistrant və bakalavriatların) elmi-tədqiqat fəaliyyətində iştirakını təşviq və təşkil etmək məqsədilə universitetdə Elmi tədqiqat şöbəsi ilə yanaşı Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir. Elmi-tədqiqat strategiyasında universitetdə elmi-tədqiqat işlərinin təşviqi qismində tələbə və magistrların elmi yaradıcılığa cəlb edilməsi nəzərdə tutulur. Bu baxımdan universitetdə həm bakalavriat, həm də magistratura səviyyəsində tələbələrin elmi tədqiqatlara cəlb edilməsinə xüsusi diqqət verilir. Bu işdə kafedralarla yanaşı, Tələbə Elmi Cəmiyyəti özünəməxsus rol oynayır. Tələbələr elmi-tədqiqat və elmi yaradıcılıq işlərinə cəlb olunurlar. Onların apardıqları elmi tədqiqatlar və əldə olunmuş nəticələr barədə məruzələrlə elmi seminarlarda və konfranslarda çıxış edirlər. Bəzən bu tədqiqatların davamı olaraq StartUp layihələri işlənilir və müvafiq qaydada müsabiqələrdə iştirak təşkil olunur.

Tələbə və magistrantlar Universitet daxili, respublika və xarici ölkələrdə keçirilən elmi konfranslarda, olimpiadalarda, müsabiqələrdə mütəmadi iştirak edirlər. Tələbələrin ayrı–ayrı kafedralarda yerinə yetirilən elmi-tədqiqat işlərinə cəlb olunmaları istiqamətində işlər daim davam etdirilir. 2015-2022-ci illər ərzində hər il tələbə və magistrantların elmi konfransı keçirilmişdir. Konfransda müxtəlif bölmələr üzrə hər il 600-ə yaxın məruzə dinlənilmiş və nəşr olunmuşdur.

### 4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

Hesabat dövründə universitetin əməkdaşları Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Elmi-Tədqiqat Layihələri üzrə əsas qrant müsabiqəsində iştirak etmiş aşağıdakı qrant layihələrinin qalibi olmuşlar:

- "İnşaat sektorunda istifadə olunan materiallarda radioekoloji və kimyəvi risklər, idarəolunma mexanizmləri və elektron məlumat resurslarının yaradılması" layihəsi;
- "Ali təhsil sistemində təhsilin keyfiyyətinin yaxşılaşdırılmasında qiymətləndirmənin rolu" layihəsi;
- "Klassik və kvant mexanikasının bəzi məsələlərində spektral nəzəriyyənin və qeyri-harmonik Furye analizinin metodları";
- "Qarabağın tarixi abidələrinin bərpasında istifadə ediləcək inşaat məhlulları tərkiblərinin işlənməsi".

Universitetin əməkdaşları tərəfindən 2018-ci ildə müxtəlif layihələr beynəlxalq qrant müsabiqələrinə təqdim olunmuş və aşağıdakı qrant layihələri alınmışdır:

- Erasmus+ KA2 “Nizami - Azərbaycanda doktorantura təhsilinin avropa ali təhsil sistemi tələblərinə uyğunlaşdırılması xətti ilə yenidən qurulması və inkişaf etdirilməsi” layihəsi. Monpelye Universiteti/ Fransa. Donor təşkilat - Avropa Birliyi;
- LPEB N°561732-EPP-1-2015-1-FR-EPPKA2-CBHE-JP “Professional Bachelor in open and distance learning for energy and environmental performance of buildings in the Russian Federation, China and Azerbaijan” layihəsi. İncəsənət və sənətşünaslıq üzrə Milli Konservatoriya /CNAM-Fransa. Donor təşkilat- Avropa Birliyi;
- “Azərbaycan Universitetlərində Keyfiyyət Təminatı Mərkəzlərinin Yaradılması və İnkişaf Etdirilməsi“ layihəsi. Layihənin rəhbəri: Səttarova Ülkər Eldar qızı. Donor təşkilat- Avropa Komissiyası (Erasmus+);
- “Azərbaycanın işğal olunmuş ərazilərində tarixi abidələrin 3D modellərin layihələşdirilməsi“ layihəsi. Layihənin rəhbəri: Səttarova Ülkər Eldar qızı. Donor təşkilat-Universitetin partnyoru;
- “Innovative solutions“. Layihənin rəhbəri: Səttarova Ülkər Eldar qızı. Donor təşkilat- “Creative spark” Tərəfdaşlıq Fondu;
- “Creative economy“. Layihənin rəhbəri: Səttarova Ülkər Eldar qızı. Donor təşkilat-“Creative spark” Tərəfdaşlıq Fondu.

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

Universitetin əməkdaşları tərəfindən 2015-2022-ci illər ərzində 40 xarici, 47 respublika səviyyəli patent alınmışdır.

Kiçik və orta biznes subyektləri üçün resurs səmərəli dairəvi istehsalın təşkili sahəsində təlimlərin təşkili, Plastik tullantıların emalından üzvi xammalın alınması üçün Mobil Pilot qurğusunun hazırlanması, Kompleks nanomodifikatorların alınması və onların betonun xassələrinin yaxşılaşdırılmasında tətbiqi, Torpaq bəndlərin yuxarı yamacının dağıdıcı təsirlərdən mühafizəsi və gövdəsində baş verən sızma proseslərinin tədqiqi, Membran (nanosüzülmə) üsulu ilə duzlu sulardan suvarma və texniki məqsədlər üçün şirinləşdirilmiş suyun alınma texnologiyasının işlənilməsi mövzuları üzrə əldə olunmuş nəticələr istehsalata tətbiq üçün hazırlanmışdır.

### 4.3.7 İnstitutsional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

Erasmus+KA2 layihəsi çərçivəsində 23-24 may 2022-ci il tarixlərində Danimarkanın Aalborq Universitetində layihə iştirakçıları üçün vorkşop, 26-27 may tarixlərində İspaniyanın Qranada Universitetində “Ekoloji rekultivasiya konfransı” adlı tədbir, iyun ayında Yunanıstanın Patras Universitetində, Danimarkanın Aalborq Universitetində və İtaliyanın Sapienza Universitetində müəllimlər üçün bir ay müddətində təlimlər və mühazirələr təşkil olunmuşdur.

Bir sıra universitetlərlə elmi əməkdaşlığı əhatə edən anlaşmalar var. Belə ki, universitetin əməkdaşları İtaliya, Türkiyə, Rusiya, İspaniya, Almaniya, Danimarka və digər ölkələrin universitetləri, elm mərkəzləri, fondları və s. ilə də elm və təhsil üzrə əməkdaşlıq həyata keçirir. Vestminster Universiteti, Varşava Texnologiya Universiteti, ISCTE İcra təhsili, (Lissabon, Portuqaliya), Bratislavada Slovak Texnologiya Universiteti, La Sapienza de Roma, Szeged Universiteti (Macarıstan), Silesia Texnologiya Universiteti, Qinqdao Texnologiya Universiteti (Qinqdao, Çin), Qırğız-Türk Manas Universiteti, Moskva İnşaat Mühəndisləri Dövlət Universiteti, Satbayev adına Qazaxıstan Milli Tədqiqat Texniki Universiteti, V.İ.Surikov adına Moskva Dövlət Akademik İncəsənət İnstitutu, Rusiya İncəsənət Akademiyası, Zonguldak Bulent Ecevit Universiteti, Bartin Universiteti (Granada) universitetləri ilə anlaşmalar elmi-tədqiqat fəaliyyətini də əhatə edir.

Eyni zamanda bir sıra aparıcı universitetlər (İspaniyanın Koruna Universiteti, Portuqaliyanın Leiria Politexnik İnstitutu, Portuqaliyanın Lissabon Texniki Universiteti, Milan Texniki Universiteti və s.) əməkdaşlıq çərçivəsində birgə tədqiqatların təşkili, doktorant və magistrantların elmi tədqiqatlara cəlb olunması təşkil edilmişdir.

### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

Universitet Fransa, İtaliya, İngiltərə, ABŞ, Almaniya, Türkiyə, İran, Rusiya, Ukrayna, Qazaxstan, Özbəkistan və digər ölkələrin universitetləri, elmi mərkəzləri, fondları və s. ilə də elm və təhsil üzrə əməkdaşlıq etmişdir. Bu əməkdaşlıq çərçivəsində birgə elmi konfranslar, universitetlərlə tanışlıq, görüşlər təşkil edilmiş doktorantura təhsili və stajkeçmə məsələləri istiqamətində fikir mübadiləsi aparılmışdır.

### 4.3.9 Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

İnformasiya texnologiyaları və sistemləri kafedrasının professoru Ü.E. Səttarova Fransanın Montpellier Universiteti- Sistemli analiz və informasiyanın işlənməsi (2014-2019) üzrə doktorantura, PhD - Niderland Krallığının Maastrixt Universiteti - Ali təhsilin idarə edilməsi (2019-dan indiyədək) istiqamətində araşdırmalar aparır.

2020-ci ildən İnformasiya texnologiyaları və sistemləri kafedrasının dosenti N.E. Rzayeva Niderlandın Leiden Universitetinin nəzdində Elm və Texnologiya Araşdırmaları Mərkəzində (CWTS) "Elmin ölçülməsi" (Scientometrics) ixtisası üzrə ikinci PhD dissertasiyası üzərində çalışır.

Erasmus+KA2 layihəsi çərçivəsində Yunanıstanın Patras Universitetində, Danimarkanın Aalborq Universitetində və İtaliyanın Sapienza Universitetində müəllimlər üçün bir ay müddətində təlimlər və mühazirələr təşkil olunmuşdur. Tədbirlərdə AzMİU-nu Ekologiya və Meliorasiya və Su Təsərrüfatı Tikintisi kafedralarının 5 əməkdaşı təmsil etmişdir.

### 4.3.10 Yerinə yetirilən elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

“İTACA-Azərbaycanda ekoloji xarakterli fövqəladə hallar üzrə 3-cü dövr yeni magistratura səviyyəsini dəstəkləyən innovativ təlim mərkəzi” (2019-2022) adlı Erasmus+KA2 layihəsi doktorantura səviyyəsində qabaqcıl tədris vasitələrini tətbiq edərək tərəfdaş ölkələrdəki ətraf mühit mühəndisliyi və əlaqəli fənlər üzrə təhsil sistemini təkmilləşdirmək və modernləşdirməyi hədəfləyir. Layihə nəticəsində neft və qaz hasilatı

zamanı yaranan ekoloji problemlərin həlli ilə məşğul olacaq tədris mərkəzi avadanlıqlarla təchiz olunaraq açılıb. Doktorantura səviyyəsində ətraf mühit mühəndisliyi və əlaqəli fənlər üzrə təhsil sistemi təkmilləşdirilib, neftlə çirklənmiş torpaq və su hövzələrinin təmizlənməsi ilə bağlı AzMİU-da yeni təkmilləşdirmə kursları hazırlanıb.

GEOCLIC–"Sahil ekosistemlərinin iqlim dəyişikliyinə uyğunlaşması üçün geoməkan mühəndisliyi üzrə yeni kurslar" (2020-2023) layihəsi uzaqdan zondlama və yeni modelləşdirmə texnologiyalarından istifadə edərək sahil ekosistemlərinin ekoloji təhlükəsizliyini təmin etmək üçün bakalavriatura, magistratura və doktorantura səviyyələrində mövcud tədris proqramlarının modernləşdirməsini və yeni tədris planlarının hazırlanmasını, sınaqdan keçirilməsini hədəfləyir.

Bütövlükdə, universitetin professor-müəllim heyəti, doktorantları və magistrantları tərəfindən aparılmış elmi-tədqiqatların nəticələri tədris prosesində tətbiq olunur, yeni dərslik, dərs vəsaitləri, metodiki vəsaitlər hazırlanarkən nəzərə alınır.

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

**Alimlərin elmi-tədqiqat fəaliyyətlərinin nəticələri elmi-periodik jurnallarda, konfrans məruzələrində nəşr olunmuş və müxtəlif layihələr çərçivəsində realizasiya olunmuşdur.**

Universitetdə "Elmi əsərlər", "Ekologiya və su təsərrüfatı", "Urbanizm", "Tikintinin iqtisadiyyatı və menecment" və "Mühəndis mexanikası" elmi jurnalları dövri olaraq nəşr olunur. "Elmi Əsərlər" və "Urbanizm" jurnalının bütün məqalələrinə DOI ("obyektin rəqəmsal identifikatoru") alınmışdır. Nəşr olunan 5 jurnal EBSCO, Google Scholar, FLIPHTML kimi bazalara, "Tikintinin iqtisadiyyatı və menecment" jurnalı Rusiyanın E-library (Научная электронная библиотека - РИНЦ) bazasına daxil olmuşdur. Nəşr olunan 4 jurnalın "Elmi əsərlər", "Urbanizm", "Ekologiya və Su Təsərrüfatı" və "Mühəndis mexanikası" jurnalının hər birinin rəsmi saytı mövcuddur.

Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin edilməsi məqsədilə Web of Science bazasından olan Q1,Q2,Q3,Q4 kvartillərində mövcud jurnallarda nəşrlərə görə mükafatlar təsis edilmiş və differensiyasiyalı əməkhaqqı sistemi yaradılmışdır. Differensiyasiyalı əməkhaqlarının təyin olunmasında tətbiq edilən qiymətləndirmə mexanizmində elmi-fəaliyyət nəticələrinin xüsusi çəkisi əsas həcmə malikdir.

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin ("citation index"-in) artım dinamikası

Fundamental və tətbiqi elm sahələri üzrə aparılan elmi tədqiqat işlərinin nəticələri hesabat dövrü ərzində 126 impakt faktorlu, 935 digər beynəlxalq bazalarda indekslənən və 2840 respublika elmi periodik nəşrlərdə dərc olunmuşdur.

Universitetdə professor-müəllim heyətinə Web of Science bazasına daxil olan jurnallarda məqalə dərc olunmasında yardım göstərmək üçün Web of Science və Elsevier əməkdaşları beynəlxalq nəşrlər və akademik yazı qaydaları və digər aktual məsələlərə həsr edilmiş silsilə seminarlar keçirib və indi bu seminarlar Elmi-tədqiqat şöbəsinin yanında yaradılan işçi qrup tərəfindən davam etdirilir.

Professor-müəllim heyətinin müxtəlif akademik bazalarda (WoS, elsevier, orcid, researchgate, google scholar) profilləri yaradılıb, bu bazaların verilənlərinə görə alimlərin H indeksi ildən ilə artımı müşahidə olunur.

### 4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

Magistratura və doktorantura səviyyələrində ixtisasların tədris planlarında bir çox tədqiqat yönümlü fənlər daxil edilir. Belə ki, magistratura səviyyəsinin tədris planında seçmə fənlər bölümündə əksər fənlər tədqiqat yönümlü nəzərdə tutulur. Doktorantura səviyyəsində isə bütün tədris fəaliyyəti elmi tədqiqatlara yönəlmiş olur.

Erasmus+KA2 layihəsi doktorantura səviyyəsində qabaqcıl tədris vasitələrini tətbiq edərək tərəfdaş ölkələrdəki ətraf mühit mühəndisliyi və əlaqəli fənlər üzrə təhsil sistemini təkmilləşdirmək və modernləşdirməyi hədəfləyir. Erasmus+KA2 layihəsi çərçivəsində Doktorantura səviyyəsində ətraf mühit mühəndisliyi və əlaqəli fənlər üzrə təhsil sistemi təkmilləşdirilib, neftlə çirklənmiş torpaq və su hövzələrinin təmizlənməsi ilə bağlı AzMİU-da yeni təkmilləşdirmə kursları hazırlanmışdır.

GEOCLIC–“Sahil ekosistemlərinin iqlim dəyişikliyinə uyğunlaşması üçün geoməkan mühəndisliyi üzrə yeni kurslar” (2020-2023) layihəsi uzaqdan zondlama və yeni modelləşdirmə texnologiyalarından istifadə edərək sahil ekosistemlərinin ekoloji təhlükəsizliyini təmin etmək üçün bakalavriatura, magistratura və doktorantura səviyyələrində mövcud tədris proqramlarının modernləşdirməsini və yeni tədris planlarının hazırlanmasını, sınaqdan keçirilməsini qarşıya məqsəd kimi qoymuşdur.

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

Erasmus+KA2 layihəsi çərçivəsində Danimarkanın Aalborq Universitetində layihə iştirakçıları üçün vorkşop, İspaniyanın Qranada Universitetində “Ekoloji rekultivasiya konfransı” adlı tədbir, Danimarkanın Aalborq Universitetində və İtaliyanın Sapienza Universitetində müəllimlər üçün bir ay müddətində təlimlər və mühazirələr təşkil olunmuşdur.

WORK4CE-“XXI Əsrdə Sağlam və Təhlükəsiz İş Mühiti Üçün Domenlərarası Kompetensiyalar” (2020-2023) layihəsi çərçivəsində 2021-2022-ci tədris ili ərzində modulların inkişafı üzrə bir sıra onlayn görüşlər və Almaniyanın Dortmund şəhərində toplantılar keçirilmişdir.

Hazırda İtaliyanın Milan Texniki Universiteti ilə dizayn ixtisasında imzalanmış ikili diplom müqaviləsi çərçivəsində hazırda 2-ci kursda təhsil alan tələbələrin gələn il təhsilini İtaliyada davam etdirməsi, POLİMİ-nin müəllim və tələbələri ilə birgə vorkşopların keçirilməsi, italyan müəllimlərin AzMİU-da mühazirə və seminarlarının təşkili üzərində iş aparılır.

Universitet alimlərinin Fransa, İtaliya, İngiltərə, ABŞ, Almaniya, Türkiyə, İran, Rusiya, Ukrayna, Qazaxstan, Özbəkistan və digər ölkələrin universitetləri, elmi mərkəzləri, fondları və s. ilə əməkdaşlığı çərçivəsində birgə elmi konfranslar, universitetlərlə tanışlıq, görüşlər təşkil edilmiş doktorantura təhsili və stajkeçmə məsələləri istiqamətində fikir mübadiləsi aparılmışdır.

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

*Doktorantura proqramlarının təşviq edilməsi, doktoranturaya gənc tədqiqatçıların cəlb olunması və doktorantura məzunlarının işə cəlb olunması siyasəti Elmi tədqiqat strategiyasında qeyd olunsa da, sistemli şəkildə aparılmır.*

Elmi kadrların hazırlanması həm fəlsəfə doktoru, həm də elmlər doktoru proqramları üzrə doktorantura və dissertantura yolu ilə həyata keçirilir. Ötən illərin doktoranturaya qəbul üzrə hesabatlarından görünür ki, bəzi ixtisaslar üzrə qəbul planı 100%, digər ixtisaslarda 75% və 50% təşkil edir, bəzən isə ümumiyyətlə qəbul olmur.

Qeyd edilməlidir ki, elmlər doktoru proqramı üzrə qəbul əvvəlcədən konkret alimlər üçün planlaşdırıldığından qəbul planı 100% təmin edilir.

Elmi ixtisaslar haqqında məlumatlar universitetin saytında yerləşdirilir. Eyni zamanda magistratura səviyyəsini bitirən məzunlar arasında da təşviqat işləri aparılır və onların doktoranturaya cəlb olunması üçün işlər həyata keçirilir.

### 4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

AzMİU-da professor-müəllim heyətinin sayı 540 nəfərdir. Bunlardan: 65 nəfəri elmlər doktoru, 53 nəfəri professor, 4 nəfəri məsləhətçi-professor, 251 nəfəri fəlsəfə doktoru (onlardan 215 nəfəri dosentdir) və 236 nəfəri baş müəllim və assistent-müəllimlərdir. Universitetə professor-müəllim heyəti müsabiqə yolu ilə 5 il müddətinə işə qəbul edilir.

ATM-də tədris prosesində iştirak edən akademik heyətin sayının universitetin digər əməkdaşlarının sayına nisbəti *Cədvəl 4.3-də* verilmişdir:

**Cədvəl 4.3.**

**Tədris prosesində iştirak edən akademik heyətin sayının universitetin digər əməkdaşlarının sayına nisbəti**

| İllər (son 7 ilin nəticələri daxil edilməlidir) | Fakültə (lər) | Akademi heyətlə inzibati və tədris-köməkçi heyətin nisbəti | | | Fakültə üzrə akademik heyətin tələbə sayına nisbəti | Tədris prosesində iştirak edən və əsas iş yeri müəssisə olan akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) | | | İxtisasartırma kurslarına, təlimlərə və ya digər kurslara cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2015/ 2016 | Memarlıq | 106 | 25 | 23% | 6,8 | 106 | 90 | 85% | 12% |
| | İnşaat | 85 | 22 | 25% | 12,4 | 85 | 67 | 79% | 13,40% |
| | ST və MKS | 71 | 23 | 32% | 17,4 | 71 | 62 | 87% | 20,96% |
| | Nəqliyyat | 76 | 21 | 27% | 12,6 | 76 | 52 | 68% | 25% |
| | İnşaat texnologiya | 48 | 19 | 39% | 9,9 | 48 | 43 | 90% | 11,60% |
| | Tikinti-iqtisad | 70 | 18 | 25% | 8 | 70 | 59 | 84% | 13,50% |
| | MİT | 63 | 21 | 33% | 9,3 | 63 | 49 | 78% | 32,60% |
| | Əcnəbi vətəndaşların hazırlığı | 32 | 8 | 25% | 16 | 32 | 32 | 100% | - |
| 2016/ 2017 | Memarlıq | 101 | 23 | 22% | 6,8 | 101 | 86 | 85% | 5,80% |
| | İnşaat | 66 | 23 | 34% | 15,3 | 66 | 59 | 86% | 6,80% |
| | ST və MKS | 73 | 21 | 28% | 18,8 | 73 | 65 | 89% | 3,00% |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Nəqliyyat | 81 | 22 | 27% | 12,2 | 81 | 67 | 83% | 1,50% |
| | İnşaat texnologiya | 38 | 16 | 42% | 12,3 | 38 | 37 | 97% | 10,80% |
| | Tikinti-iqtisad | 77 | 18 | 23% | 8,2 | 77 | 72 | 94% | 9,70% |
| | MİT | 57 | 21 | 36% | 11 | 57 | 49 | 86% | 4,00% |
| | Əcnəbi vətəndaşların hazırlığı | 17 | 6 | 35% | 26 | 17 | 16 | 94% | - |
| 2017/ 2018 | Memarlıq | 102 | 24 | 23% | 6,7 | 102 | 85 | 83% | 12,80% |
| | İnşaat | 63 | 20 | 31% | 15,8 | 63 | 57 | 90% | 6,70% |
| | ST və MKS | 80 | 23 | 28% | 18,6 | 80 | 70 | 87% | 7,60% |
| | Nəqliyyat | 78 | 22 | 28% | 13,2 | 78 | 63 | 81% | 8,90% |
| | İnşaat texnologiya | 35 | 15 | 43% | 14 | 35 | 34 | 97% | 10,80% |
| | Tikinti-iqtisad | 77 | 18 | 23% | 10,2 | 77 | 71 | 92% | 12,50% |
| | MİT | 55 | 20 | 36% | 13 | 55 | 50 | 91% | 10,20% |
| | Əcnəbi vətəndaşların hazırlığı | 17 | 6 | 35% | 19 | 17 | 15 | 88% | - |
| 2018/ 2019 | Memarlıq | 104 | 25 | 24% | 7 | 104 | 85 | 82% | 11,60% |
| | İnşaat | 62 | 19 | 31% | 14,5 | 62 | 53 | 85% | 13,20% |
| | ST və MKS | 81 | 23 | 28% | 18,7 | 81 | 69 | 85% | 7,20% |
| | Nəqliyyat | 77 | 22 | 29% | 12,5 | 77 | 65 | 84% | 7,80% |
| | İnşaat texnologiya | 41 | 16 | 39% | 12,5 | 41 | 39 | 95% | 17,90% |
| | Tikinti-iqtisad | 76 | 18 | 24% | 12,7 | 76 | 73 | 96% | 4,10% |
| | MİT | 63 | 20 | 32% | 11,5 | 63 | 55 | 87% | 7,30% |
| | Əcnəbi vətəndaşların hazırlığı | 17 | 4 | 24% | 15,2 | 17 | 15 | 88% | - |
| 2019/ 2020 | Memarlıq | 104 | 26 | 25% | 9,8 | 104 | 83 | 80% | 18,07% |
| | İnşaat | 61 | 21 | 34% | 14,9 | 61 | 50 | 82% | 30% |
| | ST və MKS | 83 | 22 | 27% | 18,4 | 83 | 69 | 83% | 10,10% |
| | Nəqliyyat | 74 | 22 | 30% | 14,2 | 74 | 58 | 78% | 12,07% |
| | İnşaat texnologiya | 41 | 21 | 27% | 12,4 | 41 | 37 | 90% | 11% |
| | Tikinti-iqtisad | 78 | 17 | 22% | 15,8 | 78 | 72 | 92% | 18% |
| | MİT | 60 | 18 | 30% | 12,7 | 60 | 55 | 92% | 10,90% |
| | Əcnəbi vətəndaşların hazırlığı | 19 | 4 | 21% | 12,6 | 19 | 16 | 84% | - |
| 2020/ 2021 | Memarlıq | 102 | 26 | 25% | 11,2 | 102 | 81 | 79% | 7,40% |
| | İnşaat | 60 | 21 | 35% | 16,8 | 60 | 50 | 83% | 2,70% |
| | ST və MKS | 82 | 20 | 24% | 18,8 | 82 | 66 | 80% | 3% |
| | Nəqliyyat | 68 | 18 | 26% | 16,6 | 68 | 55 | 81% | 3,60% |
| | İnşaat texnologiya | 39 | 12 | 31% | 12,1 | 39 | 35 | 90% | 5,70% |
| | Tikinti-iqtisad | 83 | 18 | 22% | 16,2 | 83 | 75 | 90% | 5,30% |
| | MİT | 63 | 17 | 27% | 12,8 | 63 | 57 | 90% | 5,30% |
| | Əcnəbi vətəndaşların hazırlığı | 17 | 4 | 24% | 16,6 | 17 | 14 | 82% | - |
| 2021/ 2022 | Memarlıq | 97 | 26 | 27% | 12,3 | 97 | 80 | 82% | 17,50% |
| | İnşaat | 93 | 28 | 30% | 10,8 | 93 | 81 | 87% | 12,30% |
| | ST və MKS | 82 | 22 | 27% | 18,7 | 82 | 64 | 78% | 48,40% |
| | Nəqliyyat | 75 | 24 | 32% | 17,1 | 75 | 55 | 73% | 63,60% |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Tikinti-iqtisad | 86 | 15 | 17% | 5,1 | 86 | 80 | 93% | 51,25% |
| | MİT | 67 | 18 | 27% | 20 | 67 | 56 | 84% | 57,14% |
| | Əcnəbi vətəndaşların hazırlığı | 16 | 4 | 25% | 17,4 | 16 | 13 | 81% | - |

**Cədvəl 4.4.**

**Akademik heyətin sayının illər üzrə dəyişmə dinamikası**

| № | | Ümumi say | Tam ştat | 0,75 ştatda olanlar | 0,5 ştatda olanlar | 0,25 ştatda olanlar | 2015 | | 2016 | | 2017 | | 2018 | | 2019 | | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | işə qəbul olma | işdən azad olma | işə qəbul olma | işdən azad olma | işə qəbul olma | işdən azad olma | işə qəbul olma | işdən azad olma | işə qəbul olma | işdən azad olma | işə qəbul olma | işdən azad olma | işə qəbul olma | işdən azad olma | işə qəbul olma | işdən azad olma |
| 1 | Profrssor-müəllim heyəti | 540 | 285 | 15 | 221 | 19 | 125 | 160 | 132 | 161 | 105 | 134 | 158 | 145 | 161 | 169 | 140 | 123 | 145 | 145 | 163 | 151 |

### 4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti

Hesabat illərində elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti 2015-2016-cı tədris ilində 71%, 2016-2017-ci tədris ilində 72%, 2017-2018-ci tədris ilində 75%, 2018-2019-cu tədris ilində 73% , 2019-2020-ci tədris ilində 71%, 2020- 2021-ci tədris ilində 72%, 2021-2022-ci tədris ilində 77% olmuşdur.

**Cədvəl 4.5.**

**AzMİU-da elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti**

| № | Fakültələr | Ümumi say | Fəxri ad | Professorlar | Elmlər doktorları | Dosentlər | Namizədlər | Baş müəllim | Assistentlər | Tam ştatda olanlar | 0,75 ştat va-hidi olanlar | 0,5 ştat va-hidi olanlar | 0,25 ştat vahidi olanlar | Kənar əvəzçilər | Müsabiqədən keçənlər |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| I | Memarlıq Fakültəsi | 105 | 11 | 17 | 11 | 29 | 38 | 35 | 21 | 57 | 2 | 44 | 2 | 22 | 79 |
| II | İnşaat Fakültəsi | 95 | 3 | 14 | 10 | | 59 | 12 | 14 | 43 | 6 | 39 | 7 | 18 | 67 |
| III | Su Təsərrüfatı və Mühəndis | 88 | 4 | 12 | 11 | 46 | 49 | 10 | 18 | 44 | 2 | 41 | 1 | 8 | 63 |

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kommunikasiya Sistemləri Fakültəsi | | | | | | | | | | | | | | |
| IV | Nəqliyyat Fakültəsi | 77 | 3 | 8 | 8 | 34 | 38 | 23 | 8 | 44 | 2 | 30 | 1 | 19 | 58 |
| V | Tikinti – İqtisad Fakültəsi | 89 | 1 | 7 | 6 | 28 | 34 | 27 | 22 | 51 | 3 | 27 | 8 | 10 | 65 |
| VI | Mexanika və İnformasiya Texnologiyaları Fakültəsi | 67 | 2 | 7 | 6 | 24 | 27 | 11 | 23 | 34 | 0 | 33 | 0 | 12 | 42 |
| VII | Əcnəbi Vətəndaşların Hazırlıq Fakültəsi | 16 | 1 | 0 | 1 | 6 | 6 | 7 | 2 | 9 | 0 | 7 | 0 | 3 | 14 |
| Cəmi: | | 537 | 25 | 65 | 53 | 215 | 251 | 125 | 108 | 282 | 15 | 221 | 19 | 102 | 388 |

### 4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluğu

Təqdim olunan statistik məlumatlar elmi dərəcələrin istiqamətlərinin universitetin elmi tədqiqat hədəflərinə uyğun olduğunu göstərir. Fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə qəbul planlaşdırılan ixtisaslar universitetin elmi-tədqiqat istiqamətinə uyğun planlaşdırılaraq həyata keçirilir.

### 4.3.19 Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Universitetdə elmi tədqiqat fəaliyyətinin monitoringi nəşr olunmuş elmi əsərlərin sayına və dərc olunduğu elmi jurnalların statusuna əsasən müəyyən edilir. Belə ki, strategiyada “2025-ci ilə qədər Web of Science və Scopus elmi platformalarına daxil olan yüksək kvartilli nəşrlərdə çap edilən məqalələrin sayının hər il artırması“, o cümlədən nüfuzlu nəşrlərdə professor-müəllim heyətinin əsərlərinin çap edilməsinin stimullaşdırılması mexanizminin daim təkmilləşdirilməsi, universitetin müəllim və tədqiqatçılarının beynəlxalq elmi platformalarda qeydiyyatı (ORCID, WoS, Scopus, ResearchGate, Google Scholar) və onların akademik profillərinin yaradılması, professor-müəllim heyətinin beynəlxalq elmi dairələrdə tanınması və qlobal universitet reytinqlərində yüksəldilməsi məqsədilə WoS və Scopus bazaların bəzi əlavə alətləri (Incites, SciVal ve s.) imkanlarının dərindən öyrənilməsi, universitetin akademik heyətinin elmi-tədqiqat işlərinin nəticələrinin Web of Science bazasına daxil olan beynəlxalq elmi konfranslarda təqdim olunması və s. fəaliyyətlər nəzərdə tutulmuşdur. Universitetdə dərslik, dərs vəsaiti, metodik göstəriş yazan, yerli və beynalxalq impakt fakorlu jurnallarda məqalələr çap edən müəllimlərin aktiv fəaliyyətinin stimullaşdırılması üçün mükafatlar verilir. Bu məqsədlə universitet rektorunun əmri ilə daxılı qiymətləndirmə layihəsi həyata keçirilir. Katiqoriyalara uyğun (A-200 AZN, B-150 AZN və C-100 AZN) olaraq, müəllimlərə 1 illik maaşlarına ödəniş əlavə olunur.

Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin edilməsi məqsədilə Web of Science bazasından olan Q1, Q2, Q3, Q4 kvartillərində mövcud jurnallarda nəşrlərə görə mükafatlar təsis edilmiş və differensiyasiyalı əməkhaqqı sistemi yaradılmışdır. Differensiyasiyalı əməkhaqlarının təyin olunmasında tətbiq edilən qiymətləndirmə mexanizmində elmi-fəaliyyət nəticələrinin xüsusi çəkisi əsas həcmə malikdir.

Universitet tədris prosesində aktiv fəaliyyət göstərən, tələbələrin rəğbətini qazanan, yüksək reytinqli beynəlxalq nəşrlərdə məqalələr çap etdirən professor-müəllim heyətinin 1 illik əmək haqqına differensial əmək haqqı sistemi ilə kateqoriyalara uyğun olaraq əlavə ödəniş edir. Tətbiq edilən qiymətləndirmə mexanizmində professor-müəllim heyətinin elmi-fəaliyyəti nəticələrinə xüsusi diqqət edilir.

**4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili**

Doktorantura üzrə fəaliyyətin təşkili məqsədilə universitetdə doktorantura şöbəsi fəaliyyət göstərir. Doktorantura şöbəsi doktoranturaya qəbulu, doktorantların mövzu və rəhbərlərinin təsdiq olunması və s. məsələləri koordinasiya edir.

Universitetdə doktoranturada 23 ixtisas üzrə təhsil həyata keçirilir. Hazırda universitetdə fəlsəfə doktoru proqramı üzrə təhsil alanların sayı – 44, elmlər doktoru proqramı üzrə isə 15 nəfər təşkil edir. Hər il müvafiq elmi ixtisaslar üzrə doktoranturaya qəbul planı hazırlanır və qəbul elan edilir. Həm fəlsəfə doktoru, həm də elmlər doktoru proqramları üzrə elmi tədqiqatlar aparan alimlər öz dissertasiyaları üzərində işləri başa vurduqdan sonra elmi rəhbərin (elmi məsləhətçinin) razılığı və tövsiyəsi ilə müvafiq kafedrada müzakirəyə təqdim olunur. İlkin müzakirəni uğurla keçən iddiaçılar zəruri sənədləri hazırlayaraq işlərini müvafiq dissertasiya şuralarında müdafiə üçün təqdim edirlər.

Universitetdə elmi kadrların hazırlanmasını təmin etmək məqsədilə, bir qayda olaraq, memarlıq, inşaat və digər ixtisaslar üzrə 2 dissertasiya şurası fəaliyyət göstərir. Müvafiq tələblərə cavab verən və müdafiəyə buraxılan dissertasiya işlərinin bu şuralarda müdafiəsi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının müəyyən etdiyi qaydada təşkil olunur. Müdafiədən sonra attestasiya sənədləri baxılmaq üçün Ali Attestasiya Komissiyasına təqdim olunur.

Digər ixtisaslar üzrə hazırlanmış dissertasiya işləri başqa elm və təhsil müəssisələrində uyğun ixtisas üzrə fəaliyyət dissertasiya şuralarına göndərilir.

Aktiv elmi tədqiqatla məşğul olan professor müəllim heyətinin sayı son 7 il ərzində orta hesabla 500-dən yuxarı olmuşdur.

***4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti***

**4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu**

Universitetdə, eləcə də onun struktur bölmələrində (fakültələrdə, kafedralarda, elmi-tədqiqat bölmələrində və s.) hazırlanan elmi-tədqiqat əsərlərində oxşarlıq və plagiat, başqa sözlə, digər mənbələrədən icazəsiz və qeyri-qanuni istifadə, özününküləşdirmə hallarının aşkarlanması və qarşısının alınması məqsədilə Strike Plagiarism.com anitiplagiat sistemi tətbiq olunur. Bu məqsədlə AzMİU ilə „Plagiat.pl“ Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 13 aprel 2019-cu il tarixində müqavilə bağlanmışdır. Sonradan bu müqavilə, bir qayda olaraq, hər il yenilənir. Universitetdə antiplagiat siyasəti və antiplagiat sisteminin tətbiqi qaydaları 09.06. 2017-ci il tarixli 124/bm nömrəli əmri ilə təsdiq olunmuşdur. Həmin əmrlə Elm və texnika işləri üzrə prorektor sədr olmaqla Antiplagiat komissiyası yaradılmış, bütün fakültələr üzrə operatorlar təyin edilmiş, plagiat meyarları və oxşarlıq əmsalları müəyyən olunmuşdur.

**4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu**

Universitetdə antiplagiat sisteminin tətbiqi və istifadəsi üzrə müvafiq qaydalar işlənib hazırlanaraq, elmi-pedaqoji fəaliyyətdə oxşarlıq və plagiat hallarının aşkarlanması və aradan qaldırılması məqsədilə tətbiq edilir. Rektor tərəfindən təsdiq edilmiş bu qaydalar magistr və doktorluq (fəlsəfə doktoru və elmlər doktoru) dissertasiyalarının, tədris-metodiki vəsaitlərin (dərsliklərin, dərs vəsaitlərinin və s.), eləcə də digər elmi əsərlərin (elmi jurnallarda çap üçün təqdim olunan məqalələrin, konfranslara təqdim olunan məruzə və tezislərin, elmi hesabatların və s.) və yoxlanılması prinsiplərini, qaydalarını və tələbləri özündə əks etdirir. Antiplagiat sisteminin tətbiqinin əsas məqsədi qeyd olunan əsərlərdə başqa mənbələrə oxşarlığının yoxlanılmasını, onlardan götürülmüş fraqmentlərin aşkarlanmasını təşkil etməkdir. Antiplagiat sisteminin istifadəsi, yəni elmi əsərlərin yoxlanılması rektor tərəfindən müəyyən edilmiş struktur bölmə tərəfindən həyata keçirilir. Yoxlamanın nəticəsi barədə rektor tərəfindən təyin edilmiş Antiplagiat Komissiyasının rəyi hazırlanır. Rəy müsbət olduqda, yəni oxşarlıq əmsalları müəyyən edilmiş normaları keçmədiyi təqdirdə verilmiş arayış antiplagiat hesabatı ilə birlikdə magistr, fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəyə buraxılması üçün əsas kimi qəbul edlir.

Antiplagiat sistemində müvafiq prosedurların həyata keçirilməsi üçün kafedralarda məsul şəxslər təyin edilir. Elmi iş antiplagiat sistemində yoxlanıldıqdan sonra kafedranın məsul nümayəndəsi qısa hesabatı, bəyanatı (fəlsəfə doktoru dissertasiyası üçün), protokolu (magistr dissertasiyası üçün) çap edir və aidiyyəti şəxslərə çatdırır.

Plagiat yoxlaması zamanı dissertasiyalarda, elmi məqalələrdə və tədris vəsaitlərində (dərsliklərdə, dərs vəsaitlərində, fənn proqramlarında, metodiki göstərişlərdə və monoqrafiyalar) aşkarlanmış oxşarlıq əmsalları müəyyən edilmiş limit həddini aşarsa, antiplagiat sistemi üzrə Səlahiyyətli Komissiya oxşarlıq səbəblərini yoxlayır, istinad edilən mənbələri dəqiqləşdirir və plagiat halının olun-olmaması barədə müvafiq qərar qəbul edir.

### 4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

Universitetdə antiplagiat sistemi elmi-tədqiqat işlərinin və tədris-metodiki əsərlərin originallığının yoxlanılması üçün tətbiq olunur. Belə ki, magistr və doktorluq dissertasiyalarının müdafiəyə buraxılması, monoqrafiyaların çap olunması üçün qərarın qəbul edilməsi zamanı antiplagiat sistemindən hesabat tələb edilir. Antiplagiat sistemindən keçməyən işlər müdafiəyə buraxılmır. Universitetdə dərc olunan elmi jurnallarda (universitetdə 5 elmi jurnal dərc olunur) çap olunan məqalələrin də antiplagiat sistemindən keçirilməsi zəruridir. *Bununla yanaşı, universitetdə keçirilən elmi-nəzəri və elmi-praktik konfranslara təqdim olunan məruzə və tezislərin qəbul edilməsi üçün onların da antiplagiat sistemindən keçirilməsi məqsədəuyğun hesab olunur. Lakin bu jurnallarda və konfranslarda antiplagiat sisteminin tətbiq olunması həyata keçirilmir.*

Universitetdə hazırlanan və tədris prosesində istifadəsi nəzərdə tutulan dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, metodiki göstərişlərin çap olunması üçün müvafiq olaraq Elmi Şurada və ya Elmi Metodiki Şurada baxılması və onlara qrif verilməsi üçün antiplagiat sisteminin müsbət hesabatı əsas götürülür.

## 5. İDARƏETMƏ SİSTEMİ

### 5.1 İdarəetmə orqanları

#### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət planlarının mövcudluğu vəziyyəti

AzMİU 1934-cü ildən Azərbaycan Sənaye İnstitutunun, 1951-ci ildən isə Azərbaycan Politexnik İnstitutunun tərkibində inşaat-memarlıq yönümlü ixtisasları birləşdirən bir neçə fakültə kimi fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 iyun 1975-ci il tarixli 200 nömrəli qərarı (ÖTH-də isə nədənsə 21 avqust 1974-cü il tarixli 632 saylı qərar kimi göstərilmişdir) ilə Azərbaycan Politexnik İnstitutunun inşaat, memarlıq, hidromeliorasiya və nəqliyyat fakültələri bazasında Azərbaycan Mühəndis-İnşaat institutu (Инженерно-Строительный Институт) yaradılmışdır. 1992-ci ildə institut universitet statusu alaraq Azərbaycan İnşaat Mühəndisləri Universiteti adlandırılmışdır. 2000-ci il iyun ayının 13-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 349 nömrəli "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərmanı və 30 iyun 2000-ci il tarixli 693 nömrəli sərəncamı ilə bu ali təhsil müəssisəsi Azərbaycan Memarlıq və İnşaat Universiteti adlandırılmışdır. AzMİU Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya Şurasının qərarına əsasən Nazirliyin 20 may 2016–ci il tarixli, 323 saylı əmri ilə dövlət ali təhsil müəssisəsi kimi 5 il müddətinə akkreditə olunmuşdur. Bununla əlaqədar olaraq, AzMİU-ya Azərbaycan Respublikasının Təhsil Nazirliyi 07 iyun 2016-ci il tarixli 001 saylı qeydiyyatla fəaliyyətini davam etdirməklə bağlı sertifikat verilmişdir. AzMİU 8 avqust 2005–ci ildə 1105 - A1-430 nömrəli "Dövlət qeydiyyatı haqqında şəhadətnamə" ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydə alınmışdır.

AzMİU-nun idarə olunması ilə bağlı məsələlər AzMİU-nun Nizamnaməsinin 5-ci bəndinə əsasən tənzimlənir. AzMİU-nun Nizamnaməsi (2-ci redaksiyada) Azərbaycan Respublikasının Təhsil Nazirliyində 02.06.2014-cü ildə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 10.06.2014-cü ildə 1105-A1-430 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır. AzMİU-nun Nizamnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli Qərarı ilə təsdiq edilmiş „Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin nümunəvi nizamnaməsi"-dən sonra dəyişdirilməmişdir. Bu isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin və ""Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" qərarının 3.1., 3.2., 3.3. bəndlərininin yerinə yetirilməməsini ehtiva edir.

AzMİU-nun Nizamnaməsinin (2-ci redaksiyada) 1.17-ci maddəsi - "AzMİU-nun akkreditasiyası "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında "AR Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli qərarına əsasən AR Təhsil Nazirliyi tərəfindən həyata keçirilir." - *Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 dekabr 2020-ci il tarixli 493 nömrəli qərarı ilə "Təhsil müəssisələrinin*

*akkreditasiyası Qaydaları"nın yeni redaksiyada təsdiq olunması ilə əlaqdərar yeni redaksiyada yazılmalıdır.*

Ümumiyyətlə, *Nizamnamədə konkret tarixlərin və qanunların adlarının göstərilməsi məqsədəuyğun deyildir. Belə ki, təhsil sahəsində normativ-hüquqi sənədlər müəyyən müddətdən sonra dəyişir. Bu baxımdan müavfiq icra orqanlarının qanunvericilikdə nəzərdə tutulan qaydalarına uyğun kimi yazmaqla daha ümumi sözlərdən istfadə etmək lazımdır.*

AzMİU-nun nizamnaməsinə əsasən onun ali idarəetmə orqanı Elmi Şuradır. AzİMU-nun fəaliyyətinə bilavasitə rəhbərlik rektor tərəfindən həyata keçirilir. AzMİU-nun Elmi Şurasının yaradılması və fəaliyyəti Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10 noyabr 1997-ci il tarixli 792 nömrəli əmri ilə təsdiq olunmuş "Ali təhsil müəssisələrinin Elmi şurası haqqında Əsasnamə" və AzMİU-nun nizamnaməsi ilə tənzimlənir. AzMİU-da Elmi Şuranın tərkibi 59 nəfərdən (1 akademik, 24 professor, 26 dosent və 8 nəfər elmi dərəcəsi olmayanlar) ibarətdir. Onlardan 27 nəfəri tutduğu vəzifəyə görə birbaşa, 28 nəfəri professor-müəllim heyətinin ümumi yığıncağında gizli səsvermə yolu ilə seçilənlər və 4 nəfəri isə rektor tərəfindən Elmi Şuranın tərkibinə daxil edilənləndir.

Elmi Şura, Rektorluq və Tədris-metodiki Şura universitetin fəaliyyətinin idarə edilməsini Tədris və digər şöbələr, fakültə, kafedra, mərkəzlər və digər struktur bölmələri ilə birlikdə əlaqəli şəkildə həyata keçirir. Tədris-Metodiki Şurada tədris metodiki materialların qoyulan tələblər çərçivəsində hazırlanması, dərslik, dərs vəsaiti, metodik vəsait və göstərişlərin müzakirəsi, komissiyalarda baxılıb uyğun rəylərin verilməsi, qrif alınması üçün Elm və Təhsil Nazirliyinə göndərilməsi və s. aktual məsələlərə baxılır. Universitetin Nizamnaməsinə, rektorun əmr və sərəncamlarının tələblərinə müvafiq olaraq tədris prosesinin təşkili və idarə olunması, metodiki işlərlə əlaqədar fəaliyyətin koordinasiyası tədris işləri üzrə prorektor, elmi işlərin koordinasiyası elm və innovasiya işləri üzrə prorektor, ümumi işlərin koordinasiyası ümumi işlər üzrə prorektor, xarici əlaqələrlə bağlı fəaliyyətin koordinasiyası isə beynəlxalq əlaqələr üzrə prorektor tərəfindən həyata keçirilir. Mal-material alınmasını, bina və avadanlıqların cari və əsaslı təmirini, universitetin maddi-texniki bazasının zənginləşdirilməsi, həmçinin digər təsərrüfat işlərini iqtisadi-təsərrüfat işləri üzrə prorektor həyata keçirir. Elmi Şuranin iş planları və protokollarının təhlili göstərir ki, müzakirəyə çıxarılan məsələlər ümumilikdə universitetin cari və perspektiv inkişafının həllinə yönəldilmişdir.

AzMİU-da 9 (*ÖTH-də 8 fakültə, AzMİU-nun internet səhifəsində 6 fakültə göstərilir*) və 29 kafedra (*ÖTH-da 30 göstərilir*) fəaliyyət göstərir. Kafedralar tədris prosesini və elmi fəaliyyəti həyata keçirən struktur bölmələrdən biridir. Fənlər üzrə tədris, metodiki və elmi-tədqiqat işlərinin hazırlanması və təhsilalanlar arasında elmi-tədqiqat işlərini həyata keçirir. Kafedraların hər birinin fəaliyyət planı mövcuddur. Kafedra müdirləri illik hesabatlarla Fakültə Elmi Şurası qarşısında çıxış edirlər. AzMİU-da tədris prosesinin təşkili və idarə olunması istiqamətində fəaliyyəti həyata keçirən struktur bölmələr öz işlərində mövcud qanunvericiliyə, universitetin qəbul edilmiş Strateji inkişaf planına istinad edirlər. Universitetin fakültə və kafedralarına, tədris işlərinin təşkilinə tədris şöbəsi nəzarət edir. Tədris şöbəsi tədris prosesi və tələbə kontingentinin fəaliyyəti ilə bağlı bütün statistik məlumatların hazırlanmasını və aidiyyətı struktur bölmələrə çatdırılmasını təmin edir. Tələbələrin istehsalat təcrübəsinin həyata keçirilməsi üçün universitetdə Təcrübə və karyera mərkəzi fəaliyyət göstərir. Universitetin idarəetmə orqanları arasında əlaqə əsasən Elektron universitet sistemi üzərindən və bəzi hallarda birbaşa kommunikasiya

vasitələri ilə aparılır. Fakültələr ali təhsil müəssisəsinin tədris, elm və inzibati bölməsi olub, eyni sahə və istiqamət daxilindəki ixtisaslar üzrə mütəxəssislərin hazırlanmasına, eləcə də elmi-tədqiqat və tərbiyə işlərinə rəhbərlik edir. Fakültələr universitetdə hazırlanan ixtisaslar üzrə peşəyönümlü işin aparılmasını təşkil edir və onun lazımi səviyyədə həyata keçirilməsinə məsuliyyət daşıyır. AzMİU-nun struktur bölmə rəhbərlərinin kvalifikasiya (peşəkarlıq) və kompetensiyası (səriştəsi) mövcud tələblərə uyğundur. AzİMU-da mərkəzləşdirilmiş monitorinq, təhlilaparma, qiymətləndirmə və proqnozlaşdırma sisteminin yaradılmasına ehtiyac vardır. İdarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət/iş planlarının mövcudluğu vəziyyəti əsasən uyğundur.

### 5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

Elmi Şuranın tərkibinə tutduğu vəzifəyə görə universitetin müxtəlif strukturlarının rəhbərləri (rektor, prorektorlar, dekanlar və s.) ilə yanaşı Azad Həmkarlar İttifaqı Komitəsinin sədri, Azad Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, Tələbə Gənclər Təşkilatının sədri, Tələbə Elmi Cəmiyyətinin sədri birbaşa daxil edilmişdır. Professor-müəllim heyətinin ümumi yığıncağında gizli səsvermə yolu ilə kafedra müdirləri Elmi Şuraya seçilmiş, rektor tərəfindən 4 nəfər (1 nəfər kafedra müdiri, 2 nəfər rektor müşaviri və 1 nəfər Keyfiyyətə nəzarət mərkəzinin müdiri) Elmi Şuranın tərkibinə daxil edilmişlər. Lakin Elmi Şurada işəgötürənlərin, ictimaiyyətin nümayəndələri təmsil olunmamışdır. Beləliklə, idarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin**,** ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti əsasən uyğundur.

### 5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

Hər tədris ilinin başlanğıcında, şuranın ilk iclasında Elmi Şuranın iş planı tərtib olunur, müzakirə olunaraq təsdiq edilir. 2022/23-cü tədris ili üçün Elmi Şuranın iş planı 26 oktyabr 2022-ci il tarixli iclasda (protokol No.01) təsdiq olunmuşdur. Elmi Şuranın iş planının sahəyə baxış zamanı yalnız illik təsdiq olunduğu məlum olmuşdur. Elmi Şuranın iş planına tədrisin təşkili və idarə olunması, beynəlxalq əlaqələr, elm və innovasiyalar, maliyyə-təsərrüfat fəaliyyəti və digər həlli vacib məsələlər daxil edilir. İdarəetmə orqanlarının iclaslarının yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti uyğundur.

### 5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi proseduru mövcuddur.

### 5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

Şuranın iclaslarında göstərilən məsələlərin müzakirəsi, qərarların verilməsi və qərarlara daxil edilmiş məsələlərin icrası Elmi şuranın qərarların icrasına nəzarət və yerinə yetirilməsinin vəziyyəti barədə yaradılmış komissiya tərəfindən yoxlanılır və komissiyanın sədri Şura üzvləri qarşısında hesabat verir. AzMİU-nun idarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarlar qanunvericiliyin tələblərinə uyğundur, gərarların əlçatanlığı elektron

sistem üzərindən və bəzi hallarda birbaşa kommunikasiya vasitləri ilə aparılır. Bu qərarların ən mühümlərinin cəmiyyətə əlçatanlığı AzMİU-nun internet səhifəsi və kütləvi-informasiya vasitələri ilə həyata keçirilir.

**5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti**

İdarəetmə orqanları arasında qarşlılıqlı funksional əlaqələr (daxili kommunikasiya), diqər müəssisə və təşkilatlar ilə əməkdaşlıq (xarici kommunikasiya) əsasən uyğundur. Daxili kommunikasiyada bəzən müəyyən məsələlərdə kortəbiilik müşahidə olunmuşdur. Məsələn, bəzən müxtəlif struktur bölmələrinin bir-birini təkrarlayan sorğuların keçirilməsinə təsadüf edilmişdir. *AzMİU-da daxili kommunikasiya mərkəzləşdirilmiş və ya iyerarxiya şəklində həyata keçirilmədiyindən bir-birini təkrarlayan sorğuların keçirilməsi ortaya çıxmışdır.*

**5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti**

İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü struktur bölmələrin əsasnamələrinə və vəzifə təlimatlarına əsasən aparılır.

**5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti**

Şuranın iclaslarında göstərilən məsələlərin müzakirəsi, qərarların verilməsi və qərarlara daxil edilmiş məsələlərin icrası Elmi Şuranın qərarların icrasına nəzarət və yerinə yetirilməsinin vəziyyəti barədə yaradılmış komissiyası tərəfindən yoxlanılır və komissiyanın sədri tədris ilinin sonunda Şura üzvləri qarşısında hesabat verir. Struktur bölmələrin əsasnamələrinə və vəzifə təlimatlarına əsasən formalaşan idarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizmini, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti ilə bağlı sənədlər ilə tanışlıqdan sonra əsasən uyğun kimi qiymətləndirmək olar.

**5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

AzMİU-nun strateji məqsədi və vəzifələrinin həyata keçirilməsini təmin edən idarəetmə sistemi və təşkilatı strukturuna dair normativ-hüquqi sənədləri mövcuddur. Lakin hesabatlılığın təkmilləşdirilməsi baxımından AzMİU-da mərkəzləşdirilmiş monitorinq, təhlilaparma, qiymətləndirmə və proqnozlaşdırma sisteminin təkmilləşdirilməsinə ehtiyac vardır.

***5.2 İnsan resurslarının idarə edilməsi***

**5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti**

AzMİU-da Elmi Şuranın 15 iyul 2022-ci il tarixli iclasının qərarı ilə (protokol № 10) təsdiq edilmiş „İşə qəbul və işdən azad olunma üzrə Daxili qaydaları" mövcuddur. AzMİU-da işə qəbul proseduru mövcud qanunvericilik qaydaları çərçivəsində şəffaf, əlçatan

formada həyata keçirilir. AzMİU-da professor-müəllim heyətinin seçilməsi üçün Azərbaycan Respublikasi Təhsil Nazirliyinin 07.08.1996-ci tarixli 401 sayli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqinda əsasnamə", kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması üçün isə əsas Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları" və digər normativ-hüquqi aktlar əsas götürülür. Seçkili vəzifələri tutmaq üçün Respublikanın aparıcı mətbuat orqanlarında (qəzetlərdə) elanlar verilir, sənədlərin qəbulu və seçkilərin keçirilməsi üçün qanunvericiliyin tələblərinə uyğun müddət müəyyənləşdirilir. Ərizə ilə müraciət edənlərin ixtisas səviyyələrinə diqqət yetirilir. Gənc, istedadlı, perspektivli və xarici ölkə universitetlərində təhsil almış şəxslərin tədris prosesinə cəlb olunması universitet rəhbərliyinin prioritet istiqamətlərindəndir. Seçkinin nəticələrinə uyğun olaraq, yalnız sənədləşdirmə işləri İnsan resursları şöbəsi tərəfindən aparılır. İnsan rerursları şöbəsi AzMİU-nun struktur bölmələrindən biri olmaqla öz fəaliyyətini "Təhsil Qanunu", digər hüquqi əsasnamə və normativ sənədlər, ali təhsil müəssisəsinin nizamnaməsi əsasında həyata keçirir. Bu və ya digər məsələlərə aid sənədlərin əmək qanunvericiliyinə müvafiq tərtib olumasını təmin edərək, işçilərin struktur üzrə yerləşdirilməsinə və onlardan düzgün istifadə olunmasına nəzarət edir, şəxsi heyətin uçotunu, onlara dair bütün növdən olan sənədləşməni təşkil edir. Ştatda olan professor-müəllim heyətinin (PMH) hamısı müsabiqədən keçərək vəzifələri tutmuşdur. Yeni işə qəbul olunan gənc mütəxəssislər sınaq müddəti ərzində əmək müqaviləsi ilə fəaliyyət göstərirlər.

### 5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

AzMİU-da SİP-ə uyğun olaraq əsas və infrastruktur fəaliyyətin bütün növlərində maksimum nəticələrin təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, şöbələrin və əməkdaşların əlaqələndirilməsinin yüksəldilməsi, universitetin idarə edilməsi sisteminin optimallaşdırılması işləri görülür. *Cədvəl 5.1-də* isə AzMİU-da illər üzrə fakültələrin akademik heyətlə inzibati və köməkçi-tədris heyətin nisbəti göstərilmişdir. Cədvəl 5.1-dən göründüyü kimi AzMİU-da 2015/2016-ci tədris ilində akademik heyətlə (551 nəfər) inziabtı və tədris-köməkçi heyətin (157 nəfər) nisbəti 551/157= 3,5 təşkil etmişdir. Bu nisbət 2016/2017-ci tədris ilində 3,4, 2017/2018-ci tədris ilində 3,5, 2018/2019-cu tədris ilnidə 3,5, 2019/2020-ci tədris ilində 3,4, 2020/2021-ci tədris ilində 3,78, 2021/2022-ci tədris ilində isə 3,77 olmuşdur.

AzMİU-da professor-müəllim heyətinin yaş tərkibinin qruplar üzrə paylanmasının analizi göstərir ki, əməkdaşların 4 %-i 30 yaşa, 17%-i 40 yaşa, 18%-i 50 yaşa qədər olanlardır, ümumilikdə 66 yaşdan yuxarı 28 % təşkil edir. *Yaş həddinin aşağı salınması istiqamətində AzMİU-da mühüm tədbirlər həyata keçirilməlidir.*

**Cədvəl 5.1.**

**AzMİU-da illər üzrə fakültələrin akademik heyətlə izibati və köməkçi-tədris heyətin nisbəti**

| İllər | Fakültələr | Akademik heyət | İnzibati və tədris-köməkçi heyəti | Akademik heyətlə izibati və köməkçi-tədris heyətin nisbəti |
|---|---|---|---|---|
| 2015/2016 | Memarlıq | 106 | 25 | 23% |
| | İnşaat | 85 | 22 | 25% |

| | | | | |
|---|---|---|---|---|
| | ST və MKS | 71 | 23 | 32% |
| | Nəqliyyat | 76 | 21 | 27% |
| | İnşaat texnologiya | 48 | 19 | 39% |
| | Tikinti-iqtisad | 70 | 18 | 25% |
| | MİT | 63 | 21 | 33% |
| | Əcnəbi vətəndasların hazırlığı | 32 | 8 | 25% |
| 2016/2017 | Memarlıq | 101 | 23 | 22% |
| | İnşaat | 66 | 23 | 34% |
| | ST və MKS | 73 | 21 | 28% |
| | Nəqliyyat | 81 | 22 | 27% |
| | İnşaat texnologiya | 38 | 16 | 42% |
| | Tikinti-iqtisad | 77 | 18 | 23% |
| | MİT | 57 | 21 | 36% |
| | Əcnəbi vətəndasların hazırlığı | 17 | 6 | 35% |
| 2017/2018 | Memarlıq | 102 | 24 | 23% |
| | İnşaat | 63 | 20 | 31% |
| | ST və MKS | 80 | 23 | 28% |
| | Nəqliyyat | 78 | 22 | 28% |
| | İnşaat texnologiya | 35 | 15 | 43% |
| | Tikinti-iqtisad | 77 | 18 | 23% |
| | MİT | 55 | 20 | 36% |
| | Əcnəbi vətəndasların hazırlığı | 17 | 6 | 35% |
| 2018/2019 | Memarlıq | 104 | 25 | 24% |
| | İnşaat | 62 | 19 | 31% |
| | ST və MKS | 81 | 23 | 28% |
| | Nəqliyyat | 77 | 22 | 29% |
| | İnşaat texnologiya | 41 | 16 | 39% |
| | Tikinti-iqtisad | 76 | 18 | 24% |
| | MİT | 63 | 20 | 32% |
| | Əcnəbi vətəndasların hazırlığı | 17 | 4 | 24% |
| 2019/2020 | Memarlıq | 104 | 26 | 25% |
| | İnşaat | 61 | 21 | 34% |
| | ST və MKS | 83 | 22 | 27% |
| | Nəqliyyat | 74 | 22 | 30% |
| | İnşaat texnologiya | 41 | 21 | 27% |
| | Tikinti-iqtisad | 78 | 17 | 22% |

| | | | | |
|---|---|---|---|---|
| | MİT | 60 | 18 | 30% |
| | Əcnəbi vətəndasların hazırlığı | 19 | 4 | 21% |
| 2020/2021 | Memarlıq | 102 | 26 | 25% |
| | İnşaat | 60 | 21 | 35% |
| | ST və MKS | 82 | 20 | 24% |
| | Nəqliyyat | 68 | 18 | 26% |
| | İnşaat texnologiya | 39 | 12 | 31% |
| | Tikinti-iqtisad | 83 | 18 | 22% |
| | MİT | 63 | 17 | 27% |
| | Əcnəbi vətəndasların hazırlığı | 17 | 4 | 24% |
| 2021/2022 | Memarlıq | 97 | 26 | 27% |
| | İnşaat | 93 | 28 | 30% |
| | ST və MKS | 82 | 22 | 27% |
| | Nəqliyyat | 75 | 24 | 32% |
| | Tikinti-iqtisad | 86 | 15 | 17% |
| | MİT | 67 | 18 | 27% |
| | Əcnəbi vətəndasların hazırlığı | 16 | 4 | 25% |

### 5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

AzMİU-da işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq AzMİU-nun 23 dekabr 2015-ci il tarixli Elmi Şurasının iclasında (protokol № 3) “2. Təhsildə stimullaşdırma mexanizmlərinin təkmilləşdirilməsi barədə” məsələ müzakirə olunmuş, “Daxili qiymətləndirmə” layihəsini nəzərə alan əmək haqqı sistemi tətbiq edilmişdir. Mövcud əmək haqqı sisteminə ildə bir dəfədən az olmayaraq yenidən baxılır və dəyişikliklər edilir. Əmək haqqı sistemi ilə bağlı sənədlər (ştat cədvəlləri, əmək müqavilələri, əmrlər və.s) mövcuddur.

### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

AzMİU-nun 23 dekabr 2015-ci il tarixli Elmi Şurasının iclasında (protokol № 3) “2. Təhsildə stimullaşdırma mexanizmlərinin təkmilləşdirilməsi barədə” məsələ müzakirə olunmuş və Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”nın 3.3.6. v. 3.3.7-ci bəndləri əsas götürülərək “Daxili qiymətləndirmə” layihəsi tətbiqi tövsiyə olunmuş, AzMİU-da tədris prosesində fəal iştirak edən, müasir tədris metodları ilə tələbələrin rəğbətini qazanan, dərslik, dərs vəsaiti, metodik göstəriş hazırlayan, yerli və beynalxalq impakt faktorlu jurnallarda məqalələr çap etdirən professor-müəllim heyətinin aktiv fəaliyyəti

stimullaşdırılaraq mükafatla təltif olunmaları üçün universitet rektorunun əmri ilə Daxılı qiymətləndirmə layihəsi həyata keçirilmişdir. Kateqoriyalara uyğun (A-200 AZN, B-150 AZN və C-100 AZN) müəllimlərə 1 illik maaşlarına ödəniş əlavə olunur.

AzMİU-da çalışan alimlərin elmi fəaliyyətlərinin stumullaşdırılması Clarivate Analytics (Web of Science) bazasına daxil olan jurnallarda dərc olunmuş elmi məqalələrinin qiymətləndirilməsi və müəlliflərin motivasiyasının artırılması məqsədilə 19 oktyabr 2018-ci il tarixli 274/b-m nömrəli "Universitetin əməkdaşlarının Clarivate Analytics (Web of Science) bazasına daxil olan jurnallarda dərc etdikləri elmi əsərləri" haqqında AzİMU-nun rektorunun əmri ilə professor-müəllim heyətinə Web of Science bazasından olan Q1, Q2, Q3, Q4 kvartillərində mövcud jurnallarda nəşrlərə görə mükafatlar (Q1-1000 AZN, Q2-800 AZN, Q3-600 AZN, Q4-400 AZN) təsis edilmişdir. Məqalədə bir neçə həmmüəllif olduğu halda məbləğ universitet əməkdaşları arasında olan həmmüəlliflər arasında bölünür. Professor-müəllim heyətinin, gənc tədqiqatçlıarın və doktorantların bu bazada elmi məqalələrinin nəşr edilməsinə xüsusi diqqət yetirilir. Əmkdaşların mükafatlandırma sistemini təsdiq edən sənədlər (əmrlər, qərarlar, qaydalar və s.) mövcuddur.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

AzMİU-da daxili qiymətləndirmə layihəsi üzrə professor-müəllim heyətinin əmək haqqına bir il ərzində əlavə maddi artımlar həyata keçirilir. Məsələn, AzMİU-nun rektorunun 10/b-m nömrəli 11 yanvar 2022-ci il tarixli "Müəllimlərin əmək haqqına əlavə maddi artım barədə" əmri ilə təhsildə stimullaşdırma mexanizmlərinin tətbiqi ilə əlaqədar olaraq universitetdə keçirilən daxili qiymətləndirmə layihəsi çərçivəsində bir qrup müəllimin 2022-ci il yanvar ayından etibarən bir il ərzində əmək haqlarına A kateqoriyası üzrə 250 AZN, B kateqoriyası üzrə 200 AZN, C kateqoriyası üzrə 150 AZN əlavə edilmişdir. Universitet rəhbərliyi tərəfindən ehtiyaçı olan müəllimlərə vaxtaşırı maddi yardımlar olunur, müəllimlərin yubileyləri qeyd olunaraq pul mükafatı verilir və eyni zamanda son 5 ildə universitet rektorunun əmri ilə bütün əməkdaşlara ilin sonunda 13-cü aylıq maaş verilir. Bu da öz növbəsində əməkdaşların daha səmərəli işləmələrini motivasiya edir.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

*Cədvəl 5.2-də* 2015-2022-ci illər ərzində AzMİU-nun professor-müəllim heyətinin stajkeçməsi haqqında məlumatı göstərilmişdir.

**Cədvəl 5.2.**

**2015-2022-ci illər ərzində professor-müəllim heyətinin stajkeçməsi haqqında məlumat**

| № | Fakültə | 2015/ 2016 | 2016/ 2017 | 2017/ 2018 | 2018/ 2019 | 2019/ 2020 | 2020/ 2021 | 2021/ 2022 | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | İnşaat | 5 | 8 | 4 | 7 | 8 | 2 | 8 | 42 |
| 2 | Memarlıq | 11 | 6 | 5 | 8 | 7 | 6 | 8 | 51 |
| 3 | ST və MKS | 13 | 3 | 2 | 5 | 2 | 2 | 4 | 31 |
| 4 | Nəqliyyat | 13 | 5 | 1 | 5 | 2 | 2 | 7 | 35 |
| 5 | Tikinti-İqtisad | 8 | 2 | 7 | 3 | 10 | 4 | 7 | 41 |
| 6 | Mexanika və informasiya | 11 | 8 | 2 | 4 | 2 | 3 | 5 | 35 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | texnologiya-ları | | | | | | | | |
| 7 | İnşaat texnologiya-sı | 5 | 8 | 4 | 7 | 8 | 2 | 8 | 42 |

İxtisasartırma fakültəsində müəllimlərin 5 ildən bir stajkeçmə kurslarında iştirakı təmin olunur. AzMİU-nun professor-müəllim heyəti əvvəlcədən müəyyən olunmuş universitet, idarə və təşkilatlara ixtisasartırma kurslarına göndərilirlər. 2015/16-ci tədris ilində 66, 2016/17-cı tədris ilində 40, 2017/18-ci tədris ilində 25, 2018/19-cu tədris ilində 39, 2019/20-ci tədris ilində 39, 2020/21-ci tədris ilində 21 və 2021/22-ci tədris ilində 47 müəllim stajkeçmə kurslarında iştirak etmişdir. Bundan əlavə İxtisasartırma fakültəsində müəyyən ixtisaslar üzrə 3 aylıq ixtisasartırma kursları təşkil olunmuşdur. İnşaat mühəndisliyi kursunda 2015-ci ildə 10, 2017-ci ildə 13, 2018-ci ildə 10, 2019-cu ildə 18 dinləyici iştirak etmişdir. Geodeziya kursunda 2015-ci ildə 1, 2016-cı ildə 13, 2017-ci ildə 28, 2018-ci ildə 27, 2019-cu ildə 12 2020-ci ildə 25, 2021/2022-ci illərdə 79 dinləyici kursda iştirak etmişdir.

AzMİU-nun professor-müəllim heyətinə tədris prosesində interaktiv tədris metodlardan istifadəni təşviq etmək üçün seminarlar, təcrübəli müəllimlərin ustad dərsləri və təlimlər keçirilir. AzMİU-da rektorun əmri ilə yaradılmış Gənc müəllimlər məktəbi fəaliyyət göstərir. Bu layihə çərçivəsində universitetin rəhbərliyi (rektor, tədris işləri üzrə prorektor və s.), universitetin və istehsalat müəssisələrindən cəlb olunmuş təçrübəli və peşekar mütəxəssislər tərəfindən ustad dərsləri keçirilir. Universitetin İKT mərkəzi tərəfindən tədris prosesində iştirak edən bütün müəllimlərə ödənişsiz əsaslarla İT biliklərinin yüksəldilməsi çərçivəsində təlimlər keçirilmiş (540 akademik heyətdən texnoloji səriştələrin artırılması üçün 395 (73%), pedaqoji səriştələrin artırılması üçün 426 (79%) nəfər iştirak etmişdir) və təlimlərin sonunda imtahan keçirilərək sertifikatlar təqdim olunmuşdur. Sertifikat almayan müəllimlər təkrar təlimlərə cəlb olunmuş və seçkili müsabiqələrdə iştirak etdikdə sertifikatın olmasına diqqət yetirilmişdir. Universitetin Dil mərkəzində ixtisas fənlərinin ingilis dilində tədrisini aparılan müəllimlərə ödənişsiz əsaslarla, dil biliklərinin keyfiyyətinin artırılması üçün kurslar təşkil olunmuşdur. 2016/17-ci tədris ilində 39, 2017/18-ci tədris ilində 59, 2018/19-cu tədtis ilində 48, 2019/20-ci tədris ilində 26, 2020/21-ci tədris ilində 23, 2021/22-ci tədris ilində 23, 2022/23-cü tədris ilində isə 24 nəfər universitetin əməkdaşı bu kurslarda iştirak etmiş və imtahanından uğurla keçənlərə dil səviyyəsi sertifikatı verilmişdir. 2022-ci ilin 15 iyun-13 iyul tarixlərində İELTS beynəlxalq sertifikat almaq üçün 26 müəllimə və 15 tələbəyə hazırlıq kursları keçirilmişdir.

Müəllimlərə peşəkarlıq fəaliyyətlərini artırmaq, üniversitetdən kənar öz üzərində işləmələri üçün həftənin bir günündə yaradıcılıq günü verilir. *Lakin ixtisasartırma və stajkeçmə kurslarının təkmilləşdirilməsinə ehtiyac vardır.* Belə ki, professor-müəllim heyətinin 540 olmasını və 5 il müddətində 243 nəfərin staykeşməsini nəzərə alsaq, 297 müəllimin (55 %) 5 il müddətində bu prosesdən kənarda qalması müşahidə edilmişdir. İKT təlimlərindən başqa müasir təlim metodları, innovativ metodlar və s. ilə bağlı təlimlər də AzMİU-da həyata keçirilir. Amma burada koordinasiyaya ehtiyac vardır. *Texnika və texnologiyanın sürətli inkişafını nəzərə alaraq, professor-müəllim heyətinin, eləcədə əməkdaşların ixtisas kompetensiyaları və kvalifikasiyalarını artırmaq məqsədilə* işçilərin

ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilmənin intensivliyinin artırılması tövsiyə olunur.

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

Azərbaycan Həmkarlar İttifaqına daxil olan və çoxsaylı təhsil işçilərinin maraqlarına xidmət edən Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin tərkibində fəaliyyət göstərən AzMİU-nun Azad Həmkarlar İttifaqı Komitəsi əmək prosesində işçilərin ümumi mənafeyini qorumaqla yanaşı öz üzvlərinin həyat və əmək şəraitinin yaxşılaşdırılması, onların maddi durumlarının yüksəldilməsi, tədris müəssisəsində və kənarda keçirilən mədəni-kütləvi tədbirlərin həyata keçirilməsində yaxından iştirak edir. AzMİU-nun Həmkarlar İttifaqı Komitəsinin qarşısında duran mühüm məsələlərdən biri də professor-müəllim və işçilərin ictimai həyata, təsərrüfat fəaliyyətinə, demokratik cəmiyyətin tələblərinə uyğun olaraq idarəçiliyə cəlb olunması, təlim-tərbiyə və təhsil problemlərinin həllində onların potensialından geniş istifadə edilməsidir. Həmkarlar Təşkilatının fəaliyətinin əsas məqsədlərindən biri də Universitetdə fəaliyyət göstərən müəllim və işçilərin hüquqlarının qorunması, onların həyat şəraitinin yaxşılaşdırılmasıdır. AzMİU-nun Həmkarlar İttifaqı Komitəsinin fəaliyyət planı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı tərəfindən 2021-2023-cü il üçün imzalanmış kollektiv sazişin müddəalarına uyğun olaraq Universitetin rektoru ilə Həmkarlar İttifaqı Komitəsinin sədri arasında imzalanmış kollektiv müqavilə əsasında qurulur. Hər ilin əvvəlində həmin il üçün iş planı təsdiqlənir. İş planında il ərzində görüləcək tədbirlər öz əksini tapır. 2023-cü ilin Oktyabr ayından başlayaraq əlamətdar günlərlə bağlı və Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər həyata keçirilir. Cari tədris ilində Universitetin İnşaat fakültəsi 2022-ci ildən keçirilən “Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi” Respublika müsabiqəsinin qalibi olmuş və mükafatlandırılmışdır.

AzMİU-nun HİK professor-müəllim heyəti və işçilərin problemlərini öyrənir və müvafiq qərarlar qəbul edilməsi məqsədilə müəssisə rəhbərliyinin vaxtaşırı məlumatlandırır, universitet və respublika səviyyəsində keçirilən tədbirlərin-bayramların, idman yarışlarının, müəllim və tələbə elmi konfranslarının, müxtəlif aktual problemlərə həsr olunmuş debatların, diskussiyaların, görüşlərin təşkilində yaxından iştirak edır, gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsi, vətəninə və xalqına sədaqətli vətəndaşlar kimi yetişdirilməsi, hərtərəfli elmi biliklərə yiyələnmiş mütəxəssislər kimi respublikamızda gedən quruculuq işlərinin iştirakçısı kimi formalaşdırılması məqsədilə tədbirləri təşkil edir, universitetin tədris prosesində və ictimai işlərində fərqlənən müəllim və işçilərin mükafatlandırır, professor-müəllim və işçilərin hüquqlarının qorunması, onların əmək və sosial şəraitinin yaxşılaşdırılması, istirahətlərinin və asudə vaxtlarının təşkili, iş prosesində meydana çıxan müxtəlif problemlərin həlli istiqamətində məqsədyönlü işi təşkil edir. Cari tədris ilində hər il olduğu kimi əməkdaşlarımızdan 17 nəfər mükafatlandırılmış və 594 nəfərə maddi yardım edilmişdir. AzMİU-da sosial və mədəni proqramlar üzrə fəaliyyəyt planı, məlumatlar, işçilərin məmnunluq səviyyəsini ölçən sorğular, təhlillər mövcuddur.

### 5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesi AzMİU-nun Elmi Şurasının 15 iyul 2022-ci il tarixli qərarı ilə təsdiq edilmiş (protokol №10) ”Azərbaycan Memarlıq və İnşaat Universitetində işə qəbul və işdən azad olunma üzrə Daxili Qaydalar” üzrə təmin olunur. Bu qaydalar AzMİU-nun strategiyasına əsasən mövcud olan vakant iş yerlərinə potensial namizədlərin müəyyən edilməsi, seçilməsi, yoxlanılması, işə qəbulu və işdən azad edilməsi proseslərini tənzimləyir. AzMİU-da qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu və işdən azad olunma proseslərində qanunçuluq, bərabərlik, qərəzsizlik, şəffaflıq və aşkarlıq prinsipləri rəhbər tutulur. Namizədin müəyyən edilməsi prosesi zamanı İnsan Resursları şöbəsinin (İRŞ) əməkdaşı namizədin müəyyən edilməsi məqsədi ilə müvafiq elan formasını hazırlayır. Hazırlanmış elan forması AzMİU-nun rəsmi internet səhifəsinin „Cari vakansiyalar” bölməsində elan edilir. Elan edilmiş vakansiyalarda iştirak etmək istəyən namizədlər elektron işə qəbul ərizəni doldurmaqla işə qəbul üçün müraciət edir

Vakant vəzifədən asılı olaraq müsahibə zamanı əlavə meyarlardan da istifadə oluna bilər. AzMİU işə namizədlərin işə qəbul prosesini ”Universitet daxilində başqa işə keçirilmə və ya təşviq” və „Kənardan cəlb etmə” prinsipi əsasında həyata keçirir. Həm AzMİU daxili, həm də kənar namizədlərin vəzifəyə uyğunluğu işçinin səriştəsinin qiymətləndirilməsi əsasında müəyyən edilir. Müsahibə AzMİU-nun İşə qəbul komissiyası tərəfindən aparılır. Müsahibənin bütün mərhələlərindən uğurla keçən və vakant vəzifəyə uyğun görülən namizədə iş təklif olunur. AzMİU-nun struktur bölmələrində əmək məhsuldarlığını yüksəltmək, işə qəbul prosesinə, habelə işçilərin karyera inkişafına dəstək olmaq məqsədi ilə adaptasiya prosesi həyata keçirilir. Adaptasiya ilk iş günü  başlayır və sınaq müddətinin sonunadək davam edir. Sınaq müddəti dövründə yeni işçiyə müvafiq struktur bölmənin rəhbəri tərəfindən struktur bölmənin təcrübəli işçilərindən biri təhkim edilir. Həmin şəxsin vəzifəsi yeni işçinin işlə bağlı hər bir sualına cavab vermək, işin detallarını izah etmək və hər hansı bir çətinlik olduğu zaman köməklik göstərməkdən ibarətdir. Sınaq müddəti ərzində işçinin aşağıdakı keyfiyyətləri yoxlanılır:

- uğur qazanmaq üçün lazım olan bacarıqlara və digər səriştələrə malik olub-olmaması;
- müəyyən edilmiş hədəflər əsasında verilən tapşırıqları icra etməı səviyyəsi;
- rəhbərlər, iş yoldaşları və digər şəxslərlə (tələbələr və s.) ünsiyyət bacarığı;
- yeni vəzifəsinə və universitetdə olan mühitə uyğunlaşması.

Sınaq müddətinin başa şatmasına bir həftə qalmış işçinin birbaşa rəhbəri işçinin əmək fəaliyyəti haqqında məlumatı İRŞ-yə təqdim edir. İşçinin fəaliyyəti müsbət qiymətləndirildikdə, o, sınaqdan müvəffəqiyyətlə keçmiş hesab olunur və əmək fəaliyyətini davam edir. Sınaq müddətində özünü göstərməmiş işçinin əmək müaqviləsinə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin müvafiq maddəsi ilə xitam verilir.

### 5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

AzMİU-da qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sistemi mövcud deyildir. Sahəyə baxış zamanı fəaliyyətin qiymətləndirmə sistemini əhatə edən keyfiyyət parametrləri indikatorları və onların yerinə yetirilməsi mexanizmi müəyyən edilmədi. Amma mükafatlandırma sistemi mövcuddur. AzMİU rəhbərliyi tərəfindən ehtiyacı olan qeyri-akademik heyətə vaxtaşırı maddi yardımlar olunur, onların yubileyləri qeyd olunaraq pul

mükafatı verilir, eləcə də son 5 ildə universitet rektorunun əmri ilə onlara da ilin sonunda 13-cü aylıq maaş verilir. Bu da öz növbəsində qeyri-akademik heyətin daha səmərəli işləmələrini motivasiya edir.

**5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti**

Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanmasında (əmək müqaviləsi) və xitam verilməsində qanunvericiliyin tələbləri gözlənilir və ciddi riayət olunur.

### *5.3 Maliyyə resurslarının idarə edilməsi*

**5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu**

AzMİU-nun büdcəsini nizamnaməyə uyğun olaraq dövlət sifarişli tələbələrin təhsil haqqı, ödənişli əsaslarla təhsil haqqı, dövlət büdcəsindən açılan SABAH qruplarına və İslam əməkdaşlıq ölkələrinin vətəndaş tələbələrinin təhsil haqqı və Elm və Təhsil Nazirliyi tərəfindən açılan müxtəlif qrantlar təşkil edir.

**5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi**

AzMİU-nun maliyyə resurslarının qısa müddətli (1 illik) dövr üçün planlaşdırılması smeta şəklində tərtib edilir və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim edilir. *AzMİU-da orta müddətli dövr üçün (3 və 5 illik) smetalar hazırlanmır və maliyyə resurslarının orta müddətli dövr üçün planlaşdırılması həyata keçirilmir.*

**5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti**

AzMİU-da maliyyə resurslarının planlaşdırılması, istifadəsi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti qısa müddətli dövr üçün hər ildə tərtib edilən smetalarda nəzərə alınır. *Lakin maliyyə resurslarının AzMİU-nun SİP-ə uyğunlaşdırılması fəaliyyətinin monitorinqi həyata keçirilmir. Ümumiyyətlə, AzMİU-nun SİP-in reallaşdırılmasının maliyyə təminatı haqqında məlumata proqramda rast gəlinmədiyi üçün AzMİU-da maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-nə uyğunlaşdırılması vəziyyətinin təkmilləşdirilməsinə ehtiyac vardır.*

**5.3.4 Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti**

*Cədvəl 5.3-də* təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların (Yataqxanadan daxilolma, laboratoriya sınaq işləri, inşaatçı kadrlar qəzeti abunəsindən, sürücülük kursundan, tenderdə iştirak haqqı, istilik satışı, 3 saylı binanın tikintisi maliyyə yardımı, Azercell arenda haqqı, metalomdan gəlir, sair gəlir) ümumi daxilolmalara nisbəti illər üzrə göstərilmişdir. Əgər nisbət 5%-dən yuxarı olarsa, bu zaman indikator üzrə qiymətləndirmə 3 bala bərabər tutulur. *Cədvəl 5.3-dən* göründüyü kimi yalnız 2018-ci ildə təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolamlara nisbəti 4,26% olmuşdur. Qalan illərdə isə bu nisbət çox aşağıdır. Bu baxımdan 7 il üzrə orta qiymət 1,35 % təşkil etdiyindən və orta qiymətin göstərici üzrə 60 %-i 3 bal x 60% = 1,8 bal olduğnu nəzərə alaraq uyğun deyil kimi (1,35<1,8) qiymətləndirilir.

**Cədvəl 5.3.**

**Təqvim illəri üzrə təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolmalara nisbəti**

| Təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolamlara nisbəti | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| | 0,58% | 1,24% | 4,26% | 1,11% | 0,74% | 0,84% | 0,70% |

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

*Cədvəl 5.4-də* AzMİU-nun 2021-ci ildə Maliyyə təminatı göstərilmişdir. Cədvəl 5.4-dən göründüyü kimi, maliyyə resusrlarının şəffaflıq səviyyəsi təmin olunur. İllər üzrə gəlirlər və xərclərin bölgüsü həyata keçirilir.

**Cədvəl 5.4.**

**AzMİU-nun 2021-ci ildə Maliyyə təminatı**

| № | Gəlirlər və xərclərin bölgüsü | Manatla |
|---|---|---|
| 1 | Ümumi gəlirlər: | 25626155.16 |
| | o cümlədən: | |
| 1.1 | Dövrün əvvəlinə ilkin qalıq: | 3556312.03 |
| 1.2 | Büdcədən ayrılan b/x: | |
| 1.3 | Büdcədən ayrılan təqaüd: | 3738658.00 |
| 1.4 | Büdcədən ayrılan digər vəsaitlər (Sabah,İslam Əməkdaşlıq) | 151719.00 |
| 1.5 | Dövlət sifarişi üzrə ayrılan vəsait: | 7951224.00 |
| 1.6 | Büdcədənkənar vəsaitlər üzrə: | 9374472.53 |
| | Qrant vəsaitləri üzrə gəlirlər | 185051.72 |
| | Sosial baxımdan əhali qrupu | 515430.00 |
| | Bakalavr səviyyəsində Dizayn ikili diplom üçün qrant Təhsil Nazirliyi | 153287.88 |
| 2 | Ümumi xərclər: | 20976407.75 |
| | o cümlədən: | |
| 2.1 | Büdcədən ayrılan B/x: | |
| 2.2 | Büdcədən ayrılan təqaüd | 3738311.18 |
| 2.3 | Büdcədən ayrılan digər vəsaitlər (Sabah,İslam Əməkdaşlıq) | 117994.53 |
| 2.4 | Dövlət sifarişi üzrə ayrılan vəsait: | 7836406.03 |
| 2.5 | Büdcədənkənar vəsaitlər üzrə: | 8688524.90 |
| | Qrant vəsaitləri üzrə xərclər | 185585.93 |

| | | |
|---|---|---|
| | Sosial baxımdan əhali qrup | 390510.14 |
| | Dövrün sonuna qalıq | 4649747.41 |

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

Maliyyə resurslarından istifadə AzMİU-nun Nizamnaməsinə uyğundur. Gəlir və xərclərin uçotu AzMİU-nun müvafiq struktur bölməsi tərəfindən hazırlanır və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş smetaya uyğun olaraq aparılır.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetası hər ilin sonunda hazırlanır, AzMİU-nun rektoru tərəfindən təsdiq edilərək Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim edilir. İl ərzində təsdiq olunmuş smetanın gəlir hissəsində planlaşdırılmış gəlirdən faktiki gəlir çox olarsa o zaman Elm və Təhsil Nazirliyinin razılığı əsasında dürüstləşmiş smeta tərtib olunur. Smetanın xərc hissəsində isə zərurət yaranan maddələr üzrə gəlirə uyğun dürüstləşmə aparılır. Büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurları AzMİU-nun Nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

Maliyyə resurslarından təyinatı üzrə istifadəyə cari nəzarət AzMİU-nun müvafiq strukturu tərəfindən həyata keçirilir, eyni zamanda maliyyə resurslarından təyinatı üzrə istifadəsinə dair Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə rüblük və illik hesabatlar təqdim olunur.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

AzMİU-da malların satın alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurları 27 dekabr 2001-ci ildə təsdiq edilmiş “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun təşkil edilir.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları 27 dekabr 2001-ci ildə təsdiq edilmiş “Dövlət satınalmaları haqqında”, 29 iyun 2004-cü ildə təsdiq edilmiş “Mühasibat uçotu haqqında”, 11 iyul 2000-ci il tarixli 905-IQ nömrəli “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikasının Qanunlarına və onlara edilmiş əlavələr və dəyişikliklərə uyğun olaraq aparılır.

**5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti**

ATM-də maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə uyğun olaraq hesabat dövründə tərtib olunur və aidiyyəti orqanlara (İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə, Statistika Komitəsinə, Elm və Təhsil Nazirliyinə və s.) təqdim olunur.

**5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti**

Maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə uyğun hazırlanaraq Elm və Təhsil Nazirliyinə təqdim edilir, saytlarda və hər hansı mətbuat orqanında dərc olunmur.

**5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu**

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili audit yoxdur. Maliyyə resurslarının düzgün istifadəsi Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş smetaya uyğun Nazirliyin prosedur qaydada razılığı əsasında və bankın nəzarəti altında mühasibatlıq tərəfindən icra olunur.

**5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu**

Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin nəzarətindən istifadə edilməmişdir və bu da qanunvericiliyə uyğundur. Ümumiyyətlə, maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması 3-4 ildən bir Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən aparılır. AzMİU-da Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən 22 oktyabr 2022-ci il tarixində audit yoxlaması aparılmışdır.

**5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti**

AzMİU-nun Nizamnaməsi çərçivəsində maliyyə resurslarının əldə olunması mənbələri və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi mütəmadi olaraq araşdırılır. Universitetə tələbə kontingentinin cəlb edilməsini təşkil etmək üçün reklam işi həyata keçirilir, təbliğat-təşviqat işləri üçün professor-müəllim heyəti Azərbaycan Respublikasının rayonlarına ezam olunur, ixtisasartırma kursları və hazırlıq kursları təşkil olunur. AzMİU-da maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə sistemli fəaliyyət planı yoxdur və vəziyyət qismən uyğundur kimi qiymətləndirilir. Bu istiqamətdə yeni maliyyə resurslarının tapılmasına ehtiyac vardır.

### *5.4 İnformasiya idarəetmə sistemi*

**5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu**

AzMİU-da Elektron universitet sistemi 15 sentyabr 2016-cı ildən mövcuddur və İKT mərkəzi tərəfindən hazırlanmış müxtəlif modullar həm professor-müəllim və həm də tələbələrin istifadəsinə verilmişdir. AzMİU-da bütün kompüterlər arasında lokal şəbəkə

qurulmuşdur. Lokal şəbəkə tələbələrin və professor-müəllim heyətinin Elektron Kitabxana sistemindən istifadəsi və kompüterlərə mütəmadi xidmət göstərilməsi üçün istifadə edilir. Lokal şəbəkə ilə yanaşı kompüterlərin qlobal internet şəbəkəsinə də çıxışları mövcuddur. Kompüterlərin idarəsi və internet paylanılması mərkəzləşdirilmiş və server tərəfindən təmin olunur. AzMİU-da Elektron sənəd dövriyyəsi sisteminin alfa sınaq versiyası istifadəyə verilmişdir. 2023/2024-cü tədris ilinin Payız semestrindən etibarən sabit versiyasının dövriyyəyə buraxılması planlaşdırılır.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

Sistemdə istifadə olunan idarəetmə funksiyalarının əlçatanlığı və istifadəsini təşkil etmək üçün şəbəkə infrastrukturu və istifadəçi təlimatları mövcuddur. Həmçinin funksiyalara aid məlumatların yenilənmə prosesi Elektron Universitet sistemi yarandığı gündən müvafiq bölmələr tərəfindən mütəmadi olaraq həyata keçirilir. Belə ki, Elektron Universitet sistemi ümumi strukturun funksionallığını təmin etmək məqsədilə müstəqil modullardan təşkil edilmişdir. Modullar üzrə əlavə edilmiş bütün növ məlumatlar və yenilənmələr təyin edilmiş bölmələr tərəfindən həyata keçirilir. Daxil edilmiş məlumatlar İKT mərkəzi və Tədris şöbəsi tərəfindən müvafiq normativ sənəd və əmrlərə uyğun yoxlanılır.

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

Elektron universitet sistemində səlahiyyət bölgüsü mövcuddur. Ortaq istifadə olunan və ayrıca idarə edilən sistemlərin hamısında lazımi səlahiyyət bölgüsü tətbiq olunur. Elektron Universitet sisteminin idarə edilməsi SE, QA, Development mode, superadmin, admin, rektor, prorektor, dekanlıq, tyutor, kafedra, keyfiyyətə nəzarət, şöbə müdiri və hesabat “role”-larından ibarət “permission based” səlahiyyət bölgüsü ilə həyata keçirilir. AzMİU-da Elektron Sənəd Dövriyyəsi sistemi istiqamətində işlər davam edir və yekunlaşma mərhələsindədir.

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

AzMİU-nun balansında 1120 ədəd kompüter movcuddur. Komputerlərin 875 ədədi tələbə kontingentinin istifadəsi üçün nəzərdə tutulmuşdur. Bu kompüterlərdən 1120 ədədinin internetlə qoşulması təmin edilmişdir. Təlim və tədris prosesində tədris fəaliyyətinin rəqəmsallaşdırılması Elektron universitet sistemi sayəsində tələbələrin və professsor-müəllim heyətinin müxtəlif modullardan istifadəsi üçün təmin edilmişdir. Bəzi yeni modulların hazırlanması, elektron sənəd dövriyyəsinin təmin olunması istiqamətində işlər yekunlaşmaq üzrədir. AzMİU-da Elektron Kitabxana fəaliyyət göstərir. E-kitabxananın texniki strukturu təhlükəsizlik baxımından tam olaraq qaydalara uyğundur, serverin monitorinq sistemi mövcuddur və serverə qoşulmuş şəbəkə strukturu tam ardıcıllıqla düzgün qurulmuşdur.

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

Tələbələr şəxsi tələbə kabinetləri vasitəsilə Elektron jurnal, Elekrton kitabxana sistemləri üzərindən fənlərin sillabuslarını, elektron mühazirələrini, imtahanların attestasiya

formalarını, imtahan suallarının, test üsulu ilə keçiriləcək fənlərin testlərinin baza hissəsini semestr başlayandan sonra ilk günlərdə əldə etmə imkanına malikdirlər. Hər bir tələbə və professor-müəllim heyətinin korporativ elektron poçt ünvanları var və bunun üzərindən tələbələr lazımi kommunikasiyanı apara bilirlər.

### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

Bu baxımdan tələbələrlə əks əlaqənin yaradılmasına, Elektron Təhsil sisteminin təkmilləşdirilməsinə ehtiyac vardır. AzMİU-da yaradılan Elektron Universitet sisteminin "Keyfiyyət Təminatı" modulu Mərkəzi Keyfiyyət Təminatı istiqamətində əhəmiyyətli rola malikdir. Belə ki, bu sistem vasitəsilə tədris materiallarının tələbə kabinetinə yüklənməsi və əlçatanlığı, tələbələrin müvəfəqiyyət göstəriciləri haqqında məlumatlarının əldə etməsi, online dərslərin təşkili həyata keçirilir. Tələbələr dərsə davamiyyət, aylıq təhsil göstəriciləri və imtahan nəticələri haqqındakı məlumatları şəxsi kabinetləri vasitəsi ilə əldə edirlər. Tələbələr münaqişə komissiyasına və digər müraciətlər üçün də bu sistemdən istifadə edirlər. Elektron Tədris Mərkəzi mərkəzləşmiş formada fəaliyyət göstərir. Eyni zamanda, mərkəzləşdirilmiş qaydada mövcud olan məlumatların təhlili nəticəsində ehtiyac yaranan sahələrin (qrup və ya fənlərin) daha da ətraflı təhlil olunub diqqət mərkəzində saxlanması təmin olunur. *Lakin informasiya idarəetmə sistemində tələbələrin davamiyyət limitini keçməsi yaxınlaşanda onların e-mail ünvanlarına xəbərdarlıq məktubu göndərilmir.*

### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

AzMİU-da Əməkdaşların "Elektron Məlumat Sistemı" Maliyyə Nazirliyi tərəfindən təqdim olunmuş proqram təminatı üzərində işlənilir, proqram təminatı SİNAM şirkəti tərəfindən hazırlanaraq istismara verilib, texniki şərtlər və dəstək şirkət tərəfindən icra olunur. Tələbə- Məzun Dövlət Elektron sistemi DİM tərəfindən təqdim olunmuş proqram təminatından istifadə olunur. AzMİU 2012-ci ildən Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sisteminə (TMİS) qoşulmuşdur. Məlumatların əlavə edilməsi və yenilənməsi mütəmadi olaraq mərkəzi qaydada həyata keçirilir.

### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

İnformasiya idarəetmə sisteminin təhlükəsizliyinin, məxfiliyinin və etibarlı fəaliyyətinin təmin olunmasına universitetin İKT mərkəzi tərəfindən ciddi nəzarət olunur.

## *5.5 İctimaiyyətlə əlaqələr*

### 5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

AzMİU-da universitetin imicinin müasir standartlara uyğunlaşdırılması, kütləvi informasiya vasitələri ilə əlaqələrin genişləndirilməsi və ictimaiyyətin məlumatlandırılması, professor-müəllim heyəti və tələbələrlə kommunikasiyaların inkişafı yolu ilə onları universitetdə görülən işlər, qarşıda duran planlarla tanış etmək, universitetin sosial şəbəkələrdə fəal iştirakını təmin etmək, AzMİU-nun güclü tərəflərinin təbliq olunması ilə potensial tələblərin, eləcə də təhsil layihələri ilə bağlı vasitələrin cəlb olunması, beynəlxalq təcrübənin öyrənilib tətbiq edilməsi və təhsildə innovasiyaların yaradılması məqsədi ilə

08.06.2022-ci il 155/ş-01 nömrəli əmri ilə İctimaiyyətlə Əlaqələr və Marketinq Mərkəzi (İƏMM) yaradılmışdır. İƏMM PR və Media və Rəqəmsal Marketinq bölmələrindən ibarətdir. *İƏMM 08.06.2022-ci ildən yaradılsa da, bu günə qədər əsasnaməsi işlənməmişdir.* AzMİU-nun rəsmi veb-saytı (https://www.azmiu.edu.az/) fəaliyyət göstərir. Mətbuat üçün məlumatlar, elanlar, eləcə də universitet rəhbərliyinin, professor-müəllim heyətinin, tələbələrinin müsahibələri, açıqlamaları sayt vasitəsilə yayımlanır. AzMİU-nun veb-saytında məlumatların yayımlanması üçün “Xəbərlər” və “Elanlar” bölmələri mövcuddur.

### 5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

https://www.azmiu.edu.az/ saytı vasitəsilə ictimaiyyət və mətbuat üçün məlumatlar mütəmadi olaraq yayımlanır. Sayt vasitəsilə əsas bölmədə yayımlanan məlumatlar aktuallıq baxımından universitet və ölkə əhəmiyyətli olmaqla iki kateqoriyaya bölünür. Fakültə, kafedra, mərkəz və şöbələr haqqında əhəmiyyətli məlumatlar isə saytın aidiyyatı struktura aid bölməsində yerləşdirilmişdir. İnformasiyaların dəqiqliyi, informasiya mənbəyi, aidiyyatı struktur və məsul şəxslərlə yoxlanılır. *Lakin saytda bəzi məlumatlar qeyri-dəqiqdir. Məsələn, saytın akademik fəaliyyət hissəsində 8 fakültə və bir dekanlıq, amma saytın aşağı hissəsində 6 fakültə göstərilir. Bu məqamlara xüsusi diqqət yetirilməli və universitetin strukturu haqqında dəqiq məlumatlar verilməlidir. Saytda AzMİU-nun 2016-ci ildə akkreditasiya olunması ilə bağlı, strateji inkişafı haqqında məlumatlara rast gəlinmir. İƏMM haqqında da məlumat saytda yoxdur.*

### 5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

İctimaiyyətlə əlaqələrin təmin olunması və məlumatların yayınlanması mexanizmində AzMİU-nun rəsmi internet səhifəsi ilə yanaşı, elektron poçt, telefon əlaqəsi və birbaşa görüşlərdən də alət kimi istifadə olunur. Bundan əlavə, əməkdaşların və tələbələrin https://www.azmiu.edu.az/ saytında şəxsi kabineti mövcuddur. Bəzi məlumatlar, xüsusilə elan və sorğular şəxsi kabinet üzərindən göndərilir və cavab alınır. Eyni zamanda sosial şəbəkə hesablarından da istifadə olunur. Aşağıdakı Feysbuk səhifələrini qeyd etmək olar:

• 13000 nəfər izləyicisi olan - Azərbaycan Memarlıq və İnşaat Universiteti – AzMİU https://www.facebook.com/azerbaycan.memarliq.inshaat.universiteti). Paylaşımlar səhifə icləyicilərinin təxminən 50%-nə çatdırılır;

• Gülçöhrə Məmmədova (https://www.facebook.com/G%C3%BCl%C3%A7%C3%B6hr%C9%99-M%C9%99mm%C9%99dova-1895415914111055/) - 1700 izləyicisi var. Paylaşımlar səhifə izləyicilərinin təxminən 80%-nə çatdırılır;

• İnstaqram səhifəsi: azmiu_biz (https://www.instagram.com/azmiu_biz/?igshid=MmJiY2I4NDBkZg%3D%3D) - 19000 izləyicisi var. Paylaşımlar səhifə izləyicilərinin təxminən 70%-nə çatdırılır.

### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti

Universitetin ictimaiyyətlə əlaqələr işinin mütəşəkkil təşkili üçün "İctimaiyyətlə əlaqələr üzrə kommunikasiya planı" mövcuddur. Kommunikasiya planında fəaliyyət planı və

digər vacib elementlər yer alıb. İctimaiyyətlə əlaqələr və marketinq mərkəzinin Kommunikasiya Plan-1 2022-ci ilin sentyabr ayında Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor Orxan Naqdiyev tərəfindən təstiqlənmişdir. Ümumilikdə 9 əsas bölmədən ibarət olan kommunikasiya planında universitetin kommunikasiya mexanizminin məqsədi, auditoriyası, alətləri, mövzuları, eləcə də işin daha da təkmilləşdirilməsi üçün təkliflər yer alır. AzMİU-nun Kommunikasiya planı bir tədris ili üzrə hazırlanır. Tədris ilinin sonunda nəticələr araşdırılır və kommunikasiya planında müvafiq düzəlişlər və əlavələr edilir.

#### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

Universitetin məlumatlandırma fəaliyyətinin ictimaiyyət tərəfindən qiymətləndirilməsi üçün bir neçə vasitə mövcuddur. Digər tərəf universitetin ictimaiyyətlə əlaqələr fəaliyyətini rəsmi elektron poçt ünvanı, sosial şəbəkələri, eləcə də KİV nümayəndələri və vətəndaşlar arasında keçirilən sorğular üzərindən qiymətləndirə bilər. Bundan əlavə, Elmi Şuranın iclasında da universitetin məlumatlandırma fəaliyyəti qiymətləndirilir, çatışmazlıqlar və müsbət tərəflər müzakirə edilir və təkliflər verilir. AzMİU İctimai Şurasının, Kommunikasiya Strategiyasının, Böhran Komunikasiya Planının və Daxili Kommunikasiya Fəaliyyətinə dair prosedurun olmadığı müəyyən edilmiş, daxili və xarici ATM-lərin təcrübələri də araşdırılaraq həmin boşluqlar aradan qaldırılmışdır. Bundan əlavə, 2022-2023-cü tədris ilinin əvvəlində AzMİU-nun media ilə əlaqələri zəif qiymətləndirildiyi üçün kompleks tədbirlər görülmüş, o cümlədən kadr potensialı gücləndirilmiş, media qurumları ilə fərdi görüşlər keçirilmiş, ATM-in əməkdaşları arasından 30-a yaxın ekspert hazırlanmış, Əməkdaşlıq müqavilələri imzalanmış və s. vacib tədbirlər görülmüşdür.

#### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

AzMİU-nuin məlumatlandırma fəaliyyətinin monitorinqi universitetin PR və Media bölməsi tərəfindən mütəmadi olaraq aparılır. Monitorinq fəaliyyəti gündəlik, aylıq və rüblük olmaqla həyata keçirilir. Monitorinq nəticəsində toplanan məlumatlar analiz edilir və universitetin ictimaiyyətlə əlaqələr mexanizminin müsbət və mənfi tərəfləri müəyyən edilir. Aparılan monitorinqlər və analizlər rektorluğa, məlumatın predmentinə uyğun olaraq müvafiq dekanlığa, kafedralara, struktur-bölmələrə göndərilir və elektron resurslarda arxivləşdirilir. AzMİU-nun fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün analiz nəticələrinə əsasən təkliflər hazırlanır və rəhbərliyə təqdim edilir. Analizlərin nəticəsinə uyğun olaraq AZMİU xəbərlərinin yayımlanma saatı dəyişdirilib, oxucu və tamaşaçı trafikinin daha sıx olduğu saatlar seçilib.

## 6. İNFRASTRUKTUR

### *6.1 Tədris infrastrukturu*

#### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

Universitetdə tədrisin təşkili üçün infrastruktur mövcud normalara uyğundur.
Tədrisin təşkili ümumi sahəsi 55246.86 $m^2$ olan 5 tədris korpusunda aparılır.

AzMİU-nun maddi-texniki bazası haqqında məlumat *Cədvəl 6.1-də* göstərilmişdir:

**Cədvəl 6.1.**

**AzMİU-nun maddi-texniki bazası**

| Sıra N | Korpusun adı | Ümumi sahə $m^2$ |
|---|---|---|
| 1 | Əsas tədris binası | 27805.8 |
| 2 | 2 saylı Tədris binası | 10100.09 |
| 3 | 3 saylı tədris binası | 7560.00 |
| 4 | 4 saylı tədris binası (kollec) | 3073.3 |
| 5 | 2 mərtəbəli tədris binası (hazırlıq) | 985.67 |
| 6 | Idman və yeməkxana korpusu | 4378.0 |
| 7 | Emalatxana | 84.0 |
| 8 | Kitabxana | 1260 |
|  | **Cəmi** | **55246.86** |

Cədvəldən göründüyü kimi, universitetin ümumi sahəsi 55246.86 $m^2$-dir. Ümumi təhsil alanlara düşən faydalı sahə (Ümumi sahənin 75%-i) 41435.14 $m^2$, nəzəri məşğələ auditoriyalarında təhsil alanlara düşən faydalı sahə (sahənin 25%-i) 13811.71 $m^2$-dir. Universitetdə əyani təhsil alan tələbə və magistrlərin sayı 8018 nəfərdir. Bu səbəbdən də hər tələbəyə 6.89 $m^2$ faydalı sahə düşür.

AzMİU-nun balansında 1120 (905 ədəd kompüter + 215 notbook) kompüter vardır. Kompüterlərin 875 ədədi tələbə kontingentinin payına düşür. Belə olduğu halda tələbələrin hər 100 nəfərinə 10.91 (875 : (8018 : 100)) kompüter düşür.

AzMİU-nun fəaliyyətinin statusunu müəyyənləşdirən meyarları *Cədvəl 6.2-də* verildiyi kimi qiymətləndirmək olar.

**Cədvəl 6.2.**

**AzMİU-nun fəaliyyətinin statusunu müəyyənləşdirən meyarlar**

| № | Göstəricilərin adları | Fəaliyyətin statusuna uyğunluğunu müəyyənləşdirən meyarlar | AzMİU |
|---|---|---|---|
| 1. | Bir tələbəyə düşən faydalı sahə | 5 $m^2$-dən az olmamaqla | 6.89 |
| 2. | Nəzəri məşğələ auditoriyalarında bir tələbəyə düşən faydalı sahə | 1,5 $m^2$-dən az olmamaqla | 1.72 |
| 3. | İdman zalının mövcudluğu | + | + |
| 4. | Tələbə kontingentinin hər 100 nəfərinə düşən kompüterlərin sayı | 10-dan az olmamaqla | 10.91 |

*Tələbə kontingentinin hər 100 nəfərinə düşən internetə qoşulmuş kompüterlərin sayı Özünütəhlil Hesabatında 10,91 göstərilsə də, sahə baxışı zamanı bütün kompüterlərin internetə qoşulmaması müəyyən edilmişdir.*

a) 1 saylı tədris binası üzrə 27805.8 $m^2$: o cümlədən, Akt zalı – 99.0 $m^2$, konfrans zalı - 130 $m^2$, yeməkxana – 67 $m^2$, tibb məntəqəsi – 20 $m^2$, muzey-193 $m^2$ təşkil edir.

b) 2 saylı tədris binası üzrə sahə 10100 $m^2$ olmaqla akt zalları -180 $m^2$, kitabxana 130 $m^2$ , 90 $m^2$ – oxu zalı təşkil edir

c) 3 saylı tədris binasının sahəsi 7560$m^2$-dir. Binanın birinci mərtəbəsində sahəsi 1040 $m^2$-dən ibarət kitabxana və oxu zalı, 331 $m^2$-dan ibarət akt zalı, 75 $m^2$-dən ibarət layihə institutu yerləşmişdir

d) 4 saylı korpus (İnşaat kolleci) sahəsi – 3073.3 $m^2$ (Birinci mərtəbə adminstrativ otaqlar, yeməkxana, seçki məntəqəsi və s., 4 mərtəbə tədris üçün)

e) İdman və yeməkxana korpusu 4378 $m^2$-dir. Binada 180 $m^2$-dan ibarət yeməkxana, 160 $m^2$-dən ibarət lisey fəaliyyət göstərir

f) Universitetin tərkibində sahəsi 84 $m^2$ emalatxana, həyətdə yeməkxana -60 $m^2$, həmçinin idman zalı-1800 $m^2$ mövcuddur.

*Tədris binaları və tədris otaqları dövlət standartlarına uyğun olsa da, bəzi tədris otaqlarında pəncərələr açılmır, jaluzlər quraşdırılmamışdır. Bəzi tədris binalarının üstündə korpusun adı göstərilən lövhələr yoxdur. ATM-in tədris binalarının bəzilərində sanitar qovşaqları müvafiq normativlərə cavab vermir.*

**6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti**

Azərbaycan Memarlıq və İnşaat Universitetinin tədris və tədris–metodiki informasiyanın əsas mənbəyi olan kitabxananın fondu ümumilikdə 517574 nüsxə, oxucusu 11844 nəfər, sahəsi 1260 $m^2$-dir. Kitabxananın 7 şöbəsi, 11 bölməsi, 3 filialı və bir neçə kafedrada kabinet kitabxanası mövcuddur.

Kitabxana bir sıra kitabxanalarla kitab mübadiləsini həyata keçirir. Bunlara misal olaraq BDU, ADNSU, AzTU, Milli Elmlər Akademiyasının kitabxanaları və M.F. Axundov adına Milli kitabxananı göstərmək olar. Eyni zamanda kitabxanalararası abonoment (KAA) yolu ilə az tapılan kitabları əldə edərək oxucuların tələbatını təmin edir. Universitetin nəzdində olan lisey və kollecin tələbələri də universitet kitabxanasının xidmətlərindən istifadə edir. Oxucuların tələbatını tam ödəmək üçün kitabxana yeni tədris olunan ixtisaslara aid xarici və MDB döbvlətlərində nəşr olunmuş ədəbiyyatları alaraq fondunu zənginləşdirir. Eyni zamanda kitabxanaya hər il hədiyyə yolu ilə kitablar və abunə yolu ilə müxtəlif adda qəzet və jurnallar daxil olur.

Universitetdə tələbə, müəllim və bütün oxucular üçün nəzərdə tutulmuş elektron kitabxana fəaliyyət göstərir. AzMİU-nun elektron kitabxanası tədris prosesində və elmi fəaliyyətdə istifadəçilərin informasiya ehtiyaclarını təmin etməyə yönəldilmişdir. Burada elm və texnologiyanın müxtəlif sahələri, normativ-texniki və dövri nəşrlər, dissertasiyaların avtoreferatları, universitet tarixinə dair sənədlər və digər materiallar üzrə dərs vəsaitləri və elmi ədəbiyyatlar mövcuddur.

Elektron kitabxanadakı materiallardan əlavə universitetin üzv olduğu elmi-tədqiqat resurs bazalarından da Web of Science (http://apps.webofknowledge.com ), Polpred Onlayn Xəbərlər Bazası (https://polpred.com/ ) və s.) istifadə olunur.

Kitabxananın elektron kataloqu tam hazırlanmış, müəllimlərin tədris edtikləri fənlərin mühazirələri kompüterlərə yerləşdirilərək oxucuların istifadəsinə verilmişdir.

*Kitabxananın yeni nəşr olunmuş kitablar və müasir texniki avadanlıqlarla təchiz edilməsi tövsiyə olunur.*

**6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti**

AzMİU-da təcrübə və laboratoriya dərslərinin keçirilməsi üçün lazımı avadanlıqlar və laboratoriya bazası mövcuddur.

Laboratoriya bazalarının yenilənməsində və ya zənginləşdirilməsində universitetin öz vəsaitindən başqa tərəfdaş şirkət və müəssisələrin (BP, Knauf, Paşa inşaat, Almaniyanın “Wilo SE”, Avstriyanın “Herz armaturen”, Almaniyanın “GeoClimaDesing AG”, Fövqaladə Hallar Nazirliyi, Holcim Azərbaycan, Meliorasiya və Su təsərrüfatı ASC, Akkord İstehsalat Birliyi, Azərsu ASC, Təmiz Şəhər ASC və s.) maliyyə dəstəyindən də istifadə edilmişdir. Məsələn, BP şirkətinin maliyyə dəstəyi ilə Mühəndis sistemləri və qurğuları tikintisi kafedrasında ən müasir avadanlıqlarla təchiz olunmuş 3 yeni laboratoriya (Ağıllı ev; Elektrik və elektronika; Enerji effektivliyi və alternativ bərpa olunan enerji mənbələri) qurularaq tələbələrin istifadəsinə verilmişdir.

2018-ci ildə yaradılan İtaliya-Azərbaycan dizayn mərkəzinin məqsədi dizayn təhsilinin İtaliya dizayn təhsili səviyyəsinə yüksəlməsinə çalışmaqdır. İtaliya-Azərbaycan Dizayn mərkəzinin tərkibində sürətli prototipləşdirmə laboratoriyası, maket studiyası, foto studiya və ağac emalatxanası fəaliyyət göstərir.

Bəzi laboratoriyalarda (fizika, kimya) avadanlıqlar köhnədir. Tələbələr avadanlıqlardan tədqiqat üçün istifadə etsələr də hesablamaları əl ilə aparırlar. Bu laboratoriyalarda avadanlıqların yenilənməsinə ehtiyac var və tövsiyə olunur.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

Yeni 3 tədris laboratoriyaları (Ağıllı ev; Elektrik və elektronika; Enerji effektivliyi və alternativ bərpa olunan enerji mənbələri) müasir avadanlıqlarla təchiz olunmuşdur. *Amma bəzi laboratoriyaların (fizika, kimya, kompüter) müasir avadanlıqlarla təchiz edilməsinə ehtiyac vardır. Auditoriyaların bir çoxu projektorlarla təmin edilməmişdir.*

*Kompüter laboratoriyalarında kompüterlrin sayı azlıq təşkil edir və bəzi tələbələrə isə kompüter çatmır. Auditoriyalara baxış zamanı kompüterlərin sayı az olduğu üçün bəzi tələbələrin dərslərdə şəxsi kompüterlərindən istifadə etməsi hallarına rast gəlinmişdir. Laboratoriyalardakı kompüterlərin hamısı İnternetə qoşulmamışdır. Kompüter laboratoriyalarında kompüterlərin yenilənməsinə, daha yüksək xarakteristikalı kompüterlərə ehtiyac vardır. Laboratoriya dərslərində proqramlaşdırma dillərinin tədrisində köhnə proqram təminatından istifad edildiyi müəyyən edilmişdir. Kompüterlərin proqram təminatı müasir tələblərə uyğun yenilənməlidir.*

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

Universitetdə tələbələrin təcrübə keçməsi üçün lazımi şərait yaradılmışdır. Bakalavr səviyyəsində 2 növ (tədris və istehsalat) təcrübələrinin keçirilməsi həyata keçirilir. Magistratura səviyyəsində elmi-pedagoji və elmi-tədqiqat təcrübələri aparılır.

Universitetdə tədris və istehsalat təcrübələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında” 10 sentyabr 2008-ci il tarixli 221 № li qərarı ilə təsdiq edilmiş əsasnamənin tələblərinə müvafiq olaraq universitetin rektoru tərəfindən təsdiq edilmiş “Azərbaycan Memarlıq və İnşaat Universitetində təcrübələrin təşkili və keçirilməsi qaydaları”na əsasən həyata keçirilir. Təcrübələr bağlanılmış müqavilələrin (150-dən artıq istehsalat müəssisələri ilə) şərtlərinə uyğun olaraq Respublikanın müxtəlif istehsal və xidmət müəssisələrində, şirkətlərdə, elmi - tədqiqat institutlarında keçirilir.

Universitetin Təcrübə və karyera mərkəzi (TKM) tələbə və müəllimlərin təcrübə yerlərinə təyinat siyahısına əsasən təcrübənin keçirilməsini nəzərdə tutulan obyektlər, təcrübənin keçirilməsi müddəti və s. bu kimi məsələlərin əks olunduğu əmr layihəsini

hazırlayır və sənəd universitet rektoru tərəfindən təsdiq edilir. TKM-in qarşısında duran əsas məsələlərdən biri də təcrübə rəhbərlərinin seçilməsinə nəzarət edilməsindən ibarətdir. İstehsalat təcrübəsinin yekunları hər tədris ilinin sonunda AzMİU-nun Elmi Şurasında geniş müzakirə edilir, TKM-in məlumatı nəzərdən keçirilir, aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması, qarşıda duran problemlərin həlli məqsədilə verilmiş təkliflər qruplaşdırılır ki, bu da təcrübə prosesinə hazırlığın daha səmərəli aparılmasına kömək edir.

**6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti**

Universitetdə elektron universitet sistemi üzərindən tələbələr şəxsi kabinetlərinə daxil olur, tədris materiallarını əldə edir, tapşırıqları yerinə yetirib sistemə yükləyirlər.

Pandemiya dövründə bütün universitetlər məsafədən tədrisə keçdiyi zaman AzMİU elektron universitet sistemi üzərindən tam distant təhsil sistemi qurmuşdur. ATM-ə sahə baxışı zamanı qiyabi qruplarda təlim və tədrisin distant təhsil formasında aparıldığı bildirilmişdir.

*Hazırda universitetdə distant təhsil formasından istifadə olunmur. Yalnız qiyabi qruplarda tədris elektron universitet sistemi üzərindən aparılır.*

*ATM-ə distant təhsil formasının daha da təkmilləşdirilməsinə və inkişaf etdirilməsinə diqqət yetirilməsi tövsiyə olunur.*

**6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti**

Universitetdə nəqliyyat xidməti mövcuddur. Rəhbər işçilər üçün ayrılmış nəqliyyat vasitələri ilə yanaşı avtobus və yük maşını universitetin əməkdaşlarının xidmətindədir. Universitetin nəqliyyat xidmətindən təcrübə yerlərinə gedərkən istifadə edilir.

**6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti**

Kompüter laboratoriyaları tələbələr üçün əlçatandır. *Amma tədris laboratoriyalarında kompüterlərin sayı azdır. Universitetdəki kompüterlərin hamısında İnternet bağlantısı yoxdur. ATM-in bütün korpuslarında WiFi tələbələr və professor-müəllim heyəti üçün əlçatan deyildir.*

*Universitetdə tədris infrastrukturunun tələbələrin istifadəsi üçün əlçatanlaığının artırılması istiqamətində tədbirlərin görülməsi tövsiyə olunur.*

**6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti**

ATM-də sağlamlıq imkanları məhdud şəxslər üçün infrastruktur nəzərdə tutulmamışdır.

*ATM-də sağlamlıq imkanları məhdud şəxslər üçün lazimi şəraitin yaradılması istiqamətində tədbirlərin görülməsi tövsiyə olunur.*

**6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti**

AzMİU-nun 1 saylı tədris binasının 4-cü mərtəbəsində 67.0 $m^2$, idman korpusunda sahəsi 180 $m^2$ yeməkxana, 4 saylı korpusda yeməkxana, həyətdə isə sahəsi 60 $m^2$ kafe fəaliyyət göstərir. Digər korpuslarda isə bufetlər var.

*Tələbə sorğusuna görə yeməklərin keyfiyyəti yaxşıdır, qiymətlər isə bir az bahadır.*

**6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti**

ATM-in tələbə yataqxanası mövcuddur. Tələbə yataqxanası Bakı şəhəri, Yasamal r-n Ü.Zülalov küçəsi 31/97 ünvanında yerləşir. Yataqxananın 4 korpusu 5 mərtəbəli və iki korpusu 9 mərtəbəli binadan ibarətdir. Yataqxananın ümümi sahəsi 3359.34 $m^2$–dir. Hər otağın sahəsi 19.57 $m^2$ olmaqla, 112 yaşayış otağından ibarətdir. Yaşayış otaqlarında ümumilikdə 336 ədəd çarpayı vardır. Hazırda 252 nəfər yataqxana ilə təmin edilmişdir. Yataqxanada 4 xidməti otaq vardır.

Tələbələrin yaşaması və istirahəti üçün yataqxanada lazımi şərait yaradılmışdır. Hər otaqda hamam, sanitar qovşağı mövcuddur. Hər mərtəbədə iki mətbəx quraşdırılmışdır. Yaşayış otaqları tələbələrin tələbatı üçün lazım olan mebel, avadanlıqlar və yataq dəstləri ilə təmin edilmişdir. Yataqxana isti və soyuq su ilə daimi təmin olunur. Yataqxanada mərkəzi istilik sistemi fəaliyyət göstərir. Yataqxananın binası 24 saat ərzində mühafizə olunur. Bundan əlavə yataqxanada müşahidə kameraları quraşdırılmış və tələbələrin istifadəsinə internet xidməti verilmişdir.

Universitetin qonaqları üçün idman korpusunda qonaq evi təşkil edilmişdir. Qonaq evində otaqların hər biri iki nəfərlikdir və yaşamaq üçün zəruri şərait yaradılmışdır.

**6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti**

AzMİU-nun tələbləri Texniki Universitetin binasında yerləşən Yasamal rayon 1 sayli tələbə poliklinikasından ödənişsiz istifadə edirlər.

Universitetin əsas binasında sahəsi 20 $m^2$ olan tibb məntəqəsi fəaliyyət göstərir. Məntəqənin bir əməkdaşı var. Tibb məntəqəsi zəruri olan ilkin tibbi yardım vasitələri ilə təmin edilib. Gün ərzində 7-10 tələbə və professor-müəllim heyəti məntəqədən istifadə edir.

*Tibb məntəqəsində zəruri ləvazimatların təmin olunması tövsiyə edilir.*

**6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti**

AzMİU-da İT xidməti müasir dövrün tələblərinə cavab verəcək səviyyədə qurulmuşdur. İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) Mərkəzinin əsas məqsədi müasir tələblərə cavab verən informasiya sistemlərinin yaradılması və daim inkişaf etdirilməsidir. Mərkəz akademik və tədris-köməkçi heyətin informasiya texnologiyalarından istifadə sahəsində hazırlıq səviyyələrinin artırılması və elektron idarəçilik üzrə bacarıqlarının inkişaf etdirilməsi istiqamətində daim fəaliyyət göstərir. Bu məqsədlə Mərkəz tərəfindən peşəkar müəllimlərin və təlimçilərin dəstəyi ilə İT Biliklərinin artırılamsına şərait yaratmaq üçün mütəmadi treyninqlər təşkil edilir, müəllimlərin İT biliklərinin yoxlanılması və sertifikatlaşdırma həyata keçirilir.

Mərkəzin tabeliyində Proqram Təminatı və Texniki Dəstək şöbələri fəaliyyət göstərir. Proqram Təminatı Şöbəsinin artıq 7 ildir istifadəyə verdiyi “Elektron Universitet Sistemi”, “E-jurnal” və “Tələbə kabineti” elektron sistemləri sayəsində artıq universitet-müəllim, universitet-tələbə, müəllim-tələbə münasibətləri elektronlaşdırılmışdır. Şöbənin əsas hədəfi avtomatlaşdırmadan kənar qalan sahələri müəyyən etmək və onları avtomatlaşdırma prosesinə cəlb etməkdir.

Texniki Dəstək Şöbəsinin fəaliyyəti internet şəbəkəsinin, həmçinin şöbənin nəzarətində olan texniki bazanın daim etibarlı və davamlı fəaliyyətini təmin etmək üzərində qurulmuşdur. Bununla bağlı şöbəyə daxil olan müraciətlər elektron sistemdə qeydə alınır və yerində baxış keçirilərək müvafiq tədbirlər görülür.

*İT şöbəsində proqramçıya ehtiyac var. Elektron sənəd dövriyyəsi hələ yekunlaşmamışdır. Elektron kitabxana sistemi fəaliyyət göstərsə də, onun yenidən qurulmasına ehtiyac var. Elektron kitabxana çoxdan qurulmuşdur və təkmilləşdirilməlidir.*

*Universitetin bütün tədris binalarında İnternet şəbəkəsi olsa da bəzi yerlərdə hamı üçün əlçatan deyil. Unversitetdə WIFI zonaları yaradılaraq tələbə və əməkdaşların istifadəsinə verildiyi bildirilsə də, bəzi hallarda internetə qoşulmaqda problemlər yaranır. İnternetə qoşulma imkanlarını bütün tələbələrə və professor-müəllim heyətinə əlçatan etmək üçün giriş nöqtələrinin ("access point"lərin) alınıb quraşdırılması tövsiyə olunur.*

*Korporativ email xidməti mövcud olsa da, universitetdə çox az istifadə olunur. Struktur və bölmələrdə olanda əməkdaşların şəxsi e-maillərdən (gmail, mail.ru) istifadə etdikləri müəyyən edilmişdir.*

### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti

Tədris inftastrukturunun istifadəsi universitetin aidiyyəti struktur bölmələri tərəfindən monitorinq olunur. Keyfiyyətin təminatı mərkəzi tərəfindən ildə 2 dəfə sorğular keçirilir. Keçirilmiş sorğu nəticələrinin təhlilləri Elmi Şurada müzakirə olunur və çatışmazlıqların ardan qaldırılması üçün tədbirlər görülür.

*Monitorinqi ildə 2 dəfə deyil, daha tez-tez aparmaq, məsələn 4 dəfə (semestrdə 2 dəfə) və nəticələri təhlil edərək ortaya çıxan çatışmazlıqların aradan qaldırılması üçün müvafiq struktur bölmələrə tapşırıqların verilməsi tövsiyə olunur.*

## *6.2 Elmi-tədqiqat infrastrukturu*

### 6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

Universitetin elmi-tədqiqat infrastrukturuna Elm və innovasiya məsələləri üzrə prorektorluq, Elmi-tədqiqat şöbəsi, Doktorantura şöbəsi, Magistratura mərkəzi, Kitabxana, Tələbə Elmi Cəmiyyəti, Nəşriyyat bölməsi, elmi jurnalların redaksiyaları daxildir. Bundan əlavə, universitetdə əsas elmi-tədqiqat struktur bölmələri olan 30 kafedra fəaliyyət göstərir. Hər bir struktur bölməsinin rektor tərəfindən təsdiq olunmuş Əsasnaməsi və Fəaliyyət Planı mövcuddur.

Universitetdə beş elmi jurnal nəşr olunur:

- "Elmi əsərlər" jurnalı;
- "Urbanizm" jurnalı;
- "Ekologiya və su təsərrüfatı" jurnalı;
- "Tikintinin iqtisadiyyatı və menecment" jurnalı;
- "Mühəndis mexanikası" jurnalı.

Lakin universitetdə ayrıca elmi-tədqiqat və innovasiya mərkəzi mövcud deyil.

### 6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

Universitetedə AzMİU tərəfindən maliyyələşdirilən aşağıda qeyd olunan 5 elmi-tədqiqat, 3 elmi-tədqiqat və tədris laboratoriyaları fəaliyyət göstərir.

Elmi-tədqiqat laboratoriyaları:

- Abidələrin mühafizəsi və bərpası elmi-tədqiqat laboratoriyası;
- Metal və ərintilər fizikası elmi-tədqiqat laboratoriyası (laboratoriyada olan müasir avadanlıqlar - Atom qüvvə mikroskopu, Nanoeducator, Scaning

probe microskope, Molecular Devices and Tools for Nano Technology, Kompüter LG monitor və mikroprosessor);

- Texnoloji maşın və avadanlıqların təkmilləşdirilməsi elmi-tədqiqat laboratoriyası (laboratoriyada olan avadanlıqlar - Təmizləyici qurğunun sınağı üçün stend, İşçi mayedə çirkli hissəciklərin miqdarını təyin etmək üçün ekspres – analizator);
- İnşaat materiallarında nanotexnologiyalar elmi-tədqiqat laboratoriyası;
- Su təsərrüfatı və suyun ekologiyası elmi-tədqiqat laboratoriyası (laboratoriyada olan avadanlıqlar - Spektrofotometr, pH metr, Konduktometr, Distillə aparatı, Termoreaktor, Desikator, İonometr, Oksigenmetr, Analitik və texniki tərəzi, Turbidimetr, Qızdırıcı soba, Qızdırıcı plitə, Mini inkubator, Binokulyar mikroskop).

Elmi-tədqiqat və tədris laboratoriyaları:

- İnşaat Materialları Elmi Tədqiqat və Sınaq Laboratoriyası;
- İnşaat konstruksiyalarının müayinəsi və tədqiqi tədris və elmi-tədqiqat laboratoriyası;
- Su təchizatının problemləri üzrə tədris və elmi-tədqiqat laboratoriyası.

Bundan əlavə, AzMİU Bakı Ali Neft Məktəbi ilə birgə layihə çərçivəsində aşağıda göstərilən qurğu və cihazlardan müştərək istifadə edir:

- Suda olan üzvi maddələrin miqdarını ölçmək üçün Qaz xromotaqrafi;
- Radiasiya fonunu ölçmək üçün Dozimetr;
- Dəniz suyunu şirinləşdirmək üçün Membran filtrasiyası.

Bununla yanaşı, AzMİU ilə BDU, ADNSU, UNEC, AzTU, BMU arasında elm sahəsində əməkdaşlığa dair anlaşmalar çərçivəsində birgə elmi tədqiqatların aparılması, həmin universitetlərdə mövcud olan maddi-texniki bazadan birgə istifadə edilməsi də nəzərdə tutulmşdur.

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

### *7.1 Beynəlmiləlləşmə siyasəti*

#### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

AzMİU-nun son beynəlmiləlləşmə strategiyası universitetin Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş, 2019-2023-cü illəri əhatə edir. Strategiya əsasında tənzimlənən Universitetin beynəlxalq əlaqələrinin inkişaf istiqamətlərinin iş planı illik əsasda Universitetin rektoru tərəfindən təsdiqlənir. İş planının müvafiq bölmələrinin yerinə yetirilməsi ilə bağlı illik hesabat Universitetin Elmi Şurasında məruzə edilir.

Universitetin beynəlmiləlləşmə strategiyası ümumən SİP-ə uyğun tərtib edilib, eyni zamanda, onun hazırlanması prosesi ilə bağlı müəyyən suallar mövcuddur. *Belə ki, istər strategiyanın, istərsə də Universitetin beynəlxalq əlaqələrinin inkişaf istiqamətlərinin illik iş planlarının hazırlanması prosesinə universitetin bütün maraqlı tərəflərinin, xüsusən də gənc alimlərin birliklərinin, tələbə cəmiyyətlərinin inklüziv, gender bərabərliyinə əməl edilməsi ilə cəlb edilməsini sübut edən hər hansı sənəd, protokollara rast gəlinməmişdir.* Eləcə də, bu kimi sənədlərin elektron versiyasının universitetin saytına qoyulması, əlçatanlığının təmin edilməsi tövsiyə edilir.

Bundan əlavə, özünütəhlil hesabatında beynəlxalq əlaqələr üzrə əsas hədəflər qismində aşağıdakılar qeyd edilmişdir:

- Universitetin dünya təhsil sisteminə inteqrasiyası, beynəlxalq rəqabətliyinin artırılması üçün beynəlxalq əlaqələrin inkişafı və genişləndirilməsi;
- Beynəlxalq əməkdaşlığın təhsilin və kadr potensialının inkişafına istiqamətləndirilməsi;
- Xarici universitetlərlə partnyor əlaqələrinin genişlənməsi;
- Nüfuzlu xarici universitetlərin professorlarının tədris prosesinə cəlb edilməsi;
- İkili diplom proqramlarının artırılması və proqramlardan müvafiq ixtisasların kurikulumlarının modernləşməsi, qabaqcıl təcrübənin öyrənilməsi üçün istifadəsi;
- Müəllim və tələbə mobilliyinin artırılması üçün beynəlxalq layihələrdən və universitetin partnyor əlaqələrindən istifadə edilməsi;
- Beynəlxalq əməkdaşlığın elmi-tədqiqat fəaliyyətinin inkişafına istiqamətləndirilməsi:
- Beynəlxalq tərəfdaşlarla elmi əməkdaşlığın intensivləşdirilməsi;
- Birgə tədqiqatların aparılması üçün beynəlxalq qrand layihələrində iştirakın artırılması;
- Gənc alimlərin hazırlanmasında partnyor universitetlərin elmi potensialından səmərəli istifadəsi.

Universitetin tanıdılması üçün:

- Beynəlxalq təşkilatlarla və universitet birlikləri ilə əməkdaşlığın davam etdirilməsi;
- Beynəlxalq təhsil sərgilərində iştirak;
- İnternetdə və sosial mediada universitetin fəaliyyətinin bütün istiqamətlərini işıqlandırmaq.

Həmçinin sənəddə inkişafın strateji istiqaməti baxımından, ATM-in akademik mövqeyinin möhkəmləndirilməsi və beynəlmiləlləşmə strategiyasının əsas məqsədləri qismində qeyd olunmuş aşağıdakı məsələlər beynəlmiləlləşmənin bir siyasət olaraq hədəfi və ya məqsədi olmaqdan ziyadə, fikrimizcə, ona nail olunması yollarını ifadə edir:

- elmi-tədqiqat sahəsində beynəlxalq fəaliyyətin artılması, xüsusilə Avropa tədqiqat proqramları və layihələrində iştirakın genişləndirilməsi;
- akademik heyət və tələbə mübadiləsi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi;
- xarici ali təhsil müəssisələri, maliyyə qurumları və digər şəxsi və ictimai təşkilatlarla tərəfdaşlığın təşviqi.

### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

Universitetin beynəlmiləlləşmə strategiyası sənədində mübadilə proqramlarının təşviq olunması mövcuddur. Belə ki, universitetdə son hesabat dövründə tələbə və müəllim mübadilələri Avropa Birliyinin Erasmus+KA1, Türkiyənin Mövlanə Mübadilə proqramı, Türk Universitetlər Birliyinin Orhun mübadilə proqramı, ikitərəfli əməkdaşlıq və ikili diplom proqramları çərçivəsində həyata keçirilmişdir. *Bununla yanaşı, Xarici əlaqələr*

*şöbəsində təqdim edilmiş sənədlərin ilkin təhlili göstərir ki, digər ölkələrdəki tədris və elmi-tədqiqat müəssisələri ilə əməkdaşlıq barədə çoxsaylı anlaşma memorandumları imzalansa da, onların böyük əksəriyyəti üzrə, heç bir konkret əməkdaşlıq fəaliyyəti həyata keçirilməmişdir.* Bununla yanaşı, mübadilə proqramları çərçivəsində ATM-in 100-ə yaxın tələbəsinin xarici tərəfdaş universitetlərdə (İspaniya, İtaliya, Portuqaliya, Türkiyə, Litva, Fransa) təhsil alması, elmi-tədqiqat fəaliyyəti ilə məşğul olması, 246 müəllim və 34 inzibati heyət əməkdaşının Erasmus+KA1 və KA2, İkili diplom proqramları, Orhun mübadilə proqramı çərçivəsində Türkiyədə, İtaliyada, Polşada, İspaniyada, Yunanıstanda, Danimarkada, Rumıniyada və digər ölkələrdə ezamiyyətdə olması barədə məlumat verilmişdir. Qeyd edək ki, mübadilə proqramında iştirak edən əməkdaşlar arasında inzibati-heyət əməkdaşlarının payının 12%-dən çox olması ilə bağlı, bu prosesin gələcəkdə daha inklüziv keçirilməsi, professor-müəllim heyətinin payının daha da artırılması tövsiyə edilir.

*Eyni zamanda, AzMİU-da Rusiya, İtaliya və Türkiyədən cəmi 4 tələbənin mübadilə proqramı çərçivəsində təhsil alması bu sahədə görüləcək çoxlu işlərin olduğunu, universitetin xaricdəki potensial tələbələrə tanıldılması, təşviqat işinin daha effektiv qurulmasına ehtiyac olduğunu, xüsusən ATM-dəki tədris proqramlarının onun rəsmi internet səhifəsində tam yerləşdirilməsinə ehtiyac olduğunu bir daha sübut edir.*

### 7.1.3 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

Universitetin beynəlmiləlləşmə strategiyası əsasında tələbə mübadiləsi proqramı təşviq olunur və bu çərçivədə ötən hesabat dövründə bir sıra fəaliyyətlər həyata keçirilmişdir. Bunların arasında diqqəti cəlb edən tədbirlər sırasında „Study in Azerbaijan" portalında ingilis dilində materialların yerləşdirilməsini, bir sıra sosial şəbəkələrdə 3 əcnəbi dildə məlumatların yerləşdirilməsini, ATM-in tarixi, əcnəbi tələbələrin təhsili ilə bağlı ətraflı məlumatların beş ölkənin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliyinə göndərilməsini, AzMİU-nun veb saytında yaradılmış "Apply onlayn" səhifəsində Azərbaycan və AzMİU haqqında məlumatların daxil edilməsini və bu sistem üzərindən xaricdən potensial tələbələrin birbaşa "Apply onlayn" sistemi vasitəsi ilə müraciətetmə imkanının yaradılmasını qeyd etmək olar.

Bununla yanaşı, sosial şəbəkələrdə 3 deyil, daha çox əcnəbi dillərdə məlumatların yerləşdirilməsi, bu dillərin seçilməsində əvvəlki illərdə universitetdə təhsil almış əcnəbilərin etnik tərkibinin təhlili, əcnəbi tələbələrin təhsili ilə bağlı ətraflı məlumatların beş deyil, daha çox ölkənin AR-dəki diplomatik nümayəndəliyinə göndərilməsi tövsiyə edilir. *Qeyd edək ki, təşviqat materiallarının təhlili göstərir ki, onlar məzmun baxımdan daha cəlbedici informasiya ilə zənginləşdirilə bilər.* Məsələn, ATM-in ölkənin və regionun tikinti-memarlıq sektorundakı yeri barədə universitetin tanınmış məzunlarının, o cümlədən əcnəbi məzunlarının potensial tələbələrə video-müraciəti, ATM-də həyata keçirilən idman yarışları, xüsusən də əcnəbi tələbələrin iştirakı ilə təşkil edilən mədəni-kütləvi tədbirlər barədə məlumat məzmuna daxil edilə bilər.

*Bununla yanaşı, ATM-də əcnəbi təhsilalanların təşviq olunma tədbirlərinin hazırlanmasında hazırkı tələbə cəmiyyətlərinin, o cümlədən əcnəbi tələbələrin birliyinin və digər maraqlı tərəflərin iştirakını təsdiq edən praktika və ya sənədlər Xarici əlaqələr şöbəsi və digər əlaqəli qurumlar tərəfindən təqdim edilməmişdir.*

### 7.1.4 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

ATM-də beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti əsasən Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın müvafiq bəndlərinə uyğun həyata keçirilməsi bəyan edilir. Belə ki, bu siyasətin əsas hədəfləri sırasında aşağıdakı məsələlər qeyd olunur:

- Xarici professorların universitetin akademik cəmiyyətinə inteqrasiyası (məsələn, "açıq dərslər", seminarlarda iştirak və s.);
- təlim-tədris prosesində iştirak edəcək əcnəbi-professor müəllim heyətinin fəaliyyətinin təşkili, onların ezamiyyət xərclərinin və əməyinin ödənilməsi sisteminin beynəlxalq standartlara uyğun qurulması və əmək fəaliyyətinə cəlb ediləcək əcnəbi professor-müəllim heyəti ilə əmək, tibbi və sosial sığorta, habelə sosial müdafiə sahələrində münasibətlərin şərtlərinin mövcud qanunvericiliyin tələblərinə uyğun tərtib olunması;
- universitetin tədris-təlim prossesinə Xarici təhsil müəssisələrinin əcnəbi-professor müəllim heyətinin və tələbə kontingentinin cəlb olunması və idarə edilməsi məqsədi ilə Universitet haqda məlumatların yerləşdirildiyi elektron bazanın yaradılması və inkişafı.

AzMİU-nun beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmilləşmə siyasəti universitetin SİP-nə uyğun təşkil edilmişdir.

### 7.1.5 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Xarici tərəfdaşlarla tədqiqatların aparılması beynəlmiləlləşmə strategiyasında qarşıya qoyulan əsas hədəflərdəndir və beynəlmiləlləşmə istiqamətlərinin planında da əks olunmuşdur.

Qeyd olunan istiqamətdə özünütəhlil sənədində qeyd edilmiş material və keçirilmiş görüşlər zamanı hesabat ilində Almaniyanın DAAD proqramının “Qısa müddətli dosentlik” layihəsi çərçivəsində Amerika Birləşmiş Ştatlarının Fulbrayt Elmi-Tədqiqat Səfər Proqramı çərçivəsində və 2022-2026-cı illərdə İtaliya Xarici İşlər Nazirliyi və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin “Laureati per l’italiano” layihəsi çərçivəsində, habelə ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi “English Language Fellow” təqaüd proqramı çərçivəsində beynəlxalq tədqiqatçıların universitetə cəlb edilməsi həyata keçirilmişdir. Bununla yanaşı, qeyd olunan istiqamətdə əməkdaşlıq coğrafiyasının genişləndirilməsi barədə fəaliyyət planı təqdim edilməmiş, halbuki müvafiq istiqamətdə əməkdaşlığı ehtiva edən çoxsaylı memorandum və digər əməkdaşlıq müqavilələri imzalanmışdır.

### 7.1.6 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Universitet öz fəaliyyətində beynəlxalq təhsil şəbəkə, o cümlədən beynəlxalq təhsil təşkilatlatları ilə əməkdaşlıq əlaqələri qurmuşdur. Belə ki, ATM aşagıdakı qurumlara üzv olmuşdur:

1. İtaliyanın Romualdo Del Bianko fondu;
2. Fransa, Şərqi və Mərkəzi Avropa Memarlıq Məktəbləri Birliyinin (REA);
3. Memarlıq tədrisinə yardım məqsədi daşıyan MDB Beynəlxalq regional ictimai təşkilatı (MOOCAO);

4. Türk Dünyası Mühəndislər və Memarlar Birliyi;
5. Türk Şurası Türk Universitetləri Birliyi;
6. Qara Dəniz Universitetləri Şəbəkəsi;
7. Azərbaycan-Rusiya Ali Təhsil Müəssisələri Assosiasiyası;
8. MDB İnşaat Universitetləri Assosiasiyası (ACB)

Bu qurumlar tərəfindən təşkil olunan bir sıra müsabiqələrdə, beynəlxalq konfranslarda, sərgilərdə AzMİU-nun tələbə və müəllimləri iştirak etdiyi bildirilsə də, təqdim edilmiş sənədlərə əsasən məlum olmuşdur ki*, ATM adı çəkilən qurumların əksəriyyəti ilə (məsələn, çox nüfüzlu Qara Dəniz Universitetləri Şəbəkəsi və s.) ya heç bir əməkdaşlıq aparmır, ya da beynəlxalq konfrans və sərgilərdə iştirakın təmin edilməsi ilə kifayətlənir.* Halbuki, qeyd olunan beynəlxalq təhsil şəbəkələri və beynəlxalq təhsil təşkilatları ATM-in araşdırmaçıları, xüsusən gənc alimlərin müxtəlif birgə layihələrdə (o cümlədən Horizon Europe və s.) iştirakı üçün çox böyük imkanlar yaradır.

### 7.1.7 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında beynəlmiləlləşmə hədəflərindən biri kimi İkili diplom proqramlarının artırılması və proqramlardan müvafiq ixtisasların kurikulumlarının modernləşməsi məsələsi birbaşa qeyd edilmişdir. Bu mənada, qeyd olunan istiqamət nüfuzlu xarici universitetlərlə "İkili diplom" proqramlarının yaradılması və həyata keçirilməsi və beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi müvafiq ixtisaslar üzrə tədris proqramlarının xarici ali təhsil müəssisələrinin təcrübəsi əsasında hazırlanması beynəlmiləlləşmə strategiyasında və fəaliyyət istiqamətlərində əks olunub.

AzMİU tərəfindən hesabat ilində aşağıdakı ikili diplom proqramları həyata keçirilmiş, ümumilikdə 98 tələbə bu proqramlarda iştirak etmişlər:

1. İstanbul Texniki Universiteti ilə inşaat mühənisliyi ixtisasında bakalavr səviyyəsində;.
2. İspaniyanın Koruna Universiteti ilə Ekologiya mühəndisliyi ixtisası üzrə magistratura səviyyəsində;
3. Portuqaliyanın Leiria Politexnik İnstitutu ilə İnşaat mühəndisliyi üzrə magistratura səviyyəsində;
4. Fransanın CNAM Universiteti ilə Mühəndis sistemləri və qurğularının tikintisi mühəndisliyi ixtisası üzrə bakalavr səviyyəsində;
5. İtaliyanın Milan Texniki Universiteti ilə dizayn ixtisasında bakalavr səviyyəsində;
6. Milan Texniki Universiteti ilə Memarlıq abidələrinin bərpası və mühafizəsi ixtisasında magistratura səviyyəsində ikili diplom proqramları həyata keçirilir.

### 7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

ATM-in beynəlmiləlləşmə strategiyası dörd illik müddəti əhatə edir və universitetin Elmi Şurasının müvafiq qərarı ilə təsdiq edilir. Eyni zamanda, yuxarıda da qeyd olunduğu kimi, sənədin "canlı orqanizm" kimi dövrü yenilənməsi prosesinə universitetin bütün maraqlı tərəflərinin, xüsusən də gənc alimlərin birliklərinin, tələbə cəmiyyətlərinin inklüziv, gender bərabərliyinə əməl edilməsi ilə cəlb edilməsi tövsiyə edilir.

## *7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu*

### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati strukturun mövcud olması vəziyyəti

Beynəlmilləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati struktur Xarici əlaqələr şöbəsi, Strateji planlaşdırma şöbəsi, Əcnəbi Tələbələrin Tədrisi üzrə Dekanlıq, Əcnəbi vətəndaşların hazırlığı fakültəsi və digər aidiyyəti şöbə və mərkəzlərdən ibarətdir. Xarici əlaqələr şöbəsində müdir daxil olmaqla 5 nəfər əməkdaş çalışır və digər əlaqəli qurumlarda xarici dilləri bilən əməkdaşlar mövcuddur.

Eyni zamanda, adı çəkilən qurumlardakı əməkdaşlara digər şərq və qərb dillərinin öyrənilməsi, danışıqlar prosesi, habelə marketinq üzrə təlimlərin təşkili, onların beynəlxalq əməkdaşlıq üzrə səriştə və bacarıqlarının təkmilləşdirilməsi üzrə müvafiq kursların təşkili tövsiyə edilir. Bundan əlavə, Xarici əlaqələr şöbəsi tərəfindən aidiyyəti səhifənin təkcə rus dilində deyil, Avropa və Şərq dillərində də aparılması tövsiyə edilir.

### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

Təşkilati struktur ümumən beynəlmiləlləşmə strategiyasına uyğundur. Adı çəkilən qurumlar öz Əsasnaməsinə uyğun olaraq universitetə əcnəbi tələbələrin cəlb olunması, qabaqcıl xarici ali təhsil mütəxəssislərinin tədris prosesində iştirakının təşkil olunması, tələbə-müəllim mübadiləsi, ikili diplom proqramları, beynəlxalq elmi tədqiqatlar, konfranslar, qrant layihələrində iştirak, beynəlxalq akkreditasiyalar, beynəlxalq reytinq bazalarında təmsil olunma, ATM-in veb səhifəsində ingilis dilində məlumatların yerləşdirilməsi istiqamətində fəaliyyət göstərirlər.

### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Mübadilə proqramları çərçivəsində tərəfdaş olan xarici universitetlərlə müvafiq müqavilələr imzalanır. Müqavilələrdə bir çox məsələlərlə yanaşı (təhsilin səviyyəsi, təhsil dili, mübadiləçilərin sayı və s.) kreditlərin tanınması mexanizmi də razılaşdırılır və imzalanır. Mübadilədən əvvəl tələbələr fakültə üzrə təyin olunmuş beynəlxalq koordinator, dekan, kafedra müdiri və fənn müəlliminin iştirakı ilə "Tədris protokolu" (Learning agreement) adlanan sənəddə tədris planına uyğun dərsləri və kreditləri seçir. Razılaşdırılmış tədris planları və "Tədris protokolu" əsasında kreditlər qarşılıqlı olaraq tanınır. Razılaşdırılmayan dərslərin kreditlərini tələbə öz universitetinə qayıtdıqdan sonra fərq kimi altdan dərs və ya yay məktəbində götürür.

### 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

Qeyd olunan istiqamətdə Özünütəhlil Hesabatında qeyd edilmişdir ki, 2017-2018-ci və 2018-2019-cu tədris illərində Almaniyanın DAAD proqramının "Qısa müddətli dosentlik" layihəsi çərçivəsində Köln Universitetinin professoru; 2019-cu il aprel-may aylarında Amerika Birləşmiş Ştatlarının Fulbrayt Elmi-Tədqiqat Səfər Proqramı çərçivəsində 1 amerikalı mütəxəssis; 2019-2020-ci tədris ilində və 2022-2026-cı illərdə İtaliya Xarici İşlər Nazirliyi və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin "Laureati per l'italiano" layihəsi çərçivəsində 2 italyan müəllim; ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi "English Language Fellow" təqaüd proqramı çərçivəsində 1 amerikalı mütəxəssis 2022-2023-cü tədris ilində xarici mütəxəssis qismində AzMİU-da tədris fəaliyyəti ilə məşğul olmuşdur. Bununla yanaşı, gələcəkdə əcnəbi mütəxəssislərin cəlb edilməsi prosesinin universitetdə inkişaf etdirilməsinə böyük ehtiyac olan elmi-tədqiqat və tədris sahələrinin təhlili ("needs assessment" əsaslı), habelə davamlılıq prinsipi üzrə həyata keçirilməsi tövsiyə edilir. Eyni zamanda, cəlb olunan əcnəbi mütəxəssislərin yerli, xüsusən gənc

müəllim-araşdırmaçı heyətinin səriştə və bacarıqlarının artırılması prosesinə cəlb edilməsi, multiplikativ effektin yüksəldilməsi baxımından tövsiyə edilir. Həmçinin əcnəbi professor-müəllim heyətinin ATM-in tədris prosesinə cəlbinin konkret töhfələri üzrə individual hesabatların hazırlanması və universitetin Elmi şurasında müzakirəsi, müzakirənin protokollaşdırılması tövsiyə edilir.

### 7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

Beynəlmiləlləşmə strategiyasında qarşıya qoyulan məqsədlərin həyata keçirilmə və-ziyyəti və səmərəliliyi mütəmadi olaraq aidiyyəti instansiyalar (yəni rəhbərlik - Beynəlxalq əlaqələr üzrə prorektor, rektor) tərəfindən mütəmadi monitorinq edilir. Bununla bağlı, illik hesabatlar təqdim olunur və universitetin Elmi Şurasında müzakirə olunur və ehtiyac yarandığı tədqirdə müvafiq qərarlar qəbul edilir və icrasına nəzarət edilir.

### 7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

İkili diplom proqramları üzrə təlim və tədris prosesi müvafiq proqramlar əsasında həyata keçirilir. İkili diplom proqramlarına Azərbaycan vətəndaşlarının qəbulu DİM tərəfindən aparılır. Müqavilələrin şərtinə uyğun olaraq tələbələr təhsillərinin bir hissəsini AzMİU-da, digər hissəsini tərəfdaş xarici universitetdə alırlar. Qazanılmış kreditlər qarşılıqlı olaraq tanınır. AB-nin Erasmus+KA1, Orhun mübadilə proqramı, 2013-2020-ci illərdə Mövlanə Mübadilə proqramı çərçivəsində AzMİU-da tələbə və müəllim mübadilələri təşkil olunur. Mübadilə proqramları çərçivəsində mübadiləni həyata keçirəcək qurumla AzMİU arasında müvafiq protokollar imzalanır. Protokollarda təhsilin səviyyəsi, təhsil dili, mübadiləçilərin sayı, kreditlərin tanınması mexanizmi, tədris planları və s. bu kimi məsələlər razılaşdırılır və AKTTS-in tələblərinə uyğun təşkil edilir.

### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

Əsasən AB-nin Erasmus+ proqramı, Mövlanə mübadilə proqramı, Orhun mübadilə proqramı, universitetlərarası əməkdaşlıq müqavilələri çərçivəsində həyata keçirilir. Covid-19 pandemiyası zamanı sərhədlərin bağlanılması səbəbindən mübadilə dinamikasında enmə müşahidə olunsa da (47 nəfərdən 5 nəfərədək), daha sonra say 42 nəfərədək artmağa başlamışdır. Hazırda mübadilələrdə artım hiss olunur.

2015-2022-ci illərdə universitet Avropa Birliyi və digər beynəlxalq qrant təşkilatları tərəfindən maliyyələşdirilən 9 layihədə koordinator və ya tərəfdaş qismində iştirak etmişdir.

Universitet alimləri Fransa, İtaliya, İngiltərə, ABŞ, Almaniya, Türkiyə, İran, Rusiya, Ukrayna, Qazaxstan, Özbəkistan və digər ölkələrin universitetləri, elmi mərkəzləri, fondları və s. ilə də elm və təhsil üzrə əməkdaşlıq etmişdir. Bu əməkdaşlıqlar çərçivəsində birgə elmi konfranslar, universitetlərlə tanışlıq, görüşlər təşkil edilmiş, doktorantura təhsili və stajkeçmə məsələləri istiqamətində fikir mübadiləsi aparılıb.

Hesabat ili dövründə Qazaxıstanın S.Toraigirov adına Pavlodar Dövlət Universitetinin və Qazaxıstan Milli Tədqiqat Texniki Universitetinin 5 magistr tələbəsi

magistr dissertasiyasının tədqiqatları ilə məşğul olmaq üçün 2 həftə müddətində, Qazaxıstanın Beynəlxalq Təhsil Korporasiyasından (Qazaxıstan Baş Memarlıq-İnşaat Akademiyasının kampusu) 3 doktorant AzMİU-da, uyğun olaraq AzMİU-nun 11 doktorantı Erasmus+KA1 mübadilə proqramları və universitetlərarası ikitərəfli əməkdaşlıq müavilələri çərçivəsində tərəfdaş universitetlərdə elmi-tədqiqat işləri aparmışdır.

ATM-də akademik heyətin mübadilə dinamikasını yüksəltmək üçün yerli və əcnəbi mütəxəssislərin, xüsusən gənc araşdırmaçıların xaricdəki həmkarları ilə birgə beynəlxalq layihələrdə iştirakını stimullaşdıran tədbirlərin həyata keçirilmədiyi müəyyən edilmişdir. Bu istiqamətdə ATM-də müfafiq təlimlərin, (məsələn, Horizon Europe üzrə təlimlərin) təşkili tövsiyə edilir. Belə ki, bu təlimlərdə elmi-tədqiqat üzrə birgə layihələrə müraciət, araşdırma üzrə konsepsiya sənədinin hazırlanması və s. məsələləri işıqlandırıla bilər. Eləcə də, ATM-də bütün araşdırmaçılara ingilis və digər dillərin tədrisi üzrə müvafiq kafedra tərəfindən təlimlərin keçirilməsi tövsiyə edilir.

### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

Mübadilə proqramlarına sənəd qəbulu aşağıdakı üsullarla aparılır:

1. Elanlar universitetin daxili əmri ilə təyin olunmuş beynəlxalq koordinatorlara, fakültə dekanlarına ötürülür və koordinatorlar bunu müvafiq fakültə, kafedra, tyutor və qruplarda yayırlar.
2. Mübadilə ilə bağlı məlumat universitetin veb saytında və sosial şəbəkələrdə verilir.
3. Proqrama müraciət edən, qoyulan tələblərə uyğun bütün namizədlərin sənədləri tərəfdaş universitetlərə göndərilir. Son seçim qərarını tərəfdaş universitet edir.

*Bununla yanaşı, ATM-də mübadilə proqramları üçün namizədlər arasında seçım prosesinin daha şəffaf, inklüziv, gender bərabərliyi şəraitində keçirilməsi barədə mübadilə proqramlarına seçim qaydalarının möcvud olmaması bu prosesin şəffaflıq və əlçatanlığı prinsiplərinə uyğun gəlmir. Belə ki, məsələn proqramda iştirak edəcək şəxslərin xarici dil hazırlığının ATM-in Xarici dillər kafedrasında aparılması əvəzinə neytral, beynəlxalq qiymətləndirmə müəssisəsində (məsələn, British Council və s.) təşkili prosesin şəffaflığına töhfə verə bilər.*

### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

ATM-də təlim və tədris prosesi AKTTS-in tələblərinə uyğun təşkili edilmişdir. *ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikasına nəzər saldıqda professor-müəllim heyətinin mübadiləsi, eləcə də tələbə mübadiləsi dinamikasında kəskin dalğalanmaların olduğunu görə bilərik. Bu da prosesin dayanıqlı surətdə təşkil edilməməsinə və pərakəndə təşkil edilməsinə dəlalət edir.*

### 7.2.10. Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

ATM dünyanın ən tanınmış reytinq bazalarından biri olan Böyük Britaniyanın Reytinq Təşkilatı “Quacquarelli Symonds”a (QS) aid reytinq cədvəlində dünyanın böyük, tanınmış universitetləri siyahısına salınmışdır.

AzMİU 5 ildir ki, reytinq cədvəlində yaxşı universitetlər arasında qərarlaşmışdır. Belə ki, 2021-ci ildə universitet 401-450-ci yerdə qərarlaşmışdır. Lakin ATM Böyük Britaniyanın "The Times Higher Education" nəşrində dünyanın ən nüfuzlu universitetlərinin reytinq cədvəlində (Impact Rankings-2022) ilk minliyə düşməmişdir.

Avropa Birliyi tərəfindən yaradılan ən böyük beynəlxalq reytinq cədvəli olan U-Multiranka görə, AzMİU 8 göstərici üzrə yüksək nəticə əldə edərək "A" kateqoriyasını almışdır.

ATM 6 il davamlı olaraq "UI Green Metric World University" beynəlxalq reytinq bazasının "Ekoloji cəhətdən dünyanın ən dayanıqlı universitetləri" siyahısına daxil olmuşdur. 2022-ci ildə ATM bu reytinqdə dünyanın 1050 universiteti arasından 625-ci yerdə qərarlaşmışdır. Ölkə üzrə universitet 2-ci yerdə qərarlaşmışdır. AzMİU 2017-ci ildən indiyə qədər dünyanın müxtəlif ən yaxşı universitetləri arasında bu siyahıya daxil olmuşdur. 2022-ci il üçün universitet reytinq sistemində dünyanın 1000-dən çox nüfuzlu universitetləri arasında 903-cü yerdə, ölkə üzrə isə 2-ci yerdə qərarlaşmışdır.

Qeyd olunan reytinqlərin zəif olması, ATM-də reytinq-formaşdıran meyarların detallı təhlilini və ardıcıl olaraq reytinqlərin yüksəldilməsi tədbirlərinin hazırlanmasını zəruri edir.

Universitetin beynəlxalq əlaqələrinin inkişaf istiqamətlərinin iş planında ayrıca fəsildə yerləşdirilərək icrası üzrə monitorinq prosedurunun formalaşdırılması tövsiyə edilir.

### *7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

#### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

ATM tərəfindən beynəlmiləlləşmə siyasətinin icrasına, beynəlxalq əlaqələrin inkişaf etdirilməsinə, ATM-in beynəlxalq akkreditasiyası, universitetin tanıdılması, beynəlxalq təhsil sərgilərində iştirak, xarici mütəxəssislərin tədrisə cəlbi, akademik və inzibati heyətin ezamiyyətlərinin təşkili, internet resursları və reytinq cədvəllərində yer almaq üçün məlumat bazalarına çıxış məqsədilə daxili büdcədən vəsaitin ayrılması Özünütəhlil Hesabatında qeyd edilmişdir. Digər maliyyə mənbələri qismində Avropa Birliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və digər yerli və beynəlxalq Donor təşkilatlar və şirkətlər tərəfindən ayrılan qrant və digər vəsaitlər sahə baxışı zamanı bildirilmişdir.

*ATM-də sahə baxışı zamanı sözügedən fəaliyyət istiqaməti üzrə ayrılan vasaitin universitetin ümumi gəlirindəki payı və bu payın illər üzrə dinamikası, donor təşkilatlar tərəfindən ayrılan vəsaitlə müqayisəli təhlili barədə hər hansı hesabat təqdim edilməmişdir.*

#### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

ATM-də beynəlmiləlləşmə siyasətinin icrasına ayrılmış insan resursları qismində Xarici əlaqələr, Strateji planlaşdırma, Elmi-tədqiqat şöbələri, İctimaiyyətlə Əlaqələr və Marketinq mərkəzi, Əcnəbi Vətəndaşların Hazırlığı Fakültəsi, Əcnəbi Tələbələrin Təhsili Dekanlığı əməkdaşlarını qeyd etmək olar. Bu struktur bölmələrdə fəaliyyət göstərən əməkdaşlar vəzifə fəaliyyətlərinə uyğun olaraq beynəlmiləlləşmə siyasətinin icrasında iştirak edirlər.

Beynəlmiləlləşmə siyasətinin fakültələrdə icrasının effektiv təşkili məqsədilə AzMİU rektorunun dərkənarı ilə imzalanmış 90/b-m saylı, 29.06.2021-ci il tarixli əmrə əsasən fakültələr üzrə təyin olunmuş koordinatorlar fəaliyyət göstərir. Həmin koordinatorların təyinat olunmaq üçün seçiminin hansı təşkilat tərəfindən həyata keçirilməsi bəlli deyildir. Bu prosesin inklüziv qaydada həyata keçirilməsi və bu zaman koordinatorların beynəlmillələşmə siyasətinə yararlılığı, xarici dil hazırlığı və ümumən bu sahədə təcrübəsi nəzərə alınmalıdır. Koordinatorların öz fəaliyyətini şəffaflıq, inklüzivlik, ədalətlilik əsasında həyata keçirilməsi üçün müvafiq yazılı təlimat və ya nəzarət mexanizmini təşkil edən sənəd aşkar edilməmişdir.

Beynəlmiləlləşmə siyasətinin icrasına ayrılmış insan resurslarının fəaliyyətinə qiymət verilməsi zamanı differensiallaşmış yanaşmanın tətbiqi, qeyd olunan istiqamətdə əldə olunan nəticələrin təhlili əsasında həvəsləndirilməsi tövsiyə ediilir.

**7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti**

Beynəlmiləlləşmə siyasəti universitetin aidiyyəti şöbə və mərkəzləri tərəfindən universitet rəhbərliyinin nəzarəti altında, Elmi şuranın qərarları əsasında icra olunur. Eyni zamanda, perspektivdə qarşıya qoyulan hədəflərə nail olunması üçün aidiyyəti şöbə və mərkəzlərin əməkdaşlarının bilik və bacarıqlarının daha da artırılması, bu sahədə beynəlxalq təcrübəyə əsasən quruması və qarşıdakı illərdə hədəflərə uyğun ştat vahidinin tədricən genişləndirilməsi tövsiyə olunur. Bundan əlavə, beynəlmiləlləşmə siyasətinin effektiv həyata keçirilməsi üçün saytda mübadilə proqramları barədə daha müfəssəl məlumatların müxtəlif xarici dillərdə yerləşdirilməsi, tələbə və akademik heyətin geniş və çevik məlumatlandırılması üçün müasir mobil tətbiqlərdən istifadə edilməsi, tərəfdaş universitetlərlə birgə araşdırmaların aparılması üçün müasir avadanlıqlarla təhciz edilmiş elmi və tədris laboratoriyalarının yaradılması tövsiya edilir.

**7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti**

Resursların monitorinqi və qiymətləndirilməsi beynəlmiləlləşmə istiqamətindən asılı olaraq universitet rəhbərliyi, eləcə də Elm və Təhsil Nazirliyi tərəfindən aparılır. Universitet rektorluğunun iclaslarında və Elmi şurasında müzakirə edilir. Resursların cəlbi və monitorinqi ilə bağlı bütün məsələlər "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na, bu proqram çərçivəsində "Beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisas proqramlarının və təhsil səviyyəsinin seçim Qaydaları", "Beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin müəyyənləşdirilməsi Qaydaları"na əsasən həyata keçirilir. Monitorinqlərin nəticələri barədə məlumatlar illik hesabatlara əlavə edilir və Beynəlxalq əlaqələr üzrə prorektora təqdim edilir, qənaətbəxş hesab edilmədiyi təqdirdə rektora məruzə edilir və Elmi şurada müzakirəyə çıxarılır.

***7.4 Beynəlmiləlləşmə performansı***

**7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti**

Universitet beynəlmiləlləşmə sahəsində öz əsas fəaliyyətindən biri kimi İkili diplom proqramlarının yaradılması və inkişaf etdirilməsini həyata keçirmişdir.

Avropa və MDB ölkələri, Türkiyə, Rusiya və başqa ölkələrin 100-ə yaxın yüksək nüfuza malik elm və təhsil müəssisələri, təşkilatları, beynəlxalq qurumları ilə birbaşa əlaqələr yaradılmış, birgə layihələrin hazırlanması, elmi-tədqiqat fəaliyyətinin həyata keçirilməsi, yay məktəblərinin, digər tədbirlərin təşkili, fakültə və ixtisasların beynəlxalq akkreditasiyası kimi bir çox məsələlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Təhlillər göstərir ki, ATM-in xarici və beynəlxalq təhsil müəssisələri ilə çoxsaylı ikitərəfli müqavilələr, ikili diplom protokolları imzalamasına baxmayaraq, hazırda cəmi beş xarici universitetlə ikili diplom proqramı həyata keçirilir.

ATM-in akademik və inzibati heyəti, eləcə də tələbə və tədqiqatçıları Avropa Birliyinin Erasmus-Mundus, Erasmus+, Mövlanə mübadilə proqramı, Orhun mübadilə proqramı, ikitərəfli əməkdaşlıq müqavilələri çərçivəsində İspaniya, Litva, Portuqaliya, Fransa, İtaliya, Polşa, Almaniya, Türkiyədə dərs demiş, təcrübə mübadiləsi aparmış, elmi-tədqiqat işi yerinə yetirmiş və təhsil almışdırlar. Müvafiq olaraq xarici mütəxəssis və tələbələr də bu mübadilə proqramları çərçivəsində AzMİU-da təlim-tədris prosesi ilə tanış olmuşlar. 2015-2022-ci illərdə ATM maddi-texniki bazanın, eləcə də kurikulumların müasirləşdiriməsini nəzərdə tutan, innovasiyaları, təcrübələrin mübadiləsini dəstəkləyən Erasmus+KA2 strateji tərəfdaşlıq layihələrində iştirak etmişdir. ATM-in öz fəaliyyətində qlobal iqlim dəyişmələri ilə mübarizə üzrə tikinti, su təsərrüfatı, şəhərsalma kimi sahələrin iqlim dəyişmələrinə uyğunlaşması, Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi, 4-cü sənaye inqilabının texnoloji yeniliklərinin ölkəmizdə implementasiyası üzrə birgə araşdırmalar, müvafiq sahədə mütəxəssis hazırlığı kimi məsələlərdə tərəfdaş qurumların təcrübəsinin öyrənilməsinə xüsusi diqqət ayırması tövsiyə edilir.

ATM-də 2015-2022-ci illərdə Almaniyanın, Amerikanın, Türkmənistanın, Fransanın Azərbaycandakı səfirliyinin nümayəndələri, İordaniya Krallığının, Meksikanın, Bolqarıstanın, Türkmənistan, Meksika, Türkiyə, İraq, İordaniya, Slovakiya, Çexiya, Polşa, və İspaniyanın ölkəmizdəki xarici ölkə səfirliklərinin nümayəndələri və səfirləri ilə də məhsuldar görüşlər keçirildiyi, ölkələr arasında elm, təhsil və mədəni əlaqələrin inkişafı istiqamətində əməkdaşlığın qurulması yollarının müzakirə edildiyi qeyd edilmişdir. *Bununla əlaqədar, Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici diplomatik nümayəndəliklərin sayı ilə müqayisədə yeddi il ərzində cəmi 15 ölkənin diplomatı ilə görüşün keçirilməsi, Avropa Birliyinin ölkəmizdəki Nümayəndəliyi, BMT-nin əlaqədar qurumları (UNDP, UNİCEF və s.), digər beynəlxalq təşkilatlarla, habelə təhsil proqramlarının maliyyələşdirilməsi üzrə British Council, KOİCA, ADB, Dünya Bankı, İFC, EBRD və digər nüfuzlu təşkilatlarla heç bir əməkdaşlıq əlaqələrinin qurulmaması bu sahədə fəaliyyətin da intensivləşdirilməsinə ehtiyac olduğunu göstərir. Bundan əlavə, ölkəmizdəki diplomatik korpus nümayəndələri ilə görüşlərin konkret ölçüləbilən nəticələri barədə məlumat təqdim edilməmişdir.*

ATM-də beynəlmiləlləşmə siyasətinə uyğun həyata keçirilən fəaliyyətlərin nəticələrinin dinamikasına nəzarət mexanizmi olaraq, hazırda Xarici əlaqələr şöbəsi, Strateji planlaşdırma şöbəsi, Keyfiyyətə nəzarət mərkəzi, fakültə dekanlıqları və kafedralar, Beynəlxalq əlaqələr üzrə prorektor, Elm və İnnovasiya məsələləri üzrə prorektor, İqtisadi və təsərrüfat işləri üzrə prorektor və universitetin rektoru tərəfindən həyata keçirilən nəzarət funksiyalarını qeyd etmək lazımdır. Belə ki, mümkün neqativ

məqamların aradan qaldırılması üzrə yuxarı instansiyar tərəfindən verilmiş göstərişlər icra olunaraq, illik hesabatlara daxil edilir və yuxarı instansiyalar tərəfindən təsdiq edilir.

Eyni zamanda, əldə olunmuş nailiyyətlər universitet mətbuatında işıqlandırılır, müvafiq fakültə və kafedralar arasında təşviq olunur, növbəti fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, daha səmərəli fəaliyyətin təşkili üçün təkliflər alınır. Əldə olunmuş nəticələr universitetin Elmi şurasında dövri və illik hesabatlar şəklində müzakirə olunur.

### 7.4.2 Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

Beynəlmiləlləşmə prosesinin sürətləndirilməsi və səmərəli təşkili məqsədilə aşağıdakı fəaliyyətlərin həyata keçirilməsi göstərilmişdir:

- Universitetlərarası əməkdaşlıq çərçivəsində xarici mütəxəssisləri AzMİU-da tədrisə cəlb etmək, eləcə də xaricdə uzunmüddətli ixtisasartırma proqramında iştirak edəcək AzMİU müəllimləri üçün maliyyələşmə mexanizminin müəyyənləşdirilməsi;
- Müəllim, tələbə və tədqiqatçıların beynəlxalq mübadilə proqramlarında, peşəkar inkişaf proqramlarında iştirakı üçün dil biliklərinin artırılması;
- Yeni ikili diplom proqramlarının icrası üçün əməkdaşlığın inkişaf etdirilməsi;
- Birgə təhsil, tədqiqat və qrant layihələrinə müraciət etmək üçün universitetdaxili qurumlarla əməkdaşlığın təşviqi, prioritet mövzuların təyin edilməsi;
- Təhsil şirkətləri ilə əməkdaşlığın təşviqi, strarteji əhəmiyyətli xarici təhsil sərgilərinin müəyyənləşdirilməsi və burada iştirak üçün maliyyələşmənin həyata keçirilməsi istiqamətində təkmilləşdirmə fəaliyyətləri.

Eyni zamanda, beynəlmiləlləşmə prosesində ehtiyacəsaslı təkmilləşdirmə üzrə hər hansı fəaliyyəti həyata keçirmək üçün bu sahədə ilk öncə ehtiyacların öyrənilməsi, araşdırılması, müzakirəsi və sənədləşdirilməsi mexanizminin qurulması tövsiyə edilir. Belə ki, ATM-də təlim-təhsil, elmi-tədqiqat prosesinə cəlb edilmiş bütün maraqlı tərəflərin beynəlmiləlləşmə prosesində ehtiyacəsaslı təkmilləşdirmə prosesinə cəlb edilməsi vacibdir. Bunun üçün isə müvafiq sorğuların keçirilməsi, ehtiyacların öyrənilərək qruplaşdırılması, onların ATM-in strukturunda aşağı səviyyədən yuxarıya doğru inklüziv formatda müzakirə prosesdurunun həyata keçirilməsi tövsiyə edilir. Nəticə etibarilə, bu qayda ilə ATM-in SİP-a, beynəlmiləlləşmə strategiyası, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” və “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” və digər normativ aktlara uyğun şəkildə ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin müəyyən edilərək sənədləşdirilməsi və Elmi şurada təsdiq edilməsi tövsiyə edilir.

## Komissiyanın istiqamətlər üzrə təhlili

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | 1. 2021-2025-ci illər üzrə SİP-in işlənməsi zamanı SWOT təhlilin yerinə yetirilməsi, güclü tərəflərin, zəif tərəflərin, təhlükələr və imkanların müəyyənləşdirilməsi.<br>2. SİP-in hazırlanmasında maraqlı tərəflərin cəlb olunması.<br>3. AzMİU-da qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının mövcudluğu.<br>4. Universitetin missiya və vəzifələri barədə ictimaiyyətin mütəmadi olaraq məlumatlandırılması.<br>5. AZMİU-nun strateji inkişaf planının şərti olaraq bir neçə strateji istiqamətlərə bölünməsi: Təhsil, elmi-tədqiqat, beynəlxalq əlaqələr, kadr potensialının inkişafı strategiyası, maddi-texniki bazanın inkişafı.<br>6. SİP-də AzMİU-nun təhsil, elm, sosial-iqtisadi həyatının daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı təhsil, elmin inkişafının təmin edilməsi, sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. əks olunması. |
| **Zəif tərəflər** | 1. SİP-in yazılması və SİP-in həyata keçirilməsi üzrə fəaliyyət planının hazırlanması zamanı beynəlxalq ekspertlərin cəlb olunmaması.<br>2. AzMİU-nun 2015-2020-ci illər üzrə SİP-ində missiya və vizyonun tam aydın göstərilməməsi, SİP-in strateji hədəflərdən başlaması. 2021-2025 -ci illər üzrə SİP-də universitetin missiyası və vizyonunun aydın şəkildə ayrı-ayrılıqda verilməməsi.<br>3. AzMİU-nun SİP-ində müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğunun dəqiq müəyyənləşdirilməsində çətinliyin olması.<br>4. SİP-in hazırlanması və icrası cədvəlində Nəticə (məqsəd) indikatorunun, SİP üzrə fəaliyyət nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməməsi.<br>5. SİP-də maliyyə-iqtisadi strategiyanın əks olunmaması. |

| | |
|---|---|
| | 6. SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün maliyyə resurslarının ayrılmaması və maliyyə təminatının AzMİU-nun büdcə planlaşmasında nəzərə alınmaması.<br>7. 2021-2025-ci illər üzrə SİP-də universitetin strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas hədəflər müəyyən olunsa da, əsas məqsədlərin aydın şəkildə ayrı-ayrılıqda istiqamətlər üzrə ifadə edilməməsi.<br>8. Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınmasının əsasən uyğun olması.<br>9. SİP-in icrası üzrə AzMİU-nun struktur bölmələrinin müəyyən edilməsinin əsasən uyğun olması. |
| **İmkanlar** | 1. AzMİU-nun strateji inkişafında maraqlı tərəflərin olması.<br>2. Fəal Tələbə ictimai təşkilatlarına malik olması.<br>3. AZMİU-nun strateji inkişafının şərti olaraq bir neçə strateji istiqamətlərə bölünməsi nəticəsində təhsil, elmi-tədqiqat, beynəlxalq əlaqələr, kadr potensialının inkişaf strategiyası, maddi-texniki bazanın inkişafında əldə olunan müsbət nəticələr. |
| **Təhdidlər** | 1. SİP üzrə aşkarlanmış nöqsanların ümumilikdə universitetin gələcəyə baxışını müəyyənləşdirdiyi üçün tədrisin keyfiyyətinə birbaşa və ya dolayı yolla təsiri vardır.<br>2. Elmi-eksperimental bazanın zəifliyi.<br>3. Elmi dərəcəsi olan müəllimlərin sayının azalması. |
| **Komissiyanın tövsiyəsi** | 1. SİP-in uğurla həyata keçirilməsi üçün onu təşkil edən missiya və vizyonu, əsas strateji məqsədi və müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğunun müəyyənləşdirilməsi, əsas məqsədlərin aydın şəkildə ayrı-ayrılıqda istiqamətlər üzrə ifadə edilməsi, SİP-in ictimai dəstək qazanması və reallaşmasını təmin edən effektiv icra mexanizminin formalaşdırılması;<br>2. Maraqlı tərəflərin (professor-müəllim heyəti, təhsilalanlar və işəgötürənlər) iştirakını təmin edərək müxtəlif müzakirələr və görüşlər həyata keçirməklə AzMİU-nun uzunmüddətli strateji inkişaf planının hazırlanması;<br>3. SİP-in yerinə yetirilməsi üçün AzMİU-nun struktur bölmələrinin müəyyən edilməsi;<br>4. SİP-in hazırlanması və icrası cədvəlində Nəticə (məqsəd) indikatorunun, SİP üzrə fəaliyyət nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməsi; |

| | |
|---|---|
| | 5. SİP-də AzMİU-nun elm, təhsil və innovativ sahələrdə cari fəaliyyəti və strateji inkişafı üçün davamlı maliyyə və maddi dəstək məqsədinə cavab verən maliyyə-iqtisadi strategiyasının hazırlanması;<br>6. SİP-in maliyyə təminatının AzMİU-da büdcə planlaşmasında nəzərə alınması;<br>7. AzMİU-nun aidiyyəti struktur bölmələri tərəfindən yarımillik hesabatların təqdim olunması;<br>8. AzMİU-nun strateji istiqamətlərinin və bundan irəli gələn strateji hədəflərin konkret, ölçülə bilən, real və dövrün tələblərinə uyğun olmasını müəyyən etmək üçün Strateji istiqamətlər üzrə monitorinqlər və müzakirələrin intensivliyinin artırılması;<br>9. SİP-in yazılması və SİP-in həyata keçirilməsi üzrə fəaliyyət planının hazırlanması zamanı beynəlxalq ekspertlərin cəlb olunması. |

| **2. Keyfiyyət təminatı** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Universitetdə Keyfiyyətə nəzarət mərkəzinin olması.<br>2. “Keyfiyyətin təminatı siyasəti” sənədinin olması.<br>3. “Keyfiyyətin təminatı siyasəti”nin hər kəsə əlçatanlığı.<br>4. Keyfiyyət mədəniyyətinin formalaşdırılması.<br>5. ATM rəhbərliyinin keyfiyyət təminatının formalaşdırılmasına dəstəyi.<br>6. Maraqlı tərəflərin, işəgötürən nümayəndələrinin və tələbələrin sorğulara cəlb olunması. |
| **Zəif tərəflər** | 1. Keyfiyyətə nəzarət mərkəzində əməkdaşların sayının az olması.<br>2. Sorğuların semestrdə bir dəfə keçirilməsi.<br>3. Keyfiyyətə nəzarət mərkəzi ilə yanaşı, universitetdə eyni funksiyalara malik Nəzarət Şurasının yaradılması səbəbindən keyfiyyət təminatı sistemində uyğunsuzluğun mövcud olması.<br>4. Daxili keyfiyyət sistemin tədbirlərində məsul şəxslərin adlarının göstərilməməsi, addımlar üzrə məsuliyyətlərin müəyyən edilməməsi və səlahiyyət bölgüsünün aparılmaması.<br>5. Sorğuların təhlilindən meydana çıxan çatışmamazlıqların aradan qaldırılmasının protokollaşdırılmaması və hesabatlarda öz əksini tapmaması. |

| | |
|---|---|
| | 6. "Online müraciət" bölməsi ilə təklif və iradların yalnız e-mail vasitəsilə göndərilməsinin mümkünlüyü, anonimliyin qorunmaması və onlayn formaların olmaması.<br>7. Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması zəif olması.<br>8. Keyfiyyətin təmin olunmasında universitetin fakültələri arasında fəaliyyətin koordinasiyası mövcud olsa da bəzi mərkəzlər və struktur bölmələr ilə koordinasiyanın zəif olması. |
| **İmkanlar** | 1. Mövcud professor-müəllim potensialı.<br>2. Professor-müəllim heyətinin mübadilə proqramlarında iştirakı.<br>3. Professor-müəllim heyətinin xarici dil və informasiya texnologiyaları üzrə bilikləri.<br>4. Rəqəmsal tədris resurslarının formalaşdırılması.<br>5. Auditoriyalarda tədrisin müasir tələblərini ödəyən texniki vasitələr.<br>6. Tədrisin keyfiyyətini artırmaq məqsədilə dərslərin məzmunca müasir tələblərə uyğunlaşdırılması, texnika və texnologiyaların yeni nailiyyətlərindən istifadə.<br>7. Tədris proqramlarının məzmununun müasir tələblərə uyğunlaşdırılması.<br>8. İxtisas fənnləri üzrə tədris-metodiki bazanın yenilənməsi və təkmilləşdirilməsi.<br>9. Hər bir ixtisas üzrə daxili və xarici qiymətləndirmənin aparılması.<br>10. Xarici universitetlərlə əməkdaşlıq əlaqələrinin genişlənməsi. |
| **Təhdidlər** | 1. Maddi-texniki bazanın zəif olmasının təhsilin keyfiyyət səviyyəsinə mənfi təsiri.<br>2. Universitetin tədris-laboratoriya bazasının zəif olmasının kadr hazırlığına mənfi təsiri.<br>3. İxtisaslar üzrə təhsilin məzmununun Avropa təhsil sisteminin standartlarına uyğun olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Keyfiyyətə nəzarət mərkəzinin genişləndirilməsi, ən azı 3-4 mütəxəssisin cəlb olunması.<br>2. Keyfiyyətə nəzarət şurasının fəaliyyətinin dayandırılması.<br>3. ATM-in struktur bölmələri arasında koordinasiyanın möhkəmləndirilməsi.<br>4. Universitetin tədris-laboratoriya bazasının inkişaf etidirlməsi.<br>5. İxtisaslar üzrə təhsilin məzmununun Avropa təhsil sisteminin standartlarına uyğun olaraq təkmilləşdirilməsi.<br>6. Gənc müəllimlərin elmi potensialının və pedaqoji bacarıqlarının artırılması üçün tədbirlərin görülməsi. |

| | |
|---|---|
| | 7. İnformasiya texnologiyalarının və innovativ tədris metodlarının tətbiqinin genişləndirilməsi.<br>8. Rəqəmsal tədris resurslarının təkmilləşdiriməsi. |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Universitetdə təhsil standartlarının tələblərinə uyğun tələbə qəbulu, o cümlədən qabiliyyət imtahanlarının keçirilməsi sisteminin mövcudluğu.<br>2. Əmək bazarının tələblərinə uyğun olaraq, həm bakalavriat, həm də magistratura səviyyəsində müasir ixtisaslar üzrə tələbə qəbulunun həyata keçirilməsi və qəbul planının ilbəil artması. Təhsil proqramları yenilənərkən bütün ixtisaslar üzrə istehsalat nümayəndələrinin iştirakı ilə işçi qrupların yaradılması, onlar tərəfindən monitorinqin aparılması, rəy və təkliflərin nəzərə alınması.<br>3. Universitetdə tədris prosesi ilə bağlı sənədlərlə işin sistemli həyata keçirilməsi, tələbə və məzunlarla işin təşkili üçün kompüter proqramlarının fəal tətbiqi.<br>4. İşəgötürənlərin nümayəndələri ilə sıx əlaqələrin olması, ixtisasların təhsil proqramlarının hazırlanması və qiymətləndirilməsinə onların cəlb edilməsi.<br>5. İxtisaslar üzrə tədris planlarının Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) tələbləri çərçivəsində hazırlanması.<br>6. İxtisaslaşmış tədris laboratoriyalarının və kompüter sinflərinin mövcudluğu, bəzi tədris laboratoriyalarının müasir avadanlıqlarla təchiz olunması. Laboratoriya bazalarının yenilənməsində və ya yaxşılaşdırılmasında universitetin öz vəsaitləri ilə yanaşı, tərəfdaş şirkət və müəssisələrin (BP, Knauf, Paşa inşaat, Almaniyanın “Wilo SE”, Avstriyanın “Herz armaturen”, Almaniyanın “GeoClimaDesing AG”, Fövqaladə Hallar Nazirliyi, Holcim Azərbaycan, Meliorasiya və Sutəsərrüfatı ASC, Akkord İstehsalat Birliy, Azərsu ASC, Təmiz Şəhər ASC və s.) maliyə dəstəyindən istifadə olunması.<br>7. Magistratura və bakalavriat səviyyələrində təcrübələrin ixtisaslara uyğun müəssisələrdə, habelə respublikanın regionlarında keçirilməsi. |

| | |
|---|---|
| | 8. İmtahanların kompüterləşdirilmiş imtahan zallarında mərkəzləşdirilmiş şəkildə test üsulu ilə keçirilməsi imkanlarının reallaşdırılması.<br>9. Universitetin Azərbaycanda memarlıq və inşaat sahələri üzrə kadr hazırlayan ən nüfuzlu universitet olması.<br>10. Universitetin yüksək reytinqli xarici universitetlərin müvafiq fakültələri ilə əməkdaşlıq əlaqələrinin olması. İkili diplom proqramlarının mövcudluğu.<br>11. Memarlıq fakültəsinin memarlıq sahəsində nüfuzlu Britaniya Memarlarının Kral İnstitutunun (RİBA) 5 illik akkreditasiyasını alması.<br>12. Bütün fakültələrdə ingilis dilində tədrisin olması.<br>13. ATM-də “Təcrübə və Karyera” Mərkəzinin ayrıca bir struktur bölmə kimi fəaliyyət göstərməsi, onun əsasnaməsinin universitetin Nizamnaməsi, habelə qanunvericilik əsasında tənzimlənməsi və universitetin strateji inkişaf proqramına uyğun tərtib edilməsi.<br>14. Mərkəzdə “Məzun məlumat bazası”nın, tələbə və məzunların “CV bazası”nın mövcud olması. |
| **Zəif tərəflər** | 1. İşəgötürənlərin nümayəndələri keçirilən görüşlərin, onların təklif və tövsiyələrinin rəsmiləşdirilmə-məsi.<br>2. Bəzi tədris planlarında auditoriya və auditoriyadan kənar saatların bölgüsündə ümumi yanaşma-nın mövcud olmaması.<br>3. Fənlər üzrə tələbələrə sərbəst işlərin verilməsində standart yanaşmanın olmaması.<br>4. Son illərdə kredit borcu yaranmış fənlərin ümumi sayının artması.<br>5. Universitetin maddi-texniki bazasının təhsilalanların sayına nisbətdə uyğunluq təşkil etməməsi. Ağıllı lövhələrin və proyektorların say olaraq yetərincə olmaması. Tədrisdə müasir lisenziyalı program təminatlarından az istifadə olunması.<br>6. Kitabxananın müasir tələblərə cavab verməməsi, oxu zalının tələbə sayına nisbətinin uyğun olmaması.<br>7. Dərslərdə innovativ və interaktiv tədris metodlarından lazımi səviyyədə istifadə edilməməsi.<br>8. Sağlamlıq imkanları məhdud insanların təhsilə cəlb olunması üçün müvafiq infrastrukturun olmaması. |

| | |
|---|---|
| | 9. Bütün məzunlardan kiçik bir hissəsinin (1500 nəfərlik) “Məzun məlumat bazası”nda yer alması və bu bazanın genişlənməsi üçün Təcrübə və Karyera” Mərkəzi”ndə yetərli sayda personalın (cəmi 4 nəfər) olmaması, bu məsələyə tələbə və gənc əməkdaşların cəlb edilməməsi. |
| **İmkanlar** | 1. Tədris prosesinin daha keyfiyyətli təşkili üçün işəgötürənlərin cəlb olunması.<br>2. İstehsalat şirkətləri ilə birgə tədris prosesində müxtəlif layihələrin icrası.<br>3. Qarabağ bölgəsində inşaat və memarlıq şirkətləri ilə birgə mühüm layihələrin həyata keçirilməsi.<br>4. AzMİU-nun Qarabağın işğaldan azad edilmiş ərazilərinin yenidən qurulması və bərpası üçün mütəxəssis hazırlığında lider müəssisələrdən biri olması.<br>5. Memarlıq fakültəsində tələbələrin beynəlxalq səviyyəli layihə yarışmalarına qatılmasına töhvə verə biləcək kadr potensialı mövcudluğu.<br>6. Universitetin ölkənin memarlıq və inşaat sektoru üçün bilikli mütəxəssislərin yetişdirilməsi üçün professor-müəllim heyətinin bilik və bacarıqlarını inkişaf etdirmək imkanına malik olması.<br>7. Ölkədaxili və xarici şirkətlərlə işgüzar əlaqələrin mövcud olması.<br>8. ATM-in Özünütəhlil Hesabatında qeyd edilən tələbələrə CV hazırlamaq, iş müsahibəsinə hazırlaşmaq kimi məsələlərdə ixtisaslaşmış konsaltinq şirkətlərinin də xidmətlərindən mütəmadi istifadə edilməsi.<br>9. TKM-də universitetin məzunlarını birləşdirən qurumun (məsələn, Alumni Təşkilatı və ya Klubu) yaradılması tələbələrin əmək bazarına inteqrasiyasına yardım edə bilməsi.<br>10. Universitetin karyera, sahibkarlıq cəhətdən uğurlu məzunlarından ibarət “Alumni Klub“un yaradılması və onların iştirakı ilə tələbələr üçün hər ay “Uğur Hekayəsi“ mövzulu mühazirələrinin təşkili TKM-in nəticələrini gücləndirə bilməsi.<br>11. ATM-in tələbələrinin əmək bazarında öz ixtisaslarına uyğun olan vakansiyalarla bağlı tələblərlə tanışlıq və daha sonra qarşıdakı təhsil illərində uyğun bacarıqlara, konkret biliklərə və vərdişlərə yiyələnmələrin üçün vaxt əldə etmək məqsədilə istehsalat təcrübəsinin ilkin olaraq aşağı kurslarda təşkili.<br>12. “Məzun məlumat bazası”nın mütəmadi yenilənməsi məsələsinə hazırkı fəal tələbələrin və ya tələbə cəmiyyətlərinin aktiv nümayəndələrinin cəlb edilməsi. |

| | |
|---|---|
| **Təhdidlər** | 1. Texniki vasitələrin yetərincə olmamasının tədris prosesinə mənfi təsir göstərməsi.<br>2. Memarlıq və inşaat ixtisaslarının ölkə daxilində mövcud olan universitetlərində də açılması obyektiv və subyektiv səbəblərdən kadrların yerdəyişməsinə gətirib çıxaracağı.<br>3. AzMİU-nun maddi-texniki bazasının aşağı olması gənc və orta yaşlı mütəxəssislərin digər universitetlərdə, eləcə də xarici universitetlərdə çalışmağa üstünlük verməsinə səbəb olması.<br>4. Kafedralarda bəzi müəllimlərin İKT biliklərinin kifayət qədər olmaması tədrisin müasir metodlarla aparılmasına imkan verməməsi.<br>5. Təcrübəçi tələbələrin əmək bazarına hazırlıq səviyyəsinin qiymətləndirilməsi və bunun əsasında təhsil proqramlarında, kreditlərin sayında, əsas və əlavə fənlərin proqramlarında və digər müvafiq sənədlərdə müvafiq dəyişikliklərin edilməsi mexanizminin müəyyən edilməməsi.<br>6. Məzunların işlə təmin olunma faizinin universitetin Özünütəhlil Hesabatında təqdim olunmuş göstəricidən aşağı olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Universitetin büdcə və ya sponsorlar vasitəsi ilə lazımi avadanlıqlarla təmin edilməsi.<br>2. Tədrisin keyfiyyətinin yüksəldilməsi üçün İKT vasitələrinin tələbə sayına uyğunlaşdırılması.<br>3. Dərslərin innovativ və interaktiv metodlarla aparılması üçün auditoriyaların xüsusi avadanlıqlarla təchiz edilməsi.<br>4. Fakültələrdə mövcud ixtisasdaxili fənlərin bir-biri ilə tədris-metodoloji cəhətdən sinxron şəkildə tədrisnin təşkili.<br>5. Kitabxananın fəaliyyətinin müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, Kitabxana-informasiya xidmətinin yaradılması.<br>6. Sağlamlıq imkanları məhdud tələbələr üçün infrastrukturun yaradılması.<br>7. Təhsil proqramlarının hazırlanmasında əmək bazarı nümayəndələrinin cəlb edilməsinin sistemli şəkildə həyata keçirilməsi.<br>8. Nəzəriyyə ilə təcrübə arasında qarşılıqlı tənzimləmə mexanizmlərinin daha düzgün idarə olunması, daha keyfiyyətli, daha etibarlı və daha innovativ təhsilin təşkil edilməsi üçün universitetin texnoparkının yaradılması.<br>9. Universitetdə istehsalat təcrübələrinin təşkilinin keyfiyyətini müəyyən etmək üçün təcrübə keçən tələbələr arasında müvafiq sorğuların anonim keçirilməsi və sənədləşdirilməsi. |

| | |
|---|---|
| | 10. Tələbələrin təcrübə keçdiyi müəssisələrdə tələbələrin ixtisasına uyğun bilik və bacarıqlarının əmək bazarının tələblərinə uyğunluğu barədə işəgötürənlərin nümayəndələri arasında sorğuların keçirilməsi və sənədləşdirilməsi.<br>11. Tələbə və məzunlarla effektiv əlaqə sisteminin qurulması üçün müasir CRM (Customer Relations Management) platformlarının imkanlarından istifadə olunması. |

| **4. Elmi tədqiqat** | |
|---|---|
| **Güclü tərəflər** | 1. AzMİU tərəfindən maliyyələşdirilən 8 elmi-tədqiqat laboratoriyasının fəaliyyət göstərməsi.<br>2. Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin edilməsi məqsədilə Web of Science bazasından olan Q1, Q2, Q3,Q4 kvartillərində mövcud jurnallarda nəşrlərə görə mükafatların təsis edilməsi və differensiyasiyalı əməkhaqqı sisteminin yaradılması.<br>3. Universitetdə 5 elmi jurnalın çap olunması.<br>4. Universitet tərəfindən beynəlxal və respublika səviyyəli elmi-praktik konfransların təşkili, digər ölkələrin universitetləri ilə birgə konfransların keçirilməsi.<br>5. Digər universitetlərlə, habelə xarici universitetlərlə elmi-tədqiqat sahəsində qarşılıqlı əməkdaşlığın təşkili və birgə elmi tədqiqatların aparılması.<br>6. Memarlıq və arxitektura sahəsində beyynəlxalq səviyyəli alim və mütəxəssislərin universitetlə əməkdaşlığa cəlb olunması.<br>7. Universitetin profilinə uyğun ixtisaslar üzrə dissertasiya şuralarının fəaliyyət göstərməsi. |
| **Zəif tərəflər** | 1. Ölkəmizin digər universitetləri, habelə xarici universitetlərlə geniş elmi-tədqiqat əlagələrinin olmaması.<br>2. Respublikada fəaliyyət göstərən digər universitetlər və sahəvi təşkilatlarla birgə elmi-tədqiqat seminarların keçirilməməsi.<br>3. Universitetin əsas elmi tədqiqat istiqamətlərinin beynəlxalq səviyyədə qəbul olunmuş müasir tendensiyalarla tam uzlaşmaması. |

| | |
|---|---|
| | 4. Müxtəlif istiqamətlər üzrə elmi tədqiqatların aparılmasında İKT-nin imkanlarından kifayət qədər istifadə olunmaması. |
| **İmkanlar** | 1. Ölkə daxilində olan universitet və şirkətlər ilə birlikdə müxtəlif elmi-tətqiqat və praktiki layihələrin həyata keçirilməsi.<br>2. Ölkənin memarlıq, arxitektura və inşaat sahəsində fəaliyyət göstərən dövlət və hökumət təşkilatları, özəl şirkətlər ilə əlaqələrin genişləndirilməsi, orada çalışan yüksək ixtisaslı mütəxəssislərin universitetdə elmi-pedaqoji fəaliyyətə cəlb olunması.<br>3. Universitetin doktorantları üçün elmi rəhbərlərin və elmi məsləhətçilərin xarici partnyor universitetlərdən cəlb edilməsi. |
| **Təhdidlər** | 1. Ölkə daxilində digər universitetlərlə elmi-tədqiqat əlaqələrinin zəif olması.<br>2. Universitetin elmi potensialının zəifləməsi.<br>3. Elmi dərəcəsi olan əməkdaşların iş yerlərini digər təşkilat və şirkətlərə, habelə xarici şirkətlərə dəyişməsi.<br>4. Universitetdə aparılan elmi tədqiqatların səviyyəsinin beynəlxalq səviyyədə aparılan tədqiqatlardan geri qalması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Ölkəmizin digər universitetləri, habelə xarici universitetlərlə geniş elmi-tədqiqat əlaqələrinin qurulması.<br>2. Universitetin əsas elmi-tədqiqat istiqamətlərinin beynəlxalq səviyyədə qəbul olunmuş müasir tendensiyalara uyğun dəqiq müəyyən edilməsi.<br>3. Universitetdə aparılan elmi tədqiqatların yerinə yetirilməsində İKT-nin imkanlarından daha geniş istifadə olunması.<br>4. Universitetin profilinə uyğun elmi tədqiqatların genişləndirilməsi və daha məqsədyönlü aparılması üçün ən yeni ixtisaslar üzrə elmi kadrların hazırlanmasının təşkili.<br>5. Beynəlxalq səviyyəli alim və mütəxəssislərin birgə elmi tədqiqatlara cəlb edilməsinin daha da genişləndirilməsi.<br>6. Universitetin vəsaitləri hesabına doktorantların xarici ölkələrə ezamiyyətlərə, ixtisasartırma kurslarına və s. göndərilməsi. |

| | |
|---|---|
| | 7. Alimlərin universitet hesabına xaricdə keçirilən beynəlxalq səviyyəli, nüfuzlu elmi-praktik konfranslara göndərilməsi. |
| **5. İdarəetmə sistemi** | |
| **Güclü tərəflər** | 1. Son illərdə universitetin idarə edilməsinin təkmilləşdirilməsi üçün əsaslı islahatların aparılması, yeni zəruri struktur bölmələrin yaradılması və optimallaşdırmanın həyata keçirilməsi.<br>2. Tələbə təşkilatlarının idarəetmə prosesində təmsil olunması.<br>3. Gənc, istedadlı, perspektivli və xarici ölkə universitetlərində təhsil almış şəxslərin tədris prosesinə cəlb olunmasının universitet rəhbərliyinin prioritetində olması;<br>4. AzMİU-da professor-müəllim heyətinin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması.<br>5. AzMIU-da Elektron universitet sisteminin yaradılması;<br>6. İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiyasının olması;<br>7. İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi;<br>8. ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması. |
| **Zəif tərəflər** | 1. AzMİU-nun Nizamnaməsi (2-ci redaksiyada) yenilənməməsi.<br>2. İdarəetmə orqanlarında işəgötürənlərin, maraqlı tərəflərin və ictimaiyyət nümayəndələrinin təmsil olunmaması.<br>3. AzİMU-da mərkəzləşdirilmiş monitorinq, təhlilaparma, qiymətləndirmə və proqnozlaşdırma sisteminin olmaması.<br>4. AzMİU-nun maliyyə stratgiyasının onun SİP-nə uyğunlaşdırılmaması.<br>5. AzMİU-da professor-müəllim heyətinin yaş tərkibinin 28%-nin 66 yaşdan yuxarı təşkil etməsi.<br>6. Professor-müəllim heyətinin, eləcədə əməkdaşların ixtisas kompetensiyaları və kvalifikasiyalarını artırmaq məqsədilə təlimlərə cəlb edilmənin intensivliyinin aşağı olması.<br>7. Maliyyə resurslarının orta müddətli dövr (3 və 5 illik) üçün planlaşdırılmaması. |

| | |
|---|---|
| | 8. Maliyyə resurslarının AzMİU-nun SİP-ə uyğunlaşdırılması fəaliyyətinin monitorinqinin həyata keçirilməməsi.<br>9. Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının zəif olması.<br>10. İctimaiyyətlə əlaqələr və Marketinq Mərkəzinin əsasnaməsinin hazırlanmaması. |
| **İmkanlar** | 1. AzMİU-nun strateji idarəetməsində keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi.<br>2. AzİMU-nun struktur bölmə rəhbərlərinin kvalifikasiya (peşəkarlıq) və kompetensiyalarının (səriştəsi) mövcud tələblərə uyğun olması.<br>3. AzMİU rəhbərliyi, professor-müəllim heyəti və təhsilalanlar arasında (formal və qeyri-formal) ünsiyyət üçün e-məktublaşma və vaxtaşırı görüşlər vasitəsilə şəraitin yaradılması.<br>4. Maddi-texniki baza, kadr potensialı, ixtisasartırma fakültəsi və s. əlavə maliyyə əldə etməyə imkan verməsi. |
| **Təhdidlər** | 1. İxtisasartırma və stajkeçmə kurslarında texnika və texnologiyanın sürətli inkişafının nəzərə alınmaması, professor-müəllim heyətinin ixtisas kompetensiyalarına və kvalifikasiyalarına mənfi təsir etməsi.<br>2. SİP-də nəzərdə tutulan hədəflərin icrasına nəzarətin zəifləməsi və tam icraya nail olunmaması.<br>3. AzMİU-nun saytında bəzi məlumatların qeyri-dəqiliyinin universitetin imicinə mənfi təsir etməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. AzMİU-nun Nizamnaməsinin yenilənməsi.<br>2. İdarəetmə orqanlarında işəgötürənlərin, maraqlı tərəflərin və ictimaiyyət nümayəndələrinin təmsil olunmasının təmin edilməsi.<br>3. AzİMU-da mərkəzləşdirilmiş monitoring, təhlilaparma, qiymətləndirmə və proqnozlaşdırma sisteminin yaradılması.<br>4. AzMİU-nun strateji idarəetməsində keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi.<br>5. AzMİU-da professor-müəllim heyətinin yaş həddinin aşağı salınması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi.<br>6. İxtisasartırma və stajkeçmə kurslarının təkmilləşdirilməsi.<br>7. Maliyyə resurslarının orta müddətli dövr üçün planlaşdırılması.<br>8. AzMİU-da maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-nə uyğunlaşdırılması vəziyyətinin təkmilləşdirilməsi. |

| | |
|---|---|
| | 9. Əlavə maliyyə resurslarının əldə etmək imkanlarını təkmilləşdirməsi.<br>10. İnformasiya idarəetmə sistemində tələbələrin davamiyyət limitini keçməsi yaxınlaşanda onların email ünvanlarına xəbərdarlıq məktubu göndərilməsinin təmin edilməsi.<br>11. İƏMM-in əsasnaməsinin hazırlanıb Elmi Şurada təsdiq edilməsi.<br>12. AzMİU-nun saytda məlumatların dəqiqliyinə diqqət yetirilməsi, universitetin akkreditasiyası, strateji inkişafı ilə bağlı məlumatların, eləcə də digər məlumatların çevik yerləşdirilməsinə nəzarətin artırılması. |

| **6. İnfrastruktur** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Tədris binaları və tədris auditoriyalarının müasir standartların tələblərinə cavab verməsi.<br>2. Elektron universitet sisteminin yaradılması.<br>3. Elektron kitabxananın yaradılması.<br>4. Auditoriya fondunun tələbələrin sayına uyğun olması.<br>5. Hər fakültənin audotoriya fondunun olması.<br>6. Universitetdə idman zallarının mövcud olması.<br>7. Universitetin qonaq evinin olması.<br>8. Bütün korpuslarda və ərazidə yeməkxana və bufetlərin olması. |
| **Zəif tərəflər** | 1. Bəzi laboratoriyalarda (fizika, kimya, kompüter) mövcud olan avadanlıqların müasir tələblərə tam cavab verməməsi.<br>2. Kompüter siniflərində kompüterlərin sayının azlığı, proqram-texniki səviyyəsinin aşağı olması.<br>3. Tədris korpuslarının, o cümlədən əksər auditoriyalarda olan kompüterlərin internetə çıxışla təmin edilməməsi, WiFi zonasının hamı üçün əlçatan olmaması.<br>4. Bir çox auditoriyaların müasir tədris-texniki vasitələrlə təchiz edilməməsi, mühazirə zallarının və digər auditoriyaların əksəriyyətində proyektorların olmaması.<br>5. Əsas tədris korpuslarının yüksək mərtəbəli olması. |

| | |
|---|---|
| | 6. Universitetin ənənəvi kitabxanasının infrastrukturunun çox zəif olması.<br>7. Sağlamlıq imkanları məhdud şəxslər üçün infrastrukturun olmaması<br>8. Sanitar qovşaqlarının müvafiq normativlərə cavab verməməsi;<br>9. Tibb məntəqəsində zəruri ləvazimatların çatışmamazlığı. |
| **İmkanlar** | 1. Universitetin kompüter təchizatının yaxşılaşdırılması. Bu məqsədlə donor təşkilatların imkanlarından istifadə edilməsi.<br>2. Yeni müasir kitabxana-informasiya xidmətinin qurulması, elektron kitabxanaın genişləndirilməsi.<br>3. Universitetin maddi-texniki bazanın yaxşılaşdırılmasında əməkdaşlıq etdiyi təşkilatların imkanlarından istifadə edilməsi. |
| **Təhdidlər** | 1. Tədris laboratoriyalarında olan köhnə avadanlıqların fənnin mənimsənilməsinə mənfi təsiri.<br>2. Universitetin tədris-laboratoriya bazasının zəif olmasının keyfiyyətli mütəxəssis yetişdirilməsinə mənfi təsiri.<br>3. Universitetin tədris korpuslarının yüksək olmasının təhlükəsizlik tələblərinə cavab verməməsi.<br>4. Universitetin infrastrukturunun qurulması zamanı sağlamlıq imkanları məhdud şəxslərin nəzərə alınmaması və bunun sonradan edilməsində çiddi çətinliklərin olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Laboratoriyaların (fizika, kimya, kompüter, və s.) müasir avadanlıqlarla təchizatının yaxşılaşdırılması.<br>2. Universitetin İKT Mərkəzinin genişləndirilməsi, proqramçı və şəbəkə inzibatçılarının işə cəlb olunması.<br>3. Laboratoriyaların (fizika, kimya, kompüter) daha müasir avadanlıqlarla təchiz edilməsi.<br>4. Məsafədən (onlayn) təhsil imkanlarının inkişaf etdirilməsi.<br>5. İnterneti bütün professor-müəllim heyəti və tələbələrə əlçatanlığının təmin edilməsi üçün giriş nöqtələrin (“access pointlərin”) quraşdırılması.<br>6. Kitabxananın yeni nəşr olunmuş kitablarla zənginləşdirilməsi, müasir texniki avadanlıqlarla təchiz edilməsi, elektron kitabxananın fəaliyyətinin və imkanlarının genişləndirilməsi.<br>7. Tələbə, professor-müəllim heyəti və inzibati işçilərin korporativ emaildən istifadə etməsi.<br>8. Tədris infrastrukturunun istifadəsinin monitorinqinin vaxtaşırı aparılması, nəticələrin təhlil edilməsi və çatışmazlıqların aradan qaldırılması işinin yenidən təşkil edilməsi. |

| | |
|---|---|
| | 9. Sağlamlıq imkanları məhdud şəxslər üçün universitetdə lazimi şəraitin yaradılması. |

| **7. Beynəlmiləlləşmə** | |
|---|---|
| **Güclü tərəflər** | 1. ATM-in SİP-ə uyğun tərtib edilmiş və 2019-2023-cü illəri əhatə edən Beynəlmiləlləşmə Strategiyasının mövcudluğu<br>2. Beynəlmiləlləşmə Strategiyasının icrasına tələb olunan təşkilati strukturun mövcudluğu.<br>3. Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinqi sisteminin mövcudluğu.<br>4. Tələbə mübadilə proqramlarının, o cümlədən ikili diplom proqramlarının icrasına başlanılması |
| **Zəif tərəflər** | 1. ATM-in üzv olduğu beynəlxalq təhsil şəbəkələri, habelə beynəlxalq təhsil təşkilatları və ayrı-ayrı xarici universitet və elmi-tədqiqat mərkəzlərinin əksəriyyəti ilə müxtəlif əməkdaşlıq müqavilələrinin böyük qisminin formal xarakter daşıması, reallıqda icra olunmaması.<br>2. ATM-in mübadilə proqramlarının genişlənməsi, əcnəbi tələbələrin, o cümlədən əcnəbi professor-müəllim heyətinin universitetə cəlb edilməsi istiqaməti üzrə universitet tərəfindən müvafiq informasiya resurslarında tanıtım işinin zəif təşkili, məlumatın müxtəlif dillərdə əlcatanlığının təmin edilməməsi<br>3. Hazırda beynəlxalq reytinqlərdə AzMİU-nun əsasən aşağı yerlərdə qərarlaşmasının qarşısının alınması ilə bağlı kompleks tədbirlər planın mövcud olmaması, bütün maraqlı tərəflərin bu məsələnin müzakirəsinə cəlb edilməməsi |
| **İmkanlar** | 1. Hazırda ölkəmizin beynəlxalq aləmdə imicinin güclənməsi ilə əlaqədar, AzMİU-nın dünyanın nüfuzlu beynəlxalq təhsil şəbəkələri və beynəlxalq təhsil mərkəzləri ilə əməkdaşlıq əlaqələrinin genişləndirmək imkanları. |

| | |
|---|---|
| | 2. Əmək bazarının tələblərinə uyğun ixtisaslar üzrə mütəxəssis hazırlanması məqsədilə dünyanın aparıcı universitetləri ilə ikili diplom proqramlarını ölkəmizdə tələb olunan ixtisaslar üzrə yönəltmək imkanları.<br>3. ATM-dəki alimlərin və xüsusən gənc alimlərin dünyanın aparıcı universitetlərindəki mütəxəssislər-lə birlikdə müxtəlif elmi layihələrdə, o cümlədən Horizon Europe  və digər proqramlarda iştirakı üçün önəmli imkanların mövcudluğu. |
| **Təhdidlər** | 1. ATM-dəki tələbə və akademik heyətin mübadilə dinamikasının kəskin dalğalanmasının səbəbləri-nin universitetdə tam araşdırılmaması, eyni zamanda sahə baxışı zamanı bu səbəblər sırasında tələbə və akademik heyətin xarici dil biliklərinin aşağı səviyyədə olması, xüsusən də elmi termi-nologiyanın xarici dillərdə zəif mənimsənilməsi.<br>2. Mübadilə dinamikasını yüksəltmək üçün yerli və əcnəbi mütəxəssislərin, xüsusən gənc araşdır-maçıların xaricdəki həmkarları ilə birgə beynəlxalq layihələrdə iştirakını stimullaşdıran tədbirlərin (təlimlər, beynəlxalq görüşlər, birgə layihələrdə iştirak) ATM-də zəif həyata keçirilməsi.<br>3. ATM-də mübadilə proqramları üçün namizədlər arasından seçim prosesinin daha şəffaf, inklüziv, gender bərabərliyi şəraitində keçirilməməsi, subyektivlik elementlərinin üstünlük təşkil etməsi.<br>4. Tələbələrin mübadilə proqramları barədə məlumatlılıq dərəcəsinin aşağı səviyyədə olması.<br>5. Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq mexanizminin təkmilləş-dirilməsi ilə bağlı, konkret tədbirlər planının olmaması.<br>6. Beynəlmiləlləşmə prosesində ehtiyacəsaslı təkmilləşdirmə üzrə hər hansı fəaliyyətin həyata keçi-rilməməsi<br>7. ATM-də əcnəbi təhsilalanların təşviq olunma tədbirlərinin hazırlanmasında hazırkı tələbə cəmiy-yətlərinin, o cümlədən əcnəbi tələbələrin birliklərinin və digər maraqlı tərəflərin iştirakını təsdiq edən praktika və ya sənədlərin sahə baxışı zamanı aşkarlanmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. ATM-dəki tələbə və akademik heyətin mübadilə dinamikasının artırılması üçün xarici dil hazırlığı-nın səviyyəsinin artırılması, xüsusən də elmi terminologiyanın xarici dillərdə yaxşı mənimsənilməsi üçün ATM nəzdindəki xarici dil kafedralarında, o cümlədən xarici tərəfdaş universitetlərdə müvafiq təlimlərin təşkili. |

| | |
|---|---|
| | 2. Mübadilə dinamikasını yüksəltmək üçün yerli və əcnəbi mütəxəssislərin, xüsusən gənc araşdırmaçıların xaricdəki həmkarları ilə birgə beynəlxalq layihələrdə iştirakını stimullaşdıran tədbirlərin həyata keçirilməsi, bu istiqamətdə ATM-də müvafiq təlimlərin (məsələn, Horizon Europe üzrə təlimlərin) təşkili.<br>3. Tələbələr arasında mübadilə proqramları barədə məlumatlılıq dərəcəsinin artırılması üçün müvafiq məlumatlandırma sisteminin təkmilləşdirilməsi (məsul şəxslərin istiqamət üzrə müəyyən edilməsi və hesabatlılığı).<br>4. Tələbələrin mübadilə proqamlarına seçim qaydaları reqlamentinin dəqiq müəyyən edilməsi.<br>5. Beynəlmiləlləşmə prosesində ehtiyacəsaslı təkmilləşdirmə üzrə müvafiq fəaliyyətin həyata keçirilməsi məqsədilə sorğuların təşkili, ehtiyacların öyrənilərək qruplaşdırılması, onların ATM-in strukturunda aşağı səviyyədən yuxarıya doğru inklüziv formatda müzakirə prosesdurunun həyata keçirilməsi. |

**Təhsil müəssisəsi  üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi**

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlər olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 9; Keyfiyyət təminatı istiqaməti üzrə 8; Təlim və tədris istiqaməti üzrə 11; Elmi tədqiqat istiqaməti üzrə 7; İdarəetmə istiqaməti üzrə 12; İnfrastruktur istiqaməti üzrə 9; Beynəlmiləlləşmə istiqaməti üzrə 5 tövsiyə olmaqla, ümumilikdə 61 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin AzMİU tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);
- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

Qeyd olunanlardan əlavə Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair aşağıdakı tövsiyələri vardır:

- ATM-lərdə elmi-tədqiqat fəaliyyətini gücləndirmək məqsədilə əmək bazarının tələblərinə hazırlanan müvafiq ixtisaslar üzrə müəssisələri elmi-tədqiqata müyyən vəsaitin ayrılmasına məcbur edən qanunvericilik sənədlərinin hazırlanması.
- Hər hansı fəaliyyət sahəsində müvəffəqiyyət əldə etmiş ATM məzunlarının ATM-ə hər hansı bir yardımın (infrastrukturun, maddi-texniki bazanın təkmilləşdirilməsinə kömək və s.) göstərməsinə qanunvericiliklə şəraitin yaradılması. Məsələn, hər hansı məzunun sahibkar kimi vergi orqanlarına ödədiyi məbləğin vergi orqanina deyil, təhsil aldığı ATM-ə hər hansı laboratoriyanın, istirahət güşəsinin və s. yaradılması məqsədilə köçürülməsi.

Təhsil alan tələbələrin həftədə müəyyən saat işləmək şəraitinin yaradılması üçün rəsmi sənədlərin hazırlanması və müvafiq mexanizmlərin işlənməsi.

## Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, AzMİU-nun müvafiq istiqamətlər üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə “əsasən uyğundur” hesab edilməsi;
- AzMİU-nun 2023/2024-cü tədris ilindən başlayaraq növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi məqsədəuyğun hesab edilir.